# ƏRƏB BAHARI İLLƏRİNDƏ AVROPA DÖVLƏTLƏRİNİN YAXIN ŞƏRQ SİYASƏTİNDƏ İSLAM AMİLİ



Fəridə Allahverdiyeva

**Fəridə Allahverdiyeva**

# ƏRƏB BAHARI İLLƏRİNDƏ AVROPA DÖVLƏTLƏRİNİN YAXIN ŞƏRQ SİYASƏTİNDƏ İSLAM AMİLİ

**DOİ: https://doi.org/10.36719/0856/2026**

**ADİLOĞLU**

**BAKI– 2026**

*Elmi redaktorlar:* **Əsməd Muxtarova**
Bakı Dövlət Universiteti
Türk xalqları tarixi kafedrasının müdiri, professor

**Barış Özdal**
Türkiyə, Bursa Uludağ Universiteti
İİBF "Siyasi tarix" kafedrasının müdiri, professor

*Rəyçilər:* **Nərgiz Axundova**
AMEA İctimai Elmlər Bölməsinin akademik katibi
AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru

**Russell A. Berman**
ABŞ, Stanford Universiteti
Humanitar elmlər üzrə professor,
Huver İnstitutunun baş elmi işçisi

**Sevinc Ruintən**
Bakı Dövlət Universiteti
Türk xalqları tarixi kafedrasının dosenti,
tarix üzrə fəlsəfə doktoru

**Məşdi İsmayılov**
siyasi elmlər üzrə fəlsəfə doktoru

**Monoqrafiya.**
**Fəridə Allahverdiyeva. Ərəb baharı illərində Avropa dövlətlərinin Yaxın Şərq siyasətində İslam amili. Bakı, Adiloğlu, 2026, 204 s.**
**DOİ: https://doi.org/10.36719/0856/2026**

*Hazırki monoqrafiya müəllifin 2018-2024-cü illərdə Bakı Dövlət Universitetinin Tarix fakültəsində "Türk xalqları tarixi" kafedrasının fəlsəfə doktoru proqramı üzrə doktorantı olarkən apardığı araşdırma zamanı hazırlanmışdır. Araşdırmanın nəticəsi olaraq yazılmış dissertasiya 2024-cü ildə uğurla müdafiə edilərək, AR Prezidenti yanında AAK tərəfindən müəllifinə tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilmişdir. Mövzunun haqqında bəhs edilən dövr mütəxəssisləri, həmçinin geniş oxucu auditoriyası üçün maraqlı olacağını nəzərə alaraq, həmin araşdırmanın əsasında monoqrafiya dərc edilməsi məqsədəuyğun hesab edilmişdir. Araşdırmanın daha təkmil versiyada təqdim edilməsi məqsədilə, müdafiə prosesində keçirilən müzakirələr zamanı mütəxəssislər tərəfindən bildirilmiş tövsiyə və qeydlər də nəzərə alınmaqla tədqiqatda müəyyən əlavə və dəyişikliklər edilmişdir.*

© 2026, Fəridə Allahverdiyeva

# MÜNDƏRİCAT


**ÖN SÖZ ƏVƏZİ...................................................................... i-ii**

*Müəllifdən*........................................................................... **5**

**GİRİŞ.................................................................................... 19**

**I FƏSİL. TARİXİ VƏ COĞRAFİ MÜSTƏVİDƏ ƏRƏB BAHARININ NƏZƏRİ-KONSEPTUAL MƏSƏLƏLƏRİ......... 26**

*1.1. Yaxın Şərq və Ərəb baharı fenomeni anlayışları*....................... 26
*1.2. Ərəb baharının coğrafiyası və regionun strateji əhəmiyyəti*....... 37
*1.3. Ərəb baharını şərtləndirən səbəblər*......................................... 55

**II FƏSİL. ƏRƏB BAHARI ÖNCƏSİ YAXIN ŞƏRQDƏKİ MÖVCUD DURUM FONUNDA AVROPANIN APARICI DÖVLƏTLƏRİNİN REGİON SİYASƏTİNDƏ İSLAM AMİLİ................................................................................ 67**

*2.1. Yaxın Şərq dövlətlərinin siyasi sistemində İslamın yeri*............. 67
*2.2. Almaniya, Fransa, İngiltərə və İtaliyanın Yaxın Şərqə yönəlik siyasətində İslam amili*..................................................................... 88

**III FƏSIL. ƏRƏB BAHARI DÖVRÜNDƏ AVROPANIN APARICI DÖVLƏTLƏRİNİN REGİON SİYASƏTİNDƏ İSLAM AMİLİ........................................................................ 103**

*3.1. Ərəb baharının əhatə etdiyi dövlətlərdə dəyişmə (modernləş-mə), demokratikləşmə cəhdləri və İslam*........................................ 103
*3.2. Avropanın aparıcı dövlətlərinin Yaxın Şərq siyasətində İslam amilinə Ərəb baharının təsiri*....................................................... 145

**NƏTİCƏ.................................................................................. 170**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI...................... 176**

**SUMMARY............................................................................ 201**

*“ ...İslam sülh, mərhəmət, dözümlülük və ədalət dinidir ... XXI əsrdə islamofobiya, ksenofobiya və irqçiliyə yer olmamalıdır. Terrorizm və ekstremizmi hər hansı bir din, millət, sivilizasiya və ya etnik qrupla əlaqələndirmək yanlış yanaşmadır. Dindən siyasi məqsədlər üçün istifadə yalnız cəmiyyətlər daxilində nifaq və qarşıdurma yaratmağa xidmət edir. Bu təzahürlər, eyni zamanda, insanlığı humanizm ideallarından və ümumbəşəri dəyərlərdən məhrum edir, nəticədə sivilizasiyalararası münaqişələrə gətirib çıxarır”.*

**Azərbaycan Prezidenti İlham Əliyevin**
**“Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə”**
**mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciəti,**
**08.03.2024**

*“... Din adına “terror” qavramını qəbul etmirik və terrorla dinin adının bərabərləşdirilməsini ən böyük sayğısızlıq hesab edirik... antisemitizm kimi islamofobiyanın da bir insanlıq suçu olduğunu bütün dünya qəbul etməlidir”.*

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın**
**BMT Baş Assambleyasında çıxışından, 24.09.2014**




**15 mart – Beynəlxalq İslamofobiya ilə mübarizə günüdür**

(BMT Baş Assambleyasının 76/254 saylı 15 mart 2022-ci il tarixli qətnaməsi. Mənbə: https://docs.un.org/en/A/RES/76/254)

## ÖN SÖZ ƏVƏZİ

*Zaman daxilində baş verənlər tarix adlanır. Tarix yazılandan sonra çoxlarının ondan xəbəri olur. Hamı hər şeyi görə bilməz, amma oxuyub məlumatlanmaq hər birimizə məxsusdur. Böyük Abbasqulu ağa Bakıxanov yazırdı ki, tarix yazanın ədalətindən asılıdır. Qərb tarixçiləri isə dönə-dönə qeyd edirlər ki, hər yazılan tarixin arxasında mənbə dayanmalıdır. Yoxsa o ədəbiyyat olur.*

*Qarşımda çox maraqlı bir monoqrafiya var. Müəllifi Bakı Dövlət Universitetinin yetirməsi, tarix üzrə fəlsəfə doktoru Fəridə Allahverdiyevadır. Təqdim etdiyi əsər "Ərəb baharı illərində Avropa dövlətlərinin Yaxın Şərq siyasətində İslam amili" adlanır. Gənc tarixçinin ərsəyə gətirdiyi bu əsər dünyanın ağrılı bir probleminə həsr olunmuşdur. Tunisdən başlanan bu hərəkat Ərəb dünyasını silkələdi, Liviya və Suriya kimi dövlətləri yarıcan etdi, bu dövlətlərin gələcək taleyi haqqında qəti fikir söyləməyi mümkünsüz etdi. Müəllif Ərəb baharını tədqiq etməklə kifayətlənməyib, bu illər ərzində Qərb dövlətlərinin Yaxın Şərq siyasətində İslam amilini də tədqiqata cəlb etməyə nail olmuşdur.*

*Girişdə problemin aktuallığı, elmi yeniliyi, öyrənilmə səviyyəsi elmi müstəvidə və müqayisəli metodun köməyi ilə diqqətə çatdırılır, ərəb ölkələrinin fərqli və oxşar cəhətləri tarixi coğrafiya baxımından təhlil edilmişdir.*

*Tarix boyu Yaxın Şərq Avropadan ziyan görmüş və uzun illər onun müstəmləkəsinə çevrilmişdir. Avropa Yaxın Şərqin sərvətlərinə, o cümlədən neftinə və təbii qazına sahib olmaq üçün müstəmləkəçi müharibələr aparmış və yüz minlərlə dinc sakinin ölümünə səbəb olmuşdur.*

*Monoqrafiyanın birinci fəslində ərəb baharının mahiyyəti, coğrafiyası, regionun strateji əhəmiyyəti, problemi şərtləndirən səbəblər məntiqi ardıcıllıqla oxucuya çatdırılır.*

*Monoqrafiyanın ikinci fəsli Yaxın Şərqdə İslam dəyəri və onun ümumdünya siyasətində mövqeyinə həsr olunmuşdur. Orta əsrlərdə Avropanın taleyi xristian dini ilə bağlı olmuşdur. Papalıq və krallıq həmişə düşmən münasibətində olmuşdur. Bu mübarizə yüz illərlə davam etmiş və son nəticədə krallıq Vatikanı üstələyə bilmişdir. Avropalılar*

*İslam ölkələrinə səlib yürüşləri təşkil edərkən xristianlıqdan fərqli düşüncənin şahidi oldular. Ərəb ölkələrində din və dövlət münasibətləri Qərbdən fərqli idi, din dövlətin idarəçiliyinə nəinki, mane olur, əksinə dövlətin güclənməsi üçün şərait yaradırdı. Bu İslami dəyər ərəb baharı dövründə də davam edirdi. Monoqrafiyada bunun səbəbləri dövriyyəyə daxil edilən mənbələr əsasında tədqiq edilmişdir.*

*Monoqrafiyanın üçüncü fəslində Ərəb baharı ölkələrində Avropa dövlətlərinin İslam dini baxımından həyata keçirdiyi siyasət, Avropa maraqları, islami dəyərlər və onların fərqli cəhətləri təhlil edilmişdir. Monoqrafiyada illər boyu Qərbin ərəb ölkələrinə ekspansiyaları və onun ağır nəticələri xronoloji ardıcıllıqla öz əksini tapmışdır.*

*Hər bir monoqrafiyanın uğuru müəllifin problemin həlli ilə bağlı irəli sürdüyü nəticə ilə bağlı olur. Bu mənada, monoqrafiya maraqlı sonluqla başa çatır. Gənc tarixçi Fəridə xanım ilk dəfə Ərəb baharı probleminin uğurlu həlli yolları, Qərb dövlətlərinin bu problemə öz maraqlı baxımından münasibəti, islami dəyərlərin Qərb cəmiyyətində yeri və ona qarşı olan qüvvələrin mövcud vəziyyəti oxucu auditoriyasına ötürülür.*

*Ərəb coğrafiyası Azərbaycandan kənarda yerləşsə də, İslam dini uzun illərdir ki, bizi dəyər baxımından birləşdirir. Azərbaycan İslam dininin dəyərli bir parçası olmaqla yanaşı, din və dövlət münasibətlərinin yaranmasında və inkişafında öz töhfəsini verən dövlətlərdən biri və birincisidir.*

*Mən əminəm ki, gənc tarixçi Fəridə Allahverdiyeva problemin uğurlu həllinə nail olmuş və tələbkar oxucularına maraqlı bir monoqrafiya hədiyyə etmişdir. Mən də Fəridə xanımı təbrik edir, elmi fəaliyyətində uğurlar arzulayıram.*

**Anar İsgəndərov**
**Milli Məclisin Elm və təhsil komitəsinin sədri,**
**tarix elmləri doktoru, professor**

## *Müəllifdən*

Hazırkı araşdırma 2018-2024-cü illərdə Bakı Dövlət Universitetinin Tarix fakültəsində yerinə yetirilmişdir. Qeyd olunmalıdır ki, tədqiqat mövzusu kimi seçilmiş problem bu araşdırmayadək Azərbaycan tarixşünaslığında geniş və hərtərəfli şəkildə tədqiq edilməmişdi. Mövcud araşdırmalar isə əsasən mövzunun ayrı-ayrı aspektlərini əhatə edən azsaylı monoqrafiyalar, elmi məqalələr və tədris-metodik vəsaitlər çərçivəsində təqdim olunmuşdu. Bu baxımdan, təqdim olunan monoqrafiya Azərbaycan tarixşünaslığında mövcud olan elmi boşluğun doldurulmasına xidmət edir və Ərəb baharı illərində Avropa dövlətlərindən İngiltərə, Fransa, Almaniya və İtaliyanın Yaxın Şərq siyasətində İslam amilinin rolunu sistemli, müqayisəli və kompleks şəkildə təhlil edən ilk fundamental tədqiqat işlərindən biri kimi çıxış edir.

Araşdırma zamanı mövzu ilə bağlı Azərbaycan, türk, rus, ingilis, fransız və ərəb dillərində çoxsaylı ilkin mənbələr, ümumiləşdirici tədqiqat əsərləri, monoqrafiyalar, elmi və analitik məqalələr öyrənilmiş və təhlil edilmişdir. Eyni zamanda, internet resurslarından, müxtəlif platformalarda yerləşdirilmiş beynəlxalq təşkilatların rəsmi sənədlərindən və xəbər agentliklərinin materiallarından geniş şəkildə istifadə olunmuşdur.

Tədqiqatın mənbə bazası kimi, Ərəb baharı öncəsində, illərində və sonrasında Avropanın aparıcı dövlətlərinin daxili və xarici siyasətdə İslama institusional yanaşmasını təhlil etmək üçün Avropa dövlətlərinin və Aİ-nın Ərəb dövlətləri ilə əlaqələrinə dair sənədlər, bəyannamələr, dövlət başçılarının İslam və regionla bağlı rəsmi çıxışları, bəyanatlar, dövlətlərin rəsmi nümayəndə heyətlərinin səfərləri və s.; həmçinin Aİ (Avropa Ittifaqı), BMT (Birləşmiş Millətlər Təşkilatı), KƏDƏŞ (Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurası) kimi beynəlxalq və regional strukturların, ABŞ konqresinin rəsmi sənədləri[1], Almaniya, Fransa, İngiltərə və İtaliyanın xarici işlər nazir-

[1] *Chrisafis, A. Sarkozy admits France made mistakes over Tunisia: [Electronic resource] / The Guardian – January 10, 2011; Fischer, J. German Foreign Policy Comes of Age / The New Times, - December 8, 2014; The Muslim Brotherhood's Global Threat / House of Representatives, Subcommittee on National Security, Committee on Oversight and Government Reform. – July 11, 2018 və b.*

liklərinin rəsmi məlumatları[1], Ərəb dövlətlərinin xarici işlər nazirliklərinin rəsmi məlumatları[2], Ərəb dövlətlərinin başçılarının sammitlərinin, iqtisadi sazişlərin mətnləri[3] istifadə edilmişdir.

Tədqiqat zamanı istifadə edilmiş tarixşünaslıq əsərlərini Azərbaycan, türk, ingilis və s. dillərdə yazılmış əsərlər olaraq qruplaşdırmaq mümkündür. Müxtəlif dillərdə nəşr olunmuş kitablardan, monoqrafiya və məqalələrdən istifadə edilməsi və bu əsərlərin öyrənilməsindən aydın olur ki, Avropa tarixşünaslığı ilə müqayisədə, türk və ərəb tarixşünaslığında mövzunun ayrı-ayrı tərəfləri daha geniş şəkildə, fərqli aspektlərdən tədqiq olunmuşdur. Azərbaycanda isə mövzunun elmi-tarixi aspektləri nisbətən az araşdırılmış, əksər hallarda bu tədqiqatlar məqalə, memuar, kitab şəklində meydana çıxmışdır. Qərb tarixşünaslığında isə, Avropa və Yaxın Şərq dövlət rəhbərlərinin xarici siyasət fəaliyyətinin müxtəlif aspektləri siyasi, iqtisadi, psixoloji çərçivədə öyrənilmişdir.

---

[1] *Federal Government of Germany. White Paper 2016: On German Security Policy and the Future of the Bundeswehr / - Berlin: Federal Ministry of Defence, - 2016, - 144 p; Michou, H. The UK in the Middle East: commercial diplomacy to what end? // FRIDE, Policy Brief, - United Kingdom: - 2012, № 118, - p. 1-5; Nicolas Sarkozy: There are too many foreigners in France: [Electronic resource] / The Guardian, - May 16, 2012. URL:www.guardian.co.uk/world/2012/mar/07/nicolas-sarkozy-too-many-foreigners; Menegaux, C. Guéant: La Hausse du Nombre de Musulmans Pose Probléme: [Ressource électronique] / Le Figaro, - 4 Avril, 2011. URL: https://www.lefigaro.fr/politique/2011/04/04/01002-20110404ARTFIG00660-gueant-la-hausse-du-nombre-de-musulmans-pose-probleme.php; Ratka, E. Germany and The Arab Spring-Foreign Policy Between New Activism and Old Habits // German Politics and Society, - United States: - 2012, 30 (2), - p. 59-74.*

[2] *Defiant Gaddafi vows to fight on: [Electronic resource] / Aljazeera, - May 23, 2021. URL:https://www.aljazeera.com/news/africa/2011/02/201122216458913596.html; EU freezes assets of allies of Tunisia's ousted Ben Ali: [Electron recource] / BBC News, - 4 February, 2011. URL: https://www.bbc.com/news/world-africa-12370591*

[3] *Reuter, A. G8 Zirvesi Yoğun Gündemle Başladı: [Elektronik kaynak] / Deutsche Welle Türkçe – Mayıs 26, 2011. URL: http://dw.de/p/11Oe2; Tunisia political crisis deepens after assassination: [Electronic resource] / BBC News, - February 7, 2013. URL: https://www.bbc.com/news/world-africa-21366235; Yemen Country Report, 2021 Country Reports on Human Rights Practices: Yemen: [Electron recource] / Bureau of Democracy, Human Rights, and Labor. - 29 May, 2022. URL: https://www.state.gov/reports/2021-country-reports-on-human-rights-practices/yemen/*

Azərbaycan müəlliflərinin əsərləri arasında ərəb dövlətləri haqqında bir sıra kitab və məqalələrin müəllifi, tarix elmləri doktoru Aidə Bağırova region dövlətlərinin ictimai-siyasi inkişafı sahəsindəki müxtəlif monoqrafiya və silsilə məqalələrində Ərəb baharının region dövlətlərinə, xüsusən Misirə təsirindən, həmçinin BƏƏS partiyasının iqtidarı dönəmi və onun süqutundan sonrakı illərdə İraq və onun ətrafında cərəyan edən proseslər, İraqın xarici siyasətinin əsas mərhələlərini araşdırmış, mövzunun ayrı-ayrı tərəflərini daha geniş şəkildə tədqiq etmişdir[1].

Azərbaycanın tanınmış şərqşünas alimləri, "Ərəb baharı ölkələri"ndə baş verən siyasi çalxalanmalara toxunan Rafiq Bəy İsmayıl, Nərqiz Axundova, Aidə Bağırova tərəfindən 2013-cü ildə Bakı Dövlət Universitetinin Asiya və Afrika ölkələri tarixi kafedrasında hazırlanan "Ərəb ölkələrinin çağdaş tarixi" elmi nəşrində Ərəb dövlətlərində bölgənin ümumi mənzərəsi, sosial-iqtisadi, mədəni-mənəvi durumu, Asiya ərəb dövlətlərinin 1900-2013-cü illəri əhatə edən tarixindən bəhs edilmişdir[2]. Kitabda 2010-cu ilin sonlarından başlayan Ərəb baharının əksər dövlətləri ehtiva etməsi, hər bir dövlətin ümumi və xüsusi cəhətləri ayrılıqda öyrənilir, siyasi və sosial-iqtisadi həyatda baş verən proseslər araşdırılır, bu dövlətlərdə avtoritar rejimlərin əvəzlənməsi, insan hüquq və azadlıqlarının genişlənməsi, bu sahədə hüquqi bazanın yaradılması kimi məsələlərə də toxunulmuşdur.

Azərbaycan tarixşünaslığında mövzunun tədqiqinə diqqət yetirən digər bir müəllif Bakı Dövlət Universitetinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Tariel Abbasovun araşdırmalarında[3] Yaxın Şərq regionu ilə bağlı nisbətən daha geniş məlumatlar əksini tapmışdır.

Ərəb baharı müxtəlif aspektlərdən həmçinin gənc azərbaycanlı tədqiqatçıların da araşdırmalarında da yer almaqdadır. Bu araşdırmaları nəzərdən

---

*[1] Bağırova, A. Ərəb baharı: Gözləntilər və reallıqlar. / - Bakı: Heroqlif, - 2007. - 168s.; yenə onun. İraqın xarici siyasəti (1968-2003). / - Bakı: Adiloğlu, - 2003, - 500 s. və s.*
*[2] İsmayılov, R. Axundova, N., Bağırova, A., Ərəb ölkələrinin çağdaş tarixi: I hissə: Asiyanın ərəb ölkələri, / – Bakı: Xəzər Universiteti nəşriyyatı, – 2013. – 400 s.*
*[3] Abbasov T. XX əsrin sonu - XXI əsrin əvvəllərində ABŞ-ın Yaxın Şərq siyasətinin prioritetləri. Bakı, 2020, 174 s.; yenə onun. Böyük Yaxın Şərqin "demokratikləşməsi"nin nəticələri: Vaşinqtondan baxış. Bakı, 2020, 326 s.; yenə onun. Ключевые направления ближневосточной политики Вашингтона в период президентства Барака Обамы (2009-2017 гг.) // журнал Вопросы истории, Москва, 2023, №10 (1), с.190-197 və b.*

keçirdikdə bir daha aydın olur ki, Ərəb baharına münasibət heç də ilk dövrlərdə iddia edildiyi kimi birmənalı deyil. Məsələn, C.Əlisgəndərli "“Ərəb baharı”: geosiyasi və geoiqtisadi maraqların qarşılıqlı təsiri", "“Ərəb baharı” (analitik baxış). “Ərəb baharı” kontekstində Türkiyə və İran", S.Ruintənlə həmmüəllif olduğu “Türkiyə və İran İslam Respublikası arasında münasibətlərə təsir edən amillər”[1] adlı məqalələrində haqlı olaraq yazır ki, Ərəb baharının başlandığı dövrdə bir çox tədqiqatçılar tərəfindən birmənalı şəkildə demokratiyanın yeni dalğası kimi səciyyələndirilməsinə baxmayaraq, bir qədər sonra həmin hadisələri yaxından izləyən və araşdıran mütəxəssislər yeni bir sual irəli sürdülər: ərəb dünyasında baş verən proseslər həqiqətən demokratiyaya istiqamətlənib, yoxsa bu, yeni diktatorluqlara, avtoritar rejimlərə yol açan saxta demokratikləşmədir?”[2]. Müəllif həmçinin “hadisələrin cərəyan etdiyi bölgələrin dünya dövlətlərinin geosiyasi maraqları dairəsində olması baxımından, hadisələrin gedişinə daxili amillərlə yanaşı xarici amillərində xüsusi təsirinin olduğu” fikrini doğru hesab edir: “... etirazçıların xaricdən siyasi, iqtisadi, informasiya və hərbi vasitələrlə dəstəklənməsi, hakimiyyət çevrilişindən sonra xarici dövlətlərin və onlara məxsus şirkətlərin ölkələrin neft-qaz yataqlarını yenidən bölüşdürməsi məsələləri də xarici amillərin təsiri haqda olan fikirləri təsdiq edir ... 2009-cu ildən haqqında danışıqlara başlanmış, 2011-ci ilin iyulunda İran, İraq və Suriya arasında imzalanmış və "İslam qaz kəməri" adı almış qaz kəmərinin də “Ərəb baharı”nın səbəbləri sırasında adı çəkilir”[3].

Digər bir araşdırmaçı Hülya Məmmədovanın Ərəb baharının demokratiyaya xidmət edib etməməsi ilə bağlı araşdırması nəticəsində gəldiyi qənaət ondan ibarətdir ki, “... xarici dəstək heç də hər zaman demokratiyaya xidmət etmir ... ərəb ölkələrindəki inqilablardan sonra nəinki demokratiya sual altındadır, hətta milli dövlətçiliyin özünə təhlükə yaranmışdır. Hələlik isə Ərəb baharından əsasən, bölgədə təsirini artırmağa çalışan qərb dövlətləri, daha çox

---

[1] *Əlisgəndərli, C. Ərəb baharı: Geosiyasi və geoiqtisadi maraqların qarşılıqlı təsiri / – Bakı: Tarix və onun problemləri. – 2014. №1, – s.263-272; yenə onun. Ərəb baharı (Analitik baxış). “Ərəb baharı” kontekstində Türkiyə və İran, / – Bakı: Tarix və onun problemləri. – 2013. №4, – s.161-169; Ruintən, S., Əlisgəndərli C. Türkiyə və İran İslam Respublikası arasında münasibətlərə təsir edən amillər / Bakı: Tarix və onun problemləri. – 2013. №3, - s.97-109.*

[2] *Əlisgəndərli, C. Ərəb baharı: Geosiyasi və geoiqtisadi maraqların qarşılıqlı təsiri, s.263-272.*

[3] *Yenə orada, s.265-267.*

gəlir qazanmağa çalışan transmilli şirkətlər, Əfqanıstanda və Pakistanda aparılan antiterror fəaliyyətində zərbə alan və öz "baharını" yaşamaq istəyən "əl-Qaidə" yararlanıb. Ərəblər isə hələ də baharın gəlişini gözləyir"[1].

Multikulturalizm və İslamofobiya ilə bağlı araşdırmaların müəllifləri də araşdırmalarında maraqlı nəticələrə gəlirlər. Məsələn, Tərlan Orucova "Qərbi Avropada multikulturalizm və islamofobiyanın qarşılıqlı əlaqəsi" adlı məqaləsində yazır ki, "Aİ-nın ikinci ən böyük dini qrupunu təşkil edən müsəlmanlara qarşı son zamanlar Avropada cəmiyyət həyatının bütün sferalarında – siyasətdə, təhsildə, əmək bazarında, iş yerlərində və s. qərəz, ayrı-seçkilik, təcrid edilmə, zorakılıq halları çoxalmış, ümumilikdə islamofobiya təzahürləri artmışdır"[2].

"Yaxın Şərqdə demokratiya niyə uğursuzluqla nəticələnir: səbəblər və amillər" məqaləsində Nihad Yaqublunun gəldiyi qənaət ondan ibarətdir ki, "... regionda gənc, azyaşlı demokratiyanın böyük sayda olması ilə təhsilin və təhsilliliyin səviyyəsinin aşağı olması faktorları onların manipulyasiya və propaqandalarını daha effektiv edir. Bu səbəbdən, İŞİD, Əl-Qaidə, Əl-Nüsrə kimi radikal dini təşkilatlar öz sıralarına böyük sayda insan cəlb edə bilir. Ancaq bu, həm də regionda hakim olan İslam dinində proqressiv və liberal islahatların olmaması ilə bağlıdır"[3]. Sonuncu fikirlə müəyyən məqamlarda razılaşmamaq olsa da -İslam dinində kifayət qədər proqressiv ideyalar mövcuddur-, əsasən doğru qənaət olduğu hesab etmək olar.

Mövzunun tədqiqi prosesində azərbaycanlı tarixçi Məmmədağa Baxışovun tədris-metodik yönümlü kitabları[4], xüsusən də, "Almaniyanın yeni və

---

[1] *Məmmədli, H. Bir daha "Ərəb baharı" haqqında. / : [Elektron resurs] / NewTimes, Analytical İnformation, - Dekabr 12, 2012. URL: http://newtimes.az/az/relations/1188*

[2] *Orucova, T. Qərbi Avropada multikulturalizm və islamofobiyanın qarşılıqlı əlaqəsi. / : [Elektron resurs] Geostrategiya, -Aprel 4, 2021. URL: https://www.geostrategiya.az/news.php?id=144*

[3] *Yaqublu, N. Yaxın Şərqdə demokratiya niyə uğursuzluqla nəticələnir: səbəblər və amillər. : [Elektron resurs] / Geostrategiya, - Dekabr 16, 2020. URL: https://www.geostrategiya.az/news.php?id=109*

[4] *Baxışov, M.Ə. Amerika Birləşmiş Ştatlarının xarici siyasəti (1776-2016). / – Bakı: ATU-nun mətbəəsi, -2017, -186 s.; yenə onun. İtaliyanın yeni və müasir tarixi. / – Bakı: 3 saylı Bakı Mətbəəsi ASC, -2018, -119 s.; yenə onun. Fransanın yeni tarixi dərs vəsaiti, Bakı: Şirvannəşr, 2013.- 100 s.; yenə onun. Almaniyanın yeni tarixi. Dərs vəsaiti. / – Bakı: Şirvannəşr, 2008.- 104 s.; yenə onun. Almaniyanın yeni və müasir tarixi. Dərs vəsaiti. / - Bakı: AzTU, 2014, -149 s.*

müasir tarixi" adlı dərs vəsaiti Almaniyanın xarici siyasət məsələlərinin düzgün anlaşılması baxımından əhəmiyyətlidir. Məsələn, "AFR 1949-2014-cü illərdə" adlı II fəslində bir çox digər məsələlərlə yanaşı, araşdırmanın xronoloji çərçivəsini təşkil edən illərdə Almaniyanın həmçinin xarici siyasət məsələləri də nəzərdən keçirilir. Xüsusilə, Almaniyanın 1980-1990-cı illərdə "Yaxın Şərq münaqişəsi ilə bağlı balanslı siyasət" həyata keçirdiyi[1]; 2000-ci illərdə isə Angela Merkelin "hər kəsə, ilk növbədə isə Şərqdən gələn mühacirlərə inanmsız yanaşması"[2] ilə bağlı məlumatlar verilir.

Yaxın Şərq regionunun coğrafi baxımından müəyyənləşdirilməsində Həbibə Soltanova və Cabir Məmmədovun "Yaxın və Orta Şərq ölkələrinin iqtisadi və sosial coğrafiyası" adlı kitabı da əhəmiyyətli olmuşdur[3].

Mövzunun araşdırılması prosesində, Ərəb baharı illərində Avropanın Yaxın Şərq siyasəti ilə bağlı *Türkiyə tarixşünaslığında* mövcud olan bir sıra araşdırma və tədqiqatlardan da geniş istifadə edilmişdir. Mövzu ilə bağlı Türkiyədə İslamın siyasi dinamikası, İslam dünyasında siyasi dəyişikliklər və siyasi münaqişələr üzrə ixtisaslaşmış sosioloq Asəf Hüseyin 2017-ci ildə yazdığı "Batının İslamla kavgası" adlı kitabında Qərbdəki anti-islam ənənəsinin cərəyanlarını, formalarını və məzmununu, Qərb dövlətlərinin İslama baxışını tədqiq və təhlil etmişdir[4]. Mustafa Özcanın 2017-ci ildə yazdığı "Arap Baharı ve Sonrası İslami Hareketler yol ayrımında" kitabında Ərəb baharı ilə birgə, İslami hərəkatlar da tədqiq olunmuşdur[5]. Turan Kışlakçı "Arap Baharı" kitabında[6] Ərəb dünyasında yeni bir siyasət erasının başlandığını, hadisələrin başlama səbəblərini və sonrasında yaranan siyasi mənzərənin təhlilini vermişdir. Eyni zamanda Aydın Cıngının "Ortadoğunun öfkesi ve Batıda ırkçılık" kitabından[7] da Avropanın Yaxın Şərqə yönəlmiş irqçi, ayrımcı siyasətini araşdırmaq və təhlili üçün istifadə edilmişdir.

---

[1] *Baxışov, M.Ə. Almaniyanın yeni və müasir tarixi, s.127.*

[2] *Yenə orada, s.140.*

[3] *Soltanova, H., Məmmədov, C; rəyç. Ç. N. İsmayılov, N. Paşayev. "Yaxın və Orta Şərq ölkələrinin iqtisadi və sosial coğrafiyası", / – Bakı: Bakı Universiteti, -2008. -303 s.*

[4] *Hüseyin, A. Batının İslamla Kavgası / - İstanbul: Pınar Yayınları, -2017. -144s.*

[5] *Özcan, M. Arap Baharı ve Sonrası İslami Hareketler Yol Ayrımında / - Konya: Çizgi kitapevi, - 2017, - 166 s.*

[6] *Kışlakçı, T. Arap Baharı / – İstanbul: İlimyurdu yayıncılık, – 2013. – 248 s.*

[7] *Cıngı, A. Ortadoğunun öfkesi ve Batıda ırkçılık; Arap Baharı - Avrupa Sağı-Etkileşimler / - İstanbul: Kalkedon Yayınları, - 2011, - 112 s.*

Mövzunun tədqiqi prosesində həmçinin *Qərb müəlliflərinin* əsərlərindən də istifadə edilmiş, geniş və çoxplanlı ədəbiyyat ilə bütövlükdə Avropa, Amerika, Yaxın Şərq regionları mövzu əhatəsində, xüsusən də dünyanın aparıcı dövlətlərinin siyasətlərini təhlil edən və müxtəlif istiqamətlərini ehtiva edən əsərlərdən ibarətdir. Akademik və siyasi xarakter daşıyan bu əsərlər, Qərbin Şərqə yönəlmiş siyasətini, bundan başqa İslamın Ərəb baharı kontekstində hadisələrə təsirini əhatə etməkdədir. B.Lyuis, M.S.Kramer, A.Teril, L.Anderson kitablarında və məqalələrində[1], Avropa dövlətlərinin Yaxın Şərqdə yürütdüyü siyasət, Ərəb baharı hadisələrinin yaranmasına səbəb hadisələri, Qərbin xarici siyasətində İslam amili və Avropa dövlətlərinin Ərəb baharı perspektivləri təhlil olunmuşdur.

Tədqiqat zamanı *Rusiya müəlliflərindən* V.A.Sadovniçij, A.A.Akayev, A.V.Korotayev, S.Y.U.Malko, M.V.Sapronova, M.J.Şumaxer, K.M. Truvcev və digərlərinin əsərləri də[2] Yaxın Şərq dövlətlərindəki mövcud siyasi durumu, ictimai vəziyyəti araşdırıb təhlil etmək baxımından olduqca əhəmiyyətli olmuşdur.

Eyni dövrə aid çoxsayılı əsərləri və kitabları olan iranlı alim Prof. Həmid Dabaşi 2015-ci ildə yazdığı "Arap baharı. Postkolonyalizmin sonu" adlı kitabında, Mərakeşdən İrana, Suriyadan Yəmənə qədər uzanan üsyanların hərəkətverici qüvvəsi kimi, gecikmiş üsyan anlayışını göstərərək, Yaxın

---

[1] *Anderson, L. Demystifying the Arab Spring- Parsing the Differences Between Tunisia, Egypt and Libya / Foreign Affairs, - Canada: -2011, 90(3), – p.2-7; Terrill, A. Arab Threat Perceptions and the Future of the U.S. Military Presence in the Middle East / - Strategic Studies Institute (U.S.): Department of the Army, - 2016, - 120 p.; Kramer, M. Physik als Abenteuer: Band II: Wärmelehre und Mechanik / -Hamburg: Kallmeyer, -2016, - 271 b..; Lewis, B. The Middle East. 2000 Years Of History From The Rise Of Christianity to the Present Day. / - New York: Orion Publishing Co- 2019, - 448 p.*

[2] *Садовничий, В.А., Акаев, А.А., Коротаев, А.В., Малков, С.Ю., Моделирование и прогнозирование мировой динамики. / -Москва: ИСПИ РАН. – 2012. –359 с.; Сапронова, М.В. Становление новой государственности на Арабском Востоке. Международные процессы. // Том 13. - Москва: - 2015. 3(42), - с. 26–39; Труевцев К.М. Жасминовая революция в Тунисе. // Системный мониторинг глобальных и региональных рисков. – 2013. 4(1), - с.365-386; Шумахер, М.Дж. Шредер, П.Дж., Способствует ли внутриполитическая нестабильность терроризму? Global Evidence эпохи арабской весны (2011–2014 гг.). // Studies in Conflict and Terrorism, - Chicago: – 2021. 44 (1), - с. 44-72.*

Şərqlə bağlı yeni düşüncə formalaşdırmışdır[1].

Tədqiqat zamanı Ərəb baharı hadisələrinin başlanğıc nöqtəsi sayılan Tunisdən Misir və Liviyaya sıçraması, Ərəb dövlətlərində demokratikləşmə uğrunda cəhdlər yeni siyasi partiyaların yaranmasına, siyasi ideologiyalar və ictimai hərəkətlar nəzdində, yenidən formalaşan ərəb millətçiliyinin şərhinə də ehtiyac yaratmışdır. Amerikalı politoloq, Kornell Universitetinin professoru B.R.O'Qorman Anderson millət anlayışını "xəyali icma" kimi təyin etməsi ilə məşhurdur. Ərəb millətçiliyi ilə bağlı araşdırma zamanı Anderson "Xəyali icmalar" kitabında[2] millətçi hərəkata səbəb olan amilləri sadalayarkən, regiona və ərəb üsyanlarına yönəlik baxışların dəyişməsini izləməyə imkan vermişdir. Bundan başqa, Norman Danielin "İslam və Qərb" əsəri, Qərbdə İslam obrazının tarixi prosesindən obyektiv yanaşma ilə bəhs edən nadir kitablardandır[3].

Mövzunun araşdırılmasında, demokratik dəyərlər və İslami təlimlər kontekstində, ərəb mütəfəkkirlərdən Əbül-Əla Məvdudi, Əbdülkərim Suruş, Tunisin Əl-Nahda partiyasının qurucusu Rəşid Əl-Qannuşi, amerikalı tarixçi Bernard Lyuis, Martin S.Kramerin çıxışı, açıqlama, məqalə və tezislərindən də istifadə olunmuşdur[4]. Xüsusən, demokratiya ilə uzlaşan fikir adamları ilə yanaşı, demokratiyaya qarşı olan görüş nümayəndələrinin fikirləri qarşılaşdırılmış, XX əsr ərəb mütəfəkkirlərinin fikirləri, Avropa və Amerika əsilli tarixçi, siyasətçi, oryantalist fikir nümayəndələrinin və analitiklərin fikirləri ilə birlikdə, təhlil və tənqid edilmişdir. Əsasən, ərəb əsilli mütəfəkkirlərin İslam və siyasət mövzusunda fikirlərini təhlil edərkən, Seyyid Qütbün "İslamçılıq" ilə bağlı İslamı siyasi nizamın mərkəzinə qoymağa çalışan bir diskurs olaraq görməsi[5], siyasi gələcəklərini İslamda görən, demokratiya qarşı görüşləri, Rəşid Əl-Qannuşinin Müsəlman Qardaşlar kimi İslami hərəkatların idarəçiliyindən təsirlənərək, İslamı demokratiyanın özü hesab edərək demokratiya ilə

---

*[1] Dabaşi, H. Arap Baharı: Postkolonyalizmin Sonu (çev., Eser, A.T.) / - İstanbul: Sümer Yayıncılık, - 2015. – 350 s.*

*[2] Anderson, B. Hayali Cemaatler. Milliyetçiliğin Kökenleri ve Yayılması, çev. İskender Savaşır / – İstanbul: Metis Yayınları, -2020, - 227 s.*

*[3] Daniel, N. Islam and the West: The Making of an Image / - England: Oxford, Oneworld Publications, - 2009, - 472s.*

*[4] Süruş, A. Maksimum ve Minimum Din / - Ankara: Fecir Yayınları, 2002, - 176 s.; Dawood, S.M. Rashid al-Ghannushi: A Key Muslim Thinker of the 21st Century / - Singapore: Springer Verlag, -2018, - 128 p.*

*[5] Seyyid, K. Din Budur / - İstanbul: Beka Yayıncılık, -2015, - 111 s.*

uzlaşan fikirlər, ərəb dünyasının aktual problemlərinin həlli yollarının öyrənilməsində istifadə edilən vasitələr kimi əks olunmuşdur. Əl-Nahda rəhbərliyi 20-22 may 2016-cı ildə keçirdikləri fövqəladə X qurultayda "Siyasi İslam" anlayışı yerinə "demokratik müsəlman" anlayışından istifadə etmişlər[1].

Araşdırmanın xronoloji çərçivəsini Ərəb baharı illəri təşkil edir. Lakin Avropa dövlətləri ilə Ərəb dövlətləri arasında xarici siyasət və İslam amilini təhlil edərkən Ərəb baharı hadisələrinin başlandığı 2010-cu ilin dekabrından 2011-ci ilin oktyabrına qədərki dövr əsas alınsa da, Ərəb baharını indiyə qədər tam bitmiş hesab etmək olmaz. Ərəb baharı Yaxın Şərq xalqlarına demokratiya və azadlıqlar vəd etsə də, mövcud durumda bunların heç birini tam mənada nəticələndirə bilmədi. Hesab edirik ki, Ərəb baharını qəti şəkildə bitmiş və uğursuz adlandırmaqdansa, "hazırda uğursuz" kimi adlandırmaq daha doğru təhlildir. Digər tərəfdən, proseslərin mahiyyətinin daha yaxşı aydınlaşdırılması, həmçinin Avropanın aparıcı dövlətlərinin xarici siyasətində İslam amilinin bu qədər qabarıq şəkildə meydana çıxmasını düzgün başa düşülməsi üçün əvvəlki dövrlərdə baş vermiş hadisələrə toxunulmuşdur. Həmçinin, 2001-ci il 11 sentyabr terror hücumlarından sonra Avropa və ABŞ-da "terrorla mübarizə" kampaniyası dövründə xüsusilə güclənmiş İslamofobiya "müzakirələrinə" də diqqət yetirilmişdir.

Tədqiqatın obyektini Avropanın aparıcı dövlətləri Almaniya, Fransa, İngiltərə və İtaliyanın Yaxın Şərq siyasətində İslam amili, predmetini isə adı çəkilən dövlətlərin Ərəb baharı illərində Yaxın Şərq siyasətində İslam amili təşkil edir. Yəni, Almaniya, Fransa, İngiltərə və İtaliyanın Yaxın Şərq siyasətində İslam amilinin xarakterik xüsusiyyətləri; İslamafobiyanın Avropa dövlətlərinin daxili və xarici siyasətində yeri; Ərəb baharı hadisələrinin siyasi İslama təsiri prosesi; tədqiq olunan dövrdə Avropanın aparıcı dövlətlərinin ikitərəfli və çoxtərəfli əlaqələrinin tənzimlənməsində İslam amilinin yeri və rolu, Yaxın Şərq dövlətləri ilə əlaqələrin dinamikası.

Tədqiqatın əsas məqsədi mənbə və ədəbiyyatın obyektiv təhlili əsasında göstərilən dövrdə, Avropanın aparıcı dövlətlərindən Almaniya, Fransa, İngiltərə və İtaliyanın Yaxın Şərq siyasətində İslam amilinin araşdırılmasından ibarətdir. Bundan irəli gələrək, araşdırmada məqsədə nail olmaq üçün qarşıya aşağıdakı konkret vəzifələr qoyulmuşdur:

---

[1] *Ghannouchi, R. From Political Islam to Muslim Democracy The Ennahda Party and the Future of Tunisia: [Electronic resource] / URL: https://www.foreignaffairs.com/tunisia/political-islam-muslim-democracy-ennahda*

- Problemə dair müxtəlif dillərdə olan ən mötəbər mənbə və ədəbiyyatı toplamaq, öyrənmək, sistemləşdirmək və təhlil etmək;

- Ərəb baharı dövründə Yaxın Şərq bölgəsi uğrunda Avropa dövlətlərinin maraqlarını müəyyənləşdirmək;

- Ərəb baharı illərində islamçı hərəkatların və müsəlmanların, Avropanın xarici siyasətinə təsirini tədqiq etmək;

- Avropa dövlətlərində, o cümlədən dünyada İslama qarşı təşkilatlanma mərkəzlərinin və İslamofobiya cərəyanının coğrafiyasını müəyyənləşdirmək;

- Üsyanlar dövründə islamçı hərəkatlar və qruplaşmalar tərəfindən ələ keçirilmiş bölgələrin ümumi idarəçilik sistemi və ayrı-ayrı vəziyyətini müqayisəli təhlil etmək;

- Ərəb baharı inqilabları dövründə uğursuz dəyişikliklər və yeni münaqişələri tarixi mənbələrin faktları əsasında öyrənmək;

- O dövrdə Yaxın Şərqdə və Şimali Afrikada fəaliyyət göstərən ictimai-siyasi təşkilatların və cəmiyyətlərin, Siyasi İslamla bağlı həyata keçirdikləri fəaliyyəti tədqiq etmək;

- Avropa dövlətlərinin öz ərazilərində və digər bölgələrdə, qaçqınlara və qanunsuz immiqrantlara qarşı həyata keçirdiyi tədbirləri araşdırmaq;

- Avropa dövlətlərinin Ərəb üsyanları dövründə Yaxın Şərqə İslama siyasi və iqtisadi tərəfdən yanaşmasını müəyyənləşdirmək;

- Siyasi İslam və demokratiya ilə bağlı Avropada o dövrdə fəaliyyət göstərən mətbuat orqanların informasiyalarını, məqalə və xəbərləri tarixi-faktoloji konteksdə təhlil etmək;

- Ərəb baharından sonrakı dövrdə regionla bağlı beynəlxalq hüquqi prosesləri, müzakirələri, çoxtərəfli və ikitərəfli müqavilələrin dövlətlərə dair maddələrini təhlil etmək və razılaşmaların həyata keçirilmə prosesini öyrənmək;

- Həm inqilab illərində, həm də inqilabdan sonrakı ilk illərdə cərəyan edən ictimai-siyasi proseslərin Avropadakı müsəlman əhaliyə təsirlərini müəyyənləşdirmək;

- Müsəlmanların demokratiya mübarizəsində iştirakını tədqiq etmək;

- Avropa dövlətlərinin Ərəb baharı dövründəki siyasətlərinə aydınlıq gətirmək üçün hadisələrin tarixi aspektinə nəzər salmaq;

- Avropada İslamla bağlı görülən tədbirlərin, Ərəb dövlətlərindəki mübarizənin nəticəsinə təsirlərini aydınlaşdırmaq;

- Avropanın aparıcı dövlətlərinin və rəsmi təşkilatlarının İslam və Yaxın Şərqlə bağlı fəaliyyətlərini təhlil etmək;

- Avropanın tədqiqat dövründəki ictimai-siyasi və sosial-iqtisadi həyatını, araşdırma və faktlar əsasında tədqiq və təhlil etmək.

Təqdim olunan və tədqiqata cəlb edilmiş ilkin mənbələrin materiallarının və tədqiqatlardakı faktların, ümumiləşdirmələrin, mülahizələrin, ədəbiyyatın kompleks tənqidi və müqayisəli təhlilinə söykənən obyektiv tarixi yanaşma araşdırmanın metodoloji əsasını təşkil etmişdir.

Tədqiqat işinin aparılması zamanı, tarixi və siyasi yanaşmanın sintezini özündə ehtiva edən bu araşdırmanın ümumi tarix metodlarından, o cümlədən müqayisəli təhlil, tənqidi təhlil, sistemi analiz, statistik metodlardan istifadə olunmaqla sahələrarası xarakter daşıdığı qeyd edilməlidir. Araşdırma işinin təməlində əsas elmi prinsiplərdən, ictimai-siyasi analizin obyektivliyi və hadisələrin müasir tarixi inkişaf dinamikasında aktuallığını və obyektiv rolunu nəzərə alaraq, tədqiqat prosesinin təməlində tarixilik prinsipinin dayandığını demək olar. Avropanın aparıcı dövlətlərinin Yaxın Şərqə yönəldilmiş xarici siyasət konsepsiyalarını müqayisəli təhlil metodu, onların dəyişən tarixi kontekstdə göstərilməsinə, bu konsepsiyaların dəyişmələrinin İslam ilə bağlı səbəblərinin effektivliyi və davamlılığının izah edilməsinə yönəldilmişdir.

Tədqiqatın nəzəri-metedoloji bazası araşdırılan problemlərin tarixi inkişafın müxtəlif mərhələlərində inkişaf və xüsusiyyətlərini izləməyə imkan yaradan xronoloji prinsipə əsaslanır. Sistemli və müqayisəli təhlil metodu dəyişən vəziyyətdə Avropanın öndə gələn dövlətlərinin xarici siyasətinin, onların əsas element və istiqamətini, Yaxın Şərqlə qarşılıqlı əlaqələrinin İslam çərçivəsində məntiqini üzə çıxarmağa, mövcud faktları xronoloji ardıcıllıqla izah etməyə imkan yaradır. Avropanın xarici siyasət kursunda İslamın qlobal və Yaxın Şərqdə regional əhəmiyyətə malik coxprofilli sistem kimi öyrənilməsi, kompleks təhlilin vacibliyini müəyyən etmiş, bu da öz növbəsində dəyişən dünya sistemində Avropa dövlətlərinin Yaxın Şərqə yönəldilmiş xarici siyasətinin, daxili və xarici amillərlə İslama şərtlənmiş özəlliklərinin daha aydın və geniş mənzərəsini yaratmışdır.

Tədqiqat işində aşağıdakı müddəalar irəli sürülmüş və əsaslandırılmasına cəhd edilmişdir:

1. Ümumilikdə dünyanın, o cümlədən Avropanın aparıcı dövlətlərinin xarici siyasətlərində İslam amilinin kəskin şəkildə özünü göstərməsi 11 sentyabr 2001-ci il terror hücumlarının nəticəsində baş vermiş, hətta Ərəb baharının özü də bu prosesin bir hissəsi olaraq meydana çıxmışdır;

2. Ərəb baharının baş verməsində geosiyasi amillərin təsiri əsas rol oynamış, daxili səbəblər isə xarici təsirlərin təhriki ilə yaranan hadisələr üçün münbit zəmin təşkil etmişdir;

3. Ərəb baharı nəticəsində miqrasiya hərəkətlərinin artması, Avropanın aparıcı dövlətlərinin xarici siyasətində İslam amilinin daha ön plana çıxmasına səbəb olmuşdur;

4. Avropa dövlətləri hədəflərinin "avtoritar rejimlərin demokratik rejimlərlə əvəz edilməsi" olduğunu bildirərkən, həmin dövrdə əsas məqsəd olaraq bölgədə öz Şərq sərhədlərinin təhlükəsizliyini təmin etmək və aralarında apardıqları güc yarışında üstün mövqe əldə etmək üçün strateji məntəqələrə diqqət yetirmişlər;

5. Ərəb baharının əhatə etdiyi döllətlərə münasibətdə Avropanın aparıcı dövlətləri, baş verən demokratik dəyişiklikləri dəstəklədiklərini bildirsələr də, əslində siyasətləri bu ölkələrdə daha çox xaos və dağıntıya səbəb olmuşdur;

6. Tədqiq olunan dövrdə Avropanın aparıcı dövlətlərinin Yaxın Şərq siyasəti, ümumilikdə böyük güclər arasında nüfuz uğrunda mübarizənin bir hissəsi olaraq, dövrün tələblərinə uyğun yeni xüsusiyyətlər nəzərə alınmaqla formalaşmışdır;

7. Tarixən olduğu kimi, günümüzdə də aparıcı dövlətlərin xarici siyasətində İslam amili və islamofobiyanın təbliği geosiyasi mübarizənin bir forması kimi istifadə edilməkdədir;

8. Avropanın aparıcı dövlətləri və beynəlxalq media qurumları Ərəb baharı proseslərini işıqlandırarkən, məlumatların təqdimatında geosiyasi maraqlarını ön plana çıxarmış, ictimai rəy və siyasi qərarlara təsir göstərmişlər;

9. Ərəb baharı və ondan sonrakı dövrdə ortaya çıxan siyasi boşluq və xaos, beynəlxalq terror qrupları üçün münbit şərait yaratmış, Avropanın təhlükəsizlik siyasətini daha çox anti-terror çərçivəsində formalaşdırmağa məcbur etmişdir;

10. Bölgədəki neft, qaz və digər strateji resurslar Avropanın xarici siyasətinin əsas amili olmuş, bəzi siyasət qərarları bu iqtisadi maraqlara görə yönləndirilmişdir;

11. Avropa dövlətləri regiondakı təsirini yalnız hərbi və siyasi vasitələrlə deyil, həm də mədəni diplomatiya, təhsil proqramları və humanitar yardımlarla genişləndirməyə çalışmışlar.

Tədqiqat zamanı mövzuya dair ilkin mənbələr, o cümlədən geniş tarixi ədəbiyyat ətraflı araşdırılaraq aşağıdakı elmi yeniliklər əldə edilmişdir:

- Tədqiqat beynəlxalq və regional münasibətlər kontekstində, Ərəb baharı hadisələrinin baş verdiyi dövr əsas alınaraq, Avropanın aparıcı dövləri olan, Almaniya, Fransa, İngiltərə və İtaliyanın Yaxın Şərq siyasətində İslam amilini kompleks şəkildə araşdıran ilk tədqiqat işidir;
- Mənbə və ədəbiyyatın hərtərəfli, tənqidi və obyektiv təhlili əsasında, Avropa dövlətlərinin Yaxın Şərqə yönəlik siyasətinin müxtəlif dövrlərində hakim olan İslama baxış forması, strategiya və taktikası araşdırılıb, Qərb dövlətlərinin ikitərəfli və çoxtərəfli əlaqələrinin xarakterik xüsusiyyətlərində İslamın yeri, inkişaf dinamikası və təkamülü üzə çıxarılmışdır;
- Yaxın Şərq dövlətlərinin iqtidar sistemi nümunəsində, Ərəb baharı hadisələri baş verən illərdə, Yaxın Şərqdəki ictimai hərəkatlar və siyasi İslam əsasında formalaşan demokratik çıxışlar, Avropanın xarici siyasəti və Yaxın Şərqə yanaşması nöqteyi-nəzərindən təhlil edilmişdir;
- Ərəb baharının şiddətli yaşandığı ölkələrdə mədəni sərhədlər daxilində, etnik, dini və məzhəb fərqlilikləri təhlil edilmişdir;
- Avropa dövlətlərinin regional problemlərin həllində İslamın din və siyasi yanaşma prinsipləri əsasında başlıca xüsusiyyətləri araşdırılmışdır;
- Almaniya, Fransa, İngiltərə və İtaliyanın xarici siyasət konsepsiyalarının İslama münasibətdə təkamülünün sosial mahiyyəti açılmış, Yaxın Şərq və müsəlman cəmiyyətlərdə lider dövlətə, regional güc mərkəzinə çevrilmək uğrunda apardığı mübarizə, geosiyasi və regional proseslərin fonunda təqdim edilmişdir;
- Ərəb baharı hadisələrinin və daxili amillərin Avropanın İslama baxış mövqeyinin formalaşmasına təsiri araşdırılmışdır;

Tədqaiqatın başlıca müddəaları və elmi nəticələri nəzəri və praktiki əhəmiyyət daşıyır. Tədqiqat işində əldə edilən yekun elmi nəticələr Ərəb baharı hadisələri dövründə və üsyanlardan sonrakı illərdə Avropanın aparıcı dövlətləri olan Almaniya, İngiltərə, Fransa, İtaliyanın Yaxın Şərq siyasəti çərçivəsində İslama münasibəti ilə bağlı tədqiqat işlərinin aparılmasında və ümumiləşdirilmiş əsərlərin yazılmasında istifadə oluna bilər. Bundan əlavə, irəli sürülən praktik təkliflər nəticəsində, sosioloji kontekstdə həll olunmağa

çalışılan dini ideologiyalar və Qərbin yanaşmasına əsasən siyasi İslam mövzusu öz aktuallığını və davamlılığını qoruduğu üçün maraqlı və diqqətçəkən bir mövzuya çevrilmişdir.

Hazırki tədqiqat yerinə yetirilərkən irəli sürülən əsas müddəalar ayrıl-ayrılıqda məqalə və tezislər şəklində müxtəlif elmi jurnallarda nəşr etdirilmiş, mövzuya dair müxtəlif sövlətlərdə keçirilən simpozium və konfranslarda məruzələr edilmişdir.

Beləliklə, aparılan tədqiqat müasir beynəlxalq münasibətlər sistemində İslam amilinin Avropa dövlətlərinin Yaxın Şərq siyasətində oynadığı rolun kompleks və sistemli şəkildə dəyərləndirilməsinə imkan yaratmışdır. Əldə edilmiş elmi nəticələr mövzunun nəzəri-konseptual çərçivəsinin zənginləşdirilməsinə xidmət etməklə yanaşı, gələcək tədqiqatlar üçün metodoloji baza formalaşdırır və müqayisəli siyasi təhlillər baxımından yeni istiqamətlər müəyyən edir. Bu baxımdan, monoqrafiya həm Azərbaycan tarixşünaslığında, həm də müasir beynəlxalq münasibətlər üzrə elmi araşdırmalar sistemində özünəməxsus yer tutur və mövzunun davamlı elmi aktualığını əsaslandırır.

Son olaraq, monoqrafiyanın hazırlanması prosesində göstərdikləri dəyərli dəstək və məsləhətlərə görə elmi rəhbərim və elmi redaktorlarım Bakı Dövlət Universitetinin professoru Əsməd xanım Muxtarovaya və Bursa Uludağ Universitetinin professoru Barış Özdala, rəyçilərim AMEA-nın həqiqi üzvü Nərgiz xanım Axundovaya, Stanford Universitetinin professoru Russell A.Bermana, monoqrafiyaya ön söz yazan Bakı Dövlət Universitetinin professoru, Milli Məclisin Elm və Təhsil komitəsinin sədri Anar İsgəndərova və xüsusilə də, elmi fəaliyyətimdə mənəvi dayaq və dəstək olmaqla mənə daim inam və ruh verən Sevinc Ruintən və Məşdi İsmayılova dərin təşəkkürümü bildirirəm.

***Tarix üzrə fəlsəfə doktoru***
***Fəridə Allahverdiyeva***
***21 fevral 2026-cı il.***

# GİRİŞ

Aktuallığı ilə fərqlənən tədqiqat işində Avropanın böyük dövlətləri Almaniya, Fransa, İngiltərə və İtaliyanın Yaxın Şərqə yönəlik siyasətində İslam amilinin öyrənilməsi əsas götürülmüşdür. Avropanın aparıcı dövlətləri sayılan bu ölkələr, həm ayrı-ayrılıqda, həm də Avropa İttifaqının (Aİ) tərkib hissəsi olaraq (mövzunun əhatə etdiyi dövrdə İngiltərə də daxil idi), müasir dünya siyasətinə yön verəcək potensiala sahib güc mərkəzləridir. XX əsrin 90-cı illərində Soyuq müharibə dövrünün başa çatması dünya dövlətlərində müxtəlif siyasi, iqtisadi sistemlərin və onların nümayəndələrindən ibarət təşkilatların yaranmasına səbəb oldu. Təhlükəsizlik anlayışının daxili təhdidlərlə yanaşı xarici təhdidləri də əhatə edəcək şəkildə genişləndirilməsi və xüsusilə 11 sentyabr 2001 terror hücumlarından sonra bəzi siyasi və akademik diskurslarda İslamın terrorizm ilə əlaqələndirilməsi tendensiyası, bu ölkələrin, xüsusilə Yaxın Şərqə yönəlik xarici siyasətinin izah edilməsində istifadə olunan mühüm yanaşmalardan biri olmuşdur[1]. Bu hal, Soyuq müharibə dövrü ilə müqayisədə 2001-ci il 11 sentyabr terror hücumları və Ərəb baharı hadisələrindən sonra daha da mürəkkəbləşir. Avropa dövlətlərinin xüsusən də Yaxın Şərq regionuna münasibətdə xarici siyasəti, təhlükəsizlik fəaliyyətləri daha çox din kontekstində öyrənilməyə başlanır.

Avropanın aparıcı dövlətləri arasında olan Almaniya zəngin mədəni tarixə malik, dünyada ABŞ-dan sonra ikinci ən çox miqrant qəbul edən, Aİ dövlətlər arasında 83 milyon insanla, ən çox əhalisi olan dövlətlər sırasında birinci yerdədir. Dünyanın aparıcı dövlətləri sırasında olması, onu iqtisadi gücündən istifadə etməyə daha çox meyilli edir. Almaniya ümumilikdə Yaxın Şərq dövlətləri ilə ikitərəfli münasibət-

---

*[1] Palta, M., Özdal, B. Kopenhag Okulu'nun Güvenlik Anlayışı Bağlamında Soğuk Savaş Sonrası Dönemde Balkanların Güvenliğinin Analizi // Kırşehir Ahi Evran Üniversitesi İİBF Dergisi, Cilt 4, Sayı 2, Aralık 2020, s.249-269.*

lərində müəyyən çətinliklərlə üzləşsə də, Aİ üzvü olaraq səylərini davam etdirir.

Kapitalizmin sürətlə inkişaf etdiyi İngiltərə 1 fevral 2020-ci ildə baş tutan Brexit prosesi nəticəsində Aİ-dan ayrılmış olsa da, qlobal siyasətdə və yeni dünya düzəninin formalaşmasında təsirli Avropa dövlətlərindən biri kimi çıxış etməyə davam edir.

Tədqiqat işinin araşdırılmasında xüsusi yer verilən Fransa Avropa qitəsinin qədim, köklü tarixə malik dövləti olmaqla bərabər, həm də Aİ-nın qurucu üzvü, beynəlxalq münasibətlər sahəsində dünyanın aparıcı dövlətlərindən biridir. Avropadan Asiyaya qədər uzanan, genişmiqyaslı beynəlxalq münasibətlər kontekstində, təsir etdiyi mədəniyyətlərin və cəmiyyətlərin həyatında dərin izlər buraxan Fransa, regional və qlobal səviyyədə, dünya miqyasında böyük güc hesab edilən dövlətlərdən biridir.

Aİ da daxil olmaqla, bir çox başqa beynəlxalq təşkilatların qurucu və aparıcı üzvü olan İtaliya, iqtisadi, hərbi, mədəni və diplomatik sahələrdə məsələlərin həllində mühüm rol oynayaraq, dünyanın ən çox inkişaf etmiş dövlətlərindən biri hesab olunur.



Məlum olduğu kimi, Yaxın Şərq, tarix boyunca özünün coğrafi, siyasi və strateji əhəmiyyətinə görə müxtəlif imperiyalar arasında rəqabət meydanı olmuşdur. Avropa dövlətləri üçün də bu bölgə xüsusi

əhəmiyyət kəsb etmişdir. Tarixin ən qədim dövrlərindən bəri ərəb xalqlarının məskunlaşma arealına daxil olan Yaxın Şərq coğrafiyası, orta əsrlərdən etibarən, Mərkəzi Asiya, Uzaq Şərq və Avropada yaşayan xalqlar arasında körpü rolunu oynamışdır. Son əsrlər ərzində, Yaxın Şərq qərb və şərq arasında etnik, milli, dini və strateji mübarizənin əsas məkanlarından biri olmuşdur. Avropanın bölgəyə yanaşmasına görə, Yaxın Şərq regionu, bölgəyə hakim olmaq və nəzarəti əldə saxlamaq üçün vasitə və keçid ərazisi olaraq daima münaqişələrin mərkəzi olmuşdur.

Ərəb baharı illərində Avropa dövlətləri bölgəyə daha çox öz Şərq sərhədlərinin təhlükəsizliyini təmin etmək, sonra isə, öz aralarında apardıqları güc yarışında üstün mövqe əldə etmək üçün, mühüm strateji məntəqə kimi baxmışlar. Bundan başqa, Yaxın Şərqin qeyri-müsəlman xalqlarının (xüsusilə xristian icmaları və yəhudilər) müdafiəsini öz üzərlərinə düşən dini və milli vəzifə kimi təqdim etməyə çalışaraq, regionda təsir və əlaqələrini möhkəmləndirmək üçün bundan istifadə etmişlər. Bölgə əhalisinin əsasən İslam dininə etiqad etməsi və müsəlman olmaqları, demokratik idarəçilik və anlayışların, zülm altında idarəçiliyə əsaslanan hökümətlərin varlığı, Avropanın regiona yönəldilmiş siyasətinin göstərici amilləri olmuşdur.

Avropanın güc mərkəzi sayıla biləcək dövlətlərinin uzun illərdir gündəmdən düşməyən müzakirə mövzusu müsəlmanların Avropa mədəniyyətinə uyğunlaşa bilib-bilməməsi məsələsidir. Avropada Əndəlüsün fəthindən bəri geniş şəkildə yayılan, xristianlıqdan sonra, ən çox qəbul edilən ikinci din olaraq İslam, bunlara baxmayaraq, hələ də Avropa cəmiyyətlərində yad bir fenomen olaraq təqdim edilir. Son illər Yaxın Şərqdə baş verən Ərəb baharı hadisələrinin səbəbindən, ərəb dövlətlərindən Avropaya köç edən müsəlmanların sayının artmasına səbəb olmuşdur. Yaxın Şərqdə baş verən üsyanların davamında, müsəlmanların müharibə kimi bəlalardan xilas olmaq ümidi ilə, şərqdən qərbə doğru inteqrasiya siyasəti, xristian və müsəlman cəmiyyətlərinin daxilində güc bölgüsünün güzgüsüdür. Yaxın Şərqdə baş verən Ərəb baharı hadisələri davamında daha çox istifadə olunan “Avropa İslamı”

anlayışı, qərb cəmiyyətləri və müsəlmanların harmoniya içində olduğu bir həyat tərzi yaratmaq üçün, İslamı qərb mədəniyyətinə uyğun dəyişdirməyi məqsəd qoymuşdur. Bu anlayış XX əsrin sonlarından işlədilməyə başlasa da, müasir dövr qlobal və regional proseslər səbəbindən gündəmdən düşməyən ifadəyə çevrilmişdir. Müsəlmanların inteqrasiya və dünyəviləşmə cəhdlərinə baxmayaraq, bugünkü dövrdə də, İslam anlayışı Avropada əsasən mənfi yük daşıyır və İslamafobiya getgedə böyüyərək genişlənir.

Mühacirlərin Avropada daimi məskunlaşmasına qarşı müqavimət artdıqca, İslamın gətirdiyi mədəni fərqliliklər, müasir formada ortaya çıxan irqçilik daha qabarıq formada təcrid şəklində özünü göstərdi. Başqa sözlə desək, ideoloji və siyasi münasibət sosioloji hadisənin formalaşmasına xidmət edərək, əvvəla anti-islamizm kimi başlayan proses, İslamafobiyanın yaranmasına səbəb oldu. Müsəlmanların qərbə doğru inteqrasiyasından sonra ABŞ-da Nyu-York, Avropada London və Madrid şəhərlərində baş verən terror hadisələrini misal göstərmək olar[1]. Terror hadisələrinin İslam və müsəlmanların adına çıxması, Avropada yaşayan dinc müsəlman əhaliyə qarşı irqçilik və ayrı-seçkiliyi adiləşdirərək, onlara qarşı şübhəli yanaşmalar doğurmuşdur. Xüsusən, 11 sentyabr Nyu-Yorkdakı terror hücumlarından sonra, terrorizmə qarşı mübarizədə və insan haqqları müdafiəsinin mərkəzi hesab olunan Qərb dünyasında, İslamafobiyanın zirvə nöqtəsi hesab olunacaq şəkildə sivilizasiyalararası problemə çevrildi. Bu çərçivədə “Sivilizasiyaların toqquşması” olaraq bilinən və mümkün toqquşmadan danışan amerikalı professor Samuel Hantinqton, 1993-cü ildə mahiyyətcə irqçi, eyniadlı məqaləsində, İslam dünyasını xristian və qərb dünyasının yeni düşməni kimi elan edir[2]. Daha sonra, kitab formasında dərc

---

[1] *Oppermann, K. Deutsche Außenpolitik während der dritten Amtszeit Angela Merkels: Eine Bilanz der Regierung Merkel 2013-2017 / - Wiesbaden: Zwischen Stillstand, Politikwandel und Krisenmanagement, - 2019, - b. 619-642.*

[2] *Huntington, S.P. Medeniyetler Çatışması ve Dünya Düzeninin Yeniden Kurulması / - İstanbul: Okuyan Us Yayıncılık, - 2019, - 544 s.*

edilən bu məqalə, NATO-nun keçmiş Baş katibi Villi Kleysin bir alman qəzetində izah etdiyi "*İslam əxlaqı Avropa üçün ən böyük təhlükədir*" bəyanatı ilə, NATO tərəfindən də qəbul edildi[1].

Tədqiqat mövzusunun aktuallığını şərtləndirən amillərin ən əsası son 10 ildən artıq zaman ərzində Yaxın Şərq və İslam dövlətlərində cərəyan edən proseslərin beynəlxalq münasibətlərin episentrində durması, regionda demokratiya yaratmaq, müasirləşmək cəhdlərinin və din probleminin pik həddə çatması, beynəlxalq siyasətin və regionun bütün diqqətinin buraya yönəlməsinə səbəb olmuşdur. Tarix boyu cəhalətdən qaynaqlanan kin, qəzəb, düşmənlik çıxışları gün üzünə çıxdıqca, baş verən terror hücumlarına qarşı mühakimələri gücləndirərək İslam əleyhinə səsləri artırmışdır. 1996-cı ildə İngiltərədə qurulan, müxtəlif dinlərin üzvlərindən ibarət "Britaniya Müsəlmanları və İslamofobiya Komissiyası", 1997-ci ildə nəşr olunan "İslamofobiya: Hamımız üçün Çağırış" başlıqlı hesabatında İslamın fərqli və "başqası" olduğunu, onun digər mədəniyyətlərlə heç bir ortaqlığının olmadığını vurğulayaraq, günümüzdə davam etməkdə olan İslam və din düşmənçiliyinin təhlükəli ölçülərə çatmasına səbəb olmuşlar. Komissiyanın hesabatının qısaca təsvirində deyilir ki, bu düşmənçilik İslamı, müsəlmanları, Yaxın Şərq dövlətlərini hədəf almaqdadır[2].

Müasir beynəlxalq diskursda İslamın terrorizm ilə əlaqələndirilməsi tez-tez müzakirə mövzusu olmuşdur. Bir sıra siyasi liderlər isə bu yanaşmanı tənqid etmiş və din ilə terrorizmin eyniləşdirilməsinin yanlış olduğunu vurğulamışlar. Məsələn, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BMT Baş Assambleyasında çıxışı zamanı qeyd etmişdir ki, "din adına terror qavramını qəbul etmirik və terrorla dinin adının bərabərləşdirilməsini ən böyük saygısızlıq hesab edirik... antisemitizm

[1] *Robert C. Johansen. Radical Islam and Nonviolence: A Case Study of Religious Empowerment and Constraint among Pashtuns / Journal of Peace Research, - Oxford University Press: - 1997, Vol. 34, No. 1, pp. 53-71.*

[2] *Sajid, A. Islamophobia: A New Word for an Old Fear / - Palestine - Israel Journal of Politics, Economics, and Culture; East Jerusalem / - 2005, Vol.12, Iss.2-3, pp.31-40.*

kimi islamofobiyanın da bir insanlıq suçu olduğunu bütün dünya qəbul etməlidir”[1].

Bu mənada, Ərəb baharının başladığı ilk dönəmdə və sonrakı illərdə Yaxın Şərqin aparıcı dövlətlərinin xarici siyasətinin əsas mərhələləri, istiqamətləri, ərəb dünyasında dövlət-cəmiyyət münasibətlərinin qanuni əsaslarla yenidən qurulması, yenidən formalaşan siyasi və sosial baxış formalarına münasibət, regionda baş verən xalq hərəkatlarından təsirlənən Avropanın aparıcı dövlətləri başda olmaqla, ABŞ-ın da gündəmində olmuşdur. Avropa dövlətlərinin baş verən proseslər nəticəsində meydana çıxan dini ekstremizm və terror fəaliyyətlərinə, eləcə də genişlənən miqrasiya axınına reaksiyasının kompleks şəkildə araşdırılmasına həsr olunmuş bu tədqiqat yalnız Yaxın Şərq və Avropanın xarici siyasətini deyil, həm də İslamın Ərəb baharı kontekstində beynəlxalq siyasi müzakirələrin mühüm mövzularından birinə çevrilməsinə təsir edən amilləri izləməyə imkan yaradır. Aİ dövlətlərinin xarici siyasətdə birgə hərəkət etmək üçün hazırladığı “Ümumi xarici siyasət” və İttifaqa üzv olmayan dövlətlərlə, yaxşı mənada siyasi münasibətləri inkişaf etdirmək üçün yaradılmış “Avropa qonşuluq siyasəti”[2] bu xalq hərəkatlarına lazımi reaksiyanı verməkdə gecikdi. Xüsusilə, “Avropa qonşuluq siyasəti” çərçivəsində hazırlanmış fəaliyyət planları və iqtisadi yardım kimi layihələri təsirsiz olmuşdur. Ərəb baharı dönəmində və sonrakı illərdə Avropanın Yaxın Şərqlə dəyişmiş formatda əlaqələr qurması cəhdləri problemin həllində təsirli ola bilmədi. Avropanın xarici siyasətinin başlıca istiqamətləri, xarici siyasət kursunu formalaşdıran başlıca amillərin təhlili həm elmi, həm də tətbiqi maraq kəsb edir. Hazırki tədqiqatın fərqliliyini səciyyələndirən xüsusiyyətlərdən biri də, sadalanan problemlərin beynəlxalq münasibətlərin geniş kontekstində, qlobal və regional tendensiyalar fonunda tədqiq olunmasıdır.

---

[1] *Ruintən, S. Türkiyə Cümhuriyyətinin xarici siyasəti (konsepsiya məsələləri) // Bakı: Tarix və onun problemləri. - 2015, №2, s.198-216.*

[2] *Ünal, M.C. “Arap Baharı” sonrası Avrupa Komşuluk Politikasının Geleceği // Ankara Avrupa Çalışmaları Dergisi,* - Ankara: - 2017, 16(2), - s.158.

Nəticə olaraq, tədqiqat Avropanın Yaxın Şərq siyasətində İslam amilinin təsirini və bölgədə baş verən siyasi dəyişikliklərin beynəlxalq güc balansına necə təsir etdiyini göstərir. Bundan əlavə, iş, regional və qlobal səviyyədə aparıcı dövlətlərin siyasətlərinin qarşılıqlı əlaqələrini daha dərindən anlamağa imkan yaradır.

# I FƏSİL.

# TARİXİ VƏ COĞRAFİ MÜSTƏVİDƏ ƏRƏB BAHARININ NƏZƏRİ-KONSEPTUAL MƏSƏLƏLƏRİ

## 1.1. Yaxın Şərq və Ərəb baharı fenomeni anlayışları

Yaxın Şərq bölgəsinin coğrafiyası ilə bağlı müxtəlif fikirlər mövcuddur. Onlardan birinə görə, "Yaxın Şərq mədəniyyət mərkəzini İslamın müəyyən etdiyi, coğrafi baxımdan səhraların hakim olduğu, demokratiyanın inkişaf edə bilmədiyi, cihad və qloballaşma arasında ilişib qalmış, irrasional ehtirasların zehni maraqlardan öndə getdiyi bir məkandır[1]. Göründüyü kimi, Yaxın Şərqlə bağlı bir neçə tərif belə bir-birindən çox fərqli xüsusiyyətlər nümayiş etdirir. Bəzi təriflər qitələrə görə, bəzi təriflər mədəni fərqliliklərə görə, bəzi təriflər tərifə daxil olan dövlətlərə görə, bəzi təriflər isə coğrafiyadakı məhsullar baxımından edilir. Hər bir tərif öz perspektivi daxilində fərqli çərçivədə verilmişdir.

Əsasən qərb mənşəli olan bu termin əvvəlcə ingilis və amerikalı politoloqları tərəfindən işlədilib, sonralar ümumi ifadəyə çevrilib. Məlumdur ki, "Yaxın Şərq" sözü ilk dəfə 1840-cı ildə ABŞ-da anadan olmuş dəniz tarixçisi Alfred Tayer Mahan tərəfindən 1902-ci ildə Britaniyanın "National Review" adlı qəzetində dərc olunmuş "The Fars Gulf and International Relations" adlı məqaləsində istifadə edilmişdir[2]. Mahandan sonra Britaniyanın "The Times" qəzetinin xarici siyasət redaktoru Valentin Çirol Fars körfəzinin strateji əhəmiyyətindən bəhs etdiyi bir neçə məqaləsində "Yaxın Şərqin problemləri" başlığı

---

*[1] Turan, Ö. Medeniyetlerin Çatıştığı Nokta Ortadoğu / - İstanbul: Yeni Şafak Gazetesi Yayını, -2003, - s. 282.*

*[2] Douglas, L. American Orientalism: The United States and the Middle East since 1945, / - The University of North Carolina Press, -2002, - p.50.*

ilə Fars körfəzi bölgəsini təsvir etmək üçün bu termindən istifadə edib[1]. Meydan Larusa (1969-1973-cü illərdə 12 cilddə nəşr edilmiş Türk ensiklopediyası) görə, Aralıq dənizi sahilindəki dövlətləri (Türkiyə, Suriya, Misir, İsrail, Livan), Ərəbistan, İraq və İranı əhatə edən bütöv ərazi Yaxın Şərqin əhatə dairəsinə daxildir və Yaxın Şərq adlandırılan bütün region üçün istifadə olunur[2].




Dünya coğrafiyası mənasında Yaxın Şərq anlayışı dünyanın özünəməxsus formasına görə mənasını itirir, çünki heç bir yer başqa nöqtə ilə müqayisədə “orta” ola bilməz[3]. Misal üçün, İngiltərə və Almaniya üçün "orta" nədir? Hindistan və ya Çin üçün “orta” haradadır? Bu cür problemlərə əlavə olaraq, coğrafiyaçıların Cənub-Qərbi Asiya termini də yetərsiz qalır. Bu nöqtədə, bu qitələrin mədəni xüsusiyyətləri və sərhədləri nəzərə alınmadıqda, ənənəvi üç qitə Avropa-Asiya-Afrika əsaslı təriflər kifayət etmir[4].

---

[1] *Valentine, C. The Middle Eastern Question, or some Political Problems of Indian Defence. By Valentine Chirol. (London: Murray, 1903) / -Published online by Cambridge University Press: - 2011, - pp. 347 – 348.*
[2] *Larousse, M. Büyük Lugat ve Ansiklopedisi / - Istanbul, Sanah. Cilt:4 – 2020, - s.98.*
[3] *Goldschmıdt, A., Davidson, L. Kısa Ortadoğu Tarihi / - İstanbul: Doruk Yayınları, - 2011, - s.27.*
[4] *Yenə orada, s.40.*

Termin Qərb üçün coğrafi məna daşısa da, ümumiyyətlə siyasi kontekstdə istifadə olunur. Yaxın Şərq adlanan bölgə üçün siyasi, coğrafi, iqtisadi və mədəni fərqliliklər nəzərə alınmaqla bir çox başqa təriflər verilmişdir. Digər tərəfdən, Yaxın Şərqin tərifi daha çox siyasi qiymətləndirmə yolu ilə verilir[1]. 1855-ci ilə qədər yaxın və uzaq şərq anlayışları xüsusi bir bölgəyə aid edilmirdi. 1853-1856-cı illər Krım müharibəsi bu terminin mahiyyətində əhəmiyyətli dəyişikliyə səbəb oldu. XIX əsrdə Rusiya imperiyası xarici siyasətdə daha təcavüzkar bir mərhələyə qədəm qoydu, həm Osmanlı imperiyasına, həm də Çinə qarşı hərbi cəhətdən fəallaşdı. Bu zaman, Britaniya hökuməti də Rusiyaya qarşı mövqe tutdu, nəticədə Krım müharibəsi baş verdi. Bu müharibə zamanı Britaniya hökuməti "Yaxın Şərq” və "Uzaq Şərq" deyə xüsusi regional mənalar verən yeni ifadələrdən istifadə etməyə başladı.




Yaxın Şərq anlayışı digər tərəfdən, XIX əsrin əvvəllərinə qədər fransızların Osmanlı imperiyasının torpaqları üçün işlətdiyi termin olmuşdur. Osmanlı hakimiyyəti altında olan Balkanlar və Şərqi Aralıq dənizi sahilləri “Yaxın Şərq”, Mesopotamiya da daxil olmaqla Mesopotamiya ilə Hindistan arasındakı bölgə “Uzaq Şərq” adlanırdı[2]. Bu tərifə görə, Yaxın Şərq dövlətləri Suriya, İraq, Qətər, Kipr, İordaniya, İsrail, Livan, İran, Fələstin, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri,

---

*[1] Turan, Ö. Medeniyetlerin Çatıştığı Nokta Ortadoğu / - İstanbul: Yeni Şafak Gazetesi Yayını, -2003, - s 150.*
*[2] William, L.C. Modern Ortadoğu Tarihi / - İstanbul: Agora Kitaplığı, - 2008, - s.111.*

Oman, Küveyt, Bəhreyn, Yəmən, Liviya, Misir, Tunis, Əfqanıstan, Pakistan, Əlcəzair, Sudan və Mərakeşdir. Bəzi tarixçilər və politoloqlar bu dövlətlərin siyahısını artırır və ya azaldırlar, lakin bu, ümumi qəbul olunmuş fikirdir.

Lakin fərqli olan bu yanaşmalarda ümumi bir cəhət də mövcuddur: Yaxın Şərq coğrafi mənada Asiya, Avropa və Afrikanın bir-birinə ən yaxın olduğu yerləri əhatə edən və qonşu dövlətlərin formalaşdırdığı bölgədir. Qədim tarix və sivilizasiyaya malik olan bu bölgənin dəqiq sərhədləri yoxdur. Yaxın Şərq Aralıq dənizindən Pakistana qədər uzanan və Ərəbistan yarımadasının da daxil olduğu bu çərçivəyə daxildir. Yaxın Şərq bölgəsi üç qitənin kəsişməsində Amerika, İngiltərə, Fransa, Almaniya və Rusiya kimi böyük dövlətlər üçün strateji əhəmiyyətli bir qapıdır. Boğazlar vasitəsilə Qara dənizi Aralıq dənizinə, Süveyş kanalını isə Hind okeanına birləşdirir. Bu mühüm xüsusiyyəti ilə yanaşı, Yaxın Şərq tarix boyu böyük, dini əsaslı qarşıdurmalara və siyasi rəqabətlərə səhnə olmuşdur. Birinci Dünya müharibəsindən sonra bölgənin sülh və əmin-amanlığı pozulmuş, böhranlar və müharibələr bölgəsinə çevrilmişdir[1].

Bölgə Osmanlı imperiyasının dağılmasından sonra dünyada ən yüksək siyasi fəallığın yaşandığı bölgədir. Region əlverişli coğrafi, hərbi, geosiyasi mövqeyinin üstünlüyü, maye yanacağı sərvətlərinin zənginliyi və regiondan keçən beynəlxalq kommunikasiya sistemlərinə görə qərb dövlətlərinin maraq dairəsində olan bölgə olmasıdır[2].

Yaxın Şərq imperialist güclərin tarix boyunca hökmranlıq etmək üçün dini, etnik və məzhəb fərqlərini qızışdıraraq təsir göstərməyə çalışdığı, lakin sərhədləri tam müəyyən edilə bilməyən, hər imperialist dövlətin öz maraqlarına uyğun siyasi yanaşma göstərdiyi bölgədir. Etnik cəhətdən türklər, ərəblər, farslar, yəhudilər və digər icmaların yaşadığı Asiya və Afrikanın hissələrini, qismən də Balkanları əhatə edən

*[1] Özey, R., Dünya Denkleminde Ortadoğu Coğrafyası Ülkeler / - İstanbul: Aktif Yayınevi, -2015, - 447 s. 252.*
*[2] Terrill, A. Arab Threat Perceptions and the Future of the U.S. Military Presence in the Middle East, p.30.*

böyük bir bölgəni əhatə edir. Coğrafi mövqeyi və ümumi xüsusiyyətləri ilə yanaşı, keçmişdən günümüzə Yaxın Şərq zəngin neft və təbii qazdan əldə edilmiş gəlirlərlə dəstəklənən feodal və avtokratik hökmdarlar, ictimai quruluşda boşluq yaradacaq balanssız gəlir bölgüsü, ərəb millətçiliyi, radikal İslam meylləri, qeyri-homogen sosial quruluş, beynəlxalq şirkətlər və yerli hökumətlər arasında şəxsi maraqlara əsaslanan münasibətlər, dövlətlər arasında münaqişələr və davam edən qeyri-sabitliyə şahid olmuşdur. Bu mənfi cəhətlərlə yanaşı, aşağı təhsil səviyyəsi, ictimai quruluşda demokratik təsisatların olmaması, fərdi hüquq və azadlıqlara qoyulan məhdudiyyətlər, qadın və kişi bərabərsizliyi, insan hüquqlarının pozulması da ümumi neqativ hadisələrin davam etməsinə səbəb olmuşdur[1].

Yaxın Şərq coğrafiyası və sərhədlərinin müəyyən edilməsi ilə bağlı bir çox fərqli fikirlər mövcuddur. Məsələn, coğrafiyaşünaslar məsələni coğrafi baxımdan regional qiymətləndirir və Yaxın Şərq coğrafiyasını bütün Asiya qitəsinə görə, Cənub-Qərbi Asiya adlandırmağı məqsədəuyğun hesab edirlər[2]. Siyasi baxımdan keçən əsrin ortalarından etibarən yeni müstəmləkələr əldə etmək və genişlənmək siyasətini izləyən Avropa dövlətləri; xüsusilə İngiltərə və Fransa Avropanı özlərinə mərkəz olaraq qəbul edərək, bu yerin şərqindəki dünyanı üç yerə böldülər[3]. Birinci Dünya Müharibəsinə qədər Yunanıstan, Bolqarıstan, Şərqi Aralıq dənizi dövlətləri (Livan, Suriya) və Misir Yaxın Şərq anlayışı ilə ifadə edilərkən, Yaxın Şərq anlayışı müharibədən sonra Mesopotamiya, Ərəbistan yarımadası, İran və bəzən Əfqanıstanı əhatə etmək üçün istifadə edilməyə başlandı[4].

Şərqi İslam dünyasının (Məşrik) sərhədi sayılan Misirdən Atlantik okeanına qədər uzanan Şimali Afrika bölgəsi və Cənubi Saxara,

---

*[1] Michou, H. The UK in the Middle East: commercial diplomacy to what end, p.1-5.*
*[2] Lewis, B. The Middle East.., p.137.*
*[3] Jonberg, K. The Conflict in Yemen: latest developments // - European Parliament, Directorate: General For External Policies, - 2016, - p. 4-13.*
*[4] Yıldız,Y.G. Global Stratejide Ortadoğu / - İstanbul: Der yayınları, -2000, - s. 178.*

İslam mənbələrində "Məğrib" olaraq adlandırılır. Bu gün Əlcəzair, Liviya, Mərakeş, Mavritaniya və Tunisdən ibarət Məğrib bölgəsi coğrafi cəhətdən Misirin qərbində və Saxara çölünün şimalında yerləşir. Bölgənin şimal sərhədində Aralıq dənizi, qərbində isə Atlantik okeanı yerləşir. Məğrib ərəbcə "əl-Maqrip" sözü olub, "qərb" və ya "günəşin batdığı yer" mənasını verir[1]. Ərəblər Misirin qərbində yerləşən əraziləri ifadə etmək üçün "Məğrib" terminindən istifadə etmişlər. Tarixi proseslər ərzində Məğrib bölgəsi müxtəlif xarici güclərin işğal və istilalarına məruz qalmışdır. Bölgənin yerli əhalisini əsasən bərbərlər (amazighlər) təşkil etmişdir. Roma hakimiyyəti dövründə xristianlıq Məğribdə, xüsusilə bərbər əhali arasında yayılmış, Şimali Afrikanın digər hissələrində isə Roma katolik ənənəsi dominant dini istiqamət kimi formalaşmışdır [2]. 688-ci ildə ərəblər bölgəyə gəldikdə, Əlcəzair və Tunisdə şəhər əhalisinin əksəriyyəti xristian idi. 429-cu ildə başlayan Vandal istilası ilə, Məğribdə Roma hökmranlığı sona çatdı[3]. 1930-cu illərdə əvvəlcə Mərakeşdə, sonra Tunis və Əlcəzairdə yüksələn milliyətçilik hərəkatı, XX əsrin ikinci yarısında Məğrib dövlətlərinin müstəqillik əldə etməsi ilə nəticələndi və Məğrib bölgəsi Əlcəzair, Liviya, Mavritaniya, Mərakeş və Tunis kimi müstəqil dövlətlərdən ibarət bir bölgə oldu.

Müasir sərhəd anlayışı XVIII əsrdə, xüsusilə Fransa inqilabından sonra formalaşan milli dövlət konsepsiyası ilə əlaqədar olaraq meydana çıxmışdır. Çoxmillətli imperiyalar dövründə sərhəd anlayışı daha çox müxtəlif insan icmaları üzərində siyasi və inzibati nəzarətin həyata keçirilməsi prinsipi ilə müəyyən edilirdi. Müasir dövrdə isə sərhəd anlayışı əsasən konkret coğrafi əraziyə və həmin ərazi üzərində suveren dövlət hakimiyyətinin təsbitinə əsaslanır[4]. Dünya xəritəsində Asiya, Avropa və Afrikanın kəsişmə nöqtəsində yerləşən Yaxın Şərq

[1] *Turan, Ö. Medeniyetlerin Çatıştığı Nokta Ortadoğu, - s.196.*
[2] *Abun-Nasr, J.M. A History of the Maghrib / - Cambridge University Press, - 1971, - p.40.*
[3] *Yenə orada, p.45.*
[4] *Foucault, M. Security, Territory, Population / - London: Palgrave Macmillan, - 2007, - p.44.*

regionunun adı və coğrafi sərhədləri tarix boyu dəyişikliklərə məruz qalmışdır. Xüsusilə Birinci Dünya müharibəsindən sonra bölgədə formalaşdırılan siyasi sərhədlər mövcud coğrafi və etnik reallıqlardan daha çox, regiondan kənar böyük güclərin maraq və strateji məqsədlərinə uyğun şəkildə müəyyən edilmişdir. Müharibədən sonra bölgədə üstün mövqe əldə edən Böyük Britaniya və Fransa yeni siyasi xəritənin formalaşmasında həlledici rol oynamışdır. Böyük Britaniyanın regiona marağı isə daha əvvəlki dövrdə – Fransanın Misiri işğalı və Süveyş kanalının açılması kimi hadisələr fonunda – artmağa başlamışdır. Bununla belə, müstəmləkəçi dövlətlər tərəfindən masa arxasında müəyyənləşdirilən sərhədlər bölgənin tarixi, etnik və sosial strukturuna tam uyğun gəlmədiyindən, sonrakı dövrlərdə siyasi sabitliyə təsir göstərən struktur problemlərin yaranmasına zəmin yaratmışdır[1]. Bu sərhədlər çəkilərkən bölgənin əsas xüsusiyyətləri olan sosial, siyasi və coğrafi quruluşu nəzərə alınmamışdır. Əsrlər boyu bir yerdə yaşayan insanlar arasında süni məftillər çəkilir və bunlara sərhəd deyilirdi. Ortaq mədəni irsə malik olan bu icmalar xarici qüvvələrin müdaxiləsi nəticəsində ayrıldılar. Bu səbəbdən Yaxın Şərqdəki sərhədlər son dərəcə zəif tikilmiş divarı xatırladır. Nəticə etibarı ilə, bu gün Yaxın Şərq Mərakeşdən İndoneziyaya qədər İslam mədəniyyətinin hakim olduğu bölgəni əhatə edir. Yaxın Şərq Liviyanın şərqindən Pakistana qədər sərhədlərini genişləndirən Əfqanıstan, İran və Türkiyəni əhatə edən bir anlayış kimi də istifadə olunur. Buna görə günümüzdə Yaxın Şərq Misir, Yəmən, Oman, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Qətər, Küveyt, Səudiyyə Ərəbistanı, İraq, Suriya, Livan, İsrail, Fələstin, Türkiyə və İranı əhatə edən ümumi sahəsi 8.012.779 kilometrə bərabərdir.

Yaxın Şərq coğrafiyasının sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı ədəbiyyatda dar və geniş yanaşmalar mövcuddur. Dar yanaşmaya əsasən, Yaxın Şərq Türkiyə, İran və Əfqanıstanla yanaşı, Şimali Afrika ölkələrini və bir sıra ərəb dövlətlərini (Bəhreyn, İraq, İordaniya, Küveyt, Livan, Oman, Qətər, Səudiyyə Ərəbistanı, Suriya, Birləşmiş

[1] *Eugene, R. The Arabs: A History, / - London: Penguin, - 2017, p.43.*

Ərəb Əmirlikləri, Yəmən, Fələstin, Misir və İsrail) əhatə edən region kimi təqdim olunur. Geniş yanaşmaya görə isə Yaxın Şərq anlayışı Ərəbistan yarımadasını, Türkiyəni, İranı və Əfqanıstanı, habelə Şimali Afrika dövlətlərini əhatə etməklə daha geniş coğrafi məkanı – bəzi təsnifatlarda isə Cənubi Asiya və hətta Uzaq Şərqə qədər uzanan əraziləri – özündə birləşdirən geosiyasi bölgə kimi xarakterizə edilir[1].

Mövcud təriflər əsasında Yaxın Şərq anlayışını qısaca müəyyən etsək, Yaxın Şərqi mühüm su və magistral yolların keçdiyi, bir çox dinlərin doğulduğuna şahidlik edən, dünya neft ehtiyatlarının və digər yeraltı sərvətlərinin əhəmiyyətli hissəsini özündə cəmləşdirən torpaq parçası adlandıra bilərik.

*"Ərəb baharı" anlayışı.* Dəyişən dünya düzənində bir çox cəmiyyətlər zamanla ayaqlaşmaq üçün bir çox islahatlar həyata keçirirlər. Bəzi cəmiyyətlər bu islahatları öz daxili dinamikası ilə həyata keçirərkən, bəziləri isə xarici dinamikanın təsiri ilə islahatlar aparmalı olurlar. Sosial həyatda narazılığın yaranması, azad ifadə tərzi dövlətlərin inzibati müstəvisi tərəfindən zaman-zaman təhlükəli olaraq görülür, sıxışdırılmağa çalışılır və sosial ifadələrin təhlükəli göründüyü vəziyyətlər idarəçilər tərəfindən itaətsizlik kimi qəbul edilir. Öz müqəddəratını təyin etmək istəyən xalqlar öz səslərini eşitdirmək, haqqlarını qazanmaq üçün səy göstərir, meydanlarda toplaşırdı. Yaxın Şərqdə üsyanlar bəzi dövlətlərdə rejimin dəyişməsinə səbəb oldu. Ərəb baharı həm xalq üsyanı kimi, həm də Yaxın Şərq xalqlarının ilk dəfə olaraq mütəşəkkil formada demokratiya üçün ayaqlandığı, Yaxın Şərq tarixinin mühüm mərhələsidir. 2010-cu ilin dekabrından başlayan Ərəb baharı hadisələri nəticələrinə görə ilk dəfə inqilabi xüsusiyyət nümayiş etdirmişdir. Ərəb baharının təsirinə məruz qalan dövlətlərin bəzilərində idarəçilik dəyişdi, bəzilərində inqilabdan sonra çevriliş oldu, bəzilərində isə heç bir dəyişiklik olmadı. Ərəb baharı prosesini alovlandıran hadisə, Tunisdə iş tapa bilmədiyi və maddi imkansızlıq səbəbindən satıcılıq ilə məşğul olan Muhəmməd Buəzizi adlı gənc

---

[1] *Lewis, B. What Went Wrong?: The Clash Between Islam and Modernity in the Middle East. / - New York: Harper Perennial, - 2003, - p. 97.*

tələbənin polis məmuru tərəfindən iş dəzgahı və mallarının müsadirə edilməsi, daha sonra özünü yandıraraq intihar etməsi oldu. Ərəb xalq hərəkatları "Ərəb baharı" adlandırılmadan əvvəl, hadisələrin yalnız Tunislə məhdudlaşacağı düşünüldüyü üçün ilk öncə "Yasəmən inqilabı" adlandırılmışdı. Üsyanların Misir və Liviyaya yayılması ilə, hadisənin təsir dairəsini genişləndirərək irəliləməsindən sonra ərəb dünyasında "Ərəb baharı" adı ilə bəhs edilməyə başlandı.

Ərəb baharının başlama səbəbi sayılan tunisli gənc Məhəmməd Buəzizinin özünü yandırmasından sonra başlayan nümayişlərdə, "polisin nümayişçilərə atəş açaraq zorakılıq göstərməsi əvəzinə, fəalları müdafiə etməsinin lazım olduğunu" iddia edən tunisli bloqqerlər "polisə zorakılıq müqabilində yasəmən verək" şüarı səsləndirdilər. Bu tərif "Yasəmən çiçəkləri" simvolunun müəyyən edilməsi ilə qəbul edildi və sosial şəbəkələrə yayıldı. Beləliklə, "Yasəmən inqilabı" ("Jasmin Revolution") ifadəsi ortaya çıxdı. Hadisələri yatırmaq üçün ordudan istədiyi dəstəyi tapa bilməyən prezident Zeynəl Abidin Ben Əli qarşıdakı seçkilərdə namizəd olmayacağını bildirsə də, gərginliyi azalda bilmədi və fövqəladə vəziyyət elan edildi. Tunisin sabiq prezidenti Zinə əl-Abidin Ben Əli əvvəlcə Avropa dövlətlərinə getməyə cəhd göstərmiş, lakin bu istəyi qəbul edilmədikdən sonra Səudiyyə Ərəbistanına sığınmışdı. 14 yanvar 2011-ci ildə Ben Əlinin ölkəni tərk etməsi ilə nəticələnən siyasi proses ədəbiyyatda çox vaxt "Yasəmən İnqilabı" kimi xarakterizə olunur. Lakin hadisələrin digər ərəb döövlətlərinə yayılması və regional miqyas alması ilə bu termin məhdud çərçivəli hesab edilmiş, nəticədə daha geniş məzmun ifadə edən "Ərəb baharı" anlayışı istifadə olunmağa başlanmışdır. Qeyd edilir ki, bu adlandırma müəyyən mənada 1968-ci ildə baş vermiş "Praqa baharı" hadisələrindən ilhamlanmışdır [1]. Maraqlıdır ki, bəzi İran rəsmiləri bütünlükdə Ərəb baharının İran İslam inqilabından qaynaqlandığını bildirirlər[2].

---

*[1] James L. G. The Arab Uprisings: What Everyone Needs to Know / -Oxford: Oxford University Press, - 2015, - p.144.*

*[2] Ruintən, S., Əlisgəndərli C. Türkiyə və İran İslam Respublikası arasında münasibətlərə təsir edən amillər, s.105.*

Hadisələrin həqiqətdə necə adlandırılması barədə bir fikir söyləməzdən əvvəl "İnqilab"ın nə olduğunu müəyyən etmək lazımdır. “İnqilab” çox qısa tərifi ilə, müəyyən sahədə sürətli, köklü və keyfiyyətli dəyişiklik deməkdir. İnsan iradəsi ilə sosial dəyişiklikləri sürətləndirmək inqilablar yaradır. Başqa bir təriflə inqilab kütləvi ictimai hərəkatın başlandığı, zorakılığın tətbiqi nəticəsində mövcud rejimi uğurla devirən və yeni idarəetmə forması yaradan siyasi prosesdir. Oktyabr (Bolşevik və ya Rus) inqilabı, İran İslam inqilabı, Fransız inqilabı, Narıncı inqilab, Məxməri inqilab adlanan inqilabları bu tərifə uyğun hesab etmək olar. Sadalanan misallara nəzər salsaq görərik ki, inqilabdan sonra xalqın mövcud idarəetmə sistemi dəyişib. İnqilabların ən mühüm cəhəti odur ki, onlar xalq hərəkatları, etirazlar və üsyanlarla başlayıb. Bundan başqa, bir qrup silahlı qüvvələr tərəfindən edilən dövlət çevrilişindən fərqlənərək, inqilab, öz legitimliyini xalqdan və xalqın əksəriyyətindən alır. Bu kontekstdə Yaxın Şərqdə baş verənləri ancaq bir nöqsanı ilə, inqilab kimi xarakterizə etmək olar. Çünki, hakimiyyət rejimə hakim olan azlıq tərəfdən alınır və çoxluğun əlində qalır. Halbuki nə Tunisdə, nə Misirdə, nə də Liviyada müxtəlif qrup və ya klana əsaslanan hökumət yox idi. Rəhbərlər xalqın içindən çıxan, hakimiyyətin imkanlarından və zənginliyindən istifadə edərək zamanla varlanan, hakimiyyətini möhkəmləndirən insanlar idi.

Ərəb baharı hadisələri ilkin olaraq etirazlarla başlayıb, qiyam, daxili qarşıdurma, vətəndaş müharibəsi və nəhayət, cari rejimlərin devrilməsi kimi mərhələlərdən keçmişdir. Lakin beynəlxalq ictimaiyyət hadisələri inqilab kimi deyil, “Ərəb baharı” termini ilə adlandırmışdır. Bunun bir neçə səbəbi vardır. İlk növbədə, prosesin natamamlığı diqqət çəkirdi, yeni konstitusiya layihələri və parlament strukturları üzərində işlər aparılsa da, vəziyyət hələ tam normallaşmamış və yekunlaşmamış görünürdü. Məsələn, Liviyada bəzi bölgələr muxtariyyət tələb edə bilərdi, Misirdə isə hakimiyyətin bir hissəsi hələ də ordu nəzarətində idi. Bu səbəbdən, proses özünü tam şəkildə reallaşdırmamış hesab olunurdu. “Bahar” ifadəsinin seçilməsi, ümidverici çalarları və

müsbət aura daşıması ilə xalqların müqavimət ruhunu canlı saxlamaq məqsədini güdürdü.

Bununla belə, "Ərəb baharı" ifadəsinin işlədilməsinə qarşı çıxanlar da olmuşdur. Onlardan biri Yaxın Şərq müxbiri Robert Fisk idi. Fisk hadisələri "Ərəb baharı" termini ilə adlandırmağı rədd edərək, prosesi "Ərəb Oyanışı" ("Arab Awakening") adlandırırdı[1].



Ərəb oyanışı dedikdə, xalqın despotik idarəetməyə qarşı öz haqq və imkanlarının məhrum edildiyini, milli gəlirdən ədalətli pay ala bilmədiyini anlaması və bu şəraitdə oyanışa keçməsi nəzərdə tutulur. Baxmayaraq ki, ictimaiyyət bu faktlardan illərdir xəbərdar idi, hadisələrə ad vermək zərurəti mövcud idi. Sosialist analitiklər və bir sıra ərəb mütəxəssisləri Liviyada daxili qarşıdurmaların başlanmasını, muxtariyyət tələblərini, Misirin Təhrir Meydanında şəriət qanunlarının əsas götürülməsi tələbi ilə keçirilən nümayişləri, Suriyada və Tunisdə küçə etirazlarını, ümumilikdə isə bu hadisələrin baş verməsini "baharın qışa çevrilməsi" kimi metaforik ifadə etmişlər. Ərəb baharı, Ərəb inqilabı, Ərəb oyanışı, Ərəb üsyanı, Ərəb etirazları, Ərəb Xalq Hərəkatları və Sosial media inqilabları kimi müxtəlif adlarla tanınan bu hərəkatı ərəb dilindəki "qiyam" (ķiyām قيام) termini ilə ifadə etmək mümkündür. "Qiyam" hərfi mənada bükülmüş vəziyyətdən dik vəziyyətə keçmək, hərəkətin tamamlanması, bir işə qarışmaq, cəhd etmək, üsyan etmək və qarşı çıxmaq kimi mənaları əhatə edir. Beləliklə, ərəb xalqı əyilmiş vəziyyətdən dik dura biləcəkləri "qiyam" hərəkətini həyata keçirirdi. Millətçilik və müasir Yaxın Şərqin sosial-mədəni tarixi ilə bağlı geniş tədqiqatlar aparan amerikalı tarixçi Ceyms L. Gelvin qeyd edir ki, Ərəb dünyasındakı insanlar küçələrə çıxmağa məcbur olmuşdur, çünki avto-

[1] *Marc, L. The New Arab Wars: Uprisings and Anarchy in the Middle East / -New York: PublicAffairs, -2016, -p. 45–70.*

ritar dövlətlər onlara siyasətdə hər hansı alternativ imkan təqdim etmirdi[1].

Yuxarıda qeyd olunan araşdırmaların nəticələrinə əsaslanaraq, Yaxın Şərq anlayışına ümumi bir qiymət vermək istəsək, bu regiona İsrail, İran və Türkiyə də daxil olmaqla digər ərəb dövlətləri ilə birgə geniş bir ərazi daxil edilir. Lakin Ərəb baharı hadisələrini yalnız Yaxın Şərq regionuna xas iğtişaşlar toplusu kimi qiymətləndirmək doğru olmaz. Bu proses eyni zamanda Amerika və Rusiya kimi qlobal güclərin müdaxiləsi nəticəsində beynəlxalq maraqların toqquşduğu və qlobal siyasət çərçivəsində izlənməsi vacib olan bir hadisələr silsiləsidir.

## 1.2. Ərəb baharının coğrafiyası və regionun strateji əhəmiyyəti

Yaxın Şərq üç böyük monoteist dinin: yəhudilik, xristianlıq və islamın doğulduğu, təktanrılı dinlərin mərkəzi olduğu bölgədir. Bu ərazidə əvvəlcə yəhudilik meydana çıxmışdır, sonrakı dövrlərdə isə xristianlıq inkişaf etmişdir. Yəhudilik, dünyanın yaşayan ən qədim dinlərindən biri olmaqla, yalnız dini kimliyi ifadə etmir; eyni zamanda müəyyən bir bioloji əcdada bağlı olan, dini icmaya sahib, irqi və etiqadi birliyə malik bir anlayış kimi də qiymətləndirilir. Yəhudilər dünya ədəbiyyatında tez-tez İvrit və İsrail oğulları terminləri ilə də qeyd olunurlar. Yəhudilərin müqəddəs kitablarında israillilər seçilmiş xalq və onların yaşadıqları torpaqlar seçilmiş torpaqlar kimi görünür. Hətta, bu torpaqlar "Vəd edilmiş torpaq" adlandırılıb. Yəhudilər Məsihin yenidən gələcəyinə inanırlar. Yəhudilərin Məsih inancına görə, Məsih yenidən vəd edilmiş torpaqlara geri dönəcək və Süleyman peyğəmbər dövründəki kimi, əzəmətli günlərinə qayıdıb bu torpaqlarda hökmranlıq edəcəklər. Yəhudilərin fikrincə, Məsihin gəlişindən əvvəl üç şey yerinə yetirilməlidir. Bunlar: çox sayda yəhudinin "vəd edilmiş torpaq"lara yerləşdirilməsi, dövlətin qurulması, Qüdsün alınması və Süleyman məbədinin yenidən qurulmasıdır. Bu dini inanc baxımından da, Yaxın Şərq yəhudilər üçün

[1] *James, L.G. The Arab Uprisings.., - p.12–14.*

əhəmiyyətini qoruyub saxlayır. Yəhudi din adamlarının İsrail dövlətinin "Müqəddəs kitab"a görə müəyyən edilmiş sərhədlərinin hansı bölgələri əhatə edəcəyinin ən geniş şərhi belədir; Şərqdə İordaniya, Küveyt, Səudiyyə Ərəbistanının böyük hissəsi, Fərat hövzəsi və İraqın bir hissəsi, cənubda Sinay yarımadası, Qahirə və Misirin bir hissəsi, Qərbdə Kipr, şimalda isə Livan, Suriya və Türkiyə ərazisinin Van gölünə qədər uzanan bir hissəsi. Bu sərhədlər İsraildə millətçi və dini dairələrdə geniş qəbul edilir və çox məşhurdur[1]. Yəhudilikdən sonra, İsa Məsihin təbliğ fəaliyyəti ilə xristianlıq meydana çıxmış və qısa müddət ərzində bölgədə təsir dairəsini genişləndirmişdir. Xristianlıq baxımından Yaxın Şərq xüsusi əhəmiyyət daşıyır, çünki İsa Məsih Fələstin ərazisində doğulmuş və təlimini burada yaymağa başlamışdır. 451-ci ildə keçirilən Kalkedon Kilsə Məclisi (Chalcedon Council) xristian doktrinasının formalaşmasında mühüm rol oynamış, Roma imperiyasının həm şərq, həm də qərb hissəsində kilsə institutlarının siyasi təsirini daha da gücləndirmişdir. Bununla belə, xristianlıq regionun siyasi tarixində əhəmiyyətli rol oynasa da, sonrakı əsrlərdə Yaxın Şərq xalqları arasında dominant dini mövqe qazana bilməmişdir[2].

VII əsrdə İslamın Məkkədə meydana çıxması və sürətlə yayılması regionun dini və siyasi strukturunda əsaslı dəyişikliklərə səbəb olmuşdur. İslamın son ilahi din kimi qəbul edilməsi və geniş coğrafiyaya yayılması, xristian kilsə institutlarının sosial-siyasi mövqeyinə təsir göstərmiş, nəticədə bölgədə uzunmüddətli dini və siyasi rəqabət formalaşmışdır. Tarixi proses göstərir ki, Yaxın Şərqin dini-siyasi kimliyinin formalaşmasında ən davamlı və geniş təsirə malik din İslam olmuşdur.

Yaxın Şərqin müsəlmanlar üçün əhəmiyyəti Hz. Məhəmmədin bu bölgədə doğulması və İslamın burada təşəkkül tapması ilə başlamışdır. İslam mənbələrinə görə, Hz. Məhəmməd qırx yaşında ikən Məkkə yaxınlığındakı Hira mağarasında təfəkkür və ibadətlə məşğul

---

[1] *Anita, S, Israel: A History / -Waltham: Brandeis University Press, - 2012, - p.58–65.*
[2] *Armstrong, K. Islam: A Short History / -Modern Library Chronicles – 2000, - p.3-25.*

olduğu dövrdə ilk vəhyi qəbul etmişdir. 610/611-ci ildən etibarən Qurani-Kərim Cəbrayıl vasitəsilə tədricən nazil olunmağa başlamışdır. Məkkədə müsəlmanlara qarşı artan sosial təzyiq və təqiblər nəticəsində, 622-ci ildə Mədinəyə hicrət baş vermişdir. İslam tarixində dönüş nöqtəsi hesab edilən bu hadisə ilə Mədinə yeni dini və siyasi mərkəzə çevrilmiş, müsəlman icmasının institusional əsasları formalaşmağa başlamışdır.[1].

İslamın meydana çıxdığı VII əsrdə Yaxın Şərq siyasi baxımdan iki böyük güc - şərqdə Sasani imperiyası, qərbdə isə Bizans imperiyası arasında bölüşdürülmüşdü. İslamın sürətli yayılması regionun mövcud siyasi və dini balansını dəyişdirdi və xüsusilə Bizansla uzunmüddətli qarşıdurmalara səbəb oldu. Orta əsrlərdə xristian dünyası tərəfindən Yaxın Şərqin müqəddəs sayılan ərazilərinə yönəlmiş səlib yürüşləri təşkil edildi ki, bu da regionun dini-siyasi tarixində mühüm mərhələ təşkil edir.

XVI əsrdən etibarən Yaxın Şərqin böyük hissəsi Osmanlı imperiyasının nəzarəti altına keçmiş və Birinci Dünya müharibəsinin sonuna qədər bu siyasi çərçivədə idarə olunmuşdur. Osmanlı imperiyasının bölgədən çəkilməsindən sonra isə regionda yeni siyasi sərhədlərin formalaşdırılması prosesi başlamış, bu isə uzunmüddətli sabitliyin təmin olunmasını çətinləşdirmişdir.

XIX əsrin sonlarından etibarən Avropa dövlətlərinin Yaxın Şərqə marağı artmış, XX əsrdə isə bu maraq strateji, iqtisadi və geosiyasi faktorlarla daha da güclənmişdir. Müasir dövrdə isə Qərb dövlətləri ilə Yaxın Şərq arasındakı münasibətlər tez-tez demokratiya, idarəçilik modelləri və siyasi legitimlik məsələləri kontekstində müzakirə olunur. Bu çərçivədə, regionun siyasi transformasiyası ilə bağlı fərqli yanaşmalar mövcuddur və bu yanaşmalar beynəlxalq münasibətlər sistemində davam edən mübahisələrin tərkib hissəsi kimi qiymətləndirilə bilər.

Region dünyanın dini mərkəzidir və buradakı insanlar üçün mədəniyyət çox vacibdir. Bölgədəki ictimai quruluşa nəzər salındıqda

*[1] Armstrong, K. Muhammad: A Prophet for Our Time / - New York: HarperCollins – 2007, - p.31-45.*

bölgənin etnik və dini məzhəblər baxımından müxtəlifliyini görürük. Onlar öz adət-ənənələrinə sadiq qalırlar. Bu səbəblə inancları həyatları boyunca mühüm yer tutur. Bölgədəki vətəndaş müharibələrinin əksəriyyətinin səbəbi dini mənşəlidir. Bu təriqətlərin Yaxın Şərq tarixinə siyasi təsirləri kifayət qədər yüksəkdir. İsraildən başqa regionun bütün dövlətlərində əhalinin əksəriyyəti müsəlmandır. İslam Peyğəmbərinin vəfatından sonra Ərəbistan yarımadasında xəlifəlik institutu formalaşdı və dörd xəlifənin dövrü (Rashidun Xəlifələri) başlandı. İslam daxilindəki fikir ayrılıqları nəticəsində müxtəlif məzhəblər də yaranmışdır. Müsəlmanların üçdə birini şiələr, qalanları isə sünnilərdir. Yaxın Şərq dövlətlərində şiələrin üçdə ikisi İranda yaşayır. Şiələr İraq əhalisinin yarısını, Livan əhalisinin yarısından azını, Bəhreyn və Yəmən əhalisinin yarıdan çoxunu təşkil edir. Müsəlmanlar arasında bu ayrılıq və məzhəb bölgüsü Məhəmməd peyğəmbərdən sonra yaranmışdır. Sünnilər son peyğəmbəri Hz. Məhəmməd kimi qəbul edərkən, şiələr peyğəmbərin kürəkəni Əlini və onların nəslini etiqad yolunu davam etdirdiyinə inanırlar. İraq və Bəhreyndə şiələr çoxluq təşkil edir. Yaxın Şərqdə sünni müsəlmanlar çoxluq təşkil edir[1].

Yaxın Şərq coğrafiyası bir çox etnik və məzhəb fərqlərini özündə yaşadan bölgə kimi tanınır. Etnik cəhətdən öyrənildiyində, bölgədə bir çox etnik qrupların mövcudluğunu qeyd etmək olar və bölgə əhalisi dil, din baxımından müxtəliflik nümayiş etdirir. Bölgədə dörd əsas və nüfuzlu etnik qrup var; Türklər, ərəblər, farslar və yəhudilər[2]. Yaxın Şərqdə yaşayan müxtəlif etnik qruplar – ərəblər, farslar, türklər və yəhudilərlə yanaşı, kürdlər, çərkəzlər və digər azsaylı xalqlar – müasir dövlət sərhədləri çərçivəsində bir-birindən ayrılmışdır. Bununla belə, bir çox hallarda fərqli etnik və dini icmalar eyni dövlətin hüdudları daxilində birgə yaşayırlar ki, bu da regionun mürəkkəb sosial strukturunu formalaşdırır.

---

[1] *Armstrong, K. Islam: A Short History, - p.10-18.*
[2] *Fearon, J.D., Laitin, D.D., Ethnicity, Insurgency, and Civil War // - The American Political Science Review, - Washington: - 2003, 97(1), - p.75-90.*

2011-ci ildən sonra aparılan beynəlxalq araşdırmalar göstərir ki, region dövlətlərində sosial-iqtisadi bərabərsizlik, gənclər arasında işsizlik və təhsil sistemindəki struktur problemlər siyasi sabitliyə birbaşa təsir göstərmişdir. Təhsil səviyyəsinin və insan kapitalının inkişafındakı geriləmələr vətəndaş iştirakçılığına və siyasi hesabatlılıq mexanizmlərinin formalaşmasına təsir edən əsas amillərdən biri kimi qiymətləndirilir[1].

Eyni zamanda, regionda təhlükəsizlik problemləri, daxili qarşıdurmalar və xarici müdaxilələr sabitliyin davamlı şəkildə təmin olunmasını çətinləşdirir. Uzunmüddətli siyasi qeyri-sabitlik və iqtisadi struktur problemləri isə sosial inkişaf və elmi tərəqqi proseslərinə mənfi təsir göstərmişdir.

Ərəb dili İsrail, Türkiyə və İrandan başqa dövlətlərdə rəsmi dil kimi istifadə olunur. İranda fars dilində danışılır. Amma bundan başqa bölgədə fars dilindən çox az istifadə olunur. Ərəb dilindən sonra ən çox danışılan dil türk dilidir. İvrit və digər azlıqların dilləri nadir hallarda istifadə olunur. Buna görə də Yaxın Şərqdə ən çox yayılmış dil ərəb dilidir. Bölgədə çoxlu müxtəlif etnik qruplar yaşasa da, ümumən Yaxın Şərqdə ərəb-müsəlman kütləsi üstünlük təşkil edir. Bu, Yaxın Şərq bölgəsinin indiki halının formalaşmasında vacib qeyddir. Bir çox alimlərə görə, Yaxın Şərqin tərifini edərkən, bölgənin coğrafi mövqeyindən əvvəl, əsasən ərəb-müsəlman əhalisinin yaşadığı və əksəriyyət təşkil etdiyi bir bölgə olmasını vurğulamaq vacibdir. Başqa sözlə desək, bölgənin günümüzə qədər siyasi mənada təkamül edərək çatmasında etnik və dini quruluşun mühüm rolu vardır.

Elmi əsasları XX əsrin birinci yarısında qoyulan Geosiyasət anlayışı, dövlətlərin beynəlxalq sistemdəki siyasi davranışlarını və gələcəyə dair proqnozlar vermək zərurətlərini, coğrafi elementlərlə izah etməyə çalışmasından yaranmışdır. Dövlətlərarası münasibətdə xüsusi yer tutan

---

[1] *United Nations Development Programme (UNDP), Arab Human Development Report 2016: Youth and the Prospects for Human Development in a Changing Reality / - New York: UNDP, -2016, - p.40-60.*

bu konsepsiya, bugünə qədər önəmini qoruyub saxlaya bilmişdir. Beynəlxalq sistemə təsir edən bir elm kimi Geosiyasət, dövlətlər üzərində nəzarəti qoruyub saxlamaq üçün, coğrafi səbəblərə xüsusi önəm vermiş və coğrafiyanın təsiri ilə, müxtəlif nəzəriyyələr yaranmışdır.

Yaxın Şərq regionu qlobal güc mübarizəsinin mərkəzinə çevrilməsinin başlıca səbəbi bölgənin geosiyasi əhəmiyyətidir. Yaxın Şərq həm Asiya və Avropanı, həm də Asiya və Afrikanı birləşdirən strateji körpü rolunu oynayır. Eyni zamanda, Aralıq dənizi ilə Hind okeanı arasında kritik nəqliyyat və ticarət əlaqələri bu bölgədə təmin olunur. Regionun isti sulara çıxış imkanları səbəbindən isə Rusiya üçün Yaxın Şərq strateji maraqlarının reallaşdırılması baxımından ən əlverişli vasitə kimi qiymətləndirilir[1]. Avropa qitəsi, Qərbi Asiya yarımadası vasitəsilə Yaxın Şərq regionuna qədər uzanır. İran və Anadolunu izləyərək Asiyadan Avropaya keçid mümkündür. Mesopotamiyadan keçən yollar isə Sinay yarımadası vasitəsilə Şərqi Aralıq dənizinə, Misirə və nəticədə Afrika qitəsinə çıxış təmin edir. Geosiyasi nəzəriyyələrdə bu bölgə mühüm yer tutur: H.Makinder "Dünya adası" (Heartland) anlayışı ilə onu strateji mərkəz kimi qiymətləndirmiş, J.Spaykmen isə ABŞ-ın qlobal nizam yaratmaq strategiyasında "Rimland" (Kənar kəmər) anlayışını tətbiq etmişdir. Tarixi təcrübə göstərir ki, bu regionda hökmranlıq quran dövlət qlobal güc statusu qazanır. Keçmişdə Osmanlı imperiyası, daha sonra Böyük Britaniya, Soyuq müharibə dövründə isə ABŞ və SSRİ birbaşa və ya dolayı təsir vasitələri ilə region üzərində nüfuzlarını artıraraq qlobal güc olma yolunda əhəmiyyətli addımlar atmışdır[2].

Yaxın Şərq bölgəsi neft yataqlarının kəşfindən sonra, XX əsrin əvvəllərindən etibarən, beynəlxalq siyasi və iqtisadi sistemdə strateji əhəmiyyət qazanmışdır. Bu bölgənin önəmi onun geosiyasi və geostrateji mövqeyindən irəli gəlir. Sənayeləşmə və enerji tələbatının artması

*[1] Ersin, N. Ortadoğu Savaşlarının Perde Arkası / - İstanbul: Gündem Yayınları, - 2003, - 142, - s.13.*
*[2] Morgenthau, J. Politics Among Nations: The Struggle for Power and Peace. / - New York: McGraw-Hill Education, - 2014, - p.27-28.*

nəticəsində, Yaxın Şərq neft və təbii qaz kimi strateji xammalın əsas mənbəyinə çevrilmişdir. Dünyanın neft və qaz ehtiyatlarının 50%-dən çoxu Asiya və Yaxın Şərqdə yerləşir; Fars Körfəzi isə dünya neft ehtiyatlarının təxminən 60%-ni təşkil edir. Təbii qaz ehtiyatlarına görə isə İran lider mövqedədir və ümumi qaz ehtiyatlarının təxminən 15%-inə sahibdir. Neft ehtiyatları baxımından Səudiyyə Ərəbistanı dünya liderididir (təxminən 25%), İraq isə ikinci sıradadır (təxminən 10%). Bundan əlavə, Küveyt və Birləşmiş Ərəb Əmirlikləri hər biri təxminən 8,5% neft ehtiyatına malikdir. Bu faktorlar Yaxın Şərqi, enerji siyasətində və qlobal güc oyunlarında daimi strateji mərkəzə çevirir[1]. Göründüyü kimi, neft ehtiyatlarının böyük hissəsi Yaxın Şərq dövlətlərində yerləşir. Bu mühüm qaynaqların yerləşdiyi bölgələrdə isə, müsəlmanlar yaşayırlar. Yaxın Şərq Asiya, Avropa və Afrika qitələrini birləşdirən yolayrıcında olduğundan. bu xüsusiyyəti ilə nəqliyyat və ticarət yolları baxımından əhəmiyyətli rola malikdir. Enerji resurslarının böyük hissəsinin Yaxın Şərqdə olması da hegemon dövlətlərin gözünü bölgəyə çevirir. Regionu idarə edə bilməyən dövlətlər dünya siyasətində fəal ola bilməz və dünyanın böyük gücü ola bilməz. Ona görə də, Yaxın Şərqə nəzarət böyük əhəmiyyət kəsb edir, çünki regiona nəzarət edən dövlət dünyaya da nəzarət edir. Bu baxımdan, Yaxın Şərqdə möhkəmlənəcək regional güc, dünyada strateji üstünlüyü təhdid edər. Nəticədə, digər dövlətlər üçün Yaxın Şərq: iqtisadi-siyasi hökmranlığın diqqət mərkəzindədir; Soyuq müharibədən sonrakı dövrün geosiyasi mərkəzidir; Dünyanın ən zəngin təbii ehtiyatlarına malik regiondur; Yeni və geniş bazar sahəsidir; Yeni döyüş meydanıdır.

Keçmişdə önəmli mövqeyə malik olan Yaxın Şərq hələ də dövlətlərin gündəmindən düşmür, geosiyasi və geostrateji əhəmiyyətini qoruyub saxlayır[2].

---

[1] *Yergin, D. The Quest: Energy, Security, and the Remaking of the Modern World. / - New York: Penguin Press, - 2011, - p.7.*

[2] *Hasgüler, M., Uludağ, M.B. Devletlerarası ve Hükümetler Dışı Uluslararası Örgütler: Tarihçe-Organlar-Belgeler-Politikalar / - İstanbul: Alfa Yayınları, -2018, - s.558.*

Geosiyasi konsepsiya dövlətlərin milli gücünü və xarici siyasət davranışını, dövlətlərin coğrafi mövqeyi və fiziki mühiti ilə əlaqələndirən yanaşmadır və siyasi coğrafiya ilə bir-birinə yaxın sahə kimi qiymətləndirilir. Bu yanaşmaya görə, coğrafi amillər dövlətin xarici siyasət davranışları üçün sadəcə bəhanə deyil, əsas səbəb ola bilər. Geosiyasət, eyni zamanda yerin çoxşaxəli tədqiqini əhatə edir və siyasi coğrafiya ilə sıx bağlıdır.

Geosiyasət elminin banisi hesab olunan Fridriks Ratzel Münhen və Leypsiq Universitetlərində siyasi coğrafiyanı tədris etmişdir. O, dövlətləri bioloji hüceyrələrdən ibarət bir orqanizm kimi qiymətləndirmiş, dövlətin əsas məqsədinin inkişaf və genişlənmə olduğunu vurğulamışdır. Ratzel dövlətin genişlənməyə yönəlmiş siyasətinin, xüsusilə ibtidai və kiçik dövlətlərə kənardan təzyiq göstərmək formasında ortaya çıxdığını qeyd etmişdir[1].

Yaxın Şərqin zəngin neft və təbii qaz ehtiyatlarının əksinə olaraq su ehtiyatları problemli məsələlərdən biridir. Su ehtiyatlarının azalması region dövlətlərinin sərhədlərinin dəyişməsinə və sürüşməsinə səbəb olur. Bölgədəki bəzi münaqişələrin səbəbi kimi bölgədə su ehtiyatlarının qıtlığı göstərilir. Əslində, 1967-ci ildə İsrailin İordan çayının qərb sahilini və Suriyanı işğal etməsində məqsədin İordan çayının mənbəyini, məcrasını və qərb sahilinin yeraltı sularını ələ keçirmək olduğu bildirilir[2]. Fars Körfəzi, Şərqi Aralıq dənizi və Xəzər hövzəsi Yaxın Şərqin strateji əhəmiyyət kəsb edən nöqtələrindəndir. Şərqi Aralıq dənizinə çıxışı olan Suriya, İraq və Misir bu baxımdan strateji önəm daşıyır. İsrail-Ərəb və İsrail-Fələstin münaqişələri, bölgədə istənilən vaxt baş verə biləcək daxili qarışıqlıqların əsas səbəblərindən biridir. Qaçqın vəziyyətinə düşmüş Fələstin xalqının sosial-iqtisadi durumu, bölgədə hakim olan despotik rejimlər, su resursları problemi və

[1] *Kaplan, R. D. The Revenge of Geography: What the Map Tells Us About Coming Conflicts and the Battle Against Fate. / - Random House. - 2012, - p.8.*
[2] *Mustafa, A. Avrupa Birliği'nin Ortadoğu Politikası / Yayımlanmış Yüksek Lisans Tezi, Selçuk Üniversitesi, Sosyal Bilimler Enstitüsü, / - Konya, -2010, - s.19-20.*

terror təşkilatlarının fəaliyyət göstərdiyi ərazilər Yaxın Şərqin mühüm problemləri kimi qiymətləndirilir.

Körfəz bölgəsi (İran, İraq, Səudiyyə Ərəbistanı, Küveyt, Bəhreyn, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və Oman) siyasi və strateji baxımdan regionun mərkəzini təşkil edir. ABŞ-İraq müharibəsindən əvvəl bölgənin ən güclü iki dövlətinin İraq və İran olduğu müşahidə edilirdi. Bu iki dövlət arasında davam edən rəqabət, bölgənin idarə olunmasında qarşılıqlı təsirləri artırmışdır. Digər Körfəz dövlətləri isə nisbi olaraq daha zəif vəziyyətdə olub, təhlükəsizliklərini təmin etmək üçün yeni ittifaqlara daxil olmaqla maliyyə vəsaitlərini xərcləmişlər. 1979-cu ildə İranda baş verən İslam İnqilabından sonra bölgədə yeni idarəçilik strukturları formalaşmış, kiçik dövlətlərin siyasətləri də müəyyən dərəcədə İranın şii siyasət xətti ilə uyğunlaşmağa başlamışdır. ABŞ-ın İraq müdaxiləsindən sonra zəifləyən İraq, İranın bölgədə güc və təsir imkanlarını artırmasına şərait yaratdı[1].

II Dünya müharibəsinin sonunda Avropa dövlətləri qüdrətini itirərək super güclərdən birini – ABŞ-ı və ya Sovet İttifaqını seçmək məcburiyyətində qaldılar. Hər dövlət öz maraqlarına uyğun tərəf seçdi və Avropada nisbi sabitlik yarandı. Qərbi Avropa dövlətləri bir-biri ilə toqquşmamaq üçün ABŞ-ın dəstəyi ilə Kömür İttifaqı və BMT-ni yaratdılar. Bu dövrdə Avropa sənayeləşmə və inkişaf yoluna yönəlmiş, dominant güclər isə müstəmləkələrində, xüsusən də Afrika və Yaxın Şərqdə maraqlarını qorumağa cəmləşmişdi.

Müharibə anlayışının köhnəlməsi ilə silahlar və zorakılıq artıq şəhərlərin küçələrinə yönəldi; cəmiyyətlərin hüquq, ədalət, rifah və azadlıq tələbləri qarşılanmadıqda iğtişaşlar qaçılmaz oldu. Avropa və Asiya dövlətləri demokratik və iqtisadi inkişaf yolunda irəlilədiyi halda, Yaxın Şərq və Afrika regionları bu anlayışlardan uzaqda qaldı. Cəmiyyətlər sıxışdırıldığı, müxtəlif təzyiqlərə məruz qaldığı və ünsiyyət vasitələrindən məhrum olduğu üçün dəyişikliklərdən xəbərsiz qaldı.

---

[1] *Gause, F. G. The International Relations of the Persian Gulf. / - Cambridge University Press, - 2015, - p.32-33.*

Yeni əsrə qədəm qoyulduqda isə hüquq və azadlıqların, sənayeləşmənin və demokratiyanın inkişafının qarşısını almağın mümkün olmadığı başa düşüldü; İngiltərə yeni güc olan ABŞ ilə əvəz olundu. Yaxın Şərq və Afrika coğrafiyasının zəngin yeraltı sərvətləri, ABŞ-ın bölgəyə marağını indiyədək davam etdirdi. Bununla yanaşı, XXI əsrdə sürətlə inkişaf edən Çin Xalq Respublikası, Rusiyanın qüdrətini bərpa etmək istəyi və İranın regional siyasəti Yaxın Şərq və Afrikaya diqqəti artırdı, enerji resurslarına ehtiyac bu maraqları daha da gücləndirdi.

Sözügedən iqtisadi, sosial və təhlükəsizlik amilləri, eləcə də 11 sentyabr terror hücumlarından sonra, Yaxın Şərq bölgəsi ilə bağlı geniş araşdırmalar başlamışdır. Radikal qrupların törətdiyi iddia edilən hücumlar fonunda ABŞ, bölgənin demokratiyadan və insan haqlarından məhrum olduğu iddiasını irəli sürərək, Şimali Afrika və 300 milyon əhalisi olan 22 dövləti (Mavritaniya, Mərakeş, Əlcəzair, Tunis, Liviya, Misir, Sudan, Livan, Fələstin, İordaniya, Suriya, Türkiyə, İraq, Küveyt, Səudiyyə Ərəbistanı, Bəhreyn, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Oman, Yəmən, İran, Pakistan və Əfqanıstan) əhatə edən "Böyük Orta Şərq" layihəsini hazırladı. Layihənin həyata keçirilməsi üçün dini motivlər də daxil edilərək, ABŞ cəmiyyətinin geniş dəstəyi təmin edilməyə çalışıldı. Bu çərçivədə, ABŞ-ın keçmiş prezidenti Corc Buş 2001-ci il sentyabrın 11-də Nyu-Yorkdakı əkiz qüllələrə edilən terror hücumları İslamçı terrorçular – Əl-Qaidə və Usame Bin Laden tərəfindən törədildiyini bəyan etdi. Bu hadisəni yeni bir Səlib yürüşünün başlanması kimi təqdim etməsi, cəmiyyətin layihəyə dəstək verməyən təbəqələrinin də diqqətini cəlb edərək, "Böyük Orta Şərq" layihəsinin həyata keçirilməsinə imkan yaratdı.

ABŞ-ın keçmiş dövlət katibi Kolin Pol, 2002-ci ilin dekabrında Milli İrs Fondunda etdiyi çıxışında bu planı "ABŞ-Yaxın Şərq tərəfdaşlığına təşəbbüsün mühüm hissəsi" kimi təqdim etdi. Daha sonra 2003-cü ilin noyabrında prezident Corc Buş, "Demokratiyaya Milli Yardım" çıxışında layihənin mövcudluğunu rəsmi şəkildə təsdiqləyə-

rək, onu “Böyük Orta Şərq layihəsi üçün ideoloji əsaslandırma” adlandırdı[1].




Terrorla mübarizə siyasətinin ilk hədəflərindən biri Yaxın Şərq dövləti olan İraq oldu. 11 sentyabr terror hücumlarından sonra inkişaf etdirilən ideologiya həm İraqın işğalını, həm də “terrorizmin əsas səbəblərinin aradan qaldırılmasını” məqsəd qoymuş “Böyük Orta Şərq” layihəsini genişləndirməyə yönəlmişdi. ABŞ-ın bu layihədə müsəlman dövlətlərinə fərqli yanaşması – bəzi dövlətləri hədəfə alması, digərlərini (xüsusilə Türk Cümhuriyyətlərini) ayrı tutması – mümkün daha geniş nəticələrin qarşısını almağa xidmət edən strategiya kimi qiymətləndirilir. Həmin dövlətlərin Rusiya sərhədində yerləşməsi və ABŞ-ın onlara müdaxiləsinin birbaşa Rusiya ilə qarşı-qarşıya qalmasına səbəb ola biləcəyi ehtimalı, layihənin əhatə dairəsini bu regiondan uzaq tutmaq zərurətini ortaya qoymuşdur. Rusiyanın sərhəd təhlükəsizliyi və milli maraqlarının təhdid altında olduğunu iddia edərək reaksiya verəcəyi ehtimalı da bu siyasəti müəyyən etmişdir.

Soyuq müharibədən əvvəl ABŞ-ın İsrailə yönəlmiş siyasəti, bir sıra Ərəb və Yaxın Şərq dövlətlərində ABŞ-a qarşı mənfi münasibətin formalaşmasına səbəb olmuş və həmin dövlətlərin Soyuq müharibə dövründə Sovet İttifaqına yaxınlaşmasına yol açmışdır. Bütün bunları

[1] *Gause, F.G. The International Relations of the Persian Gulf, p.191.*

Afrika və Yaxın Şərq xalqlarının sosial, siyasi, mədəni və iqtisadi vəziyyətini nəzərə alaraq qiymətləndirdikdə, ABŞ-ın region üçün hazırladığı layihə geniş, mərhələli və strateji plan kimi qəbul edilə bilər. Bu layihənin sosial və mədəni komponentlərini həyata keçirmək məqsədilə Ağ Evdə "ABŞ-Yaxın Şərq Tərəfdaşlığı Təşəbbüsü" (The US-Middle East Partnership Initiative) adlı qurum yaradılmışdır. Sözügedən qurum layihənin bir hissəsi olan qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edir, tələbə mübadiləsi proqramları, seminarlar və sosial layihələrə nəzarət edir. "Böyük Orta Şərq" layihəsi ictimaiyyətə əsasən sosial və mədəni təşəbbüs kimi təqdim olunmuş olsa da, praktiki nəticələri meydanlarda qan və göz yaşı ilə müşahidə edilmişdir. Nəticə etibarı ilə, bu layihə insan haqları, demokratiya və sülh kimi universal prinsipləri regiona gətirmək məqsədini nümayiş etdirsə də, əslində ABŞ-ın hərbi müdaxiləsini və Yaxın Şərqin yeraltı sərvətlərinə nəzarətini təmin etmək üçün hazırlanmış strateji plan kimi qiymətləndirilə bilər. Yaxın Şərqin tarixi konteksti və bu gün bölgədə baş verən hadisələr göstərir ki, imperialist güclərin tətbiq etdiyi "həll yolları" uzunmüddətli və qalıcı sülh yaratmaq baxımından effektiv olmamışdır[1].



Böyük Orta Şərq layihəsinin "yumşaq güc" (soft power) strategiyası çərçivəsində Ərəb baharı, əsasən Tunis, Misir, Liviya, Bəhreyn,

[1] *Lynch, M. The Arab Uprisings: The People Want the Fall of the Regime. / - Oxford University Press. – 2016, - p.33-40.*

Yəmən və Suriya kimi dövlətlərdə baş verən kütləvi nümayişlər əsasında araşdırılır. Ərəb baharında hökumətə qarşı çıxışların başladığı ilk dövlət Tunisdir. 2010-cu il dekabrın 18-də tunisli, universitet məzunu olan gəncin, işsizlikdən şikayət edərək özünü yandırması nəticəsində yaranan sosial narazılıqlar böyüyərək nəzarətdən çıxdı. Ərəb baharının ən ağır yaşandığı dövlət də Tunisdir. Bunun səbəbi nümayişlər başlayandan sonra Ben Əli rejiminin cəmiyyətin müəyyən təbəqələrindən (bürokratiya, ordu və iş adamları kimi) gözlədiyi dəstəyi ala bilməməsidir. Ərəb baharından sonra Tunisdə keçirilən seçkilərdə, bir sağ və iki sol partiyanın iştirakı ilə üçlü koalisiya hökumətinin qurulması müsbət hal kimi qiymətləndirildi. Seçkidən sonra qurulan yeni koalisiya hökuməti dövlətdə yeni konstitusiyanı 27 yanvar 2014-cü ildə qəbul edərək qüvvəyə mindirdi. Böyük Orta Şərq layihəsi çərçivəsində və Ərəb baharı prosesində ilk etirazların keçirildiyi Tunisdə nümayişlər dayandı.

Misir strateji mövqeyi və geosiyasi coğrafi səbəblərə görə, dünya tarixində öz yeri olan və ən köklü mədəniyyətə sahib olan dövlətdir. Osmanlı imperiyası dövründə və sonrasında İngiltərənin Hindistana çatmaq üçün ən qısa yol olan Süveyş kanalından istifadəsi, Misiri hər baxımdan mühüm bir vəziyyətə gətirdi. Misir üçlü şəxsiyyətinə (Afrika, Ərəb və Aralıq dənizi) görə tarixi boyu həmişə balans problemi yaşayıb və Sovet İttifaqının dağılması ilə formalaşan, yeni, qeyri-sabit xarici siyasəti ilə, beynəlxalq arenada milli maraqlarını təhlükəyə atıb. ABŞ-ın Misirdəki rolu, dövlətə göstərdiyi iqtisadi və hərbi yardımlar sayəsində hər zaman əhəmiyyətli olmuşdur. İkinci Dünya müharibəsindən sonra hakimiyyətə gələn Misir hökmdarları ərəb millətçiliyi və sosializmin müxtəlif cərəyanlarının təsiri altına düşmüş, Sovet İttifaqı ilə yeni ittifaqlar axtarmış və İsraillə sərhəddə yerləşməsi səbəbi ilə dövlətin geosiyasi əhəmiyyətini artırmışdır. Lakin Camal Əbdülnasir dövründə İsrailə qarşı müharibələrin yaratdığı iqtisadi böhran və xarici siyasətdə asılılıq, bu günə qədər davam edən qarışıqlıqların əsas səbəblərindən biri olmuşdur. Tunisdə başlayan hadisələrin Misirə də sıçramasına səbəb xalqın mövcud rejimdən narazı olması idi. Mübarək

rejiminin 1980-ci illərdən sonra dövləti fövqəladə qanunlarla idarə etməyə çalışması, müxalifəti dinləməyib onlara təzyiq göstərməsi, xalqın tələblərinə adekvat cavab verməməsi və xarici siyasətdə ABŞ və İsrailin maraqlarına xidmət etməsi, xalqın ayaqlanmasına səbəb olmuşdur. Bu narazılıqlar 2011-ci il yanvarın 25-də Təhrir meydanında kütləvi nümayişlərə çevrilmişdir. Misir xalqı Hüsnü Mübarəkin istefasını tələb etmiş və nəticədə o, 11 fevral 2011-ci ildə vəzifəsindən istefa verərək rəhbərliyi Ali Hərbi Şuraya təhvil vermişdir[1].

Hüsnü Mübarək 2011-ci il yanvarın 25-də başlayan xalq üsyanı zamanı təhlükəsizlik qüvvələrinə nümayişçilərə qarşı güc tətbiq etməyi əmr etməkdə ittiham olunmuş və 25 il həbs cəzasına məhkum edilmişdir. Mübarəkin devrilməsindən sonra, 2012-ci il iyunun 29-da seçkilərlə hakimiyyətə gələn ilk prezident Məhəmməd Mursi isə tələb olunan islahatları həyata keçirməkdə xalq tərəfindən yetərli dəstək ala bilməmişdir. Mursinin vəzifəyə gəlişindən təxminən bir il sonra dövlətdə hadisələr yenidən alovlanmış və Misir ordusu rəhbərliyi öz üzərinə götürmüşdür. Mübarək dövründə hərbi kəşfiyyat rəisi, Mursi dövründə isə Baş Qərargah rəisi olan Əbdülfəttah Sisi 2013-cü ildə dövlət çevrilişi ilə hakimiyyəti ələ keçirmişdir. Seçilmiş prezidenti çevriliş nəticəsində əvəz edən yeni prezident Əbdülfəttah Sisi, ABŞ paytaxtı Vaşinqtonda rəsmi mərasimlərlə qəbul edilmişdir. Həmçinin, o, BMT Baş Assambleyasında çıxış etmiş, dünyanın müxtəlif dövlətlərindən gəlmiş nümayəndələrin iştirak etdiyi sessiyada fikirlərini təqdim etmişdir.

Liviya, adını qədim misirlilərin Nil çayının qərbində yaşayan bərbərlər üçün işlətdiyi "Lebu" sözündən almışdır. Aralıq dənizi coğrafiyasında yerləşən Liviya zəngin təbii qaz və neft yataqlarına malikdir. Bu səbəbdən bu ehtiyatları onun iqtisadiyyatının əsas dayağı adlandırmaq olar. 1911-ci ildə Trablus müharibəsinə qədər Osmanlı imperiyasının Afrikadakı ən mühüm əyalətlərindən biri idi[2]. 1969-cu il

---

*[1] Lynch, M. The Arab Uprisings: The People Want the Fall of the Regime, p.44-70.*
*[2] Bölme, S.M. İsyan, Müdahale ve Sonrası: Libya'da Dönüşümün Sancıları / U.Ulutaş, T.Özhan, M.Küçükkeleş. // Siyaset, Ekonomi ve Toplum Araştırmaları Vakfı, - İstanbul: - 2011, №5, - s.33-34.*

sentyabrın 1-də Liviya kralı İdrisin Türkiyədə müalicə olunduğu vaxt, Müəmmər Qəddafinin başçılıq etdiyi gənc zabitlərin dövlət çevrilişi nəticəsində, monarxiya idarəsi sona çatdı və onun yerində Liviya Ərəb Respublikası quruldu. Qəddafinin regionda məqsədi Ərəb birliyini yaratmaq idi. Bu məqsədə çatmaq üçün bir çox ərəb dövlətləri ilə danışıqlar aparılsa da, zaman keçdikcə Suriya və Misirlə fikir ayrılıqları oldu və birlik ideyası baş tutmadı. Müəmmər Qəddafi hakimiyyətə gələn kimi ölkədə milliləşdirmə işlərinə başladı. Bundan başqa, Müəmmər Qəddafi radikal terror qruplaşmalarını dəstəkləyib və kütləvi qırğın silahları əldə etməyi hədəflədi. Bu, Liviya ilə Qərb dövlətləri arasında çoxlu problemlər yaratdı. Ərəb baharı müddətində, digər Ərəb dövlətlərində olduğu kimi, Liviyada da eyni tələblər səsləndirilib. Lakin hər bir dövlət kimi, Liviyanın da özünəməxsus sosial quruluşu var. Liviyanı digər Yaxın Şərq dövlətlərindən fərqləndirən ən fundamental fərqlərdən biri, onun çoxsaylı qəbilələrdən ibarət sosial quruluşudur. 2011-ci il fevralın 17-də Liviyada xalq, "Ərəb baharı"ndan təsirlənib nümayişlərə başladı. Müəmmər Qəddafi zorakılıq yolu ilə bu nümayişləri yatırmağa çalışdı. Lakin Fransanın başlatdığı hava əməliyyatı, Türkiyənin və NATO-nun müdaxiləsi ilə, hakimiyyət çökdü. Qaçarkən yaxalanan Müəmmər Qəddafi, küçənin ortasında öldürüldü. Ancaq bu prosesdə qəbilələrin Müəmmər Qəddafiyə qarşı etirazlarda fəal olması, hətta silahlı aksiyalara dəstək verməsi, bu çöküşün ən mühüm amillərindən biri idi. Liviya, 2011-ci il oktyabrın 23-də, Qəddafi rejimindən azad edildi. Ərəb baharında Liviyanın yeri başqadır. Liviyadakı hadisələr həm Ərəb Birliyi, həm Avropa Birliyi, həm də BMT-ni eyni vaxtda hərəkətə keçməyə sövq etdi və sanksiya qərarları qəbul edildi. NATO-ya üzv dövlətlər birbaşa müdaxilə edərək, Qəddafinin devrilməsində mühüm rol oynadılar. Qurulduğu gündən diktatura rejimi ilə idarə olunan Liviyada, Ərəb baharının təsirinə məruz qaldıqdan sonra hakimiyyət dəyişsə də, demokratik nizam tam oturuşmadı. Dövlətin hər yerində ciddi fəaliyyət göstərən İslam təşkilatlarının mövcudluğu hələ də davam edir.

Ərəb baharının baş verdiyi dövlətlər arasında həm iqtisadi, həm də siyasi baxımdan zəif dövlətlərin olması bu dövlətlərin xarici müdaxilələrə açıq olmasına səbəb oldu. Körfəz dövlətləri arasında iqtisadi vəziyyəti yaxşı olmayan Bəhreynin geosiyasi mövqeyinə görə, böyük əhəmiyyət kəsb etdiyi bir həqiqətdir. Bəhreyn, Qətər və Səudiyyə Ərəbistanı arasında yerləşən ada dövlətidir. Onun tarixi digər körfəz ölkələri ilə eynidir, ancaq digər körfəz dövlətlərindən fərqləndirən ən əsas xüsusiyyət, sosial tərkibindəki şiə əhalisidir. Digər Yaxın Şərq dövlətlərində olduğu kimi, Bəhreyndə də, siyasi münaqişələr zamanla özünü göstərdi. 2011-ci il fevralın 14-də Bəhreyndə meydana çıxan və böyük dəyişikliklərə səbəb olan Ərəb baharı, "İnci inqilabı" və ya "14 fevral inqilabı" kimi də adlanır. Şiə nüfusunun çox olduğu dövlətdə zaman-zaman həm iqtisadi, həm də siyasi səbəblərdən Sünni krala qarşı çıxılırdı. Kralın sünni olduğu Bəhreyində, şiələrin hüquqları tez-tez tapdalanır, orduya qəbul edilmirdilər. Bu vəziyyət də ölkədaxili sünni və şiə əhali arasında qarşıdurmalar yaşanmasına səbəb olurdu. Ərəb baharı ilə başlayan qiyam dalğasında, Körfəz dövlətlərinin ən şiddətli qarşıdurmaları şiə əhalinin sıx olduğu bölgələrdə yaşandı. Şiə əhalinin siyasi islahat tələbləri tam yerinə yetirilmədiyi üçün, şiələr və sünnilər arasında sosial parçalanmaya, küçə etirazlarına tam son qoymaq mümkün olmadı[1]. Türkiyə prezidenti, Tayyib Ərdoğan tərəfindən, İraqda Hz.Əli türbəsinə ziyarəti zamanında, "İkinci Kərbəla müsibəti" istəmirik şəklində danışaraq, Şiə lideri Ayətullah Sistani ilə görüşərək, Bəhreyndəki qanlı çatışmaları qınadı. Lakin, ABŞ və Qərb dövlətləri, Bəhreyndə baş verən zülm zamanı, səssiz qalmağa üstünlük verdilər. ABŞ və Avropa Birliyi dövlətlərinin Körfəz dövlətləri ilə silah ticarətini buna səbəb kimi göstərmək olar. Bu cür mövqedə dayanması, Ərəb cəmiyyətlərində və xüsusən şiələr arasında, ABŞ-ın demokratiyanın və insan haqqlarının müdafiəçisi kimi tanınan imicinə xələl gətirdi. Bəhreyndəki hadisələrə dəstək mövqedə isə, İran və Səudiyyə Ərəbistanı arasında mübarizə gedirdi. İran, beynəlxalq səssizliyə baxmayaraq,

[1] *Öztürk, H. Modern Orta Doğu Siyasi Tarihi / - İstanbul: Bilgesam Yayınları, – 2016, - s.124.*

Bəhreyndəki şiələrə dəstək adı altında, öz nəzərini buradaki hadisələrin üzərindən çəkmirdi. Ərəbistan və Bəhreynin yerli sünni əhalisinin şiələrə qarşı təcavüzü isə, İran tərəfindən şiddətlə qınanırdı. Tobi Manheysenin "Məzhəb Körfəzi" adlı kitabında, Səudiyyə Ərəbistanın və İranın, Bəhreyndəki şiə və sünni əhalini öz tərəfinə çəkməsində istifadə etdiyi siyasəti "parçala və hökm et" prinsipinə bənzədilir. Nəticədə, İran, şiələri qoruya, gözləntilərini qarşılaya bilmədiyi üçün, nəinki tək Bəhreyndə, bütün Ərəb dünyasındakı şiələr arasında imici zədələndi.

23 milyon əhalisi olan Yəmən, Səudiyyə Ərəbistanının cənubunda və Ərəbistan yarımadasının Süveyş kanalı olan hissəsində yerləşir. Ona görə də böyük strateji əhəmiyyətə malikdir. Tarixi etibarı ilə, digər Yaxın Şərq və Şimali Afrika dövlətləri ilə eyni taleyi paylaşır. 1962-ci ildə, ərəb millətçiliyi ilə sosializmi birləşdirən Nasirizmin təsiri altında olan Yəmən ordusu, bəzi gənc zabitlərin köməyi ilə hökuməti ələ keçirərək, Yəmən Ərəb Respublikasını elan etdi. Bundan sonrakı dövrdə vətəndaş müharibələrinin qarşısı alına bilmədi. Misir və Səudiyyə Ərəbistanı Yəmənə birlikdə müdaxilə etdi, lakin yeni problemlər ortaya çıxdı. Tunisdə başlayan Ərəb baharının qığılcımı Yəmənə də sirayət etmiş və 3 fevral 2011-ci ildə başlayan nümayişlərin sonunda Əli Abdullah Saleh, 32 illik hakimiyyətini tərk etmək məcburiyyətində qalmışdır.

ABŞ, Yəməndə Əl-Qaidə və buna bənzər terror təşkilatlarının mövcud ola biləcəyini bəhanə edərək, mülki insanları təhdid edirdi. Yəmən xalqının yarısı yoxsulluq həddinin altında yaşayır. Yəmənin məhdud resurslarının hökumət tərəfindən bölgələrə ədalətli şəkildə bölüşdürülməməsi və mərkəzi hakimiyyəti gücləndirəcək təşkilatların yaradılmasına imkan verilməməsi, Yəmənin ən əsas dilemmalarından biridir[1]. Yəməndə Əl-Qaidənin terror əsdirdiyi bir mühit, Böyük Orta Şərq layihəsinin və Ərəb baharı hadisəsinin təsirlərinin sona qədər hiss olunduğu bir vəziyyət var.

---

[1] *Kurşun, Z., Arap Baharı Sonrası Yemen'in Çıkmazları: [Elektronik Kaynak] - / Aljazeera Turk, - Ocak 25, 2014.*

Suriya Mesopotamiyanın qərbində yerləşən və tarixdə bir çox sivilizasiyaya ev sahibliyi edən coğrafiyada yerləşir. Ərəb baharı olaraq adlandırılan, Şimali Afrika və Yaxın Şərqdə baş verən inqilablar silsiləsinin Suriya bölməsi, ən uzun və ən qanlı səhnəsini yaşadı. Ərəb baharını yaşayan digər dövlətlərlə müqayisədə, Suriyada prosesin uzanması mürəkkəb daxili və xarici amillərə əsaslanır[1]. Üsyanların bütün şəhərlərdə deyil, ölkənin yalnız bir hissəsində yaranması və davam etməsi ayrıca mürəkkəblik yaradır. Bu səbəbdən, Suriya Böyük Orta Şərq layihəsinin və Ərəb baharının ən uğursuz ölkəsi deyil, açıq şəkildə hədəf ölkəsidir deyə bilərik. 2011-ci il martın ilk günlərindən başlayan dinc nümayişlərə təhlükəsizlik qüvvələrinin sərt müdaxiləsi, ölkədə daha çox insanın həyatını itirməsinə səbəb oldu. Hadisələri alovlandıran ilk hadisə cənubdakı Dera şəhərində iki gəncin qraffitiyə görə həbsindən sonra baş verdi. Güclü işgəncələrə məruz qalan gəncləri azad etmək üçün mənsub olduqları tayfaların küçələrə çıxması şəhərdə gərginliyi artırdı[2]. Bu hadisələr Suriyada uzun illər davam edəcək və minlərlə insanın həyatına son qoyacaq vətəndaş müharibəsini başlatdı. Lakin Suriyadakı hadisələrin fərqli cəhəti nümayişlərdə geniş kütlələrin iştirakının olmamasıdır. Əksər qruplar hadisələrdə iştirak etməməklə özlərini bitərəf kimi göstərsələr də, əslində rejimin istədiyi reaksiyanı göstərdilər. Ona görə də hadisələr müəyyən həddə qaldı. Ölkənin böyük bir hissəsi rejimə reaksiya olaraq ortaya çıxan "islamçı" adlanan qrupların birləşməsi nəticəsində ortaya çıxan İŞİD terror təşkilatının nəzarətində qaldı. Şimali Afrika və Yaxın Şərq coğrafiyasında, Suriya Ərəb baharı nöqteyi-nəzərindən idarəsi dəyişməmiş, lakin sərhədləri dəyişən yeganə dövlət olaraq qaldı. Ərəb baharından ən çox təsirlənən Suriya Ərəb Respublikası, Soyuq müharibə dövründə

[1] *Şen, S.Ortadoğu'da İdeolojik Bunalım: Suriye Baas Partisi ve İdeolojisi / - İstanbul: Birey Yayıncılık, - 2004, - s.56.*
[2] *Karkın, V., Yazıcı, Ö. Arap Baharı'nın Suriye'ye Yansıması ve Türkiye'ye Sığınan Mülteciler (Gaziantep Örneği) // - Kuzey Kıbrıs Türk Cumhuriyeti: 21. Yüzyılda Eğitim ve Toplum, -2015, 4(12), s.206.*

Sovet İttifaqının, daha sonra isə Rusiya Federasiyasının dəstəklədiyi, ABŞ ilə maraqların toqquşduğu dövlət olmuşdur.

Beləliklə, tarixi-coğrafi fon nəticəsində, enerji ehtiyatlarının mərkəzi sayılabiləcək Yaxın Şərq, regional təhlükəsizlik kompleksi böhranlarının da mərkəzinə çevrilmişdir. Regionda yeni kəşf edilən enerji qaynaqları, beynəlxalq terror, miqrasiya, siyasi qeyri-sabitlik, 2001-ci ildən bəri artmağa davam edən böhranlar dünyadakı böyük dövlətlərin regiona müdaxiləsinə zəmin yaratmışdır. Xüsusən, Əfqanıstan və İraqın işğalından sonra, digər ərəb dövlətlərindəki hökümət başçısı dəyişikliyi, Fələstin-İsrail münaqişəsi, region dövlətlərinin beynəlxalq aləmdə birgə fəaliyyət göstərə bilməməsi, Yaxın Şərqdə sülh və əmin-amanlığa nail olmağın yolunu xeyli çətinləşdirmişdir.

### 1.3. Ərəb baharını şərtləndirən səbəblər

Ərəb baharı hərəkatları Tunisdə başlamış və ilkin olaraq yalnız bu dövlətlə məhdudlaşacağı düşünülmüşdür. Lakin hadisələr qısa müddət ərzində Misir və Liviya kimi digər bölgələrə də yayılmışdır. Tunisdəki etirazlar, insanların üzləşdiyi sosial-iqtisadi çətinliklərə qarşı baş vermiş, bir sıra insan itkisinə və zorakılığa səbəb olmuş, polis etirazları zor tətbiq etməklə yatırmağa çalışmışdır.

Tunisin simvoluna çevrilən yasəmən çiçəkləri ilə eyniləşdirilən və “Yasəmən İnqilabı” olaraq da adlandırılan bu hərəkat sosial media vasitəsilə sürətlə yayılmışdır. Muhəmməd Buəzizinin ölümündən sonra başlayan etiraz dalğası Əlcəzair, Livan, İordaniya, Mavritaniya, Sudan, Oman, Yəmən, Səudiyyə Ərəbistanı, Misir, Suriya, Liviya, İraq, Bəhreyn və Küveyt kimi dövlətlərə də sirayət etmişdir. Baxmayaraq ki, bəzi dövlətlərdə hərəkatın təsiri məhdud olmuşdur, Tunis, Misir və Liviyada inzibati dəyişikliklər həyata keçirilmiş, Suriyada isə vətəndaş müharibəsi baş vermişdir. Bu proseslər ərəb xalqını demokratiya, azadlıq və insan hüquqları kimi fundamental prinsiplərə yönəltmiş, insanları öz hüquqlarını və ədalətini tələb etməyə təşviq etmişdir. Eyni

zamanda, gənc nəslin şüurluluğu nəticəsində despotik rejimlərə və onların idarəetmə siyasətinə qarşı narazılıq artmışdır[1].

Yaxın Şərq tarixində 2010-cu ildə baş qaldıran kütləvi üsyanların və sosial narazılıqların əsas səbəblərini araşdırdıqda, Ərəb baharı hərəkatına gətirib çıxaran amilləri sosial-iqtisadi, siyasi, tarixi-mədəni və xarici faktorlar kimi qruplaşdırmaq mümkündür. Sosial-iqtisadi amillər çərçivəsində korrupsiya, işsizlik, yüksək inflyasiya, yoxsulluq və artan ərzaq qiymətləri kimi çətinliklər insanların gündəlik həyatını dözülməz hala gətirmişdir. Bölgədə sosial bərabərsizlik artır, kasıblar daha da yoxsullaşarkən, varlı təbəqə isə zənginliyini genişləndirmişdir[2].

Sosial-iqtisadi vəziyyətin pisləşməsinə şərait yaradan amillərdən biri də qlobal hərəkatlardır; Avropa, Rusiya və Çin kimi dövlətlərdə baş verən oxşar etiraz dalğaları Yaxın Şərqdəki üsyanlara təsir göstərmişdir. Bundan əlavə, Ərəb üsyanları 2011-ci ildə ABŞ-ın Nyu-York şəhərindəki Uoll Strit (Wall Street) etirazlarına ilham vermişdir[3]. Korrupsiyanın mövcudluğu istənilən dövlətdə siyasi sabitliyin azalmasına və dövlət institutlarının təsirinin zəifləməsinə səbəb olur. Yaxın Şərq və digər regionlarda korrupsiyanın əsas səbəbləri arasında qanunvericilikdəki çatışmazlıqlar, dövlət idarəçiliyində zəiflik, maliyyə və dövlət orqanları arasında koordinasiyanın qeyri-kafi olması, eləcə də sosial-mədəni struktur problemləri göstərilir. Ərəb baharının ortaya çıxmasında əsas amillərdən biri işsizlik olmuşdur. İşsizlik, vətəndaşları hökumətə etiraz etməyə təşviq edən başlıca faktorlardan biri olaraq çıxış edir. Əgər dövlətin əhalisinin böyük hissəsi işsizdirsə, bu, dövlətin idarəetmə sistemində ciddi çatışmazlıqların mövcudluğuna işarə edir və hökumətin etirazlara qarşı hazırlıqsız olduğunu göstərir. Belə zəif idarəçilik isə kütləvi etirazlar üçün əlverişli şərait yaradır. 2008-ci ildə iqtisadi böhranla birlikdə dünya böyük bir işsizlik problemi ilə

[1] *Marc, L. The New Arab Wars: Uprisings and Anarchy in the Middle East / - (New York: PublicAffairs, -2016, - p. 45–78.*
[2] *Marc, L. The New Arab Wars.., p.39.*
[3] *Yenə orada, p.52-55.*

üzləşdi. Demoqrafik partlayış və istehsalın azalması da ərəb dövlətlərində işsizliyi artıran mühüm amillərdən idi[1]. Ərəb baharı coğrafiyasında, yəni Yaxın Şərq və Şimali Afrika dövlətlərində gənclər arasında işsizlik nisbəti böyüklərin işsizlik nisbətindən dörd dəfəyə qədər, bəzi bölgələrdə isə gənclər arasında işsizlik nisbəti 25%-ə qədər yüksəkdir. Ərəb baharı zamanı işsizliyin ən çox yaşandığı dövlətlər isə Tunis, Misir və İordaniya olmuşdur. Yaxın Şərq və Şimali Afrika dövlətlərində qadınların əmək bazarında vəziyyəti daha ağırdır. Yaxın Şərq dövlətlərində qadınların işsizliyi kişilərdən orta hesabla 2,3% çoxdur. 2011-ci ildə Şimali Afrika dövlətlərində gənclər arasında işsizlik nisbəti 27,1% -ə çatdığı halda, gənc qadınlarda bu işsizlik nisbəti 41,0%-ə yüksəlmişdir[2]. Bu dövlətlərin əmək bazarlarında gənclərə və qadınlara qarşı olan bu mənzərənin əsasında bir sıra amillər dayanır. Əhalinin yüksək artım sürəti, gəlirlərin qeyri-bərabər bölgüsü, məktəblərdə təhsilin keyfiyyətinin aşağı olması, universitetlərə qəbulun nisbətinin aşağı düşməsi, xüsusən də qızların məktəbə göndərilməməsi, qadınların erkən yaşda ailə qurmasına, uşaq ana mövqeyinə düşmələrinə səbəb olur. İşsizliyin digər səbəblərinə milli və dövlət müəssisələrinin transmilli korporasiyalara satılması, digər iqtisadi imkanların olmaması daxildir[3].

Neft amili, beynəlxalq münasibətlərə təsir edən müəyyənedici amillərdən biri olaraq qalır. İstər dünyanın aparıcı dövlətləri, istərsə də inkişaf etməkdə olan dövlətlər hələ də enerji amilindən asılılığını qoruyub saxlayır. Dövlət enerji resurslarını davamlı və fasiləsiz nəzarətdə saxlamalı, riskləri minimuma endirməyi bacarmalıdır. Neft satışından əldə olunan gəlirlər bir çox ərəb dövlətləri üçün çox vacibdir. Neft gəlirləri regiondakı avtokratik rejimlərin sabitliyini təmin edir. Dünya iqtisadiyyatında baş verən dəyişikliklər, beynəlxalq münasibətlərdə

---

[1] *Mushtaq, A.Q., Afzal, M. Arab Spring: Its Causes And Consequences. // - JPUHS, - 2017, 30(1), - p.2.*
[2] *Mushtaq, A.Q., Afzal, M. Arab Spring.., p.3.*
[3] *Barany, Z. Comparing the Arab Revolts-The role of the Military //Journal of Democracy, - Washington: - 2011, 22 (4), - p.32-39.*

dünya güclərinin diqqətini Yaxın Şərq regionunun neft ixrac edən dövlətlərinə yönəltmişdir. Əslində, neft ixracının Ərəb baharı ilə əlaqəsini araşdırarkən, bəzi alimlər Misir, Suriya, Tunis və Yəmənin neft ixracının az olmasına baxmayaraq, bu dövlətlərdə genişmiqyaslı etirazların baş verdiyini müzakirə edir. Bu gün istifadə edilən neftin 80%-i 1970-ci illərdən əvvəl kəşf edilmiş rezervlərdən çıxarılır, halbuki bu ehtiyatların bir çoxu tükənmək üzrədir. Dünyanın ən çox ehtiyac duyduğu bölgədəki neft ehtiyatları belə, Yaxın Şərqin iqtisadiyyatını inkişaf etdirmək üçün kifayət etmir. Bunun əsas səbəbi regionda iqtisadi islahatların demək olar ki, aparılmamasıdır. Edildiyi deyilən iqtisadi islahatlar da həm regional şəraitə, həm də dövlətlərin siyasətinə görə bölgəyə uyğunlaşa bilmədilər.

Təhsil Yaxın Şərq dövlətlərinin sosial inkişafında mühüm amillərdən biridir. Yüksək təhsil səviyyəsinin demokratik prosesi zənginləşdirdiyini irəli sürən modernləşmə nəzəriyyəsinə görə təhsil iqtisadi artım üçün vacibdir. Təhsil insanları daha yaxşı koordinasiya etməyi asanlaşdırır. Yaxın Şərqdə ərəb üsyanlarına səbəb olan amillərdən biri də təhsilli gənclərin iş tapa bilməməsidir. Beləliklə, 26 yaşında özünü yandıran Məhəmməd Buəzizi də Tunisdə təhsilli və işsiz gənclərdən biri idi. O, Ərəb baharının başlanmasında qığılcım oldu. Buəzizi heç bir iş tapa bilmədiyi üçün, küçə satıcısı oldu və tərəvəz dəzgahına polis tərəfindən əl qoyuldu.

Yaxın Şərqdəki üsyanlar zamanı gənclər mühüm rol oynadılar. Tarixdə gənc əhalisi olan xalqlar toqquşmalardan, üsyanlardan qorxmurlar. 1990-cı illərdə olduğu kimi, əhalisi gənc olan dövlətlərdə daha çox toqquşmalar baş verirdi[1]. Beləliklə, Ərəb dövlətlərində gənclərin sayının çoxluğu region üçün həm çətinliklər, həm də imkanlar yaradır. Yaxın Şərq dövlətlərində gənclər təhsil, iş imkanları və şəhərləşmə səviyyəsinə görə müxtəlif çətinliklərlə üzləşirlər. Bir qayda olaraq, onlar işsizlik, artan ərzaq qiymətləri və aşağı əmək haqqı ilə mübarizə apar-

[1] *Terrill, A. Arab Threat Perceptions and the Future of the U.S. Military Presence in the Middle East, p.46.*

malıdırlar. Gənclər texnologiya və sosial mediaya daha yaxın olduğundan, avtoritar liderlərə qarşı səfərbər olmaqda bir-birlərini ruhlandırdılar.

İnsanların bir-biri ilə göyərçinlər, elçilər vasitəsilə ünsiyyətdə olduğu qədim dövrdən texnologiyanın inkişafı nəticəsində televiziya, radio kimi kütləvi informasiya vasitələrinin intensiv istifadə olunduğu, qəzet və jurnal kimi yazılı mənbələrin insanlara müxtəliffikirləri çatdırdığı ünsiyyət dövrünə çatmışıq. Dünyanın hər yerində ortaya çıxan yeni bir vəziyyətin asanlıqla öyrənilə biləcəyi və ən qısa zamanda hər kəsə çatdırıla biləcəyi bir dövrdəyik. Məsələn, Tunisin devrilmiş lideri Zeynəl Abidin Ben Əli və onun həyat yoldaşı Leyla Trabelsinin mənimsəmə ittihamları ilə məhkəməsi, hətta ölkəni tərk edərkən özləri ilə çamadanlarla qızıl-zinət əşyaları aparması qəzet və televiziyalarda göstərilib. Doğru və ya yalan hər hansı bir məlumatın bu qədər sürətlə yayıldığı bir mühitdə xəbərlərə reaksiya daha aqressiv ola bilər, xüsusən də zülmlə idarə olunan cəmiyyətlərdə.




Söz və mətbuat azadlığının məhdudlaşdırılması Yaxın Şərq regionunda liderlərə qarşı nümayişlərin digər mühüm amilidir. Buradakı avtoritar dövlət başçıları adətən medianı, jurnalları və digər onlayn nəşrləri izləyirdi. Dövlətdə mətbuat azadlığının olmaması avtoritar rejimlər üçün xarakterikdir, çünki liderlər azad mətbuatın olmamasının

üsyanların qarşısını aldığına inanırlar. Bununla belə, Ərəb baharı etirazları zamanı müxalifət səslərinin basdırılması ilə göründüyü kimi, bu regionda heç vaxt söz azadlığı olmayıb. Avtoritar dövlətlər interneti də özləri üçün təhlükə hesab edirlər. Belə ki, Qəddafi, Bəşər Əsəd, Zeynəl Abidin Ben Əli, Səud kimi liderlərin və onların arvadlarının var-dövlət, dəbdəbə içində yaşaması, xalqın sərvətini qəsb edən dövlət idarəçilərinin nə qədər yaxşı yaşadığına dair təsəvvürün formalaşmasına və sosial reaksiyalara səbəb oldu. Kütləvi informasiya vasitələri ilə dünyaya bəyan edilən məlumatlar sosial partlayışlara səbəb olan amillərdəndir. Beləliklə, hökümət internetə nəzarət etməyə çalışırdı. İnternet qanunla dövlətin nəzarətinə keçdi. Hökumətlər Ərəb baharı öncəsi xəbərlərə məhdudiyyətləri və senzuranı daha da artırdılar. Ərəb baharının başlaması ilə bu məhdudiyyətlər tədricən artdı. Ərəb baharı zamanı internet Mübarək tərəfindən 2011-ci ildə kəsildi, bəzi bloqçular Twitter və Facebook-da insanları üsyana qaldırmaqda əməkdaşlığına görə həbs edildi. Bir çox jurnalist siyasi xəbərlərə görə həbs edildi. Məşhur bir misal kimi, blogger olan Slim Buxdhir Tunis rejiminin və Ben Əlinin ailəsinin korrupsiyası haqqında məlumat vermişdi. Xəbər verdikdən sonra onu zorla maşına mindirib və döyüblər. Bundan əlavə, Tunis hökuməti 2011-ci ildə medianın və söz azadlığının məhdudlaşdırılması haqqında qanun qəbul edib. Beləliklə, qanun pozuntusuna görə 25 ilə qədər həbs cəzası verilə bilər.

Hegemonluq bəzi dövlətlərin rəhbərlərinə cəmiyyət üzərində qorxu mühiti yaradaraq öz hakimiyyətlərini qorumağa imkan verir. Bu çərçivədə ordu, polis və kəşfiyyat orqanlarının vətəndaşlara tətbiq etdiyi təzyiq, Suriya və İraq nümunələrində olduğu kimi, kəşfiyyata əsaslanan dövlət idarəçiliyi sistemini formalaşdırmışdır. Kəşfiyyatın güclü olduğu bölgələrdə dövlətin informasiyaya malik olmaması mümkün deyil, çünki hər bir fərdin fəaliyyəti barədə dəqiq təsəvvürlər mövcuddur. Suriya və İraqda, geniş mülahizələrə görə, hər yeddi vətəndaşdan biri kəşfiyyatçı hesab olunur. Əsaslandırılmamış həbs olunan şəxslərin taleyinin məlum olmaması isə cəmiyyətdə qorxu və psixoloji sarsıntı yaratmışdır.

Bundan əlavə, dövrün ən mühüm texnoloji nailiyyətlərindən olan sabit və mobil telefonların geniş istifadəsi dövlətlərin işlərini asanlaşdırmışdır. Sosial medianın rolunun Ərəb üsyanlarında həlledici olduğu və kommunikasiya vasitələrinin gələcək fəaliyyətlərin formalaşdırılmasında əhəmiyyətli olduğu vurğulanmışdır. Sosial medianın mövcudluğu Ərəb baharının başlanması və genişlənməsində əsas amil kimi qiymətləndirilə bilər. Bəzi tədqiqatçılar (Lotan, Graeff, Ananny, Gaffney, Pirs və Boyd) sosial medianın informasiyadan istifadə edərək etiraz və üsyanları təşviq etmək, saxlamaq və yönəltmək gücünə malik olduğunu iddia etmişlər. Sosial media həmçinin demokratiyaya keçid üçün ümidin gücləndirilməsində və Ərəb baharı hadisələri zamanı rolunu ortaya qoymuşdur. Qlobal ünsiyyət vasitəsi kimi sosial media müxalifət qruplarının koordinasiyasına və insanlar arasında həmrəylik yaratmağa imkan verirdi. Yeni texnologiyalar informasiya axınını sürətləndirir və vətəndaşların səfərbərlik ruhunu yüksək səviyyədə saxlamağa şərait yaradır. Qloballaşma nəticəsində vətəndaşların sosial mediaya çıxışı asanlaşmış və meydanlarda toplaşmaq motivasiyası yüksəlmişdir. Bununla belə, Ərəb dövlətlərində bir sıra avtoritar liderlər sosial mediaya çıxışa nəzarət etməyə çalışmış, bəzi hallarda isə hətta internet xidmətlərini və mobil 3G şəbəkələrini tamamilə dayandırmışdır. Polisin insanlara qarşı zor tətbiqini əks etdirən videoların paylaşılması və nümayişlərin koordinasiyalı şəkildə təşkili sosial medianın rolunu qiymətləndirməyi zəruri edir.

Məhəmməd Buəzizinin özünü yandırması ilə başlayan kütləvi etirazlardan əvvəl, onun dezgahına müdaxilə edən polislə davası videoya çəkilmiş və sosial mediada geniş yayılmışdı. Bu, hadisənin şahidləri arasında məlumat paylaşımını təmin edirdi və etirazçıların görüntüləri sosial şəbəkələrdə sürətlə yayıldı. Tunisdə iğtişaşlar baş verərkən, Ben Əlinin diktaturası dövründə təxminən iki milyon insan ünsiyyət üçün Facebook-dan istifadə edirdi. Misirdə də nümayişlərlə bağlı məlumatlar Facebook və Twitter platformalarında paylaşılmışdır. Misirli etirazçılar Ərəb baharı zamanı sosial media və internetdən intensiv istifadə etmişlər; xüsusilə Twitterdə Mübarək rejiminə qarşı

“#Get!” (#Leave!) həştəqi ilə mesajlar göndərmişlər. Liviyada internet kəsintisi baş vermiş olsa da, əsas dövlət mediası proseslə bağlı obyektiv məlumat vermədiyindən, nümayişlər zamanı baş verən hadisələrin digər dövlətlərə çatdırılmasında sosial medianın təsiri böyük olmuşdur[1].




Qeyd etdiyimiz kimi, Yaxın Şərqdə avtoritet və totalitar rejimlər hökm sürür. Bu vəziyyət regionun qeyri-demokratik rejimlər tərəfindən idarə olunmasına və hakimiyyətin tək ailə üzərində qurulmasına gətirib çıxardı. İllərdir antidemokratik rejimlər tərəfindən idarə olunan və bir çox məsələlərdə hüquqları tapdalanan xalqın bu təzyiqə dözə bilməməsi və üsyanları nəticəsində Ərəb baharı yarandı. Bu prosesdə xalqın siyasi tələbləri sırasında daha çox demokratik rejimlə idarə olunma istəyi dayanırdı. Diktatorların hakimiyyətdən uzaqlaşdırılması, avtoritar və totalitar rejimlərin aradan qaldırılması, siyasi korrupsiyanın qarşısının alınması və ədalətli seçkilər xalqın əsas tələblərindən

[1] *Lotan, G., Graeff, E., Ananny, M., Gaffney, D., Pearce, I., & Boyd, D. The Arab Spring | The revolutions were tweeted: Information flows during the 2011 Tunisian and Egyptian revolutions. // International Journal of Communication, Vol. 5, - 2011, - p.31-69.*

idi. Xalqın hökumətin legitimliyini qəbul etməməsi Ərəb baharı prosesini daha da gücləndirdi[1].

Yaxın Şərq bölgəsinə tarixi forma verən digər mühüm fakt da, bölgənin uzun tarixi boyunca müxtəlif imperiyalara ev sahibliyi etməsidir. 1517-ci ildən rəsmi olaraq Osmanlı imperiyasının xilafətin idarəçiliyini ələ keçirdiyi vaxtdan Birinci Dünya müharibəsindən sonrakı vaxta qədər bölgədə çox dinc bir dövr hökm sürdü. Bu coğrafiya Asiya ilə Avropanın kəsişməsində olması, İpək Yolu kimi çox əhəmiyyətli ticarət yollarının mərkəzində olması və bir çox strateji səbəblərə görə tarix boyu çox əhəmiyyətli bir yerə sahib olmuşdur. Bu dinc dövr Avropada başlayan fərqli düşüncə cərəyanları və onu izləyən Birinci Dünya müharibəsi ilə sona çatdı. Müharibədən sonra çəkilən yeni sərhədlərlə kəndlər, tayfalar, ailələr bölündü. Bu parçalanmaya səbəb olan Qərb hegemonluğu sərhədləri təyin edərkən, xüsusən İngiltərə və Fransa kimi qalib dövlətlər ancaq öz maraqlarını güdürdü. Yaxın Şərqdə hökmranlığını davam etdirən dövlətlər Birinci Dünya müharibəsi başa çatdıqdan sonra müstəqillik əldə etmiş dövlətlərdir. Ancaq bu kontekstdə dəyərləndirilən dövlətlər müəyyən mənada Avropa dövlətlərinin gizli razılaşmaları çərçivəsində müstəqillik əldə etmiş dövlətlərdir. Bu baxımdan, Ərəb baharı, ərəb xalqlarının keçmişdə Qərb tərəfindən sıxışdırılan müstəqilliklərinin mübarizə yolu ilə əldə olunması istəyi nəticəsində meydana çıxdı[2]. Qərbi Avropanın siyasətlərini idarə edən İngiltərə və Fransa imperialist dövlətlər kimi bölgəni öz nəzarətlərinə götürmüşdülər. Yaxın Şərqdə yaşayan insanlar müstəqillik əldə etdikdən sonra xüsusilə XIX əsrdən başlayaraq qərblilərin himayəsi altında özlərinə tətbiq edilən həyatı yaşamışlar. Onların Qərb dövlətləri tərəfindən aldadılıb alçaldılmaları göstərir ki, onlar Ərəb baharı

[1] *Bacık, G. Arap Baharından Ortadoğu ve Kuzey Afrika'nın Geleceğine Bakmak // Müsiad Çerçeve Dergisi, - İstanbul: - 2011, (57), - s.16-22.*
[2] *Güler, E.Z. Arap Milliyetçiliği: Mısır ve Nasırcılık: Tahrir Meydanında Korkuyu Yenmek / - İstanbul: Yazılama Yayınevi, - 2011, - s.209-211.*

hərəkatını təkcə öz hakimiyyətlərinə, rejimlərinə qarşı deyil, həm də Qərbə qarşı başlatmışlar[1].

Ərəb baharı bəlkə də birbaşa və ya dolayı şəkildə siyasi azadlıqların məhdudluğu ilə bağlıdır. Ərəb dövlətlərində ümumilikdə demokratiya olmasa da, rejim tiplərinə və siyasi azadlıqların vəziyyətinə görə bir-birindən fərqlənirlər. Qeddes, Rayt, and Frants avtokratik rejimləri təsnif edərkən, personalist, təkpartiyalı və hərbi rejimlər olaraq ayırırlar. Buna uyğun olaraq Misir və Tunis təkpartiyalı, Liviya və Suriya isə personalist rejimlərə daxildir. Hər bir rejim tipi adətən fərqli sonluqlara malikdir: personalist rejimlərin digər növlərə nisbətən zorakılıq və üsyanla bitmə ehtimalı daha yüksəkdir və onların dağılması diktatorun ölümü və ya xarici təzyiq nəticəsində baş verir; bu prosesdən sonra isə yeni avtoritarizm formaları ortaya çıxa bilər. Təkpartiyalı rejimlər isə nisbətən daha uzunömürlü olurlar. Stepan və Linz ərəb rejim tiplərini beş kateqoriyada təhlil ediblər; hibrid, avtoritar, totalitar, post-totalitar və sultan tipli rejimlər. 2011-ci ildəki qiyamlardan əvvəl, Ərəb dövlətləri araşdırıldığında Tunis, Liviya, Misir və Suriyanın sultanlıq xüsusiyyətlərini sərgilədiyi müşahidə olunur. Suriya, Əsəd sülaləsi tərəfindən idarə olunduğundan sultan idarəçilik formasını xarakterizə edir. Orduda hərbçilər Əsəd rejiminin yıxılacağı təqdirdə təhlükə qarşısında qalacağını bilirdilər. Mübarək də, Misirdə sultan idarəçilik xüsusiyyətləri nümayiş etdirməyə başlamışdı. Tunisdə, kral ailəsi şəxsi xərcləri ilə Tunis iqtisadiyyatı üçün təhlükə hesab edildiyi üçün Ben Əli rejimi də sultanist xarakter daşıyırdı. Lakin Ben Əlinin administrasiyası siyasi cəmiyyətin və müxalifət qruplarının formalaşmasına mane ola bilmədi.

Ərəb dövlətlərində etirazçıların tələbləri, polis işgəncələrinə və əsassız həbslərə son qoyulması, ədalətli məhkəmə sisteminin inkişafı ilə bağlı idi. Lakin, bu tələblər hökumət tərəfindən birmənalı qarşılanmadı.

---

[1] *Doster, B. Arap Baharı'ndan Demokrasi Beklemek // ORSAM Araştırma Raporu, - İstanbul: Orsam Yayınları, - 2013, 5 (50), - s.55-60.*

Ərəb baharı 1979-cu il İran inqilabı kimi dini və ya ideoloji hadisə deyil, sadə insanların əsas problemi olan yüksək qiymətlər və mənzil problemi kimi dinamikanın əsaslı şəkildə ortaya qoyduğu prosesdir[1].

Ərəb baharını şərtləndirən amilləri nəzərdən keçirərkən, daxili amillərlə yanaşı xarici amillər də, bir o qədər əhəmiyyət kəsb etməkdədir. Xüsusən belə bir ümumi anlayış vardır ki, Yaxın Şərqdə baş verən hər növ siyasi dəyişiklik Qərbin oyunudur. Bu siyasi konyuktura tarixi nöqteyi nəzərdən baxıldığında, bunun tək başına bir təxəyyül deyil, sübut oluna biləcək fakt olduğu da aşkardır. İkinci Dünya müharibəsindən sonra, İngiltərə və Fransanın bölgədə mandat sistemi qurması və müstəmləkəçilik etməsi, regionun Ərəb baharına qədər hərtərəfli olaraq Qərb dövlətləri tərəfindən mənimsənilməsinin sübutudur. Başda Amerika olmaqla, Avropanın bölgəyə yönəlik neft və təbii sərvətlərə olan marağı nəticəsində, tarix boyu bu ərazilərdə hakim və söz sahibi olmasının davamlılığı üçün, yeni siyasi-strateji planlar həyata keçirmələrini vacib edir.

Nəticə etibarilə, Ərəb baharı yalnız spontan sosial narazılıqların və ya daxili iqtisadi-siyasi böhranın məhsulu kimi qiymətləndirilə bilməz. Şübhəsiz ki, demokratikləşmə arzusu, sosial ədalətsizlik, işsizlik, korrupsiya və siyasi iştirakın məhdudlaşdırılması kimi daxili amillər prosesin başlanmasında həlledici rol oynamışdır. Lakin hadisələrin regional miqyası, sürətli yayılma dinamikası və beynəlxalq reaksiyaların xarakteri göstərir ki, bu proses eyni zamanda qlobal geosiyasi kontekst daxilində formalaşmışdır.

ABŞ-ın "Böyük Orta Şərq" təşəbbüsü regionda siyasi transformasiyanı təşviq etməyi hədəfləsə də, bu strategiyanın praktikada hərbi müdaxilələr və rejim dəyişiklikləri ilə müşayiət olunması region dövlətlərində struktur sabitliyi zəiflətmişdir. Bu baxımdan, Ərəb baharı həm daxili struktur böhranlarının, həm də beynəlxalq güclərin maraqlarının kəsişmə nöqtəsində meydana çıxmış kompleks siyasi transformasiya dalğası kimi dəyərləndirilə bilər.

---

[1] *Bacık, G. Arap Baharından Ortadoğu ve Kuzey Afrika'nın Geleceğine Bakmak, s.17.*

Tunis və Misirdəki hadisələr əsasən daxili sosial-siyasi dinamikadan qaynaqlansa da, beynəlxalq aktorların mövqeyi, diplomatik və iqtisadi təsir mexanizmləri, eləcə də təhlükəsizlik strategiyaları prosesin istiqamətinə təsirsiz qalmamışdır. Bu isə onu göstərir ki, Ərəb baharını yalnız milli miqyasda deyil, beynəlxalq münasibətlər sisteminin struktur çərçivəsində təhlil etmək daha obyektiv və elmi yanaşma hesab edilə bilər.

# II FƏSİL.

# ƏRƏB BAHARI ÖNCƏSİ YAXIN ŞƏRQDƏKİ MÖVCUD DURUM FONUNDA AVROPANIN APARICI DÖVLƏTLƏRİNİN REGİON SİYASƏTİNDƏ İSLAM AMİLİ

## 2.1. Yaxın Şərq dövlətlərinin siyasi sistemində İslamın yeri

Yaxın Şərqdə başlayan inqilab prosesini təhlil etmək üçün əvvəlcə Ərəb baharından əvvəl region dövlətlərinin ümumi xüsusiyyətlərinə nəzər salmaq zəruridir. Ərəb baharı öncəsi vəziyyətə baxdıqda, xalq üsyanlarının baş verdiyi dövlətlərin demək olar ki, hamısının demokratik idarəçilikdən uzaq olduğu müşahidə edilir. Bölgənin ənənəvi və müasir siyasi strukturlar arasında keçid xarakteri daşıdığını və bu iki strukturun bir-biri ilə iç-içə keçdiyini nəzərə alsaq, Yaxın Şərq anlayışı daha çox monarxiyalar, hərbi çevrilişlər, qeyri-demokratik idarəetmə formaları, avtoritar rejimlər və diktaturalarla assosiasiya olunur.

Hakimiyyətlərin legitimlik problemi isə mühüm amillərdən biri kimi çıxış edirdi. Bir çox hallarda hökmdarlar legitimliklərini ya hərbi çevrilişlərə, ya da monarxik irsə əsaslandırırdılar ki, bu da cəmiyyətin geniş təbəqələri tərəfindən tam qəbul olunmurdu. Region dövlətlərinin əksəriyyəti ictimai legitimliyi möhkəmləndirməkdə səmərəli mexanizmlər formalaşdıra bilməmişdir. Bu baxımdan diqqətəlayiq məqam ondan ibarətdir ki, hakimiyyətləri xalqın gözündə nisbətən legitim görünən dövlətlər Ərəb baharı prosesindən birbaşa və ya kəskin şəkildə təsirlənməmişdir[1].

Dövlət, bir millətin öz dəyərlərini, təhlükəsizliyini və müstəqilliyini qorumaq məqsədilə formalaşmış mürəkkəb sosial-siyasi təşkilatdır. Müasir dövrdə dövlət quruluşu demokratik, avtoritar, totalitar, monarxik və digər idarəetmə formaları çərçivəsində təzahür edir.

[1] *Oğuzlu, T. Arap Baharı ve Yansımaları // Ortadoğu Analiz,* - Ankara: - 2011, 3 (36), - s.9-16.

Bəzi dövlətlərdə, məsələn Böyük Britaniyada "krallıq" institutu formal olaraq mövcud olsa da, bu dövlətlərdə real idarəetmə mexanizmi demokratik prinsiplərə əsaslanır və konstitusion monarxiya modeli tətbiq olunur. Ümumilikdə Qərb dövlətlərində demokratik idarəetmə rəsmi və institusional əsasda həyata keçirilir.

Yaxın Şərq regionunda isə bir çox dövlətlərin idarəetmə sistemi demokratik prinsiplərdən uzaq olaraq daha çox avtoritar və ya yarı-avtoritar xüsusiyyətlər nümayiş etdirir. Yaxın Şərqdə bir çox dövlət rəhbərləri hakimiyyətə seçki yolu ilə gəldiklərini bəyan etsələr də, vəzifəyə gəldikdən sonra əsasən avtoritar idarəetmə modeli nümayiş etdirirlər. Tarixi təcrübə göstərir ki, bu dövlətlərdə seçkilər çox vaxt formal xarakter daşıyır və real siyasi rəqabət mühiti formalaşmır. Nəticə etibarilə, hakimiyyət strukturu tarixi monarxik idarəçilikdən müasir avtokratiyaya qədər uzanan bir xətt üzrə davamlılıq göstərir.

Ərəb baharından əvvəl regionda mövcud olan siyasi quruluşun ən mühüm xüsusiyyətlərindən biri, demək olar ki, bütün rejimlərin qeyri-demokratik xarakter daşıması idi. Xalqın gözündə müəyyən legitimlik səviyyəsinə malik olan dövlətlər isə Ərəb baharının birbaşa və ya kəskin təsirindən nisbətən kənarda qalmışdır.

Səudiyyə Ərəbistanı, Bəhreyn, Qətər, İordaniya və Oman ənənəvi ailə hakimiyyətinə əsaslanan monarxik dövlətlərdir. Səudiyyə Ərəbistanında Səud ailəsi, Bəhreyndə Əl-Xəlifə ailəsi, Qətərdə Əl-Sani ailəsi, İordaniyada Haşimi sülaləsi və Omanda (2011-ci ilə qədər) Qabus bin Səid tərəfindən təmsil olunan hakimiyyət modeli mövcuddur. Bu monarxiyalardan Səudiyyə Ərəbistanı, Qətər və Oman klassik mütləq monarxiya xüsusiyyətləri daşıyır; Bəhreyn formal olaraq konstitusion mexanizmlərə malik olsa da, faktiki olaraq güclü icra hakimiyyəti ilə seçilir; İordaniya isə konstitusion monarxiya modeli ilə fərqlənir.[1]. Bu baxımdan Türkiyə, İran və İsrail regionun digər dövlətlərindən fərqlənir. Legitim hökümətin olduğu dövlətlərdə xalqın demok-

---

[1] *Doğan, G. Durgun, B. Arap Baharı Ve Libya: Tarihsel Süreç Ve Demokratikleşme Kavramı Çerçevesinde Bir Değerlendirme // - Isparta: Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi , - 2012, 1 (15), – s.72.*

ratiya uğrunda heç bir mübarizə aparmaması mühüm müşahidədir. Daha çox monarxiyaların idarə etdiyi dövlətlərdə isə qısa müddətli xalq hərəkatları olsa da, rejim dəyisikliyi olmayıb. Monarxiya hökumətlərinin öz xalqı ilə qurduğu legitimlik münasibətləri despot avtoritar rejimlərdən daha güclüdür. Misir, Liviya, Tunis, Yəmən və Suriya kimi daha az legitimliyə malik olan dövlətlərdə ortaq məqam ondan ibarətdir ki, hökumətlər hərbi çevriliş nəticəsində hakimiyyətə gəlirlər və öz rejimlərini uzunömürlü etmək üçün repressiv dövlət qurumları yaradırlar. Monarxiya hökumətlərinin ümumiyyətlə qanuni hesab edildiyi Ərəb dövlətlərində onların ənənəsinə uyğun olaraq öz xalqı ilə qurduğu bağ daha güclüdür, ona görə də onlar hərbi çevriliş edən hökumətlərdən daha az təsirlənirlər.

İnqilabdan öncəki dövrün ikinci əsas xüsusiyyəti ümumi regionun və region dövlətlərinin öz daxili dinamikasından uzaq təsir altında qalması, beynəlxalq siyasət kontekstində obyektivləşdirilməsidir. Bu dövlətlər qeyri-regional qlobal güc dövlətlərinin, regional maraqlar kontekstində öz əhəmiyyətini qazanmışdır. İnqilaba qədərki dövrdə istər Yaxın Şərqdə, istərsə də Şimali Afrikada regional dinamika passiv qaldı. Bu torpaqlar keçmişdə Osmanlı imperiyası, sonra Böyük Britaniya və son altmış ildə ABŞ kimi qlobal güclərin güc qarşıdurması zamanı süni sərhədlərin yaradılması üçün istifadə olunurdu və onlar öz müqəddəratını təyin etmək gücündə olmayan, öz idarəetmə balansına təsir edə bilməyən dövlətlər kimi görünürdülər. Məhz bu strukturun təbii nəticəsidir ki, qlobal hökmranlıq uğrunda gedən mübarizələr region dövlətlərini öz müqəddəratını yaratmaq nöqtəsindən tədricən uzaqlaşdırdı. Demokratiya hərəkatlarının tarix boyu bu qədər çox tələbat görməsi və yayılması bu region üçün gözlənilməz idi.

Yaxın Şərqin tarixi inkişafına nəzər saldıqda daxili inkişaflarla xarici müdaxilələrin bir-biri ilə qarşılıqlı əlaqədə olduğu və nəticədə çoxşaxəli strukturun formalaşdığı görünür. Bu kontekstdə vurğulanmalı olan üçüncü məqam odur ki, ABŞ-ın regionla bağlı siyasəti regionun ümumi dinamikasının formalaşmasında önəmli rol oynayır. Böl-

gədəki rejimlərin davamlılığı və legitimliyi ABŞ ilə qurduqları əlaqələrlə sıx bağlı olmuşdur. ABŞ ilə əməkdaşlıq rejimləri hakimiyyətdə qalmalarını paradoksal yolla mümkün etsə də, onların öz xalqının gözündə legitimliyinin aşınmasına səbəb oldu. Amerikanın Yaxın Şərqdəki maraqlarından danışarkən qeyd etmək lazımdır ki, uzun illərdir sabitlik və demokratiya arasında balans yaratmağa çalışarkən seçimi sabitlikdən yana olmuşdur. Bölgədəki rejimlər bütün antidemokratik və antiliberal xüsusiyyətlərinə baxmayaraq, ABŞ-ın regional siyasətlərinə xidmət etdiyi müddətcə Amerika idarələri tərəfindən müxtəlif yollarla dəstəklənir. Bu vəziyyətin ən ideal iki nümunəsi ABŞ-ın Misir və Səudiyyə Ərəbistanı ilə qurduğu əlaqələrdir. Xüsusilə, ABŞ-ın İsrailin varlığını şübhə altına almaması, İranı onun regional istəkləri qarşısında maneəyə çevirməsi və 1979-cu ildə Kemp Devid razılaşmasına sadiq qalması müqabilində Misirə verdiyi hərbi və iqtisadi dəstək əhəmiyyətlidir[1]. Prezident Buşun ilk vəzifə müddətinin sonuna yaxın tətbiq etdiyi siyasət bölgədə daha çox demokratiya ilə idarə olunan dövlətlərin sayının artmasına dəstək vermək idi və bu siyasət ABŞ-ın milli təhlükəsizliyinə töhfə verəcəyi ehtimalına əsaslanırdı.

Millət və milliyyət anlayışlarının vahid və ümumi qəbul olunmuş tərifi mövcud olmasa da, millət anlayışı ümumilikdə eyni coğrafiyada yaşayan, ortaq tarixə, mədəniyyətə, dilə və müəyyən mənəvi dəyərlərə malik olan insan birliyi kimi izah edilir. Millilik şüuru isə fərdin özünü müəyyən bir kollektiv kimliyə aid hiss etməsi ilə bağlıdır və bu şüur millətçilik ideyasının formalaşmasında mühüm rol oynayır.

Millətçilik ideyası xüsusilə XVIII əsrin sonlarında baş verən Fransa inqilabından sonra siyasi və ideoloji məzmun qazanaraq geniş şəkildə yayılmışdır. Bu kontekstdə İngilis–Fransız (vətəndaşlıq əsaslı) və Alman (mədəni-etnik əsaslı) millət anlayışları fərqləndirilir. İngilis və Fransız siyasi düşüncəsində millət daha çox dövlətlə eyniləşdirilir və vətəndaşlıq prinsipi ön plana çıxır. Alman siyasi-fəlsəfi ənənəsində isə millət dövlətdən əvvəl mövcud olan mədəni-tarixi birlik kimi qəbul

[1] *Oğuzlu, T. Arap Baharı ve Yansımaları, - s.9.*

edilir; yəni xalq ortaq dil, mədəniyyət və mənəvi dəyərlər əsasında formalaşır və dövlət bu birliyin siyasi ifadəsi kimi meydana çıxır.

İngiltərə və Fransa etnik və linqvistik baxımdan tam homogen olmasalar da, erkən dövrlərdən mərkəzləşmiş dövlət strukturlarına malik olmuşlar. Alman torpaqları isə 1871-ci ilə qədər vahid milli dövlət şəklində birləşə bilməmişdir. Bu baxımdan, siyasi cəhətdən uzun müddət vahid dövlət halında mövcud olmayan ərəblər də müəyyən dövrlərdə milli kimliklərini daha çox ortaq dil, mədəniyyət və tarixi yaddaş üzərindən əsaslandırmağa çalışmış, yəni mədəni orijinallığı ön plana çıxarmışlar. Yaxın Şərq coğrafiyasında millətçilik anlayışı Qərb modelindən müəyyən dərəcədə fərqlənir və daha çox subkultural və sosial dinamikalar üzərində formalaşır. Regionda məzhəbçilik, tayfaçılıq və regionçuluq kimi kimlik elementləri siyasi və ictimai münasibətlərin qurulmasında mühüm rol oynayır. Bu səbəbdən kollektiv kimlik anlayışı vahid və homogen milli çərçivədən daha çox çoxqatlı identiklik strukturu şəklində təzahür edir.

Ərəb siyasi-fəlsəfi düşüncəsində “millət” anlayışı Qərbdəki mənası ilə tam uyğun gəlmir, bu kontekstdə daha çox “qövm” və ya “ümmə” kimi terminlərdən istifadə olunur. Ortaq dil və din isə Ərəb millətçiliyinin əsas birləşdirici elementləri kimi çıxış edir. Xüsusilə ərəb dili və İslamın formalaşdırdığı ortaq mədəniyyət çərçivəsi ümumi kimlik şüurunun əsasını təşkil etmişdir. Bununla yanaşı, bu geniş mədəni çətir altında şiə-sünni bölgüsü, eləcə də iraqlı, suriyalı, misirli kimi regional və siyasi alt kimliklər mövcud olmuş və zaman-zaman ön plana çıxmışdır.

Eramızın VII əsrinə qədər ərəblər Ərəbistan yarımadasında əsasən dağınıq, bir-biri ilə rəqabət aparan tayfa və qəbilə birlikləri şəklində yaşayırdılar. Onlar siyasi baxımdan parçalanmış olsalar da, dil, adət-ənənə və mədəni xüsusiyyətlər baxımından oxşar icmalar idilər. Bu dövrdə kollektiv kimlik daha çox tayfa və qəbilə mənsubiyyəti üzərində qurulurdu. Qərb siyasi ideyalarının və müstəmləkəçiliyin regiona nüfuz etməsindən əvvəl ərəb coğrafiyasında müasir mənada millətçilik ideologiyası formalaşmamışdı. X–XVI əsrlər arasında ərəb tor-

paqları tədricən Osmanlı imperiyasının hakimiyyəti altına keçmiş və nəticədə Yaxın Şərqin böyük bir hissəsində siyasi birlik yaranmışdı. Osmanlı hakimiyyəti dövründə dini kimlik – xüsusilə İslam ümməsi anlayışı – əsas birləşdirici faktor kimi çıxış edirdi. Müsəlman türklər və ərəblər arasında kəskin milli ayrım şüuru müşahidə olunmur, Osmanlı sultanı isə xəlifə kimi müsəlmanların siyasi və dini lideri sayılırdı.

Ərəb millətçiliyinin yaranma tarixi ilə bağlı vahid fikir mövcud olmasa da, onun ideoloji əsaslarının əsasən XIX əsrdə formalaşdığı qəbul edilir. Bu prosesin mənşəyi ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Corc Antonius ərəb millətçiliyinin formalaşmasında Amerika və Fransız protestant missionerlərinin təsirini vurğulayır. Silviya Haim bu ideyanın köklərini vəhhabilik hərəkatında axtarır. Ernest Daun və Albert Hurani isə ərəb millətçiliyinin İslami modernləşməni müdafiə edən müsəlman ziyalılar tərəfindən inkişaf etdirildiyini qeyd edirlər. Z.N.Zeynə görə isə, Osmanlı imperiyasında Gənc Türklərin həyata keçirdiyi türk millətçiliyi siyasəti ərəb millətçiliyinin güclənməsinə təkan vermişdir[1]. Millətçilik ideyası ərəb cəmiyyətinə əsasən Misir, Livan, Suriya və İraq kimi mərkəzlər vasitəsilə yayılmışdır. Xüsusilə 1798-ci ildə Napoleonun Misiri işğalı regionun Qərb ilə birbaşa və sistemli təmasında dönüş nöqtəsi olmuşdur. Bu prosesdən sonra hakimiyyətə gələn Kavalalı Mehmet Əli Paşa idarəçilik və hərbi sahədə islahatlar həyata keçirmiş, ticarət əlaqələrini genişləndirmiş və Avropaya tələbələr göndərərək Qərb tipli təhsilin yayılmasına şərait yaratmışdır.

Avropada təhsil alan ərəb ziyalıları Qərb siyasi-fəlsəfi ideyaları, xüsusilə millətçilik konsepsiyası ilə tanış olmuş və nəticədə İslam ümməsi anlayışı ilə milli kimlik anlayışı arasındakı fərqlər müzakirə edilməyə başlanmışdır. Bu dövrdə millətçiliyin dini kimlikdən fərqli, daha çox dil, tarix və mədəniyyətə əsaslanan bir ideologiya olduğu fikri formalaşmağa başlamışdır.

---

[1] *Gencoglu, H. Güney Afrika'da Irkçiliğin Tarihsel Kökenleri // - İstanbul Medeniyet Üniversitesi: Siyasal Bilgiler Fakültesi Dergisi, – 2017, 2 (2), - s.85.*

Digər tərəfdən, xüsusilə Livan və Suriya bölgələrində fəaliyyət göstərən ərəb xristian ziyalıları və missioner məktəblərində təhsil almış intellektuallar ərəb dilinin və mədəniyyətinin dirçəldilməsi (Nəhda hərəkatı) prosesində mühüm rol oynamışlar. Onların bir qismi Avropa dövlətləri ilə əlaqələr quraraq regionda milli ideyaların yayılmasına təsir göstərmişdir. Bununla belə, bu prosesi yalnız xarici müdaxilə ilə izah etmək kifayət etmir; daxili sosial, mədəni və siyasi transformasiyalar da ərəb millətçiliyinin formalaşmasında mühüm rol oynamışdır.

Ərəb millətçiliyinin erkən ideoloqlarından biri kimi tanınan Nəcib Azuri XX əsrin əvvəllərində bu ideyanın formalaşmasında mühüm rol oynamışdır. O, müəyyən dövrlərdə Fransa və İngiltərə ilə əlaqələri olan siyasi fiqur kimi qiymətləndirilir. 1904-cü ildə Parisdə fransız dilində nəşr etdirdiyi "Le Réveil de la Nation Arabe" ("Ərəb millətinin oyanışı") adlı əsərində Osmanlı imperiyasının zəiflədiyini və ərəb torpaqlarında milli oyanışın qaçılmaz olduğunu irəli sürmüşdür.

Azuri həmçinin "Ligue de la Patrie Arabe" ("Ərəb Vətən Birliyi") adlı təşkilat yaratmış və bu qurumun mətbu orqanı kimi aylıq "L'Indépendance Arabe" ("Ərəb İstiqlalı") jurnalını nəşr etdirmişdir. Onun fəaliyyəti ərəb millətçiliyinin Osmanlı sonrası dövr üçün siyasi proqram xarakteri almasına töhfə vermişdir[1]. Bu aylıq jurnalın nəşrində Fransa Xarici İşlər Nazirliyi ilə əlaqəli olan və "La Révolte Arabe" ("Ərəb üsyanı") adlı əsərin müəllifi kimi tanınan Şarl (və ya Şüken) Yunq da Nəcib Azuri ilə sıx əməkdaşlıq etmişdir. Jurnalın səhifələrində mütəmadi olaraq ərəblər və türklər arasında irqi, mədəni və siyasi fərqlər vurğulanır, ərəb kimliyinin ayrıca və üstün xüsusiyyətləri ön plana çəkilir və ərəblərin Osmanlı imperiyasından ayrılmasının zəruriliyi ideyası təbliğ edilirdi.

Azuri və onunla əməkdaşlıq edən müəlliflərin fikrincə, Osmanlı imperiyasının zəifləməsi və dağılması imperiya daxilində yaşayan

[1] *Laura C.R. Najib 'Azuri's Le reveil de la nation arabe: A Reception History // - Comparative Studies of South Asia Africa and the Middle East, - 2011, 31(3) – p.644-657.*

qeyri-türk xalqların – xüsusilə ərəblərin, kürdlərin və ermənilərin – milli hərəkatları nəticəsində mümkün ola bilərdi. Bu yanaşma imperiyanı çoxmillətli siyasi qurum kimi deyil, milli azadlıq hərəkatlarının qarşısında duran bir maneə kimi təqdim edirdi. Azuri öz yazılarında İngiltərə və Fransanı "universal ədalət" və "sivilizasiya" prinsiplərinin daşıyıcıları kimi təsvir edir, onların Osmanlı imperiyasının daxili işlərinə, xüsusilə ərəb vilayətlərində müdaxiləsini legitim və zəruri addım kimi əsaslandırmağa çalışırdı. Bu mövqe isə sonrakı dövrlərdə ərəb millətçiliyinin xarici güclərlə münasibətləri kontekstində geniş müzakirə mövzusu olmuşdur.

Ərəb millətçiliyinin Misir qolu əsasən Avropada təhsil almış tələbələr və İslam modernizmi çərçivəsində formalaşmışdır. Bu istiqamətin öncül simalarından biri Rifaə əl-Təhtavi olmuşdur; o, "vətəniyyə" anlayışını canlandıraraq vətən məfhumunu daim ön plana çıxarmış və toplumu ərəb yox, daha çox misirli kimi təsvir etmişdir.

İslam modernizminin digər mühüm nümayəndəsi Cəmaləddin əl-Əfqani idi. Əfqaniyə görə, Qərbə qarşı geri qalmış müsəlman cəmiyyətinin dirçəlişi yalnız İslamın islahı yolu ilə mümkün idi və Qərbdən gətirilən ideyalar, xüsusən dünyəvi millətçilik anlayışı, müsəlman birliyini parçalamaq məqsədi daşıyırdı. O, İslamı ən ali kimlik və yeganə birləşdirici bağ kimi görürdü və bu səbəbdən Osmanlı idarəçiliyindən ayrılmaq ideyasını dəstəkləmirdi.

Əfqani ideyalarının ardınca gələn Məhəmməd Abduh və Rəşid Rza da İslam modernizmi və millətçilik mövzularında fəal olmuşlar. Rza, ərəb millətçiliyinə daha yaxın baxış sərgiləyərək, türklərin xilafəti ərəblərdən zorla aldığını və bunun İslamın siyasi-mənəvi bütövlüyünə zərər verdiyini iddia edirdi. Onun fikrincə, dini hakimiyyət yenidən ərəblərin əlində olmalı idi, beləliklə ərəblərin İslam üzərində əsl sahibi olduqları vurğulanırdı[1].

Bu dövrdə ərəblər arasında türklər əleyhinə hərəkatlar zəif inkişaf edirdi və bunun əsas səbəblərindən biri də Avropa millətçiliyi ide-

*[1] Özalkan, S. Tarihsel Perspektiften Arap Milliyetçiliği // İNSAMER, - İstanbul: – 2018, - s.2.*

yalarının regiona ləng nüfuz etməsi, digər səbəblərdən isə II Əbdülhəmidin uğurlu siyasi strategiyası idi. II Əbdülhəmid imperiyanın müsəlman əhalisini bir arada saxlamaq üçün "İslam Birliyi" ideyasından səmərəli istifadə etmişdir[1]. II Əbdülhəmidin hakimiyyəti dövründə xristian ərəblər Gənc Türk hərəkatı kimi tanınan liberal hərəkatın canlanmasına töhfə verdilər.

Soyuq müharibədən sonrakı dövrdə Yaxın Şərqdə hökm sürən əsas fikir, region dövlətlərinin daxili birliyi təmin edərək, digər güclü dövlətlərlə strateji mübarizə aparmaq idi. Bu məqsədə xidmət etmək üçün Yaxın Şərqdə pan-ərəbizm ideyası irəli sürüldü. Pan-ərəbizm, ərəbdilli xalqların bölünmüş dövlətlər şəklində deyil, vahid milli dövlət çərçivəsində birləşməli olduğu inancına əsaslanır[2]. Lakin zaman keçdikcə İsrailin yaradılması və Fələstin müharibəsi pan-ərəbizm ideyasını bütün ərəb dünyası üçün birləşdirici faktor halına gətirdi. Misir prezidentlərindən Camal Əbdül Nasir, yalnız Misirin deyil, bütöv ərəb dünyasının iqtisadi və siyasi inkişafını hədəfləyən proqramları ilə bu ideyanın öncüllərindən sayılırdı. Başlanğıcda vətənpərvərliyi ilə seçilən Nasir, zamanla daha geniş miqyaslı millətçi siyasət yürütməyə başladı.

Əsvan bəndi layihəsini həyata keçirmək və Süveyş kanalından gəlir əldə etmək məqsədilə Nasir kanalı milliləşdirdi. Nəticədə 1956-cı ildə İngiltərə, Fransa və İsrail Süveyş müharibəsini başlatdı. ABŞ və Sovet İttifaqının müdaxiləsi nəticəsində atəşkəs imzalandı. Süveyş müharibəsi hərbi məğlubiyyət olmasına baxmayaraq, Nasir üçün siyasi qələbə idi.

Bu kontekstdə, pan-ərəbizm ideyalarını reallaşdırmaq istəyən Nasir, bütün ərəb dövlətlərini və müsəlman xalqlarını federativ bir quruluşda birləşdirməyi qarşısına məqsəd qoymuş və özünü bu quruluşun lideri kimi görmüşdür. Misiri Suriya ilə birləşdirərək "Birləşmiş Ərəb Respublikası"nı yaratmaqla ümumərəb idealına doğru ilk addımı atdı. Lakin iki dövlət arasında liderlik mübahisələri və siyasi-iqtisadi

[1] *Michou, H. The UK in the Middle East: commercial diplomacy to what end, - p.3.*
[2] *Öztürk, H. Modern Orta Doğu Siyasi Tarihi, s.125.*

struktur fərqlilikləri səbəbindən bu birlik 1961-ci ildə Suriyanın geri çəkilməsi ilə dağıldı.

Millətçi hərəkatların müxtəlif yanaşmaları mövcud olsa da, əksər rejimlər sosialist ideologiyasını mənimsəmişdi. Ərəb sosializmi Camal Əbdül Nasirin şəxsiyyəti ətrafında ən yüksək mərhələyə çatdı. Lakin ərəb sosializmi klassik marksizm anlayışından fərqlənərək, daha çox qəbilə həyatına və İslamın əsas əxlaqi prinsiplərinə əsaslanan xüsusi bir forma aldı. Şiələr və kürdlər isə bu hərəkatı sünni layihəsi kimi qəbul etdikləri üçün ərəb millətçiliyinə qarşı xoş münasibət göstərmirdilər. Bütün bu faktorlar ərəb millətçiliyinə və modernizm ideyalarına alternativ olaraq, İslam ideologiyasının regiondakı boşluqları doldurmasına səbəb oldu.

1943-cü ildə Qərb təhsili almış bir qrup ziyalı tərəfindən Ərəb Dirçəliş Partiyası kimi tanınan BƏƏS Partiyası yaradılmışdır. Bu baxımdan ərəb millətçiliyində ən mühüm birləşdirici hərəkatlar Camal Əbdül Nasirin rəhbərliyi altında formalaşan Nasirlik və BƏƏSçılıq idi. 1950-ci illərin sonlarından etibarən yüksəlişdə olan BƏƏS ideologiyası İraq və Suriyada qəbul edilmişdi.

BƏƏS hərəkatının məqsədi ərəb dövlətlərini vahid ərəb dövləti altında birləşdirmək, sosialist islahatları həyata keçirmək, sosial fərqləri azaltmaq, mülkiyyətin məhdudlaşdırılmasını təmin etmək və böyük istehsal vasitələrini milliləşdirmək idi. Partiyanın yaranmasında ortodoks xristian M.Əfləq və S.Bitarın rolu xüsusilə əhəmiyyətli olmuşdur. Əfləq və Bitarın rəhbərlik etdiyi qrup sonradan Ərəb Dirçəliş Partiyası ilə birləşdi. İkinci Dünya müharibəsindən sonra ərəb dünyasında yaranan siyasi partiyalardan fərqli olaraq, BƏƏS Partiyası vahid ərəb dövləti idealını əsas götürən yeganə partiya olmuşdur[1].

1979-cu il İran İslam İnqilabının uğuru ilə populyarlıq qazanan islamçı ideologiya qarşısında, ərəb millətçiliyinin yeganə simvolu olan BƏƏS hərəkatı tədricən tək liderli və avtoritar quruluşa keçdi. Bu kontekstdə BƏƏS lideri Səddam Hüseyn regional gücə çevrilmək

---

[1] *Özkoç, Ö. Suriye Baas Partisi: Kökenleri, Dönüşümü, İzlediği İç ve Dış Politika / - Ankara: Mülkiyeliler Birliği Yayınları, -2008, - s.35.*

məqsədilə İrana hücum etdi. Məqsədinə çata bilmədikdə isə 1991-ci ildə Küveyti işğal edərək itirilmiş mövqelərini bərpa etməyə çalışdı, lakin burada da ciddi zərbə aldı. Bu hadisədən sonra heç bir dövlət pan-ərəbizmin rəhbərliyini üzərinə götürmədi. Beləliklə, ərəb millətçiliyi ideyası Misirdə Nasirlik hərəkatı ilə zirvəyə çatdı və Səddam Hüseynin İraqdakı son səyləri ilə sona çatdı. Nəticədə, Yaxın Şərqdə millətçi siyasi diskurs və fəaliyyət İslam dinini istinad edən siyasətə doğru uzunmüddətli ideoloji transformasiyaya uğradı[1].

Sələfilik, Yaxın Şərqdə baş verən son hadisələri anlamaq baxımından, bir çox radikal terror təşkilatlarına təsir etmiş oriyentasiya kimi qəbul edilir və çox qədim köklərə malikdir. İlk növbədə qeyd etmək lazımdır ki, sələfilik bir məzhəb deyil, ideoloji baxış bucağıdır. Bir Sələfi Vəhhabi, Maliki və ya Şafii məktəbləri ilə əlaqəli ola bilər. Ərəbcə "sələf" sözü "ilk", "qabaqda" və ya "keçmişdə qalan" mənalarını ifadə edir. Sələfilik anlayışı isə, nass və nəql yolu ilə əldə edilən bilikləri müqəddəs hesab edən və onlara qarşı çıxmağı qəti şəkildə qadağan edən bir zehniyyət olaraq xarakterizə olunur[2]. Quran və Sünnənin heç bir təfsir və müqayisələrə ehtiyac duymadan zahiri mənaları ilə tətbiqini müdafiə edən sələfi anlayışı, "tövhid", "bidət" və "yaxşılığı əmr edib pislikdən çəkindirmək" məfhumları ətrafında sərt bir mövqe ilə formalaşmışdır. Sələfi cərəyanının ilkin dövrləri ilə indiki mənası arasında əlaqə yaratmaq çətindir, çünki "sələf" məfhumu VIII və IX əsrlərdə İslamın ilkin anlayışının qorunub saxlanmasını nəzərdə tuturdu. Daha sonra bu proteksionist düşüncə Əhməd bin Hənbəldən başlayaraq İbn Teymiyyə və İbn Qeyyim vasitəsilə sistemli düşüncə tərzinə çevrilmişdir[3]. İbn Teymiyyə və İbn Qeyyim başda olmaqla sələfilər, xüsusən də XX əsrdə ərəb dünyasında Mücassimə və Müşəbbihə inancını doğuran bu əqidəni yaymışlar. Bu məktəbi dəstəkləyənlər

---

[1] *Özalkan, S. Tarihsel Perspektiften Arap Milliyetçiliği, - s.6.*

[2] *Ünal, Y. Selefi Zihnin Doğuşu ve Gelişimi Üzerine // - İstanbul: Dini Araştırmalar, - 2015, 18 (47), - s.55-78.*

[3] *Uyanık, M. Selefi Zihniyet, Arap Baharı ve Türkiye / - İstanbul: Araştırma Yayınları, -2016, - s.49.*

hesab edirdilər ki, bütün dualar, ziyarətgahlar və qəbirlərin ziyarəti, həmçinin şəfaət diləmək şirk və bidətdir. Sələfi anlayışı xüsusilə Hənbəlilər arasında geniş yayılmışdır.

Vəhhabilik düşüncəsi adətən yalnız dini cərəyan kimi qiymətləndirilsə də, bu yanaşma doğru deyil. Çünki Vəhhabilik İslam dini daxilində sadəcə bir oriyentasiya olmaqdan uzaqdır, o, bütün ictimai və siyasi həyatı İslamın sərt təfsiri əsasında təşkil etməyi hədəfləyir. Bu səbəbdən, ictimai həyatı tənzimləməyə yönələn hər bir fikir siyasidir və birbaşa siyasət elminin predmetinə daxildir. XVII əsrdə İbn Teymiyyə xəttinə yaxın olan Hənbəli alim Əhməd Sirhindi tərəfindən Hindistanda inkişaf etdirilən düşüncə Vəhhabiliyin formalaşmasına təkan verdi. Qərbə qarşı ideya və fikirlərin zorla cəmiyyətə yeridilməsi isə bu xəttin paralelində, XVI əsrdə Hənbəli Mehmet Birgivi və XVII əsrdə Osmanlı imperiyasında Kadızadələr tərəfindən edilən cihad çağırışları ilə zamanla yayılmağa başladı.

Hərəkatın qurucusu hesab olunan Məhəmməd İbn Əbdül Vəhhab (1703–1792) gənc yaşlarında mədrəsəyə gedərək hədisləri öyrənmişdir. Hədislərdə ideallaşdırılan İslam həyatı ilə mövcud həyatın qarışıqlıqları Vəhhabı dərin düşüncələrə sürükləmişdir. O, siyasi və ictimai həyatın İslama inteqrasiyasının vacibliyini vurğulamışdır. Nəticədə, bu hərəkat siyasi islamçı düşüncənin başlanğıc nöqtəsini təşkil etmişdir. Vəhhab, İslamın ilkin vəziyyətindən uzaqlaşdığını qeyd edərək, yaşadığı dövrü İslamdan əvvəlki “cahiliyyət dövrü”nə bənzədir və bir gün əsl İslamın bu torpaqlara hakim olacağı ideyasını müqəddəs məqsəd kimi əsaslandırırdı. Beləliklə, dinlə siyasətin iç-içə olduğu Siyasi Vəhhabi ideologiyası formalaşdı.

Vəhhab, şirk və bidət əməllərini İslamdan ayırmaq üçün “yaxşılığı əmr edib pislikdən çəkindirmək” prinsipinin tətbiqini müdafiə etmişdir. Lakin praktikada vəhhabilər öz ideologiyasına qarşı çıxanlara qarşı silahlı mübarizədən çəkinməmişdir. Bu ideoloji xəttin təsiri günümüzdə İŞİD kimi radikal terror təşkilatlarında da müşahidə olunur.

1744-cü ildən Səud ailəsi ilə Əbdül Vəhhab arasında əməkdaşlıq quruldu. Bu əməkdaşlığa qarşı çıxanların can və mallarının onlara halal hesab edilməsi ideologiyaları ruhlandırdı. Bu kontekstdə, 1803-cü ildə Məkkə, 1805-ci ildə isə Mədinə işğal edildi. Hətta həcc ziyarətinə gələn müsəlmanlara vəhhabiliyi qəbul etmələri tövsiyə olundu və vaxtaşırı zəvvarlara qarşı hücumlar təşkil edildi. Səud ailəsi bu ideologiya ilə 1812-ci ildə nəzarət etdikləri əraziləri genişləndirərək Ər-Riyad, Nəcid, Hasa və Hicazın müqəddəs yerlərini öz nəzarətinə aldı. 1927-ci ildə İbn Səud özünü bölgənin kralı elan etdi və 1932-ci ildə Səudiyyə Ərəbistanı Krallığı rəsmi olaraq quruldu.

Osmanlı dövlətinin parçalanmasından sonra İslam coğrafiyasında böyük ümidsizlik yaranmışdı. Bu dövrdə siyasi, iqtisadi və sosial sahələrə diqqət yetirilməsi İslami hərəkatlarda özünü göstərmişdir. Bu xüsusiyyətinə görə, ərəb dövlətlərində Müsəlman Qardaşlar hərəkatı ən diqqət çəkən təşkilat olmuşdur.

Bugünkü İslamçı hərəkatların əsasını 1928-ci ildə misirli ibtidai sinif müəllimi Həsən əl-Bənna rəhbərliyi ilə yaradılan Müsəlman Qardaşları təşkil edir. Təşkilat ilkin mərhələdə İslamı düzgün izah etmək və İslam haqqında yanlış təsəvvürləri düzəltmək məqsədilə, İslam düşüncəsi, təhsili və xeyriyyə fəaliyyəti ilə məşğul olmuşdur. Lakin zamanla Müsəlman Qardaşları siyasi xarakter qazanmışdır. Misirdən kənarda da təşkilatlanaraq qısa zamanda İslamçı çağırışın yayılmasını təmin edən bu hərəkat, Misirdə "Ərəb baharı" prosesində rol oynamış və XX əsrin İslamçı siyasətinə təsir etmişdir[1].

İctimai hərəkatlar, ideologiyası, strategiyası, diskursları, növləri, intellektual mənşəyi, metodları, kimlikləri, sosial hadisələrlə əlaqələri və son nəticədə onu ictimai hərəkata çevirən bütün əsas və yan amilləri ilə bir sosial reallıqdır. İctimai hərəkatdan yalnız bu sosial reallıq bütün faktlarla birlikdə "kollektiv tələb" formasına çevrildikdə danışmaq mümkündür.

---

[1] *Turan, Ö. İslamcılık: Tarihçesi ve Fikir Örgüsü / - İstanbul: Hida Yayıncılık, - 2018, - s.71.*

1970-ci illərin əvvəllərində Rəşid Qannuşi və tərəfdaşları tərəfindən Tunisdə qurulan Əl-Nahda hərəkatı uzun illər boyunca İslami hərəkat kimi fəaliyyət göstərmiş və həmin dövrdə baş verən ictimai dəyişiklik və transformasiyadan faydalanaraq siyasi partiya kimliyi qazanmışdır. Əl-Nahda hərəkatı Tunisdə yalnız islami hərəkat olaraq deyil, həm də təşkilati baxımdan ən böyük hərəkatdır. Hərəkat, Tunisin sosial, siyasi və mədəni arenasında mühüm mövqeyə malik idi.

Eyni zamanda, 2010-cu ilin sonlarında başlayan və bütün Yaxın Şərqə təsir edən xalq üsyanlarının başlanğıc yerinin Tunis olması hərəkatın əhəmiyyətini daha da artırmışdır. Lakin Rəşid Qannuşi, Əbdülfəttah Moro və tərəfdaşlarının Tunisdə başlatdıqları hərəkat qısa müddətdə fərqli metodlara çevrilmişdir. Bu, əsasən Tunisdə sərt dünyəvilik və qərbyönümlü siyasətin hakim olması, eləcə də təhlükəsizlik qüvvələrinin hərəkatın fəaliyyətlərini izləyib qarşısını alması ilə bağlı idi.

Tunis mədəni və ictimai quruluş baxımından Misir, Suriya və İraqı əhatə edən Məşrik hövzəsindən fərqli olaraq Məğrib hövzəsinə aid bir dövlət idi və burada sosialistlər və qərbyönümlü sekulyaristlər üstünlük təşkil edirdi. Məşrik ölkələrində isə, müstəmləkə dövrünə baxmayaraq, ənənəvi dindarlıq İslamın mədəni və sosial quruluşuna ciddi zərər vurmadan varlığını davam etdirirdi. Məsələn, Misirdə ziyalılar şəxsi həyatlarında və evdə ərəbcədən istifadə edir, rəsmi işlərdə isə ingilis dilinə üstünlük verirdilər. Buna qarşı Tunis ziyalıları şəxsi həyat da daxil olmaqla, bütün sahələrdə fransız dilindən istifadə edirdilər. Məşrik və Məğrib hövzələri arasındakı bu mədəni, siyasi və inzibati fərqlər İslami hərəkatların formalaşmasına və fəaliyyət metodlarına əhəmiyyətli təsir göstərmişdir[1].

İslam dünyasında məzhəb fərqliliklərinin siyasi və ideoloji müstəviyə daşınmasının təzahürlərindən biri də Yaxın Şərqdə şiə islamçı hərəkat və ideologiyalarının formalaşması olmuşdur. Tarixi baxımdan XIX əsrin sonu və XX əsrin əvvəllərinə qədər İraqda siyasi hakimiyyət

---

*[1] Gannuşi, R. İslam Devletinde Kamusal Özgürlükler / - İstanbul: Mana Yayınları, - 2016, - s.50.*

əsasən sünni elitaların nəzarətində olmuşdur. Lakin demoqrafik baxımdan dövlətin əhalisinin əhəmiyyətli hissəsini şiə müsəlmanlar təşkil etmişdir. Şiə əhalinin üstünlük təşkil etdiyi İraqda Nəcəf (Həzrət Əlinin məzarı) və Kərbəla (Həzrət Hüseynin məzarı) şəhərləri şiə müsəlmanları üçün əsas dini və ziyarət mərkəzləri hesab olunur. İslam dünya- sında digər əsas məzhəb qruplaşmasını isə sünni məzhəbinə mənsub müsəlmanlar təşkil edir.

XX əsrdə şiə İslamının siyasi müstəvidə yüksəlişi Hizbullah kimi təşkilatların formalaşmasına zəmin yaratdı. 1979-cu ildə İranda baş verən inqilab mahiyyət etibarilə şiə teoloji-siyasi düşüncəsinə əsaslandığı üçün, bu hadisə Yaxın Şərqdə şiə hərəkatlarının legitimlik və təsir dairəsini genişləndirən mühüm dönüş nöqtəsi oldu.

1982-ci ildə İsrailin Livana müdaxiləsi və xüsusilə fələstinli silahlı qruplara qarşı həyata keçirilən əməliyyatlar ərəb dünyasında İsrailə qarşı reaksiyanı gücləndirdi. Ayətullah Xomeyni bu prosesdə İsrailə qarşı mübarizəni açıq şəkildə dəstəkləyir və İranın regiondakı şiə icmalarına ideoloji və təşkilati dəstək verəcəyini bəyan edirdi. Livandakı şiə icmasının İranın təsir dairəsinə daxil edilməsi və İsrailə qarşı birbaşa müqavimət xəttinin qurulması siyasəti Hizbullahın formalaşmasında mühüm rol oynadı.

"Hizbullah" ("Allahın partiyası") anlayışı İran islamçı diskursunda inqilabdan əvvəl mövcud idi və sonradan Livanda konkret təşkilati struktura çevrildi. 1982-ci il hadisələri bu prosesin sürətlənməsinə səbəb oldu. Xomeyninin razılığı ilə yaradılan komitə və şiə milislərinin təşkilatlanması nəticəsində Hizbullah institusional xarakter aldı və hərbi-siyasi aktor kimi meydana çıxdı[1].

Sonrakı dövrlərdə Hizbullah 2006-cı il Livan müharibəsində İsrailə qarşı aktiv rol oynadı, eləcə də Suriya vətəndaş müharibəsində Əsəd rejiminin tərəfində iştirak edərək regionun güc balansında mü-

[1] *Boran, Y. Ortadoğu'da Direniş: El-Fetih, Hamas, Hizbullah / - İstanbul: Siyah Beyaz Kitap, -2011, - s.243-244.*

hüm aktora çevrildi. Beləliklə, Hizbullah tədricən yalnız Livan daxilində deyil, bütövlükdə Yaxın Şərq siyasətində təsirli siyasi-hərbi qüvvə kimi mövqeyini möhkəmləndirdi.

Qərb siyasi və intellektual düşüncəsinin təsirinə baxmayaraq, İslam dini və onun ətrafında formalaşan ideoloji cərəyanlar Yaxın Şərqdəki xalq hərəkatlarına mühüm təsir göstərmişdir. Regionun siyasi və ictimai dinamikalarını formalaşdıran əsas ünsürlərdən biri din və onun ətrafında meydana gələn hərəkatlardır. Bu cərəyanların təşəkkülündə dini düşüncə və onun verdiyi məna çərçivəsi həlledici rol oynamışdır.

Yaxın Şərq coğrafiyasında dini və siyasi institutlar çox vaxt bir-birindən ayrılmaz strukturlar kimi fəaliyyət göstərmişdir. Siyasi legitimliyin əsas mənbələrindən biri dini diskurs olmuş, bu legitimlik isə əsasən Qurana istinad edən prinsiplər üzərindən formalaşmışdır. “Mülk yalnız Allaha məxsusdur”, “qanunvericilik səlahiyyəti yalnız Allaha aiddir” və “ilahi hakimiyyət” kimi fundamental prinsiplərdən çıxış edən İslam düşüncəsi iqtisadiyyat, hüquq və siyasət sahələrində normativ çərçivə təqdim etmişdir.

Beləliklə, Yaxın Şərqdə siyasi davranış və kollektiv mobilizasiya çox vaxt dini anlayışlar vasitəsilə izah və legitimləşdirilmişdir. Regionun ideoloji çərçivəsində Qurana əsaslanan İslam düşüncəsi imanla siyasət arasında sıx əlaqə formalaşdırmışdır. Klassik İslam siyasi nəzəriyyəsində din və dövlətin ayrılığı konsepsiyası Qərb tipli sekulyar modeldən fərqli şəkildə şərh olunmuş, hakimiyyətin ilahi mənbədən qaynaqlandığı qəbul edilmişdir. Bu baxımdan, İslam siyasi düşüncəsi Qərb siyasi strukturlarından nəzəri əsaslarına görə fərqlənir.

Qərb və müsəlman cəmiyyətləri arasında fikir ayrılıqlarından biri də Qərbdə ənənəvi dini çərçivədən sekulyar siyasi quruluşa keçid prosesi ilə bağlıdır. Maarifçilik dövründə tərəqqi və dünyəvilik arasında zəruri əlaqənin mövcudluğu barədə formalaşan təsəvvür, bəzi nəzəri yanaşmalarda İslam və Qərb dəyərlərinin uzlaşmazlığı haqqında fərziyyələrin meydana çıxmasına səbəb olmuşdur.

Lakin bu qarşıdurma tezisi bütün müsəlman və Qərb cəmiyyətlərini eyni şəkildə əhatə edən vahid model kimi deyil, daha çox ideoloji diskurslarda formalaşan və siyasi kontekstdən asılı olaraq dəyişən bir konstruksiya kimi qiymətləndirilməlidir. Müəyyən radikal və siyasi-dini hərəkatlar legitimlik mənbəyini Qurandan və İslam düşüncəsindən götürərək Qərb siyasi modelinə alternativ konsepsiya irəli sürmüşdür.

İslam dininin əsas mənbələri olan Quran və Sünnədə konkret bir dövlət modeli, idarəetmə forması və ya sistemləşdirilmiş siyasi quruluş təsvir edilməmişdir. Klassik İslam siyasi düşüncəsində daha çox ümumi prinsiplər və normativ çərçivə təqdim olunmuş, konkret idarəetmə mexanizmləri isə tarixi və ictimai şərtlər çərçivəsində formalaşmışdır. Əgər sabit və dəyişməz bir dövlət modeli müəyyən edilmiş olsaydı, dəyişən ictimai münasibətlər və müxtəlif mədəni kontekstlər şəraitində bu modelin universallıq iddiası məhdudlaşa bilərdi. Bu baxımdan İslam siyasi düşüncəsi, zamana və məkana uyğunlaşa bilən prinsiplər sistemi kimi çıxış edir.

Quranda ictimai münasibətlərin tənzimlənməsi ilə bağlı ədalət (əl-ədalə), məsləhətləşmə (şura), məsuliyyət, əmanət və bərabərlik kimi fundamental anlayışlar ön plana çəkilir. Müasir siyasi nəzəriyyədə bu prinsiplərin bir qisminin demokratik idarəetmə modelləri ilə müəyyən paralellər təşkil etdiyi vurğulanır. Lakin bu paralellik birbaşa identiklik anlamına gəlmir; daha çox normativ dəyərlər səviyyəsində oxşarlıqdan danışmaq mümkündür.

Beləliklə, İslam müəyyən konkret siyasi sistem təklif etməsə də, ictimai idarəetmənin əsas etik və hüquqi prinsiplərini müəyyənləşdirir. Dövlətin adı və formal quruluşu deyil, idarəetmənin ədalətlilik dərəcəsi və hüquqların təmin olunması əsas meyar kimi çıxış edir. Məsələn, monarxiya formasında olan bəzi dövlətlərdə demokratik institutlar inkişaf etdiyi halda, respublika adını daşıyan bəzi sistemlərdə qeyri-demokratik təcrübələr mövcud ola bilər[1]. Bu kontekstdə, İslam siyasi

[1] *Mehmedoğlu, M.S. Ortak Akılla Düşünmek: Meşveret Geleneğimiz ve Demokrasi / - İstanbul: Nesil Yayınları, - 2006, - s 157.*

düşüncəsi konkret modeldən çox, idarəetmənin mahiyyəti və prinsipləri üzərində qurulan normativ çərçivə təqdim edir.

Amerikalı tədqiqatçılar John L.Esposito və James P.Piscatori qeyd edirlər ki, tarix göstərir ki, dini ənənələr və mədəniyyətlər vahid və dəyişməz ideoloji istiqamətə malik deyil; əksinə, onlar müxtəlif siyasi və ideoloji şərhlərə açıqdır. Müəlliflərin fikrincə, İslam düşüncəsində bəzi institut və anlayışlar müəyyən şərtlər daxilində demokratik idarəetmə modelləri ilə uyğunlaşma potensialı daşıyır. Bu kontekstdə xüsusilə Şura (məsləhətləşmə), İcma (ümumi razılıq) və İçtihad (müstəqil hüquqi təhlil) anlayışları ön plana çəkilir. İslamın demokratiya ilə uyğunlaşa biləcəyini müdafiə edən yanaşmaya görə, Ali-İmran surəsinin 159-cu ayəsində qeyd olunan "iş məsələlərində onlarla məsləhətləş" ifadəsi siyasi qərarların kollektiv müzakirə yolu ilə qəbul edilməsinin normativ əsasını təşkil edir.

Şura anlayışı ərəb mənşəli termin olub, qərarvermə prosesində məsləhətləşmə prinsipini ifadə edir. Klassik fiqh çərçivəsində Şura daha çox idarəçinin müdrik və səlahiyyətli şəxslərlə məsləhətləşməsini nəzərdə tuturdu. Bununla belə, müasir dövrdə bəzi İslam düşünürləri bu anlayışı genişləndirərək nümayəndəli qərarvermə mexanizmləri ilə əlaqələndirmişlər.

Demokratiyanın İslamla uyğunluğunu müdafiə edən müəlliflər Şuranı müasir parlament institutları ilə funksional oxşarlıq çərçivəsində şərh edirlər. Məsələn, Səid Nursi məşvərət prinsipini dövrünün parlament təcrübəsi ilə müqayisə edərək onu ictimai iştirakçılığın zəruri mexanizmi kimi qiymətləndirmişdir.

Lakin qeyd edilməlidir ki, bu paralellər tam identiklik deyil, daha çox interpretativ yanaşma nəticəsində formalaşan müqayisəli oxşarlıqlardır. Şuranın qərarları ənənəvi İslam hüququna görə Quran və Sünnə ilə ziddiyyət təşkil etməməlidir ki, bu da onu klassik liberal-demokratik suverenlik anlayışından müəyyən mənada fərqləndirir[1].

[1] *Esposito, J.L., Piscatori, J.P. Democratization and Islam // - The Middle East Journal, -Washington: - 1991, 45(3), - 431 p.*

İçtihad İslam hüquq nəzəriyyəsində yeni və ya açıq şəkildə tənzimlənməmiş məsələlər üzrə hüquqi nəticəyə gəlmək məqsədilə göstərilən elmi səyi ifadə edir. Termin olaraq "cəhd" kökündən yaranmış içtihad, fiqh ənənəsində müctəhidin Quran və Sünnəyə əsaslanaraq hökm çıxarmaq üçün maksimal intellektual səy göstərməsi kimi izah olunur[1].

Hədis ədəbiyyatında içtihad anlayışı, xüsusilə hakim və ya qərarvericinin doğru hökmə çatmaq üçün bütün imkanlarını səfərbər etməsi mənasında işlədilmişdir. Klassik hüquq nəzəriyyəsinə görə, əgər açıq və qəti mətn mövcuddursa, ona istinad edilir; lakin yeni situasiyalar və dəyişən ictimai şərtlər qarşısında hüquqi boşluqlar içtihad vasitəsilə doldurulur.

Müasir tədqiqatçılar içtihad institutunu İslam hüquq sisteminin dinamik və adaptiv xüsusiyyətinin göstəricisi kimi qiymətləndirirlər. Bu yanaşmaya görə, içtihad İslam düşüncəsinin sabit doktrina deyil, dəyişən sosial və siyasi reallıqlara cavab verə bilən interpretativ çərçivə olduğunu göstərir.

Beləliklə, içtihad anlayışı, İslamın müxtəlif tarixi mərhələlərdə fərqli siyasi və hüquqi modellərlə qarşılıqlı əlaqəyə girməsini mümkün edən mexanizmlərdən biri kimi dəyərləndirilə bilər. Bu kontekstdə, İslamda demokratiyanın mümkünlüyü içtihad yolu ilə müdafiə olunur. İçtihad müsəlmanlara Allahın təyin etdiyi dəyişməz prinsipləri zamana, məkana və dövrün şərtlərinə uyğun olaraq yenidən şərh etmək imkanı verir. Əslində, içtihad İslam və demokratiya arasında ziddiyyət yarandığı hallarda həll vasitəsi kimi çıxış edə bilər və bu uyğunsuzluğu aradan qaldırmaq üçün istifadə oluna bilər [2].

Tarixdə İslam hərəkatlarından heç biri tamamilə siyasi olmayan hərəkat sayılmır. Çünki İslam həm bir əxlaq, həm bir fəlsəfə, həm nizam və üslub, həm də həyatın bütün sahələrini əhatə edən bir dindir. İslam dini tarix boyu müxtəlif insanlar tərəfindən fərqli şəkildə başa

---

[1] *Turan, Ö. İslamcılık: Tarihçesi ve Fikir Örgüsü, - s.27.*
[2] *Apaydın, H.N. "Fıkhın Kaynakları" (Nass ve İctihad), / – Ankara: Ay Yayıncılık, - 2018. - s.13.*

düşülmüş, bəzən qismən, bəzən isə tamamilə fərqli məqsədlərlə istifadə olunmuşdur. Bu məqsədlər fərdi və ya təşkilati xarakter daşıya bilərdi. İslamın əsas mənbələri dəyişməsə də, həmin mənbələrdən çıxarılan mənalar tarixi və ictimai kontekstə görə dəyişmişdir[1].

Hüquq həm fərdlərin, həm də cəmiyyətin həyatında fəal və aktual rol oynayır. Hüquq yalnız qanunların cəmi deyil; bəzən hökumət ən böyük qanunsuzluqları hüquq adı altında həyata keçirə bilər. Əsl hüquq, insanlar arasında ayrı-seçkilik yaratmayan, hamıya eyni dərəcədə tətbiq olunan, fərdlərin əsas hüquq və azadlıqlarını təmin edən və ümumi qəbul olunmuş dəyərlərə əsaslanan bir sistemdir.

İslamda hüquq sistemi, şübhəsiz ki, Quranda yer alan prinsiplərə əsaslanır və rasional şəkildə təşkil edilmiş bir sistem kimi qəbul olunur. Lakin İslam hüququ, şəriət kimi ümumi qəbul edilməsinə baxmayaraq, zəngin hüquqi qaydalarla xarakterizə olunmur. Qurandakı təxminən 6 min ayə arasında yalnız bir neçə ayə hüquqla bağlıdır. Müasir hüquq sistemləri ilə müqayisədə, İslam hüququ daha çox cinayət, mülki hüquq, borc və vərəsə məsələləri ilə məhdudlaşır.

Hüquqi dövlətin mahiyyəti, fərdlərin şəxsi xüsusiyyətlərini nəzərə almayan, ümumi qanunvericilik fəaliyyətinə dayanır. Quranda isə ümumi qanunverici funksiyanı əhatə edən müddəalar, İslam təlimlərinin yalnız kiçik bir hissəsini təşkil edir. Nəticə etibarı ilə, İslam həm təmiz siyasi sistem, həm də xalis hüquq sistemi kimi görünmür. Tarixi və çağdaş nümunələr, özlərini İslam hakimiyyəti adlandırmaqla fərqli siyasi və hüquqi yanaşmalar nümayiş etdirmiş, lakin bütün ictimai ehtiyaclara cavab verən tam bir İslam hüquqi modelinin mövcudluğu yoxdur.

Fiqh termini, Qurani Kərimdə işlədilən və İslam dininin qayda-qanunlarını təmsil etmək üçün istifadə olunan anlayışdır. Əgər fəlsəfədə insan şüurunun hadisələri şərh etməsi zamanı ağıl və rasionallıq ön plana çıxırsa, Fiqh isə dini mətnlərin köməyi ilə hadisələrin hüquqi nəticələrini başa düşmək və tətbiq etmək cəhdi kimi qiymətləndirilir.

---

[1] *İzzetbegoviç, A. İslam deklarasyonu / – İstanbul: Fide Yayınları, - 2010, - s.43.*

İslamda ibadətlər gündəlik həyatın ayrılmaz bir parçası olduğundan, şəriət qanunları ibadətləri də əhatə edir. Bu baxımdan, bir müsəlman üçün hüquq, gündəlik həyatda müraciət edə biləcəyi bir quruma çevrilmiş olur. İslam hüququnda, xüsusilə Fiqh alimləri adlandırılan şəxslər, sosial və gündəlik məsələlərin həllini asanlaşdırmağa yönəlmiş tövsiyələr irəli sürürlər.

Müsəlmanların gündəlik həyatında halal və haram anlayışına riayət etməsi, axirət, cənnət-cəhənnəm və qiyamət kimi dini inancların mövcudluğu, cəmiyyətin Fiqh biliklərini asanlıqla başa düşməsini tələb edir. Bunun əksinə olaraq, təbii hüququn hakim olduğu və dünyəvi həyat tərzində yaşayan qeyri-müsəlman cəmiyyətlərdə, insanların qanuna ehtiyacı yalnız fövqəladə hallarda, məsələn, cinayət və oğurluq zamanı yaranır. Bu səbəbdən, hüquq bu cəmiyyətlərdə əsasən məhkəmələr vasitəsilə tətbiq olunur.

İcma İslam hüququnda, müsəlmanların müəyyən məsələlərdə həmfikir olmalarını təmin edən anlayışdır. Lüğət mənasında İcma "bir işi yaxşı görmək, birləşdirmək, toplamaq, bir mövzuda razılaşmaq" deməkdir. Fiqh baxımından isə İcma, hər hansı bir dövrdə dini bir məsələnin hökmü ilə bağlı müctəhidlərin ittifaqı kimi müəyyən edilmişdir. Müasir dövrdə İcma, İslam demokratiyasının təsirli təməl prinsiplərindən biri kimi görünür. Bu anlayış, çoxluq tərəfindən idarəçiliyi qəbul edən sistemlərin və qərar mexanizmlərinin İslam çərçivəsində əsaslandırılmasına imkan verir.

Qərbdə formalaşan Təbii hüquq ilə Şərqdə tətbiq olunan və ilahi mənşəli İslam hüququ, ilkin baxışda bir-birinə alternativ və rəqabət aparan iki hüquq sistemi kimi görünür. Bu gün ideoloji səbəblərə görə, çox vaxt onlar tamamilə fərqli yanaşmalar kimi təqdim edilir. Əlbəttə, mənşə və prinsiplər baxımından fərqliliklər mövcuddur və yanaşmaların müxtəlifliyi təbiidir. Lakin dərindən araşdırıldıqda, hər iki sistemin üst-üstə düşən və bir-birindən öyrənilə biləcək cəhətləri olduğu görünür. Xüsusən sosial məsələlərin həllində hüquq sistemlərinin qanunları daim yenilənməli və tətbiq sahəsinə uyğun olmalıdır. İslam hüququnun ilahi mənşəli olması və Təbii hüququn rasional əsaslı olması

aralarında fərqlilik yaratsa da, hər iki sistemin qarşılıqlı öyrənməyə açıq olduğu deyə bilər.

Sosial elmlərdə "kamillik dərəcəsi" adlandırıla biləcək yekun mərhələ mövcud olmadığından, mükəmməl sayılan doktrinalarda çatışmazlıqlar və ya əhəmiyyətli səhvlər üzə çıxdıqda yeni qaydalar irəli sürülə bilər. Bu gün Təbii hüququn tərəfdarları, İslam hüququnu anaxronik qanunlar kimi qəbul etdikləri üçün ona qərəzli yanaşırlar. Belə təəssübkeşlik aradan qaldırılmadığı müddətcə, Təbii hüququn İslam hüququndan və Fiqh elminin zəngin təcrübəsindən faydalanması çətinləşəcəkdir.

Nəticə olaraq, İslamın yaranmasından etibarən formalaşan dini və siyasi prinsiplər, müxtəlif coğrafiyalarda mədəniyyət və sivilizasiyaların inkişafına təsir etmişdir. Xilafət dövründə qurulan dövlət strukturları zamanla siyasi çətinliklərlə üzləşmiş, bu isə dinin siyasi fəlsəfəsinin sistemləşdirilməsi və ictimai idarəetmədə tətbiqi zərurətini ortaya çıxarmışdır. Beləliklə, İslamın siyasiləşməsi prosesi yalnız siyasi sahəyə təsir göstərməklə qalmamış, həm də sosial münasibətlərin və kollektiv təşkilatlanmanın inkişafında mühüm rol oynamışdır.

## 2.2. Almaniya, Fransa, İngiltərə və İtaliyanın Yaxın Şərqə yönəlik siyasətində İslam amili

Yaxın Şərq, strateji mövqeyi, dini və mədəni müxtəlifliyi, həmçinin zəngin yeraltı sərvətləri ilə tarixi dövrlərdən bəri dünya siyasətində xüsusi əhəmiyyətə malik olmuşdur. Asiya, Avropa və Afrika qitələrinin təbii keçid nöqtəsində yerləşməsi, bölgəni qlobal ticarət və mədəni mübadilələrin mərkəzinə çevirir. Eyni zamanda, Yaxın Şərq həm Avropa və Asiya, həm də Şərq və Qərb arasında siyasi və iqtisadi əlaqələri formalaşdıran strateji bir körpü funksiyasını yerinə yetirmişdir. Bu faktorlar regionun qlobal güclərin diqqətini daim cəlb etməsinin əsas səbəblərini təşkil edir.

İlk növbədə, Yaxın Şərq regionunun Avropaya coğrafi yaxınlığı və tarixi əlaqələri, Avropa ilə Yaxın Şərq arasında inkişaf edən əlaqə-

lərin əsasını təşkil edir. Bu amillər, Avropanın regiona yanaşmasına təsir edir. Əslində Yaxın Şərq regionu, belə demək mümkünsə, Avropanın arxa həyəti kimi görünürdü. Məsələn, Fransa, İngiltərə, İtaliya və İspaniya kimi Avropa dövlətləri, keçmişdə Yaxın Şərq regionunda koloniyaları olan ölkələr olub. Ona görə də, Yaxın Şərqdəki siyasi, iqtisadi və sosial şərait Avropanın həm təhlükəsizliyinə, həm də iqtisadi maraqlarına təsir edir.

Geosiyasət dövlət və coğrafiya arasındakı qarşılıqlı əlaqəni öyrənir və dövlətin rifahı, təhlükəsizliyi və strateji maraqlarını inkişaf etdirmək üçün coğrafi reallıqlara əsaslanan "baxış" yaradır. Bu proses dövlətin indiki vəziyyəti ilə gələcək hədəfləri arasında körpü qurmaq funksiyasını daşıyır. Coğrafi faktorlar, dövlətin yerləşdiyi mövqe, ərazisinin həcmi, fiziki xüsusiyyətləri, iqlimi, yeraltı-yerüstü sərvətləri, siyasi fəaliyyət və qərarların formalaşmasında həlledici rol oynayır. Geosiyasət eyni zamanda dövlətlərə rəqib güclərlə mübarizə aparmaq, sərfəli siyasi-diplomatik tarazlıqlar qurmaq və maraqlarını qorumaq imkanını təmin edir.

Yaxın Şərq Asiya və Avropaya istiqamətli bütün siyasi, iqtisadi və mədəni layihələrin mərkəzi kimi çıxış edir. Dəniz yolları vasitəsilə Avropa dövlətlərinə, quru yolları ilə Hindistan, Çin və Balkanlara təsir etmək potensialına malik olan bu region, geostrateji baxımdan Anadolu, İran və Ərəbistan yarımadasına da nüfuz edə bilir. Yaxın Şərqin unikal coğrafi mövqeyi, ona bir çox sivilizasiyaya ev sahibliyi etmək imkanı vermiş və bölgənin mədəni zənginliyi tarixin gedişatını dəfələrlə dəyişdirmişdir. Tarixi araşdırmalar göstərir ki, insanların həyatına təsir edən bir çox fundamental hadisələr, ilk oturaq həyat, ilk əkinçilik, ilk yazı, ilk yazılı qanunlar və ilk dinlər bu bölgədə meydana gəlmiş və dünyaya yayılmışdır. Beləliklə, Yaxın Şərq yalnız regional deyil, həm də qlobal miqyasda strateji, mədəni və tarixi əhəmiyyətə malikdir.

Dünyada sənaye inqilabı ilə birlikdə maşın istifadəsinin sürətlə artması və neftin geniş tətbiqi, xüsusən XX əsrin birinci yarısından

etibarən, neftin strateji və iqtisadi əhəmiyyətini dramatik şəkildə artırmışdır. Quru və dəniz yollarının strateji hissəsinin Yaxın Şərqdən keçməsi, bölgənin beynəlxalq arenadakı rolunu heç bir başqa regionla müqayisə olunmayacaq səviyyəyə qaldırmışdır. Bu kontekstdə, böyük neft hasil edən dövlətlər ilə dünyanın əsas neft istehlakçıları arasında sıx strateji əlaqələr mövcuddur. Tarixi təhlillər göstərir ki, dünya müharibələri, regional münaqişələr və vətəndaş müharibələrinin bir çoxu enerji resursları üzərində hegemonluq mübarizəsindən qaynaqlanmışdır. Buna görə də, beynəlxalq güclər və ya ittifaqlar Yaxın Şərqin strateji məkanını nəzarətdə saxlamalıdır. Aralıq dənizi ilə Qırmızı dəniz arasında yerləşən Süveyş kanalı, 1869-cu ildən bu yana regionun, xüsusən Misirin, geosiyasi əhəmiyyətini artırmış və Fars körfəzində yerləşən Hörmüz boğazı da enerji resurslarına çıxış baxımından mühüm rol oynamışdır. Beləliklə, yeni qlobal geosiyasi mühitdə enerji resurslarına və onların marşrutlarına nəzarət edən coğrafi məkanlar, beynəlxalq siyasətdə prioritet mövqe tutmağa davam edir. Dünya yenidən formalaşarkən, qloballaşmaya can atanlarla ona müqavimət göstərənlər arasında geosiyasi qütbləşmə davam edir.

Regional siyasətə həlledici təsir göstərən əsas struktur amillərdən biri tarixi irsdir. Tarixi irs dövlətlərin və millətlərin formalaşmasında mühüm rol oynamış, eyni zamanda bu gün də bəzi struktur problemlərinə səbəb olmuşdur. Yaxın Şərq XIX əsrin sonuna qədər təxminən 400 il Osmanlı hakimiyyəti altında olmuşdur. Birinci Dünya müharibəsindən sonra imperiyanın dağılması ilə bölgədə yeni dövlətlər yaranmış, 1916-cı il Sayks-Piko müqaviləsi, 1919-cu il Paris və 1920-ci il San-Remo konfransları regionun siyasi xəritəsini müəyyən etmişdir. 1920-ci illərdə yalnız İran, Türkiyə, Səudiyyə Ərəbistanı və Yəmən müstəqil idi, digər dövlətlər isə mandat, himayə və ya müstəmləkəçilik yolu ilə Avropa dövlətlərinin nəzarətinə keçmişdir. İkinci Dünya müharibəsindən sonra başlayan dekolonizasiya prosesi nəticəsində Yaxın Şərqin indiki siyasi xəritəsi formalaşmışdır. Dövlət quruculuğu prosesində mərkəzi hakimiyyətdə olan tayfalar, məzhəblər və sosial

qruplar ilə hakimiyyətdən uzaq olanlar arasındakı münasibətlər regionun əsas siyasi qırılma nöqtələrini müəyyən edir. Eyni zamanda, sərhədlərin böyük dövlətlər tərəfindən müəyyən edilməsi bir çox dövlətlərin qonşularla sərhəd problemləri yaşamasına səbəb olmuşdur. Bu baxımdan, tarixi irs və dövlət quruculuğu Yaxın Şərqin müasir siyasi və təhlükəsizlik dinamikasının başa düşülməsində həlledici rol oynayır[1].

Regiondakı yerli elementlər Avropanın regional siyasətinə birbaşa təsir göstərir. Yaxın Şərqdəki islamçı partiya və hərəkatlar demokratik seçkiləri qəbul etdiklərini bildirirlər, lakin Qərb bu strukturlara həmişə şübhə ilə yanaşır. Avropa dövlətlərinin Yaxın Şərq və Şimali Afrika ilə uzunmüddətli ikitərəfli əlaqələri 1995-ci ildə Aİ rəhbərliyi ilə başlayan Barselona Prosesi çərçivəsində regional və institusional struktur qazanmışdır. 1996-1999-cu illər ərzində Aİ demokratiya büdcəsindən regiona cəmi 10 milyon avro ayırmışdır[2]. Aİ-nın mədəni və sosial sahələrə sərmayə qoyaraq siyasi problemləri səthi həll etməsi, alt qatdakı səbəbləri nəzərə almadığını göstərir. Avtoritar rejimləri maliyyə yardımı ilə dəstəkləyərkən, Aİ islamçı qruplarla əlaqəni məhdudlaşdırmış, onları maliyyələşdirmə və təlim proqramlarına daxil etməmişdir. Beləliklə, bölgədə siyasi dialoq dünyəvi, liberal və rejim tərəfdarı qruplar vasitəsilə aparılmış, islamçı hərəkatlara qarşı sıxışdırma siyasətinə isə diqqət yetirilməmişdir[3]. İordaniya, Mərakeş, Küveyt və Yəmən kimi dövlətlərdə islami partiyaların seçkilərdə iştirakına icazə verilsə də, bu onların hakimiyyətə açıq yolunun mövcud olduğu anlamına gəlmirdi. Seçkilərdə uğur qazanan islami partiyalar sıxışdırılma, hədə-qorxu, əsassız həbs və hətta dövlət çevrilişi kimi

---

[1] *Sinkaya, B. İran-Suriye İlişkileri ve Suriye'de Halk İsyanı / - İstanbul: Ortadoğu Analiz, - 2015. 3 (33), 2015, - s.38-48.*
[2]*Youngs, R. Europe's Uncertain Pursuit of Middle East Reform // - Carneige Papers, Carneige Endowment for International Peace, - Washington: 2004, №45, -p 5.*
[3] *Mikhelidze, N., Tocci, N. How can Europe engage with Islamist Movements?, inside Islamist Radicalization: The Challenge for Euro-Mediterranean Relations / - Brussels: Centre for European Policy Studies, FRIDE, - 2009. - p.153.*

vasitələrlə hakimiyyətdən uzaqlaşdırılırdı. Avropa dövlətlərinin bu ədalətsiz qarşıdurmaya səssiz qalması, onların demokratiya və insan haqları ilə bağlı rəsmi diskursları ilə ziddiyyət təşkil edirdi.

Qloballaşan yeni dünyada geoiqtisadi məna, region üzərində davam edən rəqabətin xarakterini, miqyasını və istiqamətini dəyişdirmişdir. Bu dövrdə Yaxın Şərq maraqları, ziddiyyət təşkil edən Almaniya, İngiltərə, Fransa, İtaliya və Rusiyanın "Şərq məsələsi" çərçivəsində formalaşdırdığı siyasət, diplomatik, hərbi, siyasi, dini və mədəni təsirlər altında idi. Sosialist ideologiyasını rəhbər tutan Sosialist Ərəb milliyətçiləri (BƏƏS) və Nasirçi diktatura strukturları ilə qərb yönümlü sülalə idarəçilikləri arasındakı fərqlər, regionun geomədəni xüsusiyyətlərinə yeni ölçü qazandırmış və bu fərqlilik qlobal rəqabətdə özünü göstərmişdir[1].

Avropa dövlətlərinin diqqətinin Yaxın Şərq regionuna yönəlməsi, onları bölgədə baş verən hadisələrə maraq göstərməyə və birbaşa müdaxilə etməyə sövq edirdi. XX əsrin əvvəllərindən başlayaraq, bölgəyə yəhudi köçünün artması və 1948-ci ildə İsrail dövlətinin yaradılması, bölgədaxili mədəni və siyasi qarşıdurmaları dərinləşdirdi. XX əsrin ikinci yarısında da Yaxın Şərqdə sakit dövr müşahidə olunmayıb; qarşıdurmalar davam etdi. İkinci Dünya Müharibəsindən sonrakı illər yalnız İsrail dövlətinin yaranması ilə yadda qalmayıb, ərəblərin yaşadıqları siyasi strukturlarda da güc balansları dəyişmişdir. Müstəmləkə dövrlərinin nəzarətindən çıxaraq müstəqillik əldə edən dövlətlərdə isə çoxşaxəli sosial və siyasi dağıntılar, eləcə də Avropa dövlətləri ilə yeni münasibətlərin formalaşması prosesi müşahidə olunmuşdur.

Almaniya Birinci və İkinci Dünya müharibələrində məğlub olmuş, yarım əsrə yaxın iki yerə bölünmüş və 1989-cu ildə Soyuq müharibənin sona çatması ilə yenidən birləşmiş bir dövlət olaraq, XX əsrdə güclənərək bir çox dağıntılardan çıxmışdır. Bu prosesdə, nasizmin yaratdığı mənəvi və sosial dağıntıların öhdəsindən gəlmək zərurəti, Almaniyanın xarici siyasətinin əsas məqsədini beynəlxalq ictimaiyyətin

[1] *Davutoğlu, A. Stratejik Derinlik / - İstanbul: Küre Yayınları, -2012, - s.31-135.*

hörmətini bərpa etmək kimi müəyyən etmişdir. Dövlətin tarixində Yəhudi soyqırımı kimi faciələrin mövcudluğu və II Dünya müharibəsindən sonrakı dövrdə İsrail ilə qurulan münasibətlər, ərəb dünyasında müəyyən neqativ təsirlər yaratmış olsa da, Fransa və İngiltərə kimi imperiya keçmişinə sahib olmayan bir dövlət kimi Almaniyanın davranışı Qərb dövlətləri tərəfindən nisbətən müsbət qiymətləndirilmişdir[1].

İqtisadi və siyasi cəhətdən Avropanın ən güclü dövlətlərindən biri olan Almaniya, digər böyük dövlətlər kimi Yaxın Şərq regionu üçün siyasi planlar hazırlamağa çalışırdı. Bu çərçivədə Almaniyanın izlədiyi siyasətlərdə Qərbin digər qlobal güclərindən fərqli davranması diqqət çəkdi. Almaniya hərbi müdaxilədən tərəf olmayan, region dövlətlərinə maliyyə dəstəyi verərək, ölkələrdə sosial, institusional və siyasi strukturları gücləndirmək kimi, ümumiləşdirilə bilən bir siyasət anlayışını öz üzərinə götürmüşdü. Problemlərin sülh yolu ilə həlli və sabitlik Almaniya üçün çox vacibdir. Almaniyanın Yaxın Şərq və İslam dövlətləri ilə əlaqələri, daha çox bütün dünyada Yaxin Şərqin ortaq xüsusiyyətlərini əks etdirən dövlətlər arasında seçilir. Bu baxımdan, Yaxın Şərqin Avropaya qapısı olaraq Türkiyəni, Yaxın Şərqin Uzaq Şərqə qapısı olaraq Pakistanı, neft ehtiyatları və ixracatına görə Səudiyyə Ərəbistanı, Yaxın Şərqin Afrikaya qapısı və mədəniyyət mərkəzi olaraq da Misiri, güc baxımından isə İranı göstərmək olar. Almaniyanın Yaxın Şərq və Şimali Afrika regionunda güclü siyasət qura bilməməsinin səbəbləri kimi, ABŞ-ın regionda effektivliyini, xarici siyasətinin Aİ çərçivəsində inteqrasiyasının artmasını və İsraillə xüsusi əlaqələrini qeyd etmək olar. Aİ-nın çətiri altında formalaşdırdığı xarici siyasəti, iqtisadiyyata əsaslanaraq, regionda insan haqları və demokratiyanın bərqərar olması planını arxada qoymuşdur.

İslam Almaniyada xristianlıqdan sonra ikinci böyük dindir. Almaniyanın Bertelsmann Fondunun apardığı araşdırma, hər iki alman-

---

[1] *Perthes,V. Relations to the Arab World, Germany and The Middle East Interest and Options, / - Berlin: Heinrich Böll Foundation in Co-Operaiton with Stiftung Wissenschaft und Politik, - 2002, -p.129-130.*

dan birinin İslamı təhlükə olaraq gördüyünü, şərqdə və qərbdə müsəlman qonşuları istəmədiyini ortaya qoydu. İslamın bir dindən çox siyasi bir ideologiya kimi qəbul edilməsi və bu səbəbdən dini tolerantlıq çərçivəsindən kənarda sayılması açıq şəkildə görünür. İslamın ictimaiyyət arasında, tez-tez mənfi kontekstdə müzakirə edilməsi də buna təsir edir.

XX əsrin əvvəllərində İngiltərə ən güclüdövrünü yaşayarkən, onun ən təsirli olduğu coğrafiyalardan biri də Yaxın Şərq və Şimali Afrika bölgəsi idi. Bu gün də Böyük Britaniyanın xarici siyasəti baxımından, ən mühüm gördüyü bölgələrdən biri hələ də Yaxın Şərq və Şimali Afrikadır. Uzun illər İngiltərənin Yaxın Şərq siyasətini idarə edən, nüfuzlu simalardan biri olan "Qlubb Paşa" ləqəbli, Con Baqot Qlubb, Yaxın Şərqin, xüsusilə də Fars körfəzinin əhəmiyyətindən danışarkən, Yaxın Şərq üçün "Ərəb dəhlizi" ifadəsini işlətmişdir. Yaxın Şərq, İngiltərə üçün bəzi radikal ictimai hərəkatların və terror risklərinin mövcud olduğu, çətin bir coğrafiyadır. Eləcə də, region dövlətlərindəki zəngin yeraltı sərvətlərin, digər dövlətlərə təhlükəsiz tədarükü və ingilis mallarının region dövlətlərinə rahat daxil olması üçün, əhəmiyyətli bölgədir.

Müstəmləkə dövləti olan İngiltərə Yaxın Şərqi Fransa ilə bölüşərək region daxilində sərhədlərini müəyyən etmişdir. XX əsrin ortalarında Yaxın Şərq dövlətləri müstəqillik əldə etdikcə dünya siyasi səhnəsində yeni mərhələ başlamışdır. İkinci Dünya müharibəsindən sonra Almaniyanın iki yerə bölünməsi və Avropa güclərinin, xüsusilə İngiltərə və Fransanın rolunun zəifləməsi, dünya siyasətinin ABŞ və Sovet İttifaqı arasında ikiqütblü sistemə çevrilməsinə gətirib çıxarmışdı[1]. Bu ikiqütblü sistem Soyuq Müharibə dövründə ABŞ və SSRİ arasında ideoloji və diplomatik gərginliklə xarakterizə olunmuşdur. "Soyuq müharibə" termini ilk dəfə 1945-ci ildə ingilis yazıçısı Corc Oruell tərəfindən, daha sonra isə 1947-ci ildə amerikalı jurnalist Walter Lippmann tərəfindən işlədilmiş və ABŞ-ın maliyyəçi və prezident müşaviri

[1] *Lawrence, F. Strategy: A History. / - Oxford: Oxford University Press, 2013, - p.153.*

Bernard Baruch tərəfindən 16 aprel 1947-ci ildəki çıxışında ABŞ-SSRİ arasındakı gərginliyi təsvir etmək üçün populyarlaşdırılmışdır. Hərçənd, Corc Oruell bu termini 1945-ci ilin oktyabrında müharibədən sonrakı nüvə qarşıdurmasını təsvir etmək üçün istifadə etmişdir. Soyuq müharibə Yaxın Şərqdə də siyasi və ideoloji çalarlarla müşahidə olunmuş, hər iki qlobal güc regionda nüfuz qazanmaq üçün texniki yardım, diplomatik təsir və təbliğat vasitələrindən istifadə etmişdir[1]. Soyuq müharibənin digər böyük aktoru olan ABŞ 1947-1956-cı illər arasında Truman doktrinası ilə, Sovetlərin Yaxın Şərq siyasətinə qarşı çıxmağa çalışmışdır[2]. Doktrinanın regiondakı əks-sədası Sovet İttifaqı ilə həmsərhəd dövlətlərlə əməkdaşlıq etməklə, cənuba sovet nüfuzunun yayılmasının qarşısını almağa yönəlmişdir. Lakin Süveyş böhranı sonrası İngiltərənin Sovetlərlə danışıqlar aparmaq imkanının məhdudlaşması Truman doktrinasının effektivliyinə mənfi təsir göstərmişdir[3].

İngiltərənin İslam dünyasının ən önəmli gücü olan Osmanlı imperiyası ilə ilk təmasları Səlib yürüşləriylə olsa da, nisbətən davamlı əlaqələr, yalnız XIV əsrin sonu və XV əsrin əvvəllərində qurula bildi. Bu dövrlərdə münasibətlər, demək olar ki, tamamilə ticarət maraqları prizmasından inkişaf etsə də, sonrakı əsrlərdə Osmanlı-Fransa və xüsusilə də Osmanlı-Rusiya əlaqələrindən, öz maraqları üçün istifadə siyasəti də yarandı. Zaman keçdikcə, İngiltərə və Hindistan arasında bir əlaqə kanalı olaraq, Bəsrə və İraqın əhəmiyyəti artdı. İngiltərə, Şərqi Hindistan şirkəti ilə bölgəyə daxil olmuş, klasik diplomatiya ilə yanaşı, iqtisadi diplomatiyadan da maksimum dərəcədə faydalanmışdır. İngiltərə, bölgəni yaxından tanımaq üçün, bu coğrafiya üzrə mütəxəssis olan, istedadlı və gənc şərqşünasları, bölgəyə təyin etməyə üstünlük verdi. Nümunə olaraq, Böyük Britaniya səfiri Stratford Kaninq, Bağdadda Klaudius Ceyms Riç, Henri Kresvik Ravlinson kimi, Şərq

---

[1] *William, L.C. & Martin B.A History of the Modern Middle East, 6th ed. / - Boulder: Westview Press, -2016, p.279–283.*
[2] *John, L.G. The Cold War: A New History / - New York: Penguin Press, - 2005, p.33–36.*
[3] *Avi, S. The Iron Wall: Israel and the Arab World / - New York: W.W. Norton, - 2014, p.122–124.*

dillərini (türk, ərəb, fars) yaxşı bilən, nüfuzlu Britaniya diplomatları, uzun illər regionda çalışaraq, sahə təcrübəsi qazanmışdır. İngilislər bölgədəki qeyri-müsəlman xalqları, dindar müsəlmanların hücumlarından qorumağa çalışırdılar, eyni zamanda, qeyri-müsəlmanlarla sıx əlaqələr inkişaf etdirərək, bölgədə istifadə edə biləcəyi siyasi baza əldə etməyə çalışırdılar. Britaniya diplomatları, siyasi işlərindən əlavə, bölgədəki arxeoloji, mədəni sərvətlərin aşkarlanması və qorunmasında da, mühüm xidmətlər göstərmişlər. Bu, şübhəsiz ki, Britaniya imperializminin ən müsbət tərəfidir. Fransızların məşhur "L'Orient est une carrière" (Şərq karyera fürsətidir) ideyasını təsdiqləyən kimi, XIX əsrdən etibarən gənc, cəsur və macəraçı Britaniya diplomatları, iş adamları, tacirlər və missionerlər bölgəyə axışmağa başladılar[1]. İngiltərə, ərəblərin rəhbərliyi və onların nəzarəti altında, yeni Xilafət idarəsi yaratmağa çalışırdılar. O zaman, Bağdad ticarətinin 90 faizi İngiltərənin nəzarətində idi. Bu, şübhəsiz ki, İngiltərənin İslam dünyasındakı mühüm geostrateji və geoiqtisadi maraqlarından irəli gəlirdi.

Fransa Aİ dövlətləri arasında ən çox müsəlman əhalisi olan dövlətdir. Fransaya müsəlman köçü Birinci Dünya müharibəsindən əvvəl başlamış, lakin əsas köç İkinci Dünya müharibəsindən sonra baş vermişdir. Dünyanın ən mühüm diplomatik və iqtisadi güclərindən biri sayılan Fransanın Avropa və Afrikadan başqa ən nüfuzlu sayıldığı coğrafiyalarından biri, Yaxın Şərqdir. Fransanın Yaxın Şərq siyasəti, ötən əsrlərdən XX əsrin ortalarına qədər, əsasən səlibçi zehniyyəti ilə, xristian azlıqlarını qorumaq, digər ölkələrin dövlətləri və xalqları üzərində fiziki və ya iqtisadi hökmranlıq yaratmaq anlayışı ətrafında qurulmuşdur. İkinci Dünya müharibəsindən sonra başlayan dekolonizasiya dövrü ilə birlikdə, Fransa da İngiltərə kimi, müstəmləkələrini tərk etməli oldu və daha çox bölgə dövlətləri ilə qurduğu hərbi, diplomatik, iqtisadi və mədəni əlaqələr sayəsində siyasətini davam etdirdi.

Fransa tarixən Yaxın Şərqdə, xüsusilə Livan və Suriyada ən təsirli olmuşdur. Bu təsir XVII əsrdən etibarən, maronitlərlə qurulan sıx

*[1] Terrill, A. Arab Threat Perceptions and the Future of the U.S. Military Presence in the Middle East, - p.73-74.*

mədəni və dini əlaqələrlə başlamışdır. XIX əsrdən Osmanlı imperiyasının gücünü itirməsi və parçalanmağa başlaması, Fransanın bölgədəki nüfuzunu getdikcə artırdı. Zamanla Fransa, Osmanlı imperiyasındakı katoliklərin və ümumilikdə xristian əhalinin himayədarı kimi çıxış etməyə başladı. Lakin müsəlmanların iqtisadi gücünü itirməsi nəticəsində artan narazılıq 1860-cı ildə bölgədə vətəndaş müharibəsinə səbəb oldu və Dəməşqdə xristian qırğını baş verdi.

Bu hadisələr nəticəsində İngiltərə və Fransa bölgədəki nüfuzlarını daha da genişləndirdi və nəticədə Sayks-Piko müqaviləsi çərçivəsində Osmanlı torpaqlarını paylaşmağa razılaşdılar. Müqaviləyə əsasən, Fransa Suriya və Livana, o cümlədən Hələb, Həma, Xüms və Dəməşq üzərində nəzarəti ələ keçirdi. Təxminən 23 il bölgədə suverenlik əldə edən Fransa, xristianların təsiri ilə 1943-cü ildə Livanın Suriyadan müstəqil bir dövlət olaraq formalaşmasını təmin etdi.

Livanın müstəqilliyindən sonra ərəb dövlətləri və İranın təsiri artsa da, Fransa burada qismən gücünü qoruyub saxladı. Suriyada isə Fransız mandatı təxminən 28 il qüvvədə qaldı və 1946-cı ildə fransız əsgərlərinin geri çəkilməsi ilə dövlət müstəqilliyini elan etdi. Lakin Fransanın Suriyadakı təsiri uzun müddət davam etdi və əsasən Xristian ərəb əhalisi tərəfindən qurulan BƏƏS Partiyası bu günə qədər ölkədəki hökmranlığını qismən qoruyub saxlamışdır[1].

Qərb müstəmləkəçiliyi, müxtəlif regionları öz hakimiyyəti altına alarkən, İslam dövlətlərinə qarşı xüsusi ehtiyat və strategiyalar inkişaf etdirmişdir. Müstəmləkəçi dövlətlər, müsəlmanların siyasi və dini inanclarının yaratdığı potensial təhlükəni ciddi şəkildə nəzərə alırdılar. Fransız Katolik İnstitutunun üzvü Baron Karra De Vuks tərəfindən Fransa rəhbərliyinə irəli sürülən həll yollarından biri etnik və siyasi bölünmələrdən istifadə etməklə İslam dünyasının mənəvi və siyasi birliyini zəiflətmək olmuşdur. Bu yanaşmada, millətçilik hissini təşviq etmək və müxtəlif müsəlman qrupları arasında dini icma ideyasını

[1] *Aras, İ. Fransa'nın Arap Baharı Politikası // Türkiye Ortadoğu Çalışmaları Dergisi, – Sakarya: -2017, 4 (2), - s.137-139.*

zəiflətmək əsas məqsəd kimi göstərilmişdir. İslamın oyanış və mobilizasiya qabiliyyətini məhdudlaşdırmaq üçün tətbiq edilən bu "böl və hökm et" prinsipi, bütün müstəmləkəçi dövlətlər tərəfindən qəbul edilmiş və bu gün də İslam torpaqlarında qərb təsiri vasitəsilə davam etdirilməkdədir[1].

Müstəmləkə siyasətinə digər Avropa dövlətlərinə nisbətən gec başlayan İtaliya, Afrikada bir çox Avropalıların daha az arzuolunan hesab etdiyi əraziləri, o cümlədən 1890-cı ildə müstəmləkəsi etdiyi Eritreyanı əldə etmişdir. İtaliyanın qitədəki müstəmləkə fəaliyyəti XIX əsrdə başlanmasına baxmayaraq, əsas kolonial genişlənmə 1936-cı ildə Somali, Eritreya və işğal edilmiş Efiopiya imperiyasının İtaliyaya birləşməsi ilə baş vermişdir. İtaliyanın "Dördüncü Sahil" adlandırdığı Liviyanın müstəmləkəçiliyi isə uzun və qəddar metodlarla həyata keçirilmişdir. 1911-ci ildə Liviyaya hücuma başlayan İtaliyanın 1912-ci ildə bölgədə hökmranlıq edən Osmanlı qüvvələrini torpaqdan çıxarmasına baxmayaraq, yerli əhali onları xilaskar kimi qəbul etməmiş və 1932-ci ilə qədər müqavimət göstərmişdir. Müqavimət hərəkatının güclü olması, əsasən Osmanlı idarəçiliyinin ədalətli və uzunmüddətli olmasına bağlıdır. Bununla belə, İtaliyanın faşist rejimi müqavimət hərəkatını yatırmış, məscidləri bağlamış, liderləri həbs və edam etmiş, yüz minlərlə liviyalı konsentrasiya düşərgələrinə yerləşdirilmiş və 1928-ci ildən etibarən şəhərlər zəhərli qazlarla bombalanmışdır. 1925-ci ildə Cenevrə Konvensiyasını imzalamasına baxmayaraq, bəzi faşist italyan tarixçiləri bu siyasəti "təmizləmə" prosesi kimi təqdim etmişdir[2].

İkinci Dünya müharibəsi zamanı İtaliyanın Şərqi Afrikadakı müstəmləkələri 1941-ci ilin noyabrında Britaniyanın rəhbərliyi altında fəaliyyət göstərən qüvvələr və Efiopiya partizanları tərəfindən işğal edildi. İtaliyanın Liviyadakı müstəmləkə dövrü 1911-ci ildən başlayaraq 1943-cü ilə qədər davam etmişdir. Benito Mussolininin hakimiyyətə gəlməsindən sonra bölgədəki münaqişələr kəskinləşdi. Liviya

*[1] Kazleh, M.A. Determinants of German Foreign Policy toward the Arab-Israeli Conflict // - Uluslararası Hukuk ve Politika, - Ankara: - 2008, 4(13), - p.119-133.*
*[2] Gencoglu, H. Güney Afrika'da Irkçiliğin Tarihsel Kökenleri, - s.79.*

xalqının fəal müqaviməti səbəbindən, İtaliya Krallığı 1930-cu illərin əvvəllərinə qədər bölgəyə tam nəzarət edə bilməmişdir. 1932-ci ildə atəşkəs və danışıqlardan sonra, İtaliyanın Liviyadakı siyasəti tammiqyaslı müharibə səviyyəsinə çatmış, bu dövrdə qeyri-qanuni kimyəvi silahlardan istifadə olunaraq kütləvi qırğınlar və ciddi hərbi cinayətlər törədilmişdir. 1937-ci ilin martında Mussolini Liviyaya dövlət səfəri etmiş, özünü İslamın hamisi kimi təqdim etmiş və simvolik qılınc hədiyyə edilmişdir. Mussolininin ərəb millətçi hərəkatını açıq şəkildə təbliğ etməsi, onun İngiltərə və Fransaya qarşı yürüdüyü siyasətlə uyğunlaşırdı. 1939-cu ildə qəbul edilən qanunlarla, müsəlmanların Milli Faşist Partiyasına, xüsusən də Müslüman Liktorlar Cəmiyyətinə qoşulmasına icazə verildi. Bu islahatlar nəticəsində, İtaliya ordusunda otuz min yerli müsəlmandan ibarət Liviya hərbi hissələri formalaşdırıldı. İtaliyanın Liviyadakı işğalı, Cənubi Afrika müsəlmanları tərəfindən böyük maraq və diqqətlə izlənmişdir[1].

Yaxın Şərq torpaqları üzərində hakimiyyət uğrunda mübarizə üçün burada yaşayan xalqların İslamı qəbul etməsi mühüm dönüş nöqtəsi oldu. 1094-cü ildə təşkil edilən I Səlib yürüşü zamanı, Papanın göstərişi əsasında, Avropa katolik xristianları tərəfindən təşkil edilən ekspedisiyalar, təxminən 176 il ərzində 9 dəfə təkrarlanmışdır. İslamın Ərəbistan yarımadasının hüdudlarından kənarda sürətlə yayılması və bölgənin bütün resurslarla zəngin olması xristian dünyasını, xüsusən də qərbi narahat etməyə bilməzdi. İslama qarşı təbliğat, həmişə öz gücünü kilsədən almışdır. İslamın Xristianlıq üçün təhlükə yartdığı və sayları günü-gündən artdıqca, Avropaya da yayıla biləcəyi fikrini təbliğ edərək, səfərlərdə könüllü olaraq iştirak edəcək xalqları və onların əsgərlərini bir araya gətirmək üçün istifadə etdilər. Təbii ki, tək təbliğat ilə yox, həm də bu torpaqlarda var-dövlət əldə etmək, İslamı məhv etmək məqsədi yürüşə qoşulanların sayının artmasına təkan vermişdi.

[1] *Çabuk, M. Senusilik Ve İşgalcilere Karşı Kuzey Afrika'da Osmanlı - Senusi İş Birliği // Sütçü İmam Üniversitesi, Sosyal Bilimler Dergisi,-Kahramanmaraş: - 2019, 16 (1), - s.221-256.*

Təbliğat ünsiyyət vasitələrindən istifadə etməklə, fikir və baxışları idarə etmək üçün şüurlu bir davranış olmalıdır. Bu gün, öz milli maraqlarına uyğun təbliğatdan hökumətlər geniş şəkildə istifadə edir[1].

Yaxın Şərqdə diktatura rejimlərinin hakimiyyəti altında yaşayan əhali, bu rejimlərin qurulmasından bəri dərin yoxsulluq və iqtisadi bərabərsizlik şəraitində həyat sürməkdədir. Perri Andersonun ifadəsi ilə desək, "Ərəb dünyasını bürüyən qarışıqlığın arxasında vulkanik sosial təzyiqlər dayanır: gəlirlərin qeyri-bərabər bölgüsü, artan ərzaq qiymətləri, mənzil problemləri, həm təhsilli, həm də təhsilsiz gənclərin qarşılaşdığı kütləvi işsizlik və nəticədə formalaşan, dünyada bənzəri olmayan yoxsul əhali piramidası". Buradakı iqtisadi və sosial qeyri-bərabərlik, qlobal standartlarla müqayisədə daha dərin və sistematik xarakter daşıyır. Yeni nəsilləri birləşdirəcək və davamlı inkişafı təmin edəcək vahid modelin mövcud olmaması isə regiondakı sosial və siyasi gərginliyin əsas səbəblərindən biri kimi ortaya çıxır[2].

Digər tərəfdən, Avropa və ABŞ-ın neft dövlətlərinə yanaşması, regionda üsyanlar davam edərkən və sonrasında, öz strateji maraqlarına uyğun siyasətlərin hazırlanmasına əsaslanırdı. Xüsusilə ABŞ-ın "Böyük Yaxın Şərq" (Greater Middle East Initiative) layihəsi regionun siyasi, iqtisadi və sosial strukturlarında köklü dəyişiklikləri nəzərdə tuturdu. Layihənin əsas məqsədi, Yaxın Şərq dövlətlərində rejimləri demokratiya istiqamətində transformasiya etmək idi. Demokratik sülh yanaşmasına əsaslanan bu təşəbbüs, eyni zamanda regionda stabil və ABŞ-a əlverişli siyasi mühitin formalaşdırılmasını hədəfləyirdi. O vaxtkı prezident Bill Klinton dövründən fərqli olaraq, prezident George W.Bush və administrasiyası regionu qısa müddət ərzində demokratikləşdirmək məqsədilə hərbi üsullardan da istifadə etmişdi[3].

---

*[1] Arı, T. Irak, İran, ABD ve Petrol / – İstanbul: Alfa yayınları, - 2007, - s.13.*
*[2] Ardıç, N. Arap Baharı'nı Anlamak: Adalet, Onur, Din ve Küresel Siyaset // Türk Dış Politikası Yıllığı 2011, – Ankara: - 2012, - s.98.*
*[3] Çelik, H. Ortadoğu'da ABD Politikalari Ve Büyük Ortadoğu Projesi / Yüksek lisans tezi. / - Ankara, 2014. – s.55.*

Şərq, xüsusilə İslam cəmiyyətlərində insan haqları və demokratiya anlayışlarının mövcudluğu, bu anlayışların Qərb mənşəli izahı və tarixi inkişafı çərçivəsində başa düşülməsini tələb edir. Bir çox tədqiqatçı qeyd edir ki, İslamda və praktiki olaraq müsəlman Şərq cəmiyyətlərində demokratiya anlayışının ekvivalenti mövcuddur və bu anlayış, İslam prinsipləri ilə ziddiyyət təşkil etmir. Həmçinin, İslamın əsas dəyərləri və prinsipləri, vətəndaş cəmiyyəti və demokratik idarəetmə anlayışları ilə uyumlu şəkildə əlaqələndirilə bilər. Nəticədə, vətəndaş cəmiyyəti və demokratiya anlayışlarının İslam prinsipləri və dəyərləri ilə uyğunluğu, Avropanın bəzi anti-İslam siyasətlərinə baxmayaraq müdafiə olunur.

Osmanlı imperiyasının dağılması nəticəsində müsəlman ölkələrinin müstəqil dövlətlərə bölünməsi, İslam dünyasında siyasi və mədəni parçalanmaya səbəb oldu. Buna baxmayaraq, İslamın milli sərhədləri aşan təsiri, müstəmləkəçi dövlətlərin diqqətini cəlb etməyə davam etdi və onları İslamı dərindən öyrənməyə, yəni yenidən şərh etməyə vadar etd. Əlcəzairli alim Məhəmməd bin Rahal qeyd edir ki, Avropanın İslama qarşı üstünlük tutan siyasəti, müsəlman vətənini, dinini və millətini müdafiə edən şəxslərə qarşı mənfi stereotiplər yaratmışdır: qəhrəmanlıq göstərənlər fanatik, məğlubiyyət zamanı təvəkkül göstərənlər isə fatalist kimi təqdim olunur. Nəticədə, İslam cəmiyyətdən təcrid olunur, sistematik böhtanlara məruz qalır, tənqid edilir və hətta tanınma imkanlarından məhrum edilir. Bu vəziyyət, müstəmləkəçi siyasətlərin İslam dünyasına yönəlmiş ideoloji və mədəni təsirini göstərir[1].

Beləliklə, Şərqşünaslıq sahəsi, Avropa müstəmləkəçiliyi tərəfindən İslamı zəiflətmək və siyasi təsirini azaltmaq məqsədilə alətə çevrilmişdi. Bu siyasətin əsas vəzifəsi, müsəlman torpaqlarının müstəmləkələşməsinin qarşısını ala biləcək İslamın gücünü sistematik şəkildə sıxışdırmaq idi. Şərqşünas alimlər, İslam anlayışlarını, o cümlədən cihad, ümmət və tövhid kimi fundamental anlayışları qərbləşdirilmiş və

[1] *Lewis, B. What Went Wrong?: The Clash Between Islam and Modernity in the Middle East. / - New York: Harper Perennial, - 2003, - p.25.*

təhrif olunmuş bir formada izah etmişlər. Bu cür təfsirlər, yalnız müstəmləkəçi və istismarçı ideologiyalara xidmət etmişdir. Lakin, bütün bu təhriflərə baxmayaraq, Quranın həqiqi mənası və idealları bir çox şərqşünas üçün hələ də tam aydın olmayan və sirr olaraq qalmaqdadır.

# III FƏSİL.
# ƏRƏB BAHARI DÖVRÜNDƏ AVROPANIN APARICI DÖVLƏTLƏRİNİN REGİON SİYASƏTİNDƏ İSLAM AMİLİ

## 3.1. Ərəb baharının əhatə etdiyi dövlətlərdə dəyişmə (modernləşmə), demokratikləşmə cəhdləri və İslam

Tarixi baxımdan Avropada XV–XIX əsrlər arasında baş verən və ənənəvi ictimai quruluşun transformasiyası ilə nəticələnən proses modernləşmə kimi xarakterizə edilir. Bu dəyişikliklərin əsas hərəkətverici qüvvəsi kapitalizm olmuş, sənaye inqilabı isə bu prosesi sürətləndirən başlıca amil kimi çıxış etmişdir "Modern" anlayışı həm yeni düşüncə və idarəetmə konsepsiyalarını, həm də sənaye sivilizasiyasını ehtiva edir.

Müasir cəmiyyətin formalaşmasını səciyyələndirən əsas inkişaflar sırasında geniş coğrafiyada iqtisadi inteqrasiya, urbanizasiyanın sürətlənməsi və bununla bağlı olaraq mədəni-demoqrafik strukturun dəyişməsi göstərilə bilər. Başqa sözlə, modernləşmə bir tərəfdən insanların intellektual, siyasi, iqtisadi, sosial və psixoloji baxımdan daha fəal iştirak etdiyi bir mühit yaratsa da, digər tərəfdən ənənəvi institutların müasir funksiyalara uyğunlaşdırılması prosesini ifadə edir.

Sosial quruluşda və ictimai münasibətlər sistemində baş verən bu dərin dəyişikliklər, yeni struktur və ictimai təşkilatlanma formaları tam formalaşana qədər müəyyən qeyri-sabitlik mərhələsini də özü ilə gətirir. Bu kontekstdə modernləşmə, mövcud ictimai quruluş və dəyərlərin transformasiyaya uğradığı, sarsılmış ictimai-siyasi sistemin yenidən qurulmasını tələb edən və yeni sosial-siyasi ehtiyacların meydana çıxmasına səbəb olan kompleks tarixi proses kimi qiymətləndirilə bilər[1].

[1] *Aydın, M. Moderniteye Dışarıdan Bakmak / - İstanbul: Açılım Kitap, -2014, - s.154.*

Xüsusilə Yaxın Şərqə nəzər saldıqda, qısa müddətdə bütün dünyaya yayılan modernləşmə hərəkatlarının, müxtəlif etnik, dini və sosial strukturların mozaikasını özündə birləşdirən bu regiona dərin təsir göstərdiyi müşahidə olunur. Siyasi quruluşu zəifləyərək dağılmış Osmanlı imperiyasının hakim olduğu Yaxın Şərq torpaqlarında, Qərbin müstəmləkəçilik fəaliyyəti ilə paralel şəkildə modernləşmə prosesi daha sürətli və əsasən xarici təsir altında inkişaf etmişdir.

Tarixi baxımdan regionda qərbləşmə cəhdlərinin XIX əsrdən etibarən başladığı və Qərb dövlətlərinin siyasi təzyiqləri, eləcə də birbaşa işğal siyasətləri nəticəsində bu prosesin İkinci Dünya müharibəsinə qədər davam etdiyi müşahidə edilir. Bu mərhələdə modernləşmə daxili ictimai təkamülün nəticəsi olmaqdan daha çox, xarici müdaxilə və siyasi transformasiyalarla şərtlənən bir proses kimi təzahür etmişdir[1]. 1918–1939-cu illər Avropanın yaxın tarixində "uzun atəşkəs dövrü" kimi xarakterizə edilsə də, Yaxın Şərq baxımından bu mərhələni daha çox transformasiya və intensiv xarici müdaxilə dövrü kimi qiymətləndirmək məqsədəuyğundur. Birinci Dünya müharibəsinin Osmanlı imperiyasının dörd əsr ərzində, müxtəlif siyasi və hərbi çətinliklərə baxmayaraq qoruyub saxladığı siyasi və mədəni quruluşun süqutu ilə nəticələnməsi, regionda köklü struktur dəyişikliklərinə yol açdı.

Müharibədən sonra formalaşan yeni siyasi düzən yerli ictimai dinamikanın təbii inkişafından daha çox, imperialist dövlətlərin geosiyasi maraq və ambisiyalarına uyğun şəkildə qurulmuşdur. Bu proses nəticəsində Yaxın Şərqdə süni sərhədlər, mandat idarəçilikləri və xarici təsirə açıq siyasi strukturlar meydana gəlmiş, bu isə regionun sonrakı siyasi sabitliyinə və dövlət quruculuğu proseslərinə uzunmüddətli təsir göstərmişdir. İngiltərə və Fransanın strateji maraqlarına uyğun olaraq formalaşdırılan mandat sistemi çərçivəsində Yaxın Şərqdə bir sıra yeni dövlətlər yaradılmışdır.

---

[1] *Duman, S. Modern Ortadoğu'nun Oluşumu / - İstanbul: Doğu Kütüphanesi, - 2010, - s 11.*

Bu siyasi quruluşlar formal olaraq beynəlxalq hüquqa əsaslansa da, mahiyyət etibarilə müstəmləkəçi idarəetmə mexanizmlərinin davamı kimi fəaliyyət göstərmişdir. Beləliklə, regionda formalaşdırılan siyasi arxitektura yerli cəmiyyətlərin tarixi-siyasi inkişaf məntiqindən deyil, daha çox qlobal güclərin geosiyasi maraqlarından irəli gəlmişdir. Bu yanaşma müasir beynəlxalq münasibətlərdə sivilizasiya və geosiyasi rəqabət kontekstində dünya nizamının yenidən qurulması məsələləri ilə də əlaqələndirilir[1].

Lakin ABŞ prezidenti Vudro Vilsonun irəli sürdüyü "xalqların öz müqəddəratını təyin etmə" prinsipi beynəlxalq siyasi diskursda geniş qəbul qazandıqdan sonra, İngiltərə və Fransa açıq müstəmləkəçilik siyasətlərini davam etdirməkdə çətinliklərlə üzləşdi. Nəticədə, birbaşa kolonial idarəçilikdən formal müstəqillik və nəzarət mexanizmlərinə əsaslanan dolayı təsir strategiyalarına keçid baş verdi.

XX əsrdə Yaxın Şərq, İslam düşüncəsinin yenidən canlandığı və müdafiə olunduğu əsas mərkəzlərdən birinə çevrildi. Xüsusilə modernləşmə prosesində millətçilik və kommunizm kimi ideologiyaların geniş ictimai təbəqələri tam şəkildə qane etməməsi, İslam düşüncəsinin yenidən aktuallaşmasına zəmin yaratdı. İqtisadi ədalətsizlik, siyasi qarşıdurmalar və mənəvi deqradasiya ilə üzləşən region xalqları, alternativ ideoloji dayaq nöqtəsi kimi İslama yönəlməyə başladılar.

Həm Qərbin, həm də daxili hakimiyyətlərin modernləşmə adı altında həyata keçirdikləri məcburi struktur və dəyər dəyişiklikləri, xüsusilə müsəlman əhali arasında ciddi kimlik böhranına səbəb oldu. Qərbin elm və texnologiya sahəsində sürətli inkişafı fonunda, regionun hərbi və mülki elitasının geriliyin səbəbini din və ənənəvi ictimai dəyərlərlə əlaqələndirməsi müəyyən yanlış nəticələrə gətirib çıxardı.

Bu şəraitdə XX əsrdən etibarən islamçı hərəkatlar həm xarici Qərb müdaxilələrinə, həm də daxili modernist transformasiyalara qarşı reaksiyalarını siyasi təşkilatlanma və ideoloji mobilizasiya vasitəsilə

---

[1] *İsmayılov, M. Sivilizasiya Konsepsiyasına Qlobal Baxış: Dünya Nizamının Yenidən Qurulması // Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsi: - İctimai və humanitar elmlər , - 2025, №2 (12), - s. 128-132.*

ifadə etməyə başladılar. Beləliklə, İslam yalnız dini sistem olaraq deyil, həm də siyasi identifikasiya və kollektiv müqavimət forması kimi meydana çıxdı. Siyasi İslamın hərəkat xarakteri qazanmasında Yaxın Şərq cəmiyyətlərinin əksəriyyətinin müsəlman olması və öz kimliklərini dini mənsubiyyət üzərindən müəyyən etmələri həlledici rol oynamışdır.

Məlum olduğu kimi, İslamın insanlara verdiyi "müsəlman" adı yalnız dini mənsubiyyəti deyil, eyni zamanda müəyyən bir kimlik şüurunu ifadə edir. Aktayın yanaşmasına görə, Quranda müsəlmanlara başqa bir kimlik üzərində ölməmələri tövsiyə edilir ki, bu da dini kimliyin ontoloji və normativ xarakterini göstərir. Aktay qeyd edir ki, müsəlmanın "islamçı" xarakteri əslində onun siyasi ölçüsünü ifadə edir və bu baxımdan müsəlmanlıq ilə islamçılıq anlayışları bir-birindən tam şəkildə ayrılmazdır[1]. Onun fikrincə, islamçılıq anlayışından uzaqlaşdırılma prosesi müsəlman cəmiyyətlərində kimlik böhranına səbəb olmuşdur.

Müasirliyin dini anlama və yaşama formalarına təsiri, müsəlmanların çoxluq təşkil etdiyi müxtəlif coğrafiyalarda oxşar sosial və mədəni problemlərin yaranmasına gətirib çıxarmışdır. Modernləşmə prosesi çərçivəsində ənənəvi istinad nöqtələrinin zəifləməsi, müsəlman cəmiyyətlərinin öz varlıqlarını və kollektiv kimliklərini anlamlandırmaq imkanlarını məhdudlaşdırmışdır.

Bununla belə, islamçı hərəkatların hər biri fəaliyyət göstərdikləri dövlətlərin özünəməxsus tarixi, siyasi və sosioloji şərtləri çərçivəsində formalaşmışdır. Bu baxımdan, islamçı hərəkatları vahid və homogen bir struktur kimi qiymətləndirmək düzgün olmaz; əksinə, onlar yaşadıqları cəmiyyətlərin spesifik ehtiyac və tələblərinə uyğun diskurs və fəaliyyət formaları inkişaf etdirmişlər.

"İslamçılıq" anlayışının termin kimi ilk dəfə Yusuf Akçura tərəfindən istifadə edildiyi qeyd olunur. İslamçılığı siyasi və ideoloji bir hərəkat kimi sistemli şəkildə ifadə edən ilk mütəfəkkirlərdən biri isə

---
[1] *Aktay, Y. İslamcılığın İktidar Ve Muhalefet Hali, Karşı Devrimler Kuşağında Ortadoğu. [Elektronik Kaynak] - Ağustos 8, 2012.*

Ziya Gökalp olmuşdur. İslamın siyasi ölçüsünü ifadə edən islamçılıq anlayışı, XIX əsr və XX əsrin əvvəllərində sürətlənən mədəni, siyasi və etnik transformasiyalar fonunda ciddi sınaqlarla üzləşmişdir.

Bu dövrdə müsəlman cəmiyyətlərində baş verən kimlik axtarışları, islamçılığın modernləşmə prosesinə qarşı reaksion və eyni zamanda alternativ ideoloji model kimi yayılmasına şərait yaratmışdır. Qərb mənşəli "modernləşmə" anlayışı çox vaxt dünyəviliklə eyniləşdirilmiş, nəticədə İslama əsaslanan ictimai-siyasi hərəkatlar qeyri-dünyəvi və ənənəvi strukturların davamı kimi təqdim edilmişdir.

Beləliklə, islamçılıq həm modernləşmənin yaratdığı kimlik böhranına cavab olaraq formalaşmış, həm də siyasi və mədəni suverenliyin qorunması istiqamətində ideoloji çərçivə təqdim etmişdir.

Qərb modernizmi qarşısında struktur baxımından zəif mövqedə olan bir çox İslam dövlətləri, müharibələrdən sonra tarixi müstəmləkəçilik münasibətlərinin təsiri altına düşmüşdür. Bu kontekstdə bəzi mütəfəkkirlər, o cümlədən Daryuş Şayeqan, Siyasi İslamın modernizmə alternativ sistem kimi formalaşdığını və Yaxın Şərqdə xarici təsirlərə qarşı ideoloji reaksiya xarakteri daşıdığını irəli sürürlər.

Siyasi İslam anlayışına müxtəlif təriflər verilsə də, ümumi çərçivədə onu bir cəmiyyətin və ya dövlətin siyasi, sosial və iqtisadi həyatının İslam istinadları əsasında tənzimlənməsi cəhdi kimi xarakterizə etmək mümkündür. Müasir dövrdə İslamın yalnız dini sistem olaraq deyil, eyni zamanda ideoloji və siyasi çərçivə kimi yenidən şərh olunması, islamçılığın Siyasi İslam kontekstində daha aydın ideoloji xarakter almasına səbəb olmuşdur. Bu baxımdan islamçılığın tərifi, əslində Siyasi İslamdan nə başa düşüldüyü, onun istiqaməti və gələcək perspektivləri ilə bağlı müzakirələri də əhatə edir.

Digər tərəfdən, Siyasi İslam İslamın əsas mənbələrinə istinad edərək siyasi aktorlar tərəfindən islami həyat idealının sivilizasiya perspektivinə çevrilməsi kimi də qiymətləndirilir. Lakin bu yanaşmanın geniş əhatə dairəsi, müəyyən şəraitlərdə onun dövlət quruculuğu modeli kimi təqdim olunmasına da imkan verir.

Bununla yanaşı, İslam mədəniyyəti ilə Xristian-Qərb sivilizasiyası arasında fundamental və barışmaz fərqlərin mövcud olduğu iddiası əsasında irəli sürülən "mədəniyyətlərin toqquşması" tezisi, İslamın alternativ sivilizasiya modeli kimi gələcəkdə qlobal qarşıdurmanın əsas tərəflərindən biri ola biləcəyini iddia edir[1]. Bu yanaşma Siyasi İslamın yalnız regional deyil, həm də qlobal ideoloji kontekstdə qiymətləndirilməsinə səbəb olmuşdur.

İslam və demokratiya mövzusu ilə bağlı ilk müzakirələr XIX əsrin ikinci yarısında ortaya çıxmışdır. Bu dövrdə mübahisənin konseptual qarşılığı "Konstitusiya Monarxiyası" anlayışı ilə ifadə olunurdu. Konstitusiyalı monarxiya, xalq tərəfindən qanuni qəbul edilən, lakin dövlət başçısının (kral, sultan və ya digər monarx) hakimiyyəti altında, seçki yolu ilə seçilmədən idarə olunan qarışıq idarəetmə sistemi kimi xarakterizə edilir. Xüsusilə Avropaya təhsil almağa göndərilən Osmanlı tələbələri və ziyalıları, Avropadakı demokratik təcrübələrdən təsirlənərək, İslam dünyasının geri qalması narahatlığını ifadə etdilər və konstitusiya, demokratiya mövzusunda mübahisələri gündəmə gətirdilər. Daha sonra, İslamçılığın ideoloji bir hərəkat kimi formalaşması ilə demokratiya anlayışı islamçılar arasında da əsas müzakirə mövzularından birinə çevrildi.

İslam və demokratiya arasında uyğunluq və ya ziddiyyət məsələsi uzun tarixə malikdir və həm İslam dünyasından, həm də qeyri-İslam dünyasından bir çox mütəfəkkir və tədqiqatçının diqqətini çəkmiş, onların araşdırmalarına istiqamət vermişdir. İslam-demokratiya müzakirələrində əsasən üç əsas yanaşma mövcuddur: birincisi, "İslam demokratiyaya uyğundur" iddiasını irəli sürənlər; ikincisi, "İslam demokratiyaya sığmır" mövqeyində olanlar; və üçüncüsü, "İslam demokratiya tələb edir" fikrini müdafiə edənlərdir.

Digər bir təsnifata görə, islamçıların demokratiyaya yanaşması da üç qrupda təsnif edilir: birinci qrup, demokratiyanı iman prinsiplə-

---

[1] *Huntington, S.P. Göst. əsəri.*

rinə zidd olduğu üçün inkar edənlər; ikinci qrup, demokratiyanın metodlarını və prosedurlarını rədd edənlər; və üçüncü qrup, demokratiyanı qəbul edən və onun tətbiqinin İslam prinsipləri ilə uyğunluğunu müdafiə edənlərdir[1]. Ümumilikdə, İslam və demokratiya münasibətinə dair təsnifatları iki əsas yanaşmaya ixtisar etmək mümkündür: birincisi, "İslam demokratiyaya uyğundur" iddiasını müdafiə edənlər; ikincisi, "İslam demokratiyaya uyğun gəlmir" mövqeyində olanlardır. Məsələnin tərəflərinə baxıldıqda, heç bir yanaşmanın iddialarını tam sübuta yetirmək mümkün görünmür. İslamın demokratiyaya uyğun olub-olmaması ilə bağlı müzakirələr müxtəlif səbəblər üzərində qurulsa da, həm müsəlman, həm də Qərb dünyasında bu anlayışları müdafiə edən tədqiqatçılara rast gəlmək mümkündür.

İslamın demokratiya ilə uzlaşmadığını müdafiə edən yanaşmalar iki əsas kateqoriyada təsnif edilə bilər. Birinci kateqoriyaya görə, demokratiya hakimiyyətin mənbəyini ilahi iradədən deyil, xalq iradəsindən götürdüyü üçün şirk sistemi kimi qiymətləndirilir və bu sistemin qəbul edilməsi iman prinsipləri ilə ziddiyyət təşkil edir.

İkinci kateqoriyaya görə isə, demokratiya birbaşa şirk kimi xarakterizə olunmasa da, onun metod və prosedurlarından tam şəkildə istifadə edilməsi məqsədəuyğun hesab edilmir. Bu yanaşma demokratiyanı prinsipial olaraq qəbul etməsə də, ona müəyyən şərtlər daxilində və məhdud çərçivədə münasibət bildirir. İslamın demokratiya ilə uzlaşmadığını müdafiə edən mütəfəkkirlər arasında Seyid Qütb və Əbül-Əla Məvdudinin adları xüsusi yer tutur.

XX əsrin önəmli islamçı düşünürlərindən olan Seyid Qütb (1906–1966), İslam dünyasının bir çox bölgələrində ictimai və siyasi qarışıqlıqların hökm sürdüyü bir dövrdə yaşamış və öz ideoloji baxışlarını bu tarixi şəraitdə formalaşdırmışdır. Qütb müsəlman cəmiyyətlərinin dirçəlişini Qurana qayıdışda görür və "nümunəvi Quran nəsli"nin formalaşdırılmasını əsas məqsəd kimi irəli sürürdü. O, mövcud siyasi və

---

[1] *Doğan, G. Durgun, B. Göst. əsər, – s 58.*

ictimai sistemi ciddi şəkildə tənqid edərək, İslami oyanış üçün sistemli, ardıcıl və mərkəzləşdirilmiş bir təhsil modelinin zəruriliyini vurğulayırdı. Qütbə görə, iman əməli həyata tətbiq edilmədikcə və cəmiyyət Qurani prinsiplərə uyğun qurulmadıqca, insanlıq böhran və fəlakətlə üzləşəcəkdir. Onun düşüncəsində hakimiyyət və qanunvericilik yalnız Allaha məxsusdur; insanlar qanunlar formalaşdıra bilsələr də, bu qanunlar ilahi prinsiplərə əsaslanmalıdır.

Xilafətin süqutundan sonra müsəlmanların yaşadığı siyasi boşluq şəraitində Qütb, İslamı yenidən siyasi və ictimai güc mərkəzinə çevirməyi hədəfləmiş və "siyasi" anlayışını İslamın xidmətində şərh etmişdir. Onun siyasi baxışları zamanla inkişaf etmiş, formalaşmış və yaşadığı sosial-mədəni mühit, təhsil həyatı və ədəbi fəaliyyəti bu prosesə təsir göstərmişdir. Qurana yönəlişi ilə paralel olaraq həm öz cəmiyyətinin, həm də ümumilikdə müsəlman dünyasının problemlərinə həll yollarını ilahi mətn çərçivəsində axtarmışdır.

29 avqust 1966-cı ildə edam edilməsi ilə həyatına son qoyulsa da, Seyid Qütb geridə geniş konseptual irs buraxmışdır. Bu irs, onun ideyalarının sonrakı islamçı hərəkatlara təsir göstərməsinə və siyasi İslam diskursunun formalaşmasında mühüm rol oynamasına səbəb olmuşdur.

Qərbin getdikcə güclənən hegemonluğu fonunda müsəlman ziyalıların bir qismi problemin İslamın özündən deyil, müsəlmanların dini anlama və tətbiq etmə formasındakı deformasiyadan qaynaqlandığını müdafiə edirdi. Bu yanaşmaya görə, geriləmənin səbəbi din deyil, dini şüurun zəifləməsi və ilahi prinsiplərdən uzaqlaşma idi.

İslamın mühüm siyasi mütəfəkkirlərindən biri və Camaati-İslamiyyə təşkilatının qurucusu Əbül-Əla Məvdudinin demokratiya ilə bağlı şərhləri isə geniş müzakirələrə səbəb olmuşdur. Məvdudiyə görə, "İslam siyasi sistemi" üç əsas prinsip üzərində qurulmuşdur: tövhid, risalət (peyğəmbərlik) və xilafət. Onun fikrincə, bu prinsiplər dərk edilmədən İslam siyasətini anlamaq mümkün deyil. Tövhid yalnız teoloji prinsip deyil, eyni zamanda ictimai və siyasi sistemin əsasını təşkil edir.

Bu prinsipə görə, mütləq suverenlik yalnız Allaha məxsusdur və Onun iradəsi bütün insanlar üçün bağlayıcı və yönəldici xarakter daşıyır.

Məvdudinin siyasi fəlsəfəsində İslam, dünyəvi Qərb demokratiyasından prinsipial şəkildə fərqlənir. O, xalq suverenliyi ideyasını rədd edir və hakimiyyətin mənbəyini ilahi suverenlikdə görür. Bu modeldə siyasi hakimiyyət Allahın hökmranlığını təmsil edən və Onun qanunlarını tətbiq etməyə məsul olan xəlifə və ya İslam cəmiyyəti tərəfindən icra edilir. Beləliklə, Məvdudinin konsepsiyasında demokratiya xalqın iradəsinə əsaslanan bir sistem olaraq deyil, ilahi suverenliyin çərçivəsində məhdudlaşdırılmış idarəetmə forması kimi dəyərləndirilir[1]. Hegel və Marksın tarixi-siyasi düşüncəsinin təsiri ilə Əbül-Əla Məvdudi İslam tarixini yeni metodoloji çərçivədə oxumağa çalışmışdır. Onun yanaşmasına görə, peyğəmbərlərin missiyası yalnız dini təbliğlə məhdudlaşmamış, eyni zamanda ilahi prinsiplərə əsaslanan ictimai-siyasi nizam qurmağa yönəlmişdir. Bu baxımdan Məvdudi, Allahın peyğəmbərlərini yer üzündə ilahi hakimiyyəti reallaşdıracaq dövlət quruluşunu formalaşdırmaq üçün göndərdiyini iddia edirdi.

Məvdudinin fikrincə, İslam hökuməti dini və siyasi həyatın bütün aspektlərində ilahi suverenliyi qəbul etməli və bunu praktiki idarəetmə mexanizmlərində əks etdirməlidir. O, müsəlmanların dünyəvi seçki sistemlərində iştirakına tənqidi yanaşırdı, çünki bu modeldə qanunvericilik səlahiyyəti seçilmiş nümayəndələrə verilir və beləliklə, insan iradəsi ilahi qanunun yerini tutur.

Məvdudi İslamı siyasi-fəlsəfi baxımdan "dünyəvi Qərb demokratiyasının antitezisi" kimi qiymətləndirirdi. Onun düşüncəsində Qərb demokratiyası xalq suverenliyinə əsaslanır, halbuki İslam modeli ilahi suverenliyi əsas prinsip kimi qəbul edir. Bu çərçivədə İslam siyasəti Allahın hökmranlığı və bu hökmranlığı yer üzündə təmsil edən insanın – xilafət anlayışının – üzərində qurulur.

Məvdudi demokratiyanı siyasət, iqtisadiyyat, əxlaq və ictimai həyat sahələrində qanunvericilik hüququnu insanlara həvalə edən bir

[1] *Yayla, A. Siyaset Teorisine Giris / - İstanbul: Kesit Yayinlari, - 2014, - 279 s 101.*

ideologiya kimi qiymətləndirir və bu səbəbdən onu İslam ideologiyası ilə zidd hesab edirdi. Diqqətəlayiq məqam ondan ibarətdir ki, Məvdudi həm demokratiyanı, həm də İslamı ideoloji sistemlər kimi təqdim edir və onları bir-birinə alternativ, hətta qarşı-qarşıya duran iki konseptual model kimi xarakterizə edirdi[1].

İslamın demokratiya ilə uzlaşa bilməyəcəyi mövqeyini müdafiə edənlər arasında həm müsəlman, həm də qeyri-müsəlman ziyalılar yer alır. Bu kontekstdə Qərb tədqiqatçılarından Martin Kramerin yanaşması diqqət çəkir. Kramerə görə, İslam və demokratiya arasında prinsipial uyğunsuzluq mövcuddur və bu iki anlayışın eyni siyasi çərçivədə uzlaşdırılması mümkün deyil.

O, həmçinin demokratiya dalğasının müsəlman dövlətlərində dərin və davamlı təsir yaratmasını da şübhə altına alır. Kramerə görə, bəzi müsəlman liderlərin İslam ilə demokratiya arasında uyğunluq yaratmaq cəhdlərinə baxmayaraq, İslamın normativ strukturu demokratiyanın əsas prinsipləri ilə ziddiyyət təşkil edir. Onun fikrincə, İslam və demokratiyanı uzlaşdırmağa çalışan radikal qrupların əsas məqsədi bu iki sistemi harmoniyaya gətirmək deyil, əksinə, demokratiyanın İslami idarəetmə modelindən üstün olmadığını göstərməkdir.

Bu yanaşmaya görə, İslami idarəetmə forması ilahi qanunlara, yəni şəriətə əsaslanmalı, insan iradəsi ilə formalaşdırılmış qanunvericilik modelinə söykənməməlidir. Beləliklə, Kramer İslam və demokratiya münasibətini teoloji və normativ əsaslar üzərindən qiymətləndirərək, onların struktur baxımından fərqli siyasi dünyagörüşlərini təmsil etdiyini irəli sürür[2]. Kramer *"fundamentalist"* adlandırdığı qrupların arqumentlərini ümumiləşdirərək öz mövqeyini bu çərçivədə əsaslandırır. Onun fikrincə, demokratiyanın hüquqi təməli qanunverici orqan tərəfindən qəbul edilən və insan iradəsinə söykənən qanunlardır. İslam isə vəhyə əsaslanan, nazil edilmiş qanunu "şəriəti" əsas götürür.

---

[1] *Parray, T.A. Islamic Democracy or Democracy in Islam: Some Key Operational Democratic Concepts and Notions // World Journal of Islamic History and Civilization, - Aligarh, India: -2012, 2(2), -p.66-86.*
[2] *Yayla, A. Göst. əsəri, - s.99.*

Bu baxımdan, şəriət İslam sistemində tamamlanmış və dəyişdirilə bilməyən normativ çərçivə kimi təqdim olunur.

Kramerə görə, şəriət qanunlarının dəyişdirilməsi İslam dünyasında ilahi iradəyə qarşı çıxış kimi qiymətləndirilir və yeganə qanunverici hakimiyyətin Allaha məxsus olduğu qəbul edilir. O, həmçinin iddia edir ki, İslamın normativ strukturunda müəyyən hüquqi və siyasi fərqliliklər mövcuddur və bu fərqliliklər xüsusilə müsəlmanlarla qeyri-müsəlmanlar arasındakı münasibətlərdə özünü göstərir.

Kramerin yanaşmasına görə, "*İslam dövləti*" adlandırılan model yalnız şəriətə uyğun idarəetmə prinsipləri əsasında və səlahiyyətli şəxslərlə məsləhətləşmə mexanizmi çərçivəsində fəaliyyət göstərə bilər. O, İslamın çoxpartiyalı və rəqabətli siyasi sistemi qəbul etmədiyini iddia edir və bu səbəbdən Qərb tipli seçki kampaniyalarının və siyasi plüralizmin İslam modelinə uyğun olmadığını vurğulayır. Kramer nəticə etibarilə belə bir idarəetmə formasının yalnız mərkəzləşdirilmiş və məhdud siyasi rəqabətə əsaslanan sistemdə mövcud ola biləcəyini irəli sürür[1].

Din və siyasət münasibətinə dair yanaşmalar son əsrlərin ən mühüm nəzəri müzakirə mövzularından birini təşkil edir. Bu mübahisələrin mərkəzində isə modernləşmə prosesi dayanır. Kapitalizm, dünyəvilik, sosializm, modernizm və liberalizm kimi intellektual, siyasi və iqtisadi ideologiyalar dinin ictimai-siyasi sahədəki rolunu yenidən müəyyənləşdirməyə çalışmış və bu sahədə davamlı polemikalara səbəb olmuşdur.

Hayekin ifadəsi ilə desək, ideologiyalar cəmiyyətin "konstitutiv-rasionalist" dizaynlarıdır. Bu kontekstdə "rasionalizm" anlayışı daha çox metodoloji xarakter daşıyır və təcrübədən asılı olmayan, mücərrəd prinsiplərə əsaslanan ictimai-siyasi konstruksiyanı ifadə edir[2]. Belə

---

[1] *Baring, E., Cromer, E. Political and Literary Essays, 1908–1913, The Government of Subject Races. Edinburgh Review 207 (1908): / Cambridge: Cambridge University Press, - 2010, - p.38.*

[2] *Fathollah, N.A. The Middle East: From Past and Present Attributions to a Future Regional Identity? // SOAS Journal of Graduate Research, School of Oriental and African Studies (SOAS), University of London, - Polyvocia: - 2010, Vol 2, - p.3-10.*

yanaşma çərçivəsində dinin də ideolojiləşdirilməsi mümkündür; siyasi İslam fenomeni bu prosesin konkret təzahürü kimi qiymətləndirilə bilər. Lakin dinin qnoseoloji mahiyyəti ilə ideologiyanın siyasi-konstruktiv xarakteri arasında prinsipial fərqlər mövcuddur. Din, özünü ilahi mənşəyə, metafizik həqiqət iddiasına və normativ-mənəvi sistemə əsaslandırır, ideologiya isə tarixi və ictimai şərtlər daxilində formalaşan, müəyyən siyasi məqsədlərə yönəlmiş konseptual konstruksiyadır.

Bu baxımdan din ontoloji və əxlaqi çərçivə təqdim etdiyi halda, ideologiya daha çox hakimiyyətin təşkili, ictimai münasibətlərin tənzimlənməsi və siyasi mobilizasiya ilə bağlı praktik layihə xarakteri daşıyır. Siyasi İslam isə dini mənbələri siyasi məqsədlər üçün sistemləşdirərək, onları müasir siyasi diskursun dili ilə yenidən şərh edən ara fenomen kimi dəyərləndirilə bilər.

İslamın özündə siyasət anlayışının mövcud olub-olmaması ilə bağlı müzakirələr də məhz bu nəzəri çərçivədə davam edir. Əgər bəşər tarixinə İslamın təqdim etdiyi tarixi şüur prizmasından yanaşılarsa, İslam yalnız müəyyən bir tarixi mərhələyə aid dini sistem kimi deyil, ilk insanın yaradılışından etibarən davam edən və peyğəmbərlər vasitəsilə yenilənərək təkmilləşən ilahi nizamın son və kamil mərhələsi kimi təqdim olunur.

Bu baxışa görə, Məhəmməd peyğəmbər bəşər tarixində fasiləsiz şəkildə davam edən ilahi rəhbərlik xəttinin sonuncu təmsilçisi kimi çıxış edir. Onun missiyası yalnız dini təbliğlə məhdudlaşmır, eyni zamanda pozulmuş ictimai və əxlaqi nizamın bərpası və islahı funksiyasını da ehtiva edir. Bu mənada, İslamın təqdim etdiyi tarixi şüur çərçivəsində din və ictimai-siyasi nizam bir-birindən ayrılmaz vahid kimi nəzərdən keçirilir.

Son əsrlərdə dünyəviliyə əsaslanan düşüncə xətti İslamın iqtisadi, mədəni və sosial yanaşmalarını, xüsusilə də onun siyasi ölçüsünü məhdudlaşdırmağa və daha dar çərçivədə təqdim etməyə yönəlmişdir. Bu yanaşma dinin ictimai-siyasi sahədəki rolunu minimuma endirməyi və onu daha çox fərdi inanc sferası ilə məhdudlaşdırmağı hədəfləmişdir.

"Dünyəviləşmə" anlayışının semantik təhlili göstərir ki, bu məfhum "dünya" ilə münasibətin xarakterini ifadə edir. Başqa sözlə, dünyəviləşmə dünyaya verilən mənaya və bu mənanın ictimai-siyasi sistemdə necə qurulmasına bağlı olaraq məzmun qazanır. Əgər "dünya" anlayışı sırf maddi və dünyəvi reallıq çərçivəsində şərh edilirsə, bu zaman dünyəviləşmə dini referansların ictimai və siyasi sahədən tədricən uzaqlaşdırılması kimi başa düşülür. Beləliklə, dünyəviləşmənin məzmunu və istiqaməti, "dünya" anlayışına yüklənən mənadan asılı olaraq dəyişir və bu da din-siyasət münasibətlərinə dair müzakirələrdə əsas nəzəri mübahisə nöqtələrindən birinə çevrilir[1].

Dünyəviləşmə termini ümumiyyətlə, dünyanın dindən və dini düşüncədən təmizlənməsi, bütün fövqəltəbii miflərin və müqəddəs simvolların aradan qaldırılması kimi təsvir olunur. Lakin İslam dünyası baxımından bu anlayış, "saxta" problem olaraq qiymətləndirilmişdir. İslamın təbiəti xristianlığın tarixi inkişaf prosesini yaşamamış olduğundan, bu din iki əsas səbəbə görə klassik sekulyarlaşmaya imkan vermir[2]. Birincisi, İslamın tövhid etiqadını qoruyub saxlaması və axirətə olan güclü inancıdır. Bu inanc formaları insan varlığı ilə Tanrı arasındakı əlaqənin kəsilməsinin qarşısını alma funksiyasına malikdir. İkincisi isə, İslamın mühakimə ölçüsüdür; yəni İslam həm əxlaq, həm hüquq, həm də ictimai siyasət sahələrində həyatın bütün sahələrinə dair norma və prinsipləri müəyyən edir. Bu xüsusiyyətlər nəticəsində İslam dünyasında dünyəviləşmə prosesi digər tarixi kontekstlərdə olduğu kimi baş verə bilmir və sekulyarizmin tətbiqi məhdudlaşır[3]. Dünya və axirət tarazlığının dünya lehinə pozulması, yəni Allahın və axirətin nəzərə alınmaması, dinə biganə qalmaq kimi halları, müsəlman fərdlər və cəmiyyətlər üçün önəmli bir dünyəviləşmə problemi olaraq ortaya çıxır.

[1] *Soage, A.B. Ḥasan al-Bannā or the Politicisation of Islam. Totalitarian / Movements and Political Religions, Routledge, - London: - 2010, 9(1), p.21-42.*
[2] *Güler, İ. Politik Teoloji Yazıları / - Ankara: Okulu Yayınlari, - 2019,- s.11.*
[3] *Altıntaş, R. Din ve Sekülerleşme / - İstanbul: Pınar Yayınları, -2005, - s 93.*

İslam və demokratiyanın bir araya gələ bilməyəcəyi qənaətinə qarşı çıxan alimlər də mövcuddur. İran filosofu Əbdülkərim Suruş, İrandakı rejimə qarşı müəyyən mənada müxalif mövqedən çıxış edərək, yaşadığı mühitdə böyük risk yarada biləcək fikirlərini açıq şəkildə ifadə etmişdir. Suruşa görə, İslam və demokratiyadakı azadlıq anlayışı arasında heç bir ziddiyyət yoxdur. Onun fikrincə, İslam və demokratiyanın birgə mövcudluğu qaçılmazdır, çünki bunlardan biri İslam cəmiyyətində mövcud deyilsə, digəri də kamillikdən uzaq olur. Həqiqi iman sahibi olmaq üçün fərd azad və sərbəst iradəyə malik olmalıdır. Suruş din anlayışını daim təkamül edən bir proses kimi qiymətləndirir; müqəddəs kitabların özləri dəyişməsə də, onların təfsiri zamanın və məkanın şərtlərinə uyğun olaraq dəyişir[1].

O, din adamlarının digər insanlardan fərqlənmədən, dini ictimai status və siyasi hakimiyyət əldə etmə vasitəsi kimi istifadə etməməsi lazım olduğunu vurğulayır. Din xadimləri yalnız peşə sahəsi kimi maddi qazanc əldə edə bilər, lakin dini qazanc yoluna çevirməməlidirlər. Din yalnız səmimi imanla xidmət edildikdə faydalı olur. İdarəçilərin isə qanun çərçivəsində, bərabər hüquqlar əsasında xalq tərəfindən seçilməli olduğunu bildirir. Suruşun nəzərinə görə, dünyəvilik dinin əleyhinə deyil, elm və rasional düşüncəyə əsaslanan bir yanaşmadır; bu kontekstdə "elmaniyyə" termini, dünyəviliyi elm yolu ilə həyata keçirməklə izah edir[2]. Əbdülkərim Suruşa görə, demokratiya cəmiyyətin idarə olunması üçün elmi və humanist nəzəriyyədir. Bu nəzəriyyə inqilabların islahatlara çevrilməsi nəticəsində, sərt inqilablara əl atmadan, cəmiyyətin sivil və davamlı şəkildə formalaşmasını təmin edir. Suruşun bu yanaşması yalnız tərəfdarları tərəfindən deyil, həm də radikal düşmənləri tərəfindən diqqətlə izlənilmişdir. Bu səbəbdən Suruş, təhlükəsizliyini təmin edənə qədər İrandakı fəaliyyətini yarım qoyaraq, xaricdəki universitetlərdə dərs deməyə qərar verdi. O, həmçinin

---

[1] *Süruş, A. Göst. əsəri, - s.76.*
[2] *Posusney, M.P. Authoritarianism in the Middle East: Regimes and Resistance / - London: Lynne Rienner Publisher, - 2005, - p.70-71.*

Şimali Amerika və Avropanın bir çox universitetlərində tədris fəaliyyəti ilə məşğul olmuşdur[1].

Çağdaş İslam təfəkkürünün mühüm nümayəndələrindən olan və eyni zamanda siyasi kimliyə malik Tunisli mütəfəkkir Rəşid Əl-Qannuşi, İslam və demokratiya arasında harmoniya olduğunu müdafiə edənlərdəndir. Qannuşi yalnız görkəmli və beynəlxalq səviyyədə izlənilən islamçı mütəfəkkir deyil, həm də demokratiyanı müdafiə edən və müasir islamçı siyasi düşüncə məktəbinin qurucusudur. Əbdülkərim Suruş kimi, Qannuşi də yalnız intellektual fəaliyyətlə məşğul olmamış, eyni zamanda siyasi liderlik rolu daşımışdır. Onun Avropa və ABŞ-a etdiyi uzun səfərlər fikir dünyasında müəyyən dəyişikliklərə səbəb olmuş və nəticədə Qannuşi İslam və demokratiyanın uyğunluğunu qəbul etməyə yönəlmişdir. 2011-ci ildə Tunisdə baş verən Yasəmən İnqilabından sonra Qannuşi siyasi arenada fəaliyyət göstərəcəyini və siyasi islamçılıqdan müsəlman demokratiyasına təkamül etdiklərini açıq şəkildə bəyan etmişdir[2]. Rəşid Əl-Qannuşi demokratiyanı fəlsəfə və ya ideologiya kimi qiymətləndirmir; əksinə, onu hökumətin səlahiyyətlərinə nəzarət etməyə yönəlmiş prosedurlar və institusional alətlər toplusu kimi qəbul edir. Bu yanaşma Qannuşinin İslam və demokratiyanın uyğunluğunu müdafiə edən təfəkkürünü praktik səviyyəyə daşıyır və siyasi idarəetmədə qanunların, institutların və vətəndaş iştirakının əhəmiyyətini vurğulayır[3].

Rəşid Əl-Qannuşi, İbn Xəldunun nəvəsi kimi təqdim etdiyi Malik Nəbinin demokratiya tərifini mənimsəmişdir. Malik Nəbinin anlayışına görə, demokratiya yalnız hakimiyyətin xalqa ötürülməsi ilə məhdudlaşmır; o, həmçinin insanların psixoloji, əxlaqi, siyasi və sosial cəhətdən tərbiyə olunmasını təmin edən genişmiqyaslı bir layihə kimi nəzərdən keçirilir. Qannuşi üçün bu tərif, demokratiyanın yalnız insti-

---

[1] *Posusney, M.P. Authoritarianism in the Middle East: Regimes and Resistance, s.249.*
[2] *Ghannouchi, R. Göst. əsəri, - s.58-67.*
[3] *Tamimi, A.S. Rachid Ghannouchi: A Democrat within Islamism (Religion and Global Politics) / Oxford University Press, - 2001, - p.244.*

tusional mexanizmlərlə deyil, həm də cəmiyyətin mənəvi və sosial formalaşması ilə sıx bağlı olduğunu göstərir. Rəşid Əl-Qannuşi demokratiyanı uzun tarixi prosesin məhsulu kimi qiymətləndirir və vurğulayır ki, demokratiyanı yaradanlar yalnız millət vəkilləri, hüquqşünaslar və ya siyasi mütəfəkkirlər deyil. Qannuşi üçün demokratiya təkcə Qərb sivilizasiyasının elementi olmayıb, insanlığın kollektiv fəaliyyətinin nəticəsi kimi ortaya çıxmışdır. O, İslamın demokratiyaya uyğunlaşmadığını iddia edən müsəlman ziyalılarını sərt tənqid edir. Seyyid Qütb, Əbül-Əla Məvdudi və digər mütəfəkkirlərin əksinə olaraq, Qannuşi demokratiyanı İslam əleyhinə bir ideologiya kimi görmür; əksinə, onu xalqın suverenliyini təmin edən, hakimiyyəti nəzarətdə saxlayan və korrupsiyaya qarşı qoruyucu mexanizm kimi dəyərləndirir. Başqa sözlə desək, Qannuşi demokratiyanı hakimiyyətin hegemon monopoliyasına qarşı bir klapan və xalq suverenliyinin təminatçısı olaraq qəbul edir[1]. Rəşid Əl-Qannuşi İslam və demokratiyanın uyğunsuzluğu ilə bağlı irəli sürülən arqumentləri əsassız hesab edir. Onun fikrincə, bu mövzuda ifrat bəyanatlar verən şəxslər məsələnin təfərrüatı ilə anlaşılması və obyektiv qiymətləndirilməsi üçün kifayət qədər bilik və təcrübəyə malik deyillər. Qannuşi vurğulayır ki, İslam praktika səviyyəsində demokratiya və plüralizmin tələb etdiyi prinsiplərə yad deyil. O, ideal demokratiyanın əsas məqsədini gücün bölüşdürülməsi və qərarvermədə kollektiv iştirakın təmin olunmasında görür. Qannuşi Qurani Kərimdəki (42/38) ayəyə istinad edərək, “onların qərarları aralarındakı məşvərətə (şuraya) əsaslanır” ifadəsini bu prinsiplərin təşviqi kimi qiymətləndirir. Onun baxışına görə, “hakimiyyət Allaha məxsusdur” prinsipi hökmdarın səlahiyyətlərini məhdudlaşdırmaq deyil, icra sferasında fəaliyyətini Qurana uyğun olaraq təşkil etmək mənasını daşıyır. Başqa sözlə, bu prinsip “şəriət və ümmət [xalq] ilə hökmranlıq etmək” kimi izah olunur. Qannuşi demokratik mexanizmlərin heç birinin İslam dəyərləri ilə uyğunsuzluq təşkil etmədiyini qeyd edir və bu mexanizmləri İslamın siyasi təlimləri ilə birləşdirir[2].

---

*[1] Dawood, S.M. Göst. əsəri, - s.82.*
*[2] Çelik, H. Göst. əsəri, - s.112.*

İslamın demokratiya ilə uzlaşa biləcəyi fikrini müdafiə edən qeyri-müsəlman ziyalılardan biri Bernard Luisdir. Luis İslam tarixi, Yaxın Şərq və Qərb-Yaxın Şərq münasibətləri sahəsində ixtisaslaşmış bir mütəfəkkirdir. Onun Yaxın Şərq və İslam tarixi ilə bağlı şərhləri hər mövzuda maraq doğurur və geniş akademik diskussiya üçün zəmin yaradır. Luisin fikrincə, xristianlıq öz yaranışında əvvəlki fəlsəfi və dini cərəyanlara borcludur; oxşar şəkildə, İslam da yaranması və inkişafı prosesində xristianlığın təsirinə və tarixi kontekstinə borcludur. Bu yanaşma, İslamın tarixi inkişafının yalnız dini və mədəni deyil, həm də sosial və siyasi əlaqələr çərçivəsində baş verdiyini vurğulayır[1]. Bernard Luis qeyd edir ki, müsəlmanlar İslamın yaranmasından əvvəlki dövrü "cahiliyyət dövrü" kimi xarakterizə edir və onu dini-mənəvi baxımdan qaranlıq mərhələ kimi qiymətləndirirlər. Onun fikrincə, İslam dövlətlərinin tarixi inkişaf trayektoriyası, mövcud siyasi strukturları və ictimai təcrübələrinin müxtəlifliyi vahid və monolit "İslam anlayışı"nın formalaşdırılmasını çətinləşdirir.

Luisə görə, "İslam" termini bir neçə semantik qat daşıyır. Bir baxımdan İslam inanclar, ibadətlər, təlimlər, ideallar və ideyalar sistemidir; bu mənada o, xristianlıq və yəhudiliklə eyni dini ənənəyə, vəhy dinləri ailəsinə mənsubdur. Digər tərəfdən, İslam yalnız dini sistem kimi deyil, həm də tarix boyu hakim olduğu coğrafiyalarda formalaşmış geniş və çoxşaxəli mədəniyyət kompleksi kimi dəyərləndirilir. Luis İslamın bərabərlik prinsiplərinə əsaslanan bir din olduğunu, hər bir insanın azadlıq hüququnu qəbul etdiyini qeyd edir. O, İslamda qadınların statusunu şərh edərkən bildirir ki, bu dinin meydana çıxması ilə qadınların ictimai və hüquqi mövqeyi müəyyən dərəcədə yaxşılaşmış, onlar mülkiyyət və digər hüquqlar əldə etmişlər. İslam, həmin dövrdə Ərəbistanda mövcud olan qız uşaqlarının diri-diri basdırılması kimi ənənəvi adəti qadağan etmiş, qadınlara ailə daxilində zorakılıq və ədalətsiz rəftardan qorunmaq üçün hüquqi mexanizmlər təqdim etmişdir.

---

[1] *Lewis, B. What Went Wrong?: The Clash Between Islam and Modernity in the Middle East, - p.34.*

Luis əsərlərində İslamın tolerantlıq prinsipinə də xüsusi yer ayırır və vurğulayır ki, müsəlmanlar dinlərini qəbul etdirmək məqsədilə sistemli zor tətbiq etməmişlər. Onun fikrincə, müsəlman hakimiyyəti altında olan ərazilərdə yerli əhali məcburi assimilyasiyaya məruz qalmamış, xristian və yəhudi icmalarına öz dini inanclarını və ibadət praktikalarını sərbəst şəkildə davam etdirmək imkanı verilmişdir[1]. Bernard Luis, İslamın əsas prinsipləri ilə demokratiyanın norma və prosedurları arasında mahiyyət etibarilə fundamental ziddiyyətin mövcud olmadığını qeyd edir. Bununla belə, o, fundamentalist müsəlman qrupları demokratik sistemin təqdim etdiyi imkanları zəiflətməkdə və ya sarsıtmaqda ittiham edir. Luisin fikrincə, İslam hüququ (şəriət) fərdlərin nizamlı və mənəvi baxımdan kamil həyat sürməsinə yönəlmiş müddəalar müəyyən edir[2]. Bu çərçivədə o, dövlətin siyasi nüfuzunun və ictimai nizamın qorunmasında rolunun mühüm əhəmiyyət daşıdığını vurğulayır. Eyni zamanda, alimlər tərəfindən İslami prinsiplərə əsaslanan idarəetmə modelinin nəzəri baxımdan qəbul edildiyini qeyd edir. Bununla belə, bütün bu mülahizələrə rəğmən, Luis İslamın mahiyyət etibarilə teokratik bir sistem olmadığını irəli sürür və İslamın teokratik xarakter daşıması barədə yanaşmaları yanlış hesab edir.

Berman vurğulayır ki, Avropa intelektual ənənəsi və siyasi mədəniyyətinin inkişafı, İslam dünyasının Qərb qarşısındakı mövqeyini anlamaqda mühüm rol oynayır. Onun fikrincə, Avropada intellektual və ədəbi diskurslar, xüsusən də demokratiya və hüquq anlayışları, Yaxın Şərq və İslam coğrafiyasındakı sosial və siyasi dəyişiklikləri qiymətləndirmək üçün nəzəri çərçivə təmin edir[3].

Eyni zamanda, Berman qeyd edir ki, Qərb və İslam dünyası arasındakı mədəni və siyasi qarşılıqlı əlaqələr yalnız tarixi perspektivlə

*[1] Lewis, B. What Went Wrong?: The Clash Between Islam and Modernity in the Middle East, p.74.*
*[2] Lewis, B. The Middle East.., - p.117-119.*
*[3] Berman, R. A. In Retreat: America's Withdrawal from the Middle East (The Great Unraveling: The Remaking of the Middle East) Jihad / Hoover Institution Press Publication, - 2014, - p.45-62.*

deyil, həm də aktual geopolitik təhlillərlə qiymətləndirilməlidir. O, Avropanın müxtəlif dövrlərdə İslam dünyasına qarşı tətbiq etdiyi siyasi strategiyaların, ideoloji və mədəni təhlillərlə birlikdə anlaşılmasının vacibliyini vurğulayır[1].

Siyasi İslam anlayışı, dövlət idarəçiliyində iştirak edən və ya siyasi hakimiyyətə iddia edən qrupların öz siyasi məqsədlərinə çatmaq üçün İslam dinini müəyyən ideoloji çərçivədə şərh etmələrini ifadə edir. Bu yanaşmada din yalnız mənəvi-etik sistem kimi deyil, eyni zamanda siyasi legitimlik və idarəetmə modeli formalaşdıran əsas ideoloji resurs kimi çıxış edir.

Radikal İslam isə İslamın mövcud ictimai-siyasi quruluşu köklü şəkildə dəyişdirməli olduğunu müdafiə edən yanaşmaları ifadə edən anlayışdır. Bu termin çərçivəsində çıxış edən qruplar İslamın ilkin mənbələrində inqilabi və transformativ prinsiplərin mövcud olduğunu irəli sürür və həmin prinsiplərin müasir dövrdə siyasi mübarizə vasitəsilə həyata keçirilməsini zəruri hesab edirlər[2].

İran İslam inqilabından (1979) sonra İslam dünyasında mövcud ideoloji və siyasi cərəyanları izah etmək məqsədilə "fundamentalizm" anlayışından geniş şəkildə istifadə olunmağa başlanmışdır. İslam fundamentalizmi adətən modernləşmə proseslərinə qarşı yönəlmiş və İslamın ilkin, "təmiz" formasına qaytarılmasını hədəfləyən ideoloji istiqamət kimi təqdim olunur. Bu yanaşma dini mənbələrin literal və normativ interpretasiyasına üstünlük verir və müasir ictimai-siyasi transformasiyaları tənqidi mövqedən qiymətləndirir.

Radikal İslamın formalaşması isə bir sıra tarixi və sosial amillərlə əlaqələndirilir. İslam dövlətlərində baş verən sosial-iqtisadi böhranlar, əhalinin sürətli urbanizasiya prosesləri nəticəsində sosial strukturunun dəyişməsi, kollektiv fəaliyyət şüurunun güclənməsi, XIX–XX əsrlərdə beynəlxalq sistemdə baş verən geosiyasi transformasiyalar və müxtəlif ideologiyaların meydana çıxması bu istiqamətin yaranmasına

[1] *Berman, R. A. Freedom or Terror: Europe Faces Jihad / Hoover Institution Press Publication, - 2010, - p.101-118.*
[2] *Cole, J. İslam Dünyasını Kavramak / - Ankara: Sitare Yayınları, -2010, - s.53-76.*

təsir göstərən əsas faktorlar kimi qiymətləndirilir. Eyni zamanda, modernləşmə siyasətlərinə qarşı müqavimət və mövcud hakimiyyət formalarına yönəlmiş etiraz hərəkatları da radikal dini-siyasi diskursun güclənməsində mühüm rol oynamışdır[1].

Siyasi islamçı hərəkatların tarixinə nəzər saldıqda, qurulma mərhələsində ortaq nöqtənin anti-imperializmə və Qərbə qarşı alternativ sistem qurmaq olduğu görülür. Bu səbəbdən də İslamın iqtisadi, inzibati və ictimai həyatı əhatə edən hərtərəfli şərhi hazırlanmış və müasir siyasi həyata alternativ kimi təqdim edilmişdir. Müasir Siyasi islamçı hərəkatların əsas xüsusiyyəti ondan ibarət oldu ki, onlar İslamın universal bir sistem təklif etdiyi arqumenti ilə yola çıxsalar da, milli dövlətin sərhədləri daxilində qaldılar.

Ərəb baharı prosesləri zamanı bəzi Yaxın Şərq dövlətlərində siyasi İslamın təsiri açıq şəkildə müşahidə olundu. Xüsusilə bu kontekstdə Müsəlman Qardaşlar hərəkatının ərəb dövlətləri arasında ən geniş təşkilatlanmış və güclü islamçı müxalifət qüvvəsi olması mühüm amil kimi çıxış etdi. Yaxın Şərq və Şimali Afrikada formalaşmış bir çox İslami hərəkatlara ideoloji təsir göstərən Müsəlman Qardaşların ilkin məqsədi "İslami dəyərlərin və maarifləndirmə fəaliyyətinin yayılması" kimi müəyyənləşdirilsə də, təşkilat zamanla daha aydın siyasi kimlik və proqram formalaşdırmışdır. Hərəkat nümayəndələri demokratik prinsipləri qəbul etdiklərini bəyan etsələr də, onların ideoloji dayağını İslam hüququ və şəriət normaları təşkil edirdi.

Bir sıra Qərb müşahidəçilərinin yanaşmasında isə Müsəlman Qardaşlar əsasən hakimiyyətə gəlməyə çalışan radikal siyasi formasiya kimi təqdim olunmuş, təşkilatın sosial bazası, xeyriyyə və maarifçilik fəaliyyəti, eləcə də ictimai legitimlik resursları kifayət qədər nəzərə alınmamışdır. Bu isə hərəkatın mahiyyəti ilə bağlı müəyyən ümumiləşdirilmiş və bəzən reduksionist təsəvvürlərin formalaşmasına səbəb olmuşdur.

---

[1] *Manaz, A. Siyasal İslamcılık: Dünyada Siyasal İslamcılık / - İstanbul: IQ Kültür Sanat Yayıncılık. – 2008, – s.98-112.*

İslamın cəmiyyət və dövlət quruluşuna dair özünəməxsus baxışa malik olduğunu əsərləri və fəaliyyəti ilə təbliğ edən Müsəlman Qardaşlar təşkilatının qurucusu Həsən əl-Bənna 1906-cı ildə Misirin Mahmudiyyə qəsəbəsində anadan olmuşdur. Həsən əl-Bənnanın rəhbərliyi ilə yaradılan Müsəlman Qardaşlar təşkilatı onun müəllim təyin olunduğu İsmailiyyə şəhərində formalaşmışdır. Təşkilatın ilkin məqsədi məscidlərdə və müxtəlif ictimai yığıncaqlarda İslami dəvət (daʿva) fəaliyyətini sistemli şəkildə təşkil etmək idi.

1928-ci ildə əl-Bənnanın mühazirə və xütbələrindən təsirlənən altı nəfər – Əhməd əl-Hüsari, Fuad İbrahim, Əbdürrəhman Hasebullah, Hafiz Əbdülhəmid, İsmayıl İzz və Zəki əl-Məğribi – onu evində ziyarət edərək fikirlərindən dərin şəkildə təsirləndiklərini bildirmişlər. Onlar müsəlmanların dövlətdə ictimai-siyasi baxımdan yetərli nüfuza malik olmadığını qeyd etmiş və bu vəziyyətin dəyişdirilməsi istiqamətində əl-Bənnanın yanında olacaqlarını ifadə etmişlər.

Bu dəstəyi müsbət qarşılayan əl-Bənna onlardan Allah yolunda mübarizə aparmaq və İslama xidmət etmək məqsədilə qarşılıqlı sədaqət andı vermələrini istəmişdir. Rəvayətə görə, "Özümüzə nə ad verək?" sualına o, belə cavab vermişdir: "Biz İslamın xidmətində bacı-qardaşıq; deməli, biz Müsəlman Qardaşlarıyıq (əl-İxvan əl-Müslimin)"[1]. Beləliklə, Həsən əl-Bənna eyni ideya və məqsəd ətrafında birləşən altı gənclə birlikdə "Müsəlman Qardaşlar" (əl-İxvan əl-Müslimin) təşkilatının əsasını qoymuşdur. Siyasi İslamın formalaşması və institusional inkişafı baxımından mühüm mərhələ hesab olunan bu təşkilat fəaliyyətinin ilk üç ilində əsasən İslami xeyriyyə və maarifçilik cəmiyyəti kimi fəaliyyət göstərmişdir.

Təşkilatın ilkin mərhələdə xüsusi vurğu etdiyi əsas istiqamət üzvlərinin "mənəvi tərbiyəsi", dini-intellektual hazırlığı və İslami dəyərlər əsasında formalaşdırılması olmuşdur. Bu yanaşma sonrakı

[1] *Dağ, A.E. Çağa İz Bırakan Önderler: Hasan El-Benna / - İstanbul: İlke Yayıncılık, - 2017, - s.54-55.*

dövrdə hərəkatın sosial bazasının genişlənməsi və siyasi platformaya transformasiyası üçün ideoloji zəmin yaratmışdır[1].

Təşkilat 1933-cü ildə fəaliyyət mərkəzini Qahirəyə köçürmüş və burada sosial infrastrukturun formalaşdırılmasına xüsusi diqqət yetirmişdir. Bu çərçivədə məktəblər, səhiyyə mərkəzləri, xeyriyyə müəssisələri və digər ictimai obyektlər yaradılmış, təşkilatın sosial bazasının genişlənməsi təmin olunmuşdur.

Müsəlman Qardaşlar ideoloji baxımdan sünni İslam ənənəsinə əsaslanmaqla yanaşı, müəyyən mənada sufi etik-mənəvi elementlərini də özündə birləşdirən bir hərəkat kimi xarakterizə olunur. Təşkilat Quran və sünnəni başlıca istinad mənbələri kimi qəbul edir və İslamın ilkin mənbələrinə qayıdış ideyasını müdafiə edir. Bu yanaşma həm dini-mənəvi islahı, həm də ictimai-siyasi transformasiyanı hədəfləyən konseptual çərçivə kimi təqdim olunur[2]. Həsən əl-Bənna İslam dünyasının üzləşdiyi siyasi və mənəvi böhrandan çıxış yolunu İslam dövlə-tinin qurulmasında görürdü. Onun fikrincə, yalnız bu halda dini və əxlaqi dəyərlərin cəmiyyətdə sistemli şəkildə bərqərar olması mümkün idi.

İlkin mərhələdə İslami xeyriyyə və maarifçilik təşkilatı kimi formalaşan və inkişaf edən "Müsəlman Qardaşlar" zamanla siyasi proseslərə daha fəal şəkildə qoşulmağa başladı. 1941-ci ilin yanvar ayında keçirilən təşkilatın VI Qurultayında ümumi parlament seçkilərində namizədlərin irəli sürülməsi qərara alındı. Bu addım "Müsəlman Qardaşlar"ın fəaliyyətində dönüş nöqtəsi kimi qiymətləndirilir və təşkilatın ilk dəfə açıq şəkildə siyasi qurum xüsusiyyəti qazanmasına səbəb oldu[3]. İlkin mərhələdə Müsəlman Qardaşlar dini məsələlərlə bağlı siyasətçilərlə əlaqələr quraraq onlardan müxtəlif xahişlər irəli sürmüşlər. 1947-ci ildə Həsən əl-Bənna Kral Faruk və bir sıra digər müsəlman

---

*[1] Soage, A.B. Göst. əsəri, s.21-42.*
*[2] Büyükkara, M.A. Çağdaş İslami Akımlar / - İstanbul: Klasik Yayınları, -2017, - s.161-171.*
*[3] Köse, F. Ortadoğu'da İslamcı Siyasetin Rol modeli: İhvan-ı Müslimin / -İstanbul: Ozan Yayıncılık, - 2014, - s.422.*

dövlətlərinin hökumətlərinə ultimatum xarakterli məktublar göndərmişdir. Bu məktublarda həm siyasət, həm də digər sahələrdə fəaliyyətin İslam qaydalarına uyğun aparılması və zəruri islahatların həyata keçirilməsi tələbləri yer alırdı.

1948-ci ildə isə təşkilatın bəzi üzvlərinin Misirdə və Yaxın Şərqin digər dövlətlərində yəhudilərə qarşı cihad elan edilməsini müdafiə etməsi nəticəsində Müsəlman Qardaşlar fəaliyyətlərini daha çox gizli şəkildə həyata keçirməyə başlamışdır. Həsən əl-Bənna 1949-cu il fevralın 12-də öldürülmüşdür. Onun qətlində hökumətin və Kral Farukun iştirak etdiyi iddiaları geniş yayılmışdır[1].

Həsən əl-Bənnadan sonra Müsəlman Qardaşlar ideologiyasına ən böyük təsir göstərən şəxsiyyətlərdən biri Seyid Qütb olmuşdur. Qütb, təşkilatın ritorikasını daha radikal və mübahisəli istiqamətə yönəldərək bəzi hallarda Müsəlman Qardaşlar daxilində fikir ayrılıqlarına səbəb olmuşdur. Onun nəzəriyyəsinə görə, cəmiyyətlər iki kateqoriyaya ayrılır: müsəlman cəmiyyətləri və "cahiliyyət" cəmiyyətləri, yəni İslamın prinsiplərinə tabe olmayan, mənəvi və ictimai baxımdan geri qalmış cəmiyyətlər. Seyid Qütbün ideoloji xətti sonrakı dövrdə bir çox radikal və terror təşkilatlarının formalaşmasına təsir göstərmişdir. O, 1965-ci ildə Misirdə edam edilmişdir və onun ideyaları hələ də siyasi İslam və radikal hərəkatlar kontekstində geniş müzakirə olunur[2].

23 iyul 1952-ci ildə Camal Əbdül Nasirin rəhbərliyi altında həyata keçirilən hərbi çevriliş nəticəsində Misirdə konstitusiyanın fəaliyyəti dayandırılmış və üç illik keçid dövrünün tətbiq olunacağı elan edilmişdir. Daha sonra ölkədə Respublika rejimi rəsmi şəkildə yaradılmışdır. Hərbi çevriliş həmçinin siyasi partiyaların, kommunistlərin, müxtəlif təşkilatların, o cümlədən Müsəlman Qardaşların fəaliyyətini məhdudlaşdırmış və onları qeyri-funksional vəziyyətə salmışdır. Bu

---

[1] *Altunışık, M. Ortadoğu'da Bölgesel Düzen ve "Arap Baharı. // Ortadoğu Analiz, – İstanbul: -2013, 5 (53), - s.71-78.*
[2] *Büyükkara, M.A. Göst. əsəri, - s.165-169.*

addımlar yeni siyasi quruluşun formalaşdırılması və hakimiyyətin mərkəzləşdirilməsi istiqamətində həyata keçirilmişdir[1].

Misir prezidenti Əbdül Nasirin ölümündən sonra konstitusiyaya uyğun olaraq müvəqqəti olaraq dövlət başçısı vəzifəsinə prezident müavini Ənvər Sədat təyin edilmişdir. Əbdül Nasirin dəfn mərasimindən sonra Sədat ölkənin yeganə partiyası olan Ərəb Sosialist İttifaqı tərəfindən prezidentliyə namizəd göstərilmiş və parlament tərəfindən yekdilliklə prezident seçilmişdir.

Hakimiyyətə gəldikdən sonra Sədat Əbdül Nasirin dövlət sosializmindən uzaqlaşaraq, kapitalist meyillərə yaxın, daha liberal iqtisadi sistemin tətbiqinə üstünlük vermişdir. Marsotun fikrincə, bu iqtisadi tendensiya əslində Əbdül Nasirin hakimiyyətinin son dövrlərində formalaşmağa başlamış, Sədat isə prosesi sürətləndirmişdir. Lakin fəhlə sinfi Əbdül Nasiri dəstəklədiyi halda, Sədatın siyasəti əsasən özəl sahibkarlığın artırılmasına yönəldiyindən, burjua sinfinin dəstəyini qazanmışdır[2]. Eyni zamanda Sədat daxili siyasətə təsir edən İslam icmalarının dəstəyini əldə etməyə çalışmış, ictimai çıxışlarında İslami termin və ifadələrdən istifadə etməyə üstünlük vermişdir. Bu səbəbdən ona "Mömin prezident" titulu verilmişdir. Bu dövrdə Misirdə İslami cəmiyyətin ən böyük nümayəndəsi olan Müsəlman Qardaşların minlərlə üzvü həbsdən azad edilmiş, sürgündə olan üzvlərinin Misirə qayıtmasına icazə verilmiş və hərəkat fəaliyyətini bərpa edə bilmişdir. Nəticədə Müsəlman Qardaşlar iki əsas məqsəd üzərində fokuslanmışdır: birincisi, 1954-cü ildə itirilmiş hüquqi statuslarını bərpa etmək; ikincisi, Nasir tərəfindən məhv edilmiş təşkilatı yenidən qurmaq.

Müsəlman Qardaşlar İslamçı dünyagörüşlərini yaymaq və dini-siyasi təsirlərini genişləndirmək məqsədilə fəaliyyət göstərmiş, xüsusilə dövlətin zəif olduğu regionlarda qida, iş, səhiyyə, təhsil və bank

---

[1] *Güler, İ. Politik Teoloji Yazıları, - s.201.*
[2] *Marsot, A.L.A.S. Mısır Tarihi: Arapların Fethinden Bugüne / - İstanbul: Tarih Vakfı Yurt Yayınları, - 2010, - s.133.*

xidməti kimi müxtəlif sahələrdə sosial xidmətlər göstərərək cəmiyyət içində mövqelərini möhkəmləndirməyə çalışmışdır[1].

Misir hərtərəfli riskli bir ölkə olduğundan, həyata keçirilən liberal iqtisadi siyasət xarici investorları ölkəyə cəlb etmək baxımından gözlənilən nəticəni verməmişdir. Xarici investorların əksəriyyəti əsasən yüngül sənaye sahələrinə və ya icarəyə götürülmüş ərazilərə sərmayə qoyurdular, bu isə iqtisadi infrastrukturun davamlı inkişafını təmin etmirdi. Nəticədə sosial-iqtisadi vəziyyətin pisləşdiyi aşağı gəlirli əhali qrupları öz etirazlarını nümayişlər və küçə aksiyaları vasitəsilə ifadə etməyə başlamışdır. Bu nümayişlərin ən əhəmiyyətlisi 1977-ci ilin yanvarında baş vermiş “Çörək iğtişaşları” olmuşdur. Hərəkət geniş xalq hərəkatına çevrilmiş, lakin ordunun müdaxiləsi ilə dayandırılmışdır.

Bunun fonunda prezident Ənvər Sədat hesab edirdi ki, iqtisadi problemlərin həlli üçün ilkin növbədə xarici təhlükələrin aradan qaldırılması zəruridir. Bu yanaşma onun daxili siyasət prioritetlərini xarici siyasətlə sıx şəkildə əlaqələndirməsinə səbəb olmuşdur[2]. 1978-ci ilin sentyabrında ABŞ-ın vasitəçiliyi və dəstəyi ilə Misir və İsrail arasında “Kemp Devid Sazişi” imzalanmışdır. Bu sazişin Misir üçün strateji əhəmiyyəti ondan ibarət idi ki, ABŞ 1979-cu ildən etibarən İsraildən sonra ən çox maliyyə yardımı göstərən ikinci dövlət kimi Misiri dəstəkləməyə başlamışdır. Bu addım vasitəsilə ABŞ həm ərəb dünyasında ən böyük əhalisi olan Misirlə münasibətlərini gücləndirmək, həm də Yaxın Şərqdəki əsas müttəfiqi olan İsraili qorumaq məqsədini güdürdü[3].

Kemp Devid Sazişi ilə İsrail ilk dəfə olaraq Ərəb dövləti tərəfindən rəsmi şəkildə tanınmışdır. Bununla belə, Misir ərəb dünyasında müəyyən mənada təcrid vəziyyətinə düşmüşdür. Saziş həmçinin Mü-

---

[1] *Altıntaş, R. Din ve Sekülerleşme, - s. 89.*

[2] *Arı, T. Geçmişten günümüze Orta Doğu Cilt 1 (Siyaset, Savaş ve Diplomasi) / - Bursa: Dora Yayıncılık, - 2017, - s.111.*

[3] *Baker, P.A Coup? Or Something Else? $1.5 Billion in U.S. Aid Is on the Line: [Electronic resource] / The New York Times, - July 4, 2013. URL: https://www.nytimes.com/2013/07/05/world/middleeast/egypts-arrests-of-islamists-pose-test-to-us-over-military-aid.html*

səlman Qardaşlar və digər radikal İslamçı qruplar arasında ciddi narazılıq doğurmuşdur. Nəticədə 1981-ci ilin sentyabrında, əksəriyyəti yeni fundamentalistlər olmaqla, 1500-dən çox insan həbs edilmişdir.

Prezident Ənvər Sədatın ölümündən bir həftə sonra, hakim Milli Demokratik Partiya Hüsnü Mübarəkin namizədliyini irəli sürmüşdür. Referendum nəticəsində keçirilən seçkilərdə iştirak edən misirlilərin 98,4%-i Mübarəkin prezidentliyinə "hə" səsini vermişdir[1]. 1928-ci ildə orta səviyyəli ailədə anadan olan Hüsnü Mübarək, islamçı hərəkatlara qarşı strategiyanın müəyyən edilməsi ilə, işinə başlayır. Mübarək radikal qrupları təcrid etmək və başda Müsəlman Qardaşlar olmaqla, mötədil islamçı qruplar sayəsində hakimiyyətini saxlamağı düşünürdü. Müsəlman Qardaşları, Ənvər Sədat dövründə olduğu kimi, hüquqi baxımdan rəsmi tanınmaya malik olmasa da, digər qruplarla müqayisədə daha legitim statusa sahib idilər. Qeyri-qanuni olmalarına baxmayaraq, Müsəlman Qardaşların siyasi partiyalarla ittifaq quraraq siyasi bəyanatlar verməsinə və parlament fəaliyyətində iştirakına müəyyən qədər icazə verilmişdir. Başqa sözlə, təşkilat üzvləri birbaşa deyil, mövcud partiyaların tərkibində parlamentə daxil olmaqla təmsil olunmuşlar[2]. Bu mənada ittifaq hər iki tərəf üçün ağlabatan razılaşma kimi qiymətləndirilir. Çünki Müsəlman Qardaşların ölkədəki populyarlığı sayəsində yeni qurulan Vəfd Partiyası səs topladı, Vəfd Partiyası isə Müsəlman Qardaşların parlamentə girməsi üçün qanuni kanal yaratdı[3]. Bu məqsədlə 1987-ci ildə keçirilən seçkilərə Müsəlman Qardaşlar bu dəfə Sosialist İşçi Partiyası və Liberal Partiya ilə birlikdə "İslam həlldir" şüarı ilə qatıldı. İslam alyansı adlanan bu birləşmə nəticəsində Müsəlman Qardaşların 36 üzvü parlamentə daxil oldu və ilk dəfə par-

---

[1] *Dahlgren, P., Young People, ICTs and Democracy. Theories, Policies, Identities, and Websites. / - Göteborg: Nordicom, -2010, - p.156-157.*

[2] *Yavuz, C. Arap Baharı ve Türkiye / Erdurmaz, S., // Orta Doğu'da Kırılan Fay Hatları, - Ankara: - Berikan Yayınları, -2012, - s.140-141.*

[3] *El-Ghobashy, M. The Metamorphosis of the Egyptian Muslim Brothers // International Journal of Middle East Studies, Cambridge University Press, - England: - 2005, 37(3), p.378.*

lamentdə ən böyük müxalifət blokunu təşkil etdilər. 1990-cı illərin əvvəllərinə qədər normallaşma prosesinə girən Misirdə Mübarək rejimini möhkəmlətməyə çalışarkən, İhvan siyasi həyatda var olmaq üçün mübarizə aparırdı.

1992-ci ildə Qahirə və ətraf bölgələrdə baş vermiş zəlzələdən sonra Müsəlman Qardaşların rejimin maraqları üçün potensial təhdid yaratdığı ilə bağlı mülahizələr gücləndi. Bu fikirin yaranmasına səbəb Müsəlman Qardaşların zəlzələ bölgəsinə hökumətdən daha sürətli yardım göndərməsi və diqqətli reaksiyası olmuşdur.

1992-ci ildən etibarən Mübarək rejimi ilə Müsəlman Qardaşlar arasında mülayim dövr sona çatmışdır. 2000–2005-ci illər arasında isə tərəflər arasındakı münasibətlər qismən bərpa olunmuşdur. 2005-ci il parlament seçkilərində Müsəlman Qardaşlar 88 millət vəkili qazanmışdır. Lakin təşkilatın əsas siyasi sıçrayışı Misirdə Ərəb baharı nümayişlərindən sonra baş vermişdir. 2012-ci ildə Müsəlman Qardaşların namizədi Məhəmməd Mursi prezident seçilmişdir.

Mursinin hakimiyyətinin gedişində müxalifət tərəfindən ona və administrasiyasına ölkədəki sağlamlıq, kanalizasiya və nəqliyyat problemlərini həll etməmək, elektrik, su və təbii qaz kimi əsas infrastruktur resurslarının təminatında yaranan çatışmazlıqlar səbəbindən tənqidlər irəli sürülmüşdür. Digər tərəfdən, Mursinin hakimiyyətini dəstəkləyən sələfi qruplar isə onu ölkənin kifayət qədər İslamlaşdırılmamasında günahlandıraraq müxalifətin nümayişlərini dəstəkləyirdilər. 2014-cü il iyulun 3-də Məhəmməd Mursi ABŞ və bir sıra Qərb dövlətlərinin dəstəyi ilə həyata keçirilmiş hərbi müdaxilə nəticəsində vəzifəsindən uzaqlaşdırılmış və həbs edilmişdir.

Müsəlman Qardaşların ideoloji xətti yalnız Misirlə məhdudlaşmır. Suriya, İraq, Fələstin, Tunis, Mərakeş və Yəmən kimi dövlətlərdə də İhvan təfəkküründən ilham almış bir sıra siyasi partiyalar və hərəkatlar fəaliyyət göstərməkdədir. Bu təşkilatlar, Müsəlman Qardaşların

sosial, siyasi və dini-prinsip əsaslı yanaşmasını öz milli kontekstlərinə uyğunlaşdıraraq tətbiq edirlər[1].

Ərəb baharı ilə başlayan 2011-ci il Misir üsyanı əslində XIX əsrdən bu yana ölkədə siyasi və sosial dəyişikliklər sahəsində baş verən üç böyük kütləvi hərəkatın dördüncü halqası kimi tarixdə öz yerini tutdu. Müasir Misir siyasi və ictimai tarixində ilk genişmiqyaslı hərəkat 1881-1882-ci illərdə Urabi Paşa üsyanı, ikinci kütləvi hərəkat 1919-1922-ci illərdə İngiltərə idarəçiliyinə və müharibə illərində yaşanmış iqtisadi çətinliklərə qarşı, üçüncü xalq hərəkatı 1952-ci ildə monarxiyaya qarşı Azad Zabitlərin idarəçiliyi ələ keçirməsiylə yarandı. Son olaraq, dördüncü hərəkat XXI əsrdə geniş yayılmış işsizliyə, yoxsulluğa və onu müşayiət edən korrupsiyanın aradan qaldırılmasına qarşı duraraq formalaşmışdır. Misir inqilabı başlayanda televiziyada deyilənlərdə, akademiklərin açıqlamalarında, həm beynəlxalq, həm də regional siyasətçilərin çıxışlarında Misirin avtoritar sistemlə vidalaşdığı və demokratiyaya keçidin başladığı ifadə edildi[2].

2013-cü il çevrilişindən sonra 2016-cı ilə qədər Misirdə Müsəlman Qardaşların 10 000-dən çox üzvü həbs edilmiş, onların bir çoxu edam cəzasına məhkum edilmişdir. Təşkilata məxsus varlıqlar müsadirə edilmiş, filialları bağlanmışdır. Eyni zamanda, Qardaşların Yaxın Şərqdə, xüsusilə İŞİD kimi bir sıra terror təşkilatları ilə əlaqəsi olduğu iddia edilmiş və bu səbəbdən hərəkat regional və qlobal səviyyədə tənqid obyektinə çevrilmişdir.

2014-cü ildə Səudiyyə Ərəbistanı və 2016-cı ildə ABŞ Müsəlman Qardaşları terror təşkilatı olaraq tanımışdır. Beləliklə, Qardaşlar yalnız Misirin daxili problemi olmaqla qalmamış, beynəlxalq ictimaiyyətin də diqqət mərkəzinə çevrilmişdir. Misir cəmiyyətini İslamçı ideologiya altında birləşdirməyə çalışan Müsəlman Qardaşlarının siyasi və sosial sahələrdən təcrid edilməyə çalışılması, bir tərəfdən ölkənin daxili siyasi mühitində dominant güc yaratmağa, digər tərəfdən isə

---

[1] *Büyükkara, M.A. Göst. əsəri, - s.169-182.*

[2] *Bozbaş, G. Mısır'da Toplum ve Siyaset: "Devrimden Darbeye Giden Sürecin Yapısal Analizi." / - İstanbul: Vadi Yayınları. -2018, - 311 s.*

Misiri beynəlxalq səviyyədə uzunmüddətli strateji maraqlara uyğun şəxsiyyət və güc boşluqları ilə üzləşdirməyə yönəlmiş xarici təsirlərin təzahürü kimi qiymətləndirilə bilər.

Müsəlman Qardaşlar kimi İslami hərəkatlardan ideya və metodoloji təsir alsa da, onları birbaşa təqlid etməkdən çəkinən Əl-Nahda hərəkatı, Rəşid Əl-Qannuşinin rəhbərliyi ilə özünəməxsus quruluş formalaşdırmışdır. Əl-Nahda hərəkatının inkişafına Rəşid Əl-Qannuşi ilə birlikdə Əbdülfəttah Moro, Əbdülməcid Neccar, Həmidə Niyfer və Səlahəddin Korşi kimi şəxsiyyətlər həm nəzəri, həm də praktiki olaraq əhəmiyyətli töhfələr vermişlər.

Rəşid Əl-Qannuşi gəncliyində Ərəb millətçiliyi ilə maraqlanmış, lakin zamanla millətçiliyin qərb yönümlü və dünyəvi xarakter daşıdığını müşahidə edərək "İslamçılıq" ideyası ilə hərəkət etməyə başlamışdır. O, dostları ilə məscidlərdə toplaşaraq müəyyən ayə və hədisləri əzbərləyir və küçələrdə heç bir siyasi mesaj vermədən insanları dini həyata dəvət edirdilər. Bu fəaliyyət hərəkatın ilkin mərhələdə ideoloji və mənəvi bazasını formalaşdırmaq məqsədini güdürdü.

Hərəkatın təşkilati quruluşuna nəzər saldıqda, Əl-Nahdanın Misirdəki Müsəlman Qardaşlar hərəkatına bir çox cəhətdən bənzədiyi görülür. Lakin burada yalnız bəzi anlayışlar fərqli şəkildə tətbiq olunmuşdur. Məsələn, Misirdə hərəkatın başında "mürşid" dayanırdısa, Əl-Nahdada Rəşid Əl-Qannuşi lider kimi tanınmışdır.

Müsəlman Qardaşlardan fərqli olaraq, Əl-Nahda təşkilati struktur baxımından daha bürokratik və qurumlaşmış bir sistemə malikdir. Yarandığı gündən hərəkatın rəhbəri olan Rəşid Əl-Qannuşi, İslam davasına görə həbs olunmuş ilk islamçı olmaqla yanaşı, Tunis İslam Hərəkatlarının lideri kimi də tanınır. Qannuşi fəlsəfi baxışlara hakim, hərəkatın hər bir üzvü ilə daimi ünsiyyətdə olan və hərəkata əhəmiyyətli dərəcədə müsbət təsir göstərən bir şəxsiyyət olmuşdur. O, hərəkatı idarə etməkdə müstəsna məharət nümayiş etdirmişdir.

Əl-Nahda hərəkatı Tunisdə yalnız islami hərəkat kimi deyil, həm də təşkilati struktura görə ən böyük hərəkatdır. Bu qədər geniş və kompleks təşkilati quruluşa malik olmaq müəyyən çətinliklər yaratsa

da, hərəkat kritik qərarlar vasitəsilə məqsədinə çatmağı bacarır. Məscidlər və məktəblər Əl-Nahdanın genişlənmə strategiyasının təməl daşı olub, bu mərkəzlər əsasında hərəkatın əsaslı strukturlaşması formalaşmışdır.

Hərəkatın maliyyə imkanları da digər partiyalarla müqayisədə nisbətən yüksək səviyyədə olmuşdur. Maliyyə dəstəyinin əsas mənbələri ölkə daxilində din xadimləri, ənənəvi tacirlər və fermerlərdən gələn yardımlar, eləcə də xaricdə, xüsusilə Fransada müxtəlif sektorlarda çalışan tunislilər tərəfindən verilən dəstəklərdir[1].

Əl-Buni İslam hərəkatının partiya şəklində formalaşmasını "İslamın siyasiləşdirilməsi" kimi qiymətləndirir və bunun bir sıra səhvlərə yol açdığını bildirir. O, hətta hərəkatın adı olaraq "Əl-Nahda"nın seçilməsinin sələfi ideyalarını gizlətmək məqsədini daşıdığını iddia edir. Əl-Nahda hərəkatı İslamın yalnız cəmiyyətdə öz yerini tapması ilə kifayətlənməyərək, onu siyasi hakimiyyətə də inteqrasiya etməyi mümkün hesab edir. Hərəkatın yanaşmasına görə, İslam həm dini, həm də siyasi prinsipləri ilə cəmiyyətin idarə olunmasında rol oynaya bilər.

Rəşid Əl-Qannuşi və tərəfdaşları 6 iyun 1981-ci ildə İslami Oriyentasiya Hərəkatının təsis bəyannaməsini dərc edərək, Məşrik və Məğrib yol ayrıları arasında istiqamət axtaran Tunis İslami hərəkatı üçün yeni xətt müəyyən etmişlər. Müasir İslam hərəkatları arasında demokratiyaya və xalqın iradəsini əks etdirən seçkilərə önəm verən ilk hərəkat olan İslami Oriyentasiya, bu mövqeyi ilə digər İslami hərəkatların da reaksiyasına səbəb olmuşdur.

İran İslam İnqilabına mülayim münasibət bəslədiyi və bu mövqeyinə görə daim tənqid olunduğu halda, Rəşid Əl-Qannuşi demokratiya və siyasi plüralizm barədə fikirlərinə görə İran tərəfindən də tənqid edilmişdir. 1987-ci ildə Zeynəlabidin Bin Əli Tunis prezidentliyinə başladıqda, ölkədəki bütün müxalifət hərəkatlarına, xüsusən də Əl-Nahdaya qarşı liberal siyasət tətbiq edəcəyinə söz vermişdir. Hətta Bin Əli, hərəkatın islami məzmun daşıdığı üçün adının dəyişdirilməsini

[1] *Lütfi, M. Tunus'u Kurtarmak / - İstanbul: Modus Kitapevi, - 2013, - s.111.*

tələb edərsə, siyasi partiya olaraq fəaliyyət göstərməsinə icazə verəcəyini bildirmişdir. Bu işarəni xoşməramlı qəbul edən Qannuşi və tərəfdaşları, partiyanın adını Əl-Nahda hərəkatı olaraq istifadə etməyə razı olmuşlar[1].

Bu dövrdə keçirilən seçkilərdə müstəqil namizədlərlə iştirak edən Əl-Nahda hərəkatı təxminən 14% səs toplayaraq iqtidar partiyasına qarşı ən güclü siyasi rəqib olduğunu nümayiş etdirmişdir. 1992-ci ildə Ben Əli administrasiyası Nahda hərəkatını qeyri-qanuni elan etdi, onun bütün liderlərini və bir çox üzvünü həbs edib mühakimə etdi, bəzi liderləri, xüsusilə Rəşid Əl-Qannuşini isə xaricə getməyə məcbur etdi.

1992-ci ildə Qannuşi əvvəlcə Əlcəzairə getmiş, lakin vətəndaş müharibəsi səbəbindən orada sığınacaq tapa bilmədiyi üçün Sudana köçmüş və nəhayət siyasi sığınacaq aldığı İngiltərədə məskunlaşmışdır. İngiltərədə qaldığı illər Tunisdə həbsxanalarda olanlarla sürgündə yaşayanlar arasında əlaqənin kəsildiyi, lakin bütün bu mənfiliklərə baxmayaraq hərəkatın bütövlüyünü qoruyub fəaliyyətini davam etdirdiyi dövr kimi xarakterizə olunur. Bundan əlavə, Rəşid Əl-Qannuşi bəzi tərəfdaşları ilə birlikdə digər İslam hərəkatlarına nəzəri töhfələr verən ziyalı kimi də gündəmə gəlmişdir[2].

1990-cı illərdə Qannuşinin demokratiya mövzusunda yazdığı məqalələr və fikirlər bir çox islamçı tərəfindən tənqid olunmuşdur. Qərb dünyasını yaxından tanıyan Qannuşi, Ərəb Baharı nəticəsində hakimiyyətə gələn islamçı partiyalara və liderlərə hakimiyyəti digər siyasi iştirakçılarla paylaşmağı tövsiyə edirdi.

23 oktyabr 2011-ci il seçkilərində 41% səs toplayan Əl-Nahda hərəkatı bu tövsiyəyə uyğun olaraq uzlaşma və güc bölgüsü strategiyası tətbiq etdi. Demokratiyaya keçid dövründə hərəkat prezidentliyə namizəd irəli sürmədi və hakimiyyəti sol və liberal partiyalarla paylaşmağa üstünlük verdi. Nəticədə, prezidentlik liberallara, baş nazirlik

---

[1] *Gannuşi, R. Sivil Toplum ve Laiklik / - İstanbul: Mana Yayınları, -2017, - s.58.*
[2] *Gannuşi, R. İslam Devletinde Kamusal Özgürlükler / - İstanbul: Mana Yayınları, -2016, - s.91-97.*

Əl-Nahdaya, parlament sədrliyi isə solçu partiyalara aid olmaqla bir quruluş formalaşdı.

Əl-Nahdanın bütün uzlaşma yönümlü siyasətinə baxmayaraq, Misirdəki çevriliş və medianın təzyiqi hərəkatı istefaya getməyə məcbur etdi. Həmçinin, Əl-Nahdaya qarşı keçid dövrünü tamamlamağa mane olan müxalifət bir növ çevriliş atmosferi yaratmağa çalışırdı. Tunis Ümumi Fəhlə Həmkarlar İttifaqı isə Bin Əlinin hakimiyyəti dövründə olduğundan daha çox tətil edərək Əl-Nahda hökumətinin təsirsiz olduğunu nümayiş etdirməyə cəhd göstərirdi.

İstər dini intellektuallıq, istərsə də sosial şüur baxımından digər Yaxın Şərq dövlətlərini qabaqlayan Misir, Tunis kimi dövlətlər uzun müddət olmasa da, Siyasi İslamdan öz bəhrəsini aldılar. Misirdə Müsəlman Qardaşlar, Tunisdə Əl-Nahda kimi zamanla siyasi kimlik qazanmış hərəkatların təşkilatlanması, qiyamlarda böyük ölçüdə müvəffəqiyyət qazandırdı. Bu, bizə bu dövlətlərdə tarixi irsin böyüklüyünün oynadığı rolu açıq şəkildə göstərir[1]. Liviya və Suriya kimi müxalifətin daha zəif, diktatorların daha güclü olduğu rejimlərdəki qiyamlarda siyasi İslam səmərəsiz idi.

Ərəb baharının hər iki dövlətdə təsirli olmasının digər bir səbəbi də üsyanlar qarşısında çarəsiz qalan hökumətlərin birdən-birə legitimliyini itirməsi olmuşdu. Baş verənlərin əhəmiyyətini dərk etməkdə çox gecikən Ben Əli və Hüsnü Mübarək böhranı həll etmək üçün yeganə çıxış yolu, prezident seçkilərində iştirak etməyəcəklərini vəd etmələri idi. Mübarək, öz rejiminin təzyiqləri nəticəsində həyatını itirən üsyançıları "şəhid" kimi adlandırması onun çarəsizliyini ortaya qoymuşdu. Məşhur sosioloq Vilfredo Pareton hesab edirdi ki, zəif cəhətlərini ifadə edən güc, itirilmiş gücdür.

Yaxın Şərq regionunda iqtidar-müxalifət münasibətlərindəki fərqliliklər, dövlət idarəçiliyində maraqların bölüşdürülməsi, səlahiyyətlərə münasibət, beynəlxalq kimliklərin müəyyən edilməsi, İslam tarixində əvvəldən bəzi parçalanmaların yaranmasına səbəb olmuşdur.

---

[1] *Bozarslan, H. Ortadoğu'nun Siyasal Sosyolojisi / - İstanbul: İletişim Yayınları, - 2012, - s.15.*

Odur ki, sosioloji zərurət olaraq İslam dünyasında da bəzi parçalanmalar və təfriqələr yaranmışdır. Tarixdə sünnilərlə şiələrin əqidə və kimlik əsasında toqquşduğunu göstərən nümunələrin arxasında, sırf siyasi maraq mülahizələri var. Eynilə, müəyyən coğrafiyada etnik kimliklərin qarışması, həmin coğrafiyada yaşayanlar arasında dərin parçalanmalara və qarşıdurmalara səbəb olur. Bölgə dövlətlərində krallıq və avtokratik idarəetmə sistemləri, bölgədəki xalqların sosial-iqtisadi, dini və məzhəb fərqləri, dövlətlər arasında köklü münaqişələr, tarixin dərinliklərinə gedən ərazi münaqişələri, bölgədəki təbii sərvətlərin bölüşdürülməsi, regionda sülh və sabitliyə mənfi təsir göstərən amillərdir. Bir çox Yaxın Şərq dövlətləri kimi Suriya da qədim tarixə malik ölkədir. 1516-cı ildə Livanla birlikdə Osmanlı hakimiyyətinə keçən ölkə Dəməşq vilayəti kimi tanınırdı. Təxminən 400 illik Osmanlı hökmranlığından sonra, 30 ilini Fransanın müstəmləkəsi kimi keçirən Suriya, 1946-cı ildə müstəqilliyini əldə etdi.

Hafiz Əsəd 12 mart 1971-ci il seçkilərində prezident seçilmişdir. Onun yürütdüyü xarici siyasət İsrail əleyhinə yönəlmişdi; Əsədin fikrincə, İsrail ABŞ-ın rəhbərliyi altında ekspansionist siyasət yürüdən bir dövlət idi və ona qarşı bütün gücü ilə müqavimət göstərmək lazım idi. Atasının ölümündən sonra, 1 iyul 2000-ci ildə ümumxalq səsverməsi nəticəsində prezident seçilən Bəşər Əsəd hakimiyyətə gəldi. Bəşər Əsəd atasından fərqli olaraq, xalqla yaxın münasibət qurmağa çalışsa da, sonradan islahatçı imici yerini diktator kimi təqdim olunmağa verdi. Suriyada baş verən hadisələrin əsas səbəblərindən biri, ABŞ-ın Yaxın Şərqdəki maraqlarına zərər verə biləcək hər hansı bir gücə qarşı çıxmaq istəməsi olmuşdur. Bağdadın ABŞ tərəfindən işğalından sonra amerikalı ekspertlər növbəti hədəfin Suriya olacağını və ABŞ-ın daxili və xarici təzyiqlərlə Suriyada rejim dəyişikliyinə yön verəcəyini bildirirdilər.

2000-ci ildən sonra Suriyada baş verən iqtisadi və sosial transformasiyalar, Bəşər Əsədin iqtisadiyyatın liberallaşdırılmasına dair öhdəliyi və özəl sektorun fəaliyyət sahələrinin genişləndirilməsi iqti-

sadiyyatın bərpasına yetərli olmadı. Nəticədə, kənd təsərrüfatı istehsalı ciddi şəkildə zəiflədi, işsizlik kəskin şəkildə artdı. 17 mart 2011-ci ildə isə Dəra şəhərində başlayan silahlı toqquşmalar Suriyada vətəndaş müharibəsinin başlanğıcı kimi qəbul edilir və Ərəb dünyasında mövcud qarşıdurmalara yeni bir mərhələ əlavə etdi. Suriya xalqını küçələrə salan səbəblər kimi, Əsədin qohumlarına və Baas Partiyasının liderlərinə məxsus hökumət, kəşfiyyat orqanlarının xalqa tətbiq etdiyi təzyiqlər, psixoloji təqiblər, etirazlarda müxalifət liderlərinin öldürülməsini sadalaya bilərik. 2010-cu ilin sonunda Şimali Afrika və Yaxın Şərqdə başlayan xalq üsyanları, Suriya rejimini narahat etsə də, rejimin ilk reaksiyası, bu dəyişiklik küləyinin Suriyaya təsirini görməməzlikdən gəlmək idi. Xalqın istəklərini yerinə yetirəcəyi ilə bağlı açıqlamalar verən Əsəd, Suriyaya Ərəb baharının gəlməsini bir müddət ləngitdi. Bəşər Əsəd, əvvəlcə nümayişləri ciddi qəbul etmədi və etirazçıları "terrorçular, imperialist güclərin oyuncaqları" adlandırdı[1]. Suriya müxalifəti silahlı və silahsız qüvvələri ilə, hökumətin repressiyalarına qarşı öz reaksiyasını davam etdirsə də, Bəşər Əsəd hökuməti, hadisələri qanlı şəkildə yatırmağa çalışdı. Azad Suriya Ordusu ilə Suriya hökumət qüvvələri arasında toqquşmaların davam etdiyi bir vaxtda, 2012-ci il fevralın 26-da, Suriyada konstitusiya referendumu keçirildi. Yeni konstitusiya, Baas Partiyasının tək partiya mövqeyinə son qoydu, çoxpartiyalı siyasi sistemə keçidi nəzərdə tuturdu. Lakin bu islahat Suriya üsyançılarını və Qərb ictimaiyyətini qane etmədi.

2014-cü ilin əvvəlində, İŞİD-in Raqqa şəhərini ələ keçirməsi ilə, ABŞ-ın rəhbərlik etdiyi koalisiya yarandı. 2014-cü ildə Suriyada hava əməliyyatlarına başlandı və Fransa, Belçika, Danimarka, Hollandiya kimi Aİ dövlətləri də, anti-İŞİD koalisiyasına daxil edildi. 2015-ci ildə, Suriyanın İdlib şəhəri Əl Nusranın, Raqqa isə İŞİD-in əlində idi. Suriyadakı vətəndaş müharibəsində 120 mindən çox insan həyatını itirib, 4 milyondan çox insan öz ölkəsində didərgin düşüb, yarıdan çoxu

---

[1] *Ayhan, F. Küresel Aktörlerin Mücadelesi: Suriye'yi neler bekliyor?, Ortadoğu Stratejik Araştırmalar Merkezi : [Elektronik Kaynak] / ORSAM, - Şubat 16, 2020. URL:http://www.orsam.org.tr/tr/yazigoster.aspx?ID=3216*

18 yaşdan kiçik olmaqla, 2 milyon insan başqa ölkələrdə qaçqın vəziyyətinə düşüb[1].

Din və etnik mənsubiyyət baxımından çox heterojen olan müxalifət, rejimə qarşı intensiv mübarizə aparırdı. Ərəb baharı üsyanları Suriyaya da yayılanda, Suriya müxalifəti əvvəlki səylərinə yeni bir rəng qatdı. Yeni nümayişlər keçirməyə və yerli koordinasiya komitələri şəbəkəsi yaratmağa başladılar. Hökumət əleyhinə müqavimət hərəkatının tələbləri arasında, bütün siyasi məhbusların azad edilməsi, yeni siyasi partiyaların yaradılması, azad və ədalətli seçkilərin keçirilməsi, demokratik konstitusiyanın hazırlanması var idi. 2012-ci ilin dekabrında, 11 ekstremist islam qruplaşmasının daxil olduğu, Suriya İslam Cəbhəsi koalisiyası yaradıldı. Ölkənin hər yerində mübarizə aparan koalisiya, hakimiyyətlə mübarizə aparan ən güclü müxalifət qüvvəsinə çevrildi. Müstəqil fəaliyyət göstərən koalisiya, döyüş meydanlarında Şuraya bağlı qruplarla əməkdaşlıq edir. Sünnilərin rəhbərlik etdiyi, İslam dövlətinin qurulmasını tələb edən koalisiya, Əl-Qaidə ilə əlaqəli qruplarla da əməkdaşlıq etsə də, cihada çağırış etmir[2]. Yenə də bütün müxalifət qruplarına rəhbərlik edə biləcək, hətta Əsəddən sonrakı mümkün keçid dövrünü idarə edə biləcək nə lider, nə də qurum varıydı. Misir və Tunis nümunələrində, müxalifəti toplayan və keçid dövründə mühüm rol oynayan qurum kimi, ordu ön plana çıxdı. Suriyada müxalifətə baxanda, rejimə alternativ ola biləcək güclü liderlik yoxuydu. Bu baxımdan, Suriya müxalifəti, xarici müdaxilə olmadan, rejimi əvəz etmək gücünə malik olmadığı üçün, tənqid edilirdi. Nümayişlərin keçirildiyi hər bir Ərəb dövlətində rejimlərin mövcudluğu, ordunun münasibətindən asılı idi. Əsgərlərin xalqın və ya iqtidarın tərəfində olması hadisələrin gedişinə təsir edirdi. Özünə güvənən Suriya rejimi,

[1] *Han, A. Suriye'de Kimyasal Silah Kullanımı: Gerçelten bir "Oyun Dönüştürücü"mü? // Ortadoğu Analiz, – İstanbul: -2013, №5, - s.35-44.*

[2] *Dagcı, K. The EU's Middle East Policy and Its Implications to the Region // - Alternatives Turkish Journal of International Relations, - Yalova: - 2007, Vol.6, Issue: 1&2, - p.176-185.*

müxalifəti və onların istəklərini qanuni qəbul etməmiş, digər tərəfdən də onları terrorçu və üsyançı elan edərək, mübarizəyə başlamışdı[1].

Ərəb Baharının təsirində olan Suriya qlobal güc mübarizəsinin yeni çəkişmə sahəsinə çevrildi. Uzun sürən münaqişə nəticəsində ölkənin idarə olunması çətinləşmiş, dövlətin funksionallığı zədələnmiş və tədricən dağılma prosesi müşahidə edilmişdir. Bu vəziyyət qlobal miqyasda diqqət çəkmişdir. Yaxın Şərqdə baş verən mühüm hadisələrdən biri, bölgədə uzun illər hakimiyyətdə olan Baasçılıq və Nasirizmin əvvəlki qüdrətini bərpa edə bilməməsidir.

Ərəb Baharı həmçinin uzun illər qadağan olunmuş siyasi hərəkatların güclənməsinə şərait yaratmışdır ki, bu da region üçün mühüm nəticələrdən biri hesab edilir. Dünyanın müxtəlif bölgələrinə qaçqın axını baş verməklə yanaşı, Suriyada qalan əhali də yaxın qohum və ailələrini itirmişdir. Bu baxımdan, Ərəb Baharının ən ağrılı nəticələrinin Suriyada yaşandığını müşahidə etmək mümkündür[2].

Ərəb baharı prosesindən ən çox təsirlənən dövlətlərdən biri də, Liviyadır. Ən qanlı mübarizələrin getdiyi dövlətlərdən biri olan Liviya hadisələr zamanı baş verənləri izləməyin çətinliyi baxımından digərlərindən fərqlənir. Misirdən sonra Ərəb baharı öz təsirini Liviyada göstərdi. Liviyada rejim əleyhdarı, hüquqşünas Fəthi Terbilin həbsindən sonra, Benqazi polis idarəsi qarşısında başlayan nümayişlərə polis sərt müdaxilə etdi. Fəthi Terbilin sərbəst buraxılmasını tələb edən nümayişçilərin sayı getdikcə artdıqca, polis hadisələrə müdaxilə edərkən, bəzi nümayişçilər yaralandı. 2011-ci ilin yanvarında, hakimiyyətə qarşı başlayan və daha çox iqtisadi problemləri ifadə edən etirazlar, qısa müddətdə siyasi xarakter aldı və fevralın 17-də keçirilən "Qəzəb günü" Liviyada rejim əleyhinə üsyanın dönüş nöqtəsi oldu. Qəddafinin

*[1] Hinnebusch, R. Syria: from 'authoritarian upgrading' to revolution? // International Affairs, - United Kingdom: - 2012, 88(1), - p. 110.*
*[2] Parray, T.A. Göst. əsəri, - s.33.*

24 milyard dollarlıq yardım paketi nümayişləri yatırmağa kifayət etmədi[1]. Benqazidə məskunlaşan Qəddafi əleyhdarları fevralın 27-də Milli Keçid Şurası adlandırdıqları və Liviyanın yeganə nümayəndəsi olduqlarını iddia etdikləri bir hökumət qurduqlarını elan etdilər. Hadisələr zamanı mediada işıqlandırmanın dəyişkənliyi diqqəti çəkirdi. Ötən gün Qəddafi qüvvələrinin idarəçiliyi ələ keçirdiyi açıqlansa da, ertəsi gün üsyançıların Qəddafi qüvvələrinə xeyli itki verdirdiyi bildirilirdi. Proses zamanı, heç kim hadisələrin necə nəticələnəcəyini təxmin edə bilmirdi. Hadisələrin sürətlə dəyişməsi və tərəflərin üstünlük uğrunda mübarizədə üstünlük əldə edə bilməməsi baxımından, Liviyada inqilabın sonunu, inqilab zamanı bilmək mümkün deyildi. Liviyadakı hadisələri digərlərindən fərqləndirən başqa bir xüsusiyyət də burada baş verənlərə digər dövlətlərin münasibətidir. BMT-nin Təhlükəsizlik Şurasında alınan qərarlarla Müəmmər Qəddafi və yaxınlarına səyahət qadağaları, mal varlıqlarının dondurulması, Liviyaya silah və sursat daşınmasının dayandırılması kimi müxtəlif sanksiyalar tətbiq edilmişdi[2]. NATO-nun baş katibi Anders Foq Rasmussen açıqlamasında bildirdi ki, Liviya rejimi dağılır və Qəddafi bunu nə qədər tez dərk etsə, hadisələrin inkişafı bir o qədər yaxşı olacaq[3].

Müəmmər Qəddafi 1969-cu ilin sentyabrında həyata keçirdiyi hərbi çevrilişdən sonra müsəlmanların lideri olmağa çalışaraq, meydanlarda bayram namazında camaata imamlıq etmiş, Qurandan ictimai qanunlar götürmüş, Dünya İslama Çağırış Assosiasiyasını təsis etmişdir. O, dövlətin iki ölçüdə, “din və millətçilik”də ortaya çıxdığını iddia edən, Üçüncü Dünya Nəzəriyyəsinin inqilabçı mütəfəkkiri olduğunu iddia edirdi. Eyni zamanda, Sovet ateizmini aradan qaldırmaq üçün dini müharibəyə başlaması, siyasi İslam hərəkatının başlanğıcı oldu.

---

[1] *Abdulrahman, M. Corruption and the “Arab spring”- As one of the main elements leading to revolutions // Polish Journal of Political Science, - Warsaw: 2015, 1(3), - p.36-49.*
[2] *Anderson, B. A History of the Modern Middle East: Rulers, Rebels, and Rogues, / - California: Stanford University Press, -2016, - p. 156.*
[3] *Anderson, L. Demystifying the Arab Spring- Parsing the Differences Between Tunisia, Egypt and Libya, – p. 2-7.*

Cihad diskursunun əsasını "İslam, Həllin özüdür!" şüarı altındakı ifadələr təşkil edirdi[1]. Newsweek jurnalının məlumatına görə, Liviyanın kiçik Derna şəhəri, Qəddafi və ABŞ-a qarşı döyüşmək üçün, silahlı İslam cərəyanı döyüşçülərinin toplaşdıqları yer idi. Liviyada dini kimlik, dərin bir taktika kimi istifadə olunurdu. Gənc zabit dostları ilə birlikdə çevriliş planlaşdıran Müəmmər Qəddafi və dostları, uğurlu çevrilişdən 45 gün sonra, mətbuata açıqlama verdilər. Müəmmər Qəddafinin lider olaraq çıxış etdiyi bu açıqlamada, idarəçilik anlayışlarını və məqsədlərini bəyan etdiyi hədəflərlə bildirdi. O, İngilis və digər xarici əsgərlərin ölkədən göndərilməsi, hərbi bazaların ləğvi, siyasi partiyaların ləğvi, dövlətdə birliyin təmin edilməsi və Yaxın Şərqdə Ərəb birliyinin təmin edilməsi kimi məqsədlərini açıqladı. Qəddafi, bu məqsədlərin sonuncusu olan Ərəb birliyi istisna olmaqla, bir ildən az müddətdə bütün məqsədlərini həyata keçirdi[2].

Müəmmər Qəddafinin idarəçilik anlayışını daha yaxşı başa düşmək üçün onun yazdığı "Yaşıl kitab" adlı kitabı araşdırılmalıdır. Müəmmər Qəddafi bu kitabda, liberal sistemi, onun tərəfdarlarını, eləcə də marksist sistemin tərəfdarlarını tənqid edir və sosializmə çağırış edir.Qruplaşmanın və sosial sinif fərqlərinin əsasını, siyasi partiyaların varlığında görürdü. Sosial ədalət anlayışına görə, parlamentin ləğvi və xalq komitələrinin yaradılması lazımdır. O, kitabında, İslam dəyərlərinə və Qurana uyğun olaraq qurduğu bütün sistemi necə həyata keçirə biləcəyindən də bəhs edir.

Liviyada Müəmmər Qəddafinin öldürülməsindən sonra idarəçilik Benqazidəki müvəqqəti Milli Keçid Şurasına keçdi. Şuranın sədri Mustafa Əbdül Cəlil ölkədə şəriət qaydalarının tətbiq ediləcəyini bəyan edərək, yaxın vaxtlarda Liviyada seçkilərin keçiriləcəyini açıqladı[3]. 41 illik Qəddafi administrasiyasının devrilməsindən sonra yaranan

---

*[1] Müttefiklerin Libya'ya operasyonu devam ediyor: [Elektronik Kaynak] / Dış Haberler, - Mart 21, 2011. URL: https://www.hurriyet.com.tr/dunya/muttefiklerin-libyaya-operasyonu-devam-ediyor-17322118*
*[2] Özkoç, Ö. Göst. əsəri, - s.123.*
*[3] Keukeleire, S., Delreux, T., The Foreign Policy of the European Union (The European Union Series, 134) / - New York: Springer Publication, -2014, - p.216.*

siyasi-hərbi boşluğu siyasi qruplar, silahlı milislər, əsasən də hərbiləşdirilmiş birləşmələr və cihadçılar (Əl-Qaidə, İŞİD, İxvan və Sələfi hərəkatları) doldurmağa başladı. Müvəqqəti hökumət, idarə oluna bilməyən müxalifət qruplarından silahlarını yerə qoymağı tələb etsə də, müasir təchizatla silahlanmış qruplar, təslim olmağa razılaşmadı. Bundan başqa, ölkədə radikal sələfi qruplaşmalarının güclənməsi də, Milli Keçid Hökumətinin seçkilərə qədər çətin dövr keçirməsinə səbəb oldu. Müsəlman Qardaşlar və digər radikal islamçı qrupların dövlətə güclü təsiri var idi. Qəddafiyə qarşı müxalif duruşuyla tanınan Məhəmməd Yusif Makariyef, seçildi. Seçkidən sonra, Milli Baş Konqresdə İslam qrupları böyük güc əldə etdilər. Sabiq, general-mayor Xəlifə Haftar, 4 fevral 2014-cü il tarixində Əl-Ərəbiyyə kanalından istifadə edərək, Milli Ümumi Konqresə ehtiyac olmadığını və Liviya Hərbi Keçid Şurasının idarəçiliyini öz üzərinə götürəcəyini bildirdi. Anti-radikal İslamcı şəxsiyyətiylə Haftar, siyasətini ölkəni xaosdan və qeyri-sabitlikdən qorumaq üzərində qurdu. Haftar, 2014-cü il mayın 16-da radikal İslam terrorizmi ilə əlaqəli silahlı qruplara qarşı "Qürur əməliyyatı" adlı hücuma başladı. Qərblə yaxın münaibətləri olan Xəlifə Haftar, ölkədəki neft ehtiyatları ilə maraqlanan Amerika və Avropa dövlətlərinin dəstəyini almaqda çətinlik çəkmədi.

Liviya kimi Yəmən də qəbilə mənsubiyyətinin güclü olduğu bir dövlətdir. Bununla belə, ölkədə hakim İslam məzhəbi olan Zeydilik dövlətin idarəçilik anlayışına da təsir etmişdir. 1962-ci ilə qədər ölkə tayfalararası müharibələr nəticəsində yandırılaraq dağıdıldı. 1962-ci ildə Camal Əbdülnasirin dəstəklədiyi Cumhuriyyət əsgərləri Zeydi hökumətinə son qoyub, Cumhuriyyəti elan etdilər. Bu dəfə İngiltərə, Səudiyyə Ərəbistanı, İran şahı və İordaniya tərəfindən dəstəklənən zeydilərlə respublika tərəfdarları arasında vətəndaş müharibəsi başladı və bu müharibənin sonunda respublikaçılar qalib gəldi. 1978-ci ildə Şimali Yəməndə hazırkı prezidentin öldürülməsindən sonra Əli Abdulla Saleh prezident oldu. Saleh, Şimali Yəməndəki vətəndaş müharibəsində respublikaçıları dəstəkləmişdi. 1990-cı ildə Cənubi və Şimali

Yəmən birləşdirildikdə, Əli Abdullah Saleh, yeni Yəmən Respublikasının ilk prezidenti oldu və 2011-ci ildə başlayan iğtişaşlar nəticəsində 2012-ci ildə ölkəni tərk edənə qədər, Yəmənə rəhbərlik etdi[1].

1990-cı ildə iki bölgənin Yəmən Respublikası adı altında birləşdirilməsi müasir Yəmən Respublikasında qeyri-sabitliyə son qoymadı, əksinə bu günə qədər davam edəcək daxili münaqişələrə yol açdı. 1994-cü ildə Şimal və Cənub arasında başlayan vətəndaş müharibəsi, müasir Yəmən tarixindəki narazılıqların başlanğıcı oldu. 2000-ci illərin əvvəllərində Şimal mərkəzli Husilər və Cənub mərkəzli Əl-Hirak üsyanları, ölkədəki narazılıqların davamı oldu. Üsyanların mərkəzində olan Husilər kimi tanınan qrup, adını Hüseyn Əl-Husidən alır. Qərargahı Yəmənin Saada əyalətində olan və 1990-cı illərdən fəaliyyət göstərən Husilər hərəkatı, vəhhabilik və sələfiliyə qarşı, şiəliyin alt qollarından biri olan zeydiliyi müdafiə edərək, sünni İslamın təsirindən azad bir hökumət istəyirdi[2].

Yəməndə parçalanmış quruluşun dərinləşməsində fəal rol oynayan digər mühüm amil, ölkənin cənubunda fəaliyyət göstərən və mərkəzi, Ədəndə olan Əl-Hirak birləşməsinin mövcudluğu idi. 1990-cı ildə Əli Abdullah Salehin rəhbərliyi ilə, Şimal və Cənubun birləşməsindən sonra yeni qurulan hökumətdə vitse-prezident vəzifəsinə, Cənubun keçmiş lideri, Əli Səlim Əl-Bid gətirildi. 1994-cü ilin mayında Ədənə çəkilən güneyli liderlər, sanki orada ayrıca hökumət varmış kimi davranmağa başlayanda, bu vəziyyət vətəndaş müharibəsinə çevrildi. Təxminən iki ay yarım davam edən vətəndaş müharibəsi, iyulun 7-də Şimal qüvvələrinin Ədəni ələ keçirməsi və oradakı dövlət idarələrini qarət etməsi ilə başa çatdı[3]. Ölkənin şimal və cənub bölgələrində baş verən rejim əleyhinə üsyanlarla yanaşı, qəbilə şəbəkəsi və Əl-Qaidə terror təşkilatının mövcudluğu da ölkəni davamlı döyüş meydanına

[1] *Jonberg, K. Göst. əsəri, - s.4-13.*
[2] *Blumi, I. Destroying Yemen: What Chaos in Arabia Tells Us about the World / University Press California, - California: - 2018, - p.10-11.*
[3] *Dahlgren, P., Göst. əsəri, - s.29.*

çevirdi. 2011-ci ildə başlayan Ərəb Baharı ilə ölkədəki mübarizə daha da dərinləşdi.

Ərəb Baharı zamanı Yəmən xalqı da 11 fevral 2011-ci il tarixində 33 illik Əli Abdullah Saleh hakimiyyətinə son qoymaq məqsədilə küçələrə çıxdı. Paytaxt Sənada başlayan və qısa müddətdə bütün ölkəyə yayılan qiyamlar nəticəsində Saleh 2011-ci ilin dekabrında səlahiyyətlərini müavini Abdurabbu Mənsur Hadiyə təhvil verdi. 2012-ci ilin fevralında keçirilən prezident seçkiləri və Yəməndə Milli Keçid Şurası hökuməti ilə uzun və ağrılı bir "dialoq prosesi" başladı.

Devrilmiş lider Əli Abdullah Salehin ittifaqından faydalanan husilər 2014-cü ilin sentyabrında paytaxt Sənanı ələ keçirdilər və daha sonra ölkənin cənubuna doğru irəlilədilər. Keçid prosesinə rəhbərlik edən Mənsur Hadi Körfəz dövlətlərindən hərbi yardım istədi. BMT və Körfəz Əməkdaşlıq Şurasının (KƏŞ) təşəbbüsü ilə 18 mart 2013-cü il tarixində Prezident Hadinin sədrliyi ilə Milli Dialoq Konfransının iclasları keçirildi və siyasi partiyaların nümayəndələrindən ibarət 22 nəfərlik komitə yaradıldı.

2 fevral 2014-cü ildə Şura ölkəni 6 federal dairəyə bölmək barədə qərar qəbul etdi. İranın dəstəklədiyi husilər tez-tez təşkil etdikləri nümayişlərlə prezident Hadiyə hökumətin buraxılması və Milli Birlik Hökumətinin qurulması üçün təzyiqlər etdilər. Yanvarın 22-də Hadi husilərin tələblərini yerinə yetirə bilmədiyi üçün prezidentlikdən istefa verdiyini açıqladı. 1 mart 2015-ci il tarixində Hadi tərəfdarı silahlı Xalq Komitələri qüvvələri ilə husilər və onları dəstəkləyən prezident Saleh tərəfdarları arasında silahlı toqquşmalar baş verdi. 26 mart 2015-ci il tarixində Hadinin çağırışı ilə, Səudiyyə Ərəbistanının rəhbərliyi altında yaradılan koalisiya husilərə və Saleh tərəfdarlarına qarşı "Qətiyyət Fırtınası" adı altında hava əməliyyatlarına başladı. Bu əməliyyatlar 2015-ci ilin mart ayından davam edir və onların legitimliyi hüquqi baxımdan hələ də müzakirə mövzusudur.

Ölkədə İranın dəstəklədiyi husilər ilə Səudiyyə Ərəbistanının dəstəklədiyi Ərəb Koalisiyası arasında qarşıdurmalar davam etməkdədir. Bu gərginlik yalnız Yəmənlə məhdudlaşmayıb, regional miqyasda

İran-Səudiyyə Ərəbistanı münasibətlərində əlavə gərginlik və strateji çəkişmələr yaratmışdır. Yəməndə fəaliyyət göstərən Əl-Qaidə və İŞİD kimi terror təşkilatları ölkədəki qeyri-sabitlik mühitindən faydalanmağa çalışır. Müharibənin başlanğıcından bəri Yəmən ən çox insan faciəsi ilə üzləşən, lakin beynəlxalq media tərəfindən diqqətdən kənarda qalan dövlətlərdən biridir.

Nəticədə, Ərəb baharı müasir tarixdə siyasi islamçılığın qarşılaşdığı ən böyük sınaqlardan biri kimi qiymətləndirilir. Bu proses, siyasi islamın regiondakı rolunu, imkanlarını və məhdudiyyətlərini açıq şəkildə ortaya qoydu. Ərəb baharının və ona bənzər inqilabi hərəkatların siyasi İslam üzərindəki təsiri aydın idi: regionda uzun illər boyunca sıxışdırılmış, qeyri-demokratik şəraitdə fəaliyyət göstərən islamçı hərəkatlar, ilk dəfə demokratik seçkilər yolu ilə siyasi arenada iştirak edə bildilər. Bu mənada, İxvan-ı Müslim (Müsəlman Qardaşlar), Əl-Nahda və digər siyasi islam partiyaları Ərəb baharı nəticəsində legitim siyasi platformalara çıxış imkanı qazandılar.

Ərəb baharı, Sovet İttifaqının dağılmasından və Soyuq müharibə dövrünün onilliklərinin bitməsindən sonra yaranmasına baxmayaraq, hələ də sosial dəyişikliklərə uyğunlaşa bilməyən, dövlət institutlarının zəif olduğu və köhnə zehniyyətlərin hakim olduğu bir bölgədə baş verdi. Bu kontekst, islamçı hərəkatların regionda geniş sosial və siyasi nüfuza malik olmasının və xalq arasında təsirli bir ideoloji dayağa sahib olmasının əhəmiyyətini bir daha vurğulayır. Belə ki, Ərəb baharının başa düşülməsi və siyasi İslamın bu prosesdəki rolunu qiymətləndirmək üçün islamçıların varlığını nəzərə almaq əsas parametrlərdən biridir.

Eyni zamanda, Ərəb baharı demokratikləşmə prosesini də təşviq etdi. Bu, göstərdi ki, siyasi islamın mövcudluğu bir problem deyil, demokratik seçkilər və siyasi institusionalizm vasitəsilə inteqrasiya edilə bilən bir fenomen kimi qiymətləndirilə bilər. Ərəb baharı həmçinin siyasi İslamın canlanmasına səbəb oldu və ərəb-islam kimliyinə dair problemlərin idarəçiliyin mərkəzində dayanmamasının mümkünlüyünü nümayiş etdirdi. Bununla yanaşı, bu proses göstərdi ki, İslam özü

həm problem, həm də həll yolu olaraq çıxış etməməli, əksinə mövcud siyasi və sosial çərçivədə iştirak edə bilən bir ictimai və ideoloji komponent kimi qiymətləndirilməlidir.

Beləliklə, Ərəb baharı siyasi İslamın legitimləşməsi, demokratik siyasi sistemlərə inteqrasiyası və regional identitet məsələlərinin anlaşılması baxımından müasir ərəb dünyasında tarixi bir dönəm yaratmışdır. Bu proses, islamçı hərəkatların siyasi arenada rolunu nəzəri və praktik səviyyədə qiymətləndirmək üçün mühüm bir referans nöqtəsi təşkil edir.

## 3.2. Avropanın aparıcı dövlətlərinin Yaxın Şərq siyasətində İslam amilinə Ərəb baharının təsiri

Ərəb baharı yalnız Yaxın Şərq regionunda baş verməklə kifayətlənməmiş, həmçinin qlobal səviyyədə ciddi təsirlər yaratmışdır. Bu prosesin nəticəsində terror təşkilatlarının fəaliyyət dairəsi genişlənmiş, miqrasiya və kütləvi qaçqın axını artmış, beynəlxalq maraqların toqquşması və güc mübarizəsi yeni miqyas almışdır. Beləliklə, Ərəb baharının təsirləri region xaricinə yayılaraq, xüsusən də Avropa dövlətlərinin Yaxın Şərqdəki və xaricdəki maraqlarına birbaşa təsir göstərmişdir. Aİ və digər qlobal aktorlar bu hadisələrə münasibətlərini tənzimləyərkən, regiondakı islamçı hərəkatların fəaliyyəti və İslam dini çərçivəsində formalaşan sosial dinamikaları nəzərə almışlar.

2001-ci il sentyabrın 11-də ABŞ-da, xüsusən Nyu-York və Manhetten ştatlarında, Əl-Qaidə terror təşkilatının həyata keçirdiyi hücumlar qlobal siyasi və təhlükəsizlik mühitində yeni bir dövrün başlanğıcını qoydu. Hücum zamanı qaçırılmış təyyarələrdən ikisi Dünya Ticarət Mərkəzinə, birisi Pentaqona yönəldildi, nəticədə ABŞ tarixində ən ölümcül terror aktı reallaşdı. Sovet İttifaqının dağılmasından sonra dünyanın yeganə super gücü rolunu üzərinə götürmüş ABŞ üçün bu hadisələr tarixi əhəmiyyətə malik oldu. Nəticədə, ABŞ beynəlxalq səviyyədə "Terrora qarşı qlobal müharibə" strategiyasını elan etdi. Bu strategiyanın bir hissəsi olaraq, Əfqanıstan və İraq işğalları həyata keçirildi və Yaxın Şərqdə uzun müddət davam edən silahlı münaqişələr yeni bir mərhələyə qədəm qoydu.

Ərəb baharının və 11 sentyabr terror hücumlarının nəticəsi olaraq müsəlman icmalarına yönəlmiş ictimai və siyasi basqılar da müşahidə edildi. Bu dövrdə bir çox məscid, məktəb və sosial obyekt hədəf alındı, irqçi siyasət və şübhəli profilə görə minlərlə insan işini itirdi və sosial təcridlə üzləşdi. Beləliklə, qlobal miqyasda terrorla mübarizə prosesi, praktiki olaraq İslam və müsəlmanlarla mübarizə səviyyəsinə çevrildi, bu isə regiondakı siyasi islam hərəkatlarının qlobal siyasətdəki təsirini daha mürəkkəb bir kontekstdə qiymətləndirməyi zəruri etdi[1].

Bəzi tədqiqatçılar və analitiklər 11 sentyabr terror hücumlarını yalnız terror aktı kimi deyil, həm də ABŞ hökuməti və onun kəşfiyyat qurumları tərəfindən müəyyən mənada təşkili mümkün olan sui-qəsd nəzəriyyəsi kontekstində qiymətləndirirlər. Bu yanaşma, hadisələrin arxasında gizli dövlət strategiyalarının ola biləcəyini və ya mövcud geopolitik məqsədlərə xidmət etmək üçün hadisələrin manipulyasiya olunmuş ola biləcəyini irəli sürür[2]. Lakin bu fikirlər akademik müzakirələrdə mübahisəli sayılır və əsasən fərqli analiz və interpretasiyalara əsaslanır.

İslamdan qorxu mənasını ifadə edən "islamofobiya" anlayışı ilk dəfə 1990-cı illərin əvvəllərində elmi və siyasi diskursda işlədilməyə başlanmış[3], 11 sentyabr 2001-ci il terror hücumlarından sonra isə yenidən və daha geniş şəkildə gündəmə gəlmişdir. Müasir dövrdə islamofobiya termini, İslam dini və müsəlmanlar haqqında kifayət qədər məlumatlı olmadan formalaşan qorxu, stereotiplər və bu qorxuya əsaslanan düşmənçilik, ayrı-seçkilik və institusional məhdudiyyətləri ifadə edir.

11 sentyabr terror hücumlarından sonra müsəlmanlara qarşı qərəz və neqativ münasibətlərin artdığı müşahidə olunmuşdur. Xüsusilə xarici

---

[1] *Paker, E.B. Küresel Güvenlik Kompleksi: Uluslararası Siyaset ve Güvenlik / - İstanbul: İletişim Yayınları, - 2021, - s.109-110.*
[2] *Yavuz, N., Özdal B. Turkey's role within regional security complex theory: a contextual analysis on Turkish foreign policy after September 11, 2011 terrorist attacks // Journal of Peace Research and Conflict Resolution, 8(2), 2020, P.1-33.*
[3] *Esposito, J.L., Piscatori, J.P. Göst. əsər, - s.99.*

görünüşünə görə Yaxın Şərq mənşəli hesab edilən və ya tünd dərili müsəlmanlara qarşı fiziki hücumlar, şifahi təhdidlər və psixoloji təzyiqlər geniş yayılmışdır. Ayrı-seçkilik halları təkcə ictimai mühitdə deyil, dövlət qurumlarında, iş yerlərində və təhsil müəssisələrində də nəzərəçarpacaq dərəcədə artmışdır.

Bununla yanaşı, paradoksal olaraq, bu hadisələr Qərb cəmiyyətlərində İslam dininə marağın artmasına da səbəb olmuşdur. Yaxın Şərq və İslamla bağlı akademik və ictimai müzakirələrin sayı çoxalmış, dinlərarası dialoq təşəbbüsləri genişlənmişdir. Bəzi kilsə və sinaqoq icmaları məscidlərə səfərlər təşkil edərək müsəlmanların dini inancları və həyat tərzi haqqında daha yaxından məlumat əldə etməyə çalışmışdır. Həm Avropada, həm də ABŞ-da İslamı qəbul edənlərin sayında artım qeydə alınmışdır[1].

Eyni zamanda, media və nəşriyyat sektorunda İslamla bağlı ədəbiyyatın sayı artmışdır. Lakin bu nəşrlərin yalnız az bir qismi İslamı obyektiv və qərəzsiz şəkildə təqdim etmiş, digərləri isə mövcud stereotipləri gücləndirərək İslamı terrorizmlə əlaqələndirən yanaşmaları yaymışdır. Bu isə islamofobiya fenomeninin ictimai şüurda daha da möhkəmlənməsinə səbəb olmuşdur.

11 sentyabr 2001-ci il terror hücumlarından sonra Almaniyada din siyasətinin yenidən formalaşdığı və bu siyasətin mahiyyət etibarilə İslam və müsəlman icmasına yönəldiyi müşahidə olunur. Almaniyanın İslam siyasəti digər dini və fəlsəfi ənənələrə münasibətdə tətbiq edilən siyasətdən müəyyən dərəcədə fərqlənir. Xüsusilə təhlükəsizlik diskursunun ön plana çıxması, İslamın daha çox təhlükə və inteqrasiya problemi kontekstində müzakirə edilməsinə səbəb olmuşdur.

Müasir Almaniyada din siyasətini İslam faktorunu nəzərə almadan təsəvvür etmək çətindir. 2006-cı ildən etibarən təşkil edilən Alman İslam Konfransı (Deutsche Islam Konferenz) dövlətin İslamı institusional çərçivəyə salmaq və eyni zamanda təhlükəsizlik narahatlıqlarını

---

[1] *Bleich, E. What Is Islamophobia and How Much Is There? Theorizing and Measuring an Emerging Comparative Concept // American Behavioral Scientist: - 2011, 55(12), - p.581-600.*

idarə etmək cəhdinin göstəricisi kimi qiymətləndirilir[1]. Bu siyasətin arxa planında isə cəmiyyət daxilində mövcud olan "İslam qorxusu" və demoqrafik dəyişikliklərlə bağlı narahatlıqlar dayanır.

Empirik tədqiqatlar göstərir ki, Almaniya cəmiyyətində müsəlmanların sayının real statistik göstəricilərdən daha yüksək hesab edilməsi geniş yayılmışdır və bu yanlış qavrayış təhlükə diskursunu gücləndirir. Sorğuların nəticələrinə görə, əhalinin əhəmiyyətli bir hissəsi müsəlmanların artımını mədəni və təhlükəsizlik baxımından risk kimi qiymətləndirir[2]. Bu kontekstdə İslam siyasəti ilə bağlı müzakirələrdə "təhlükədən müdafiə" (Gefahrenabwehr) və "təhlükəsizlik" anlayışlarının dominant mövqe tutması təsadüfi deyil.

Beləliklə, Almaniyada İslam siyasəti yalnız din siyasəti deyil, eyni zamanda təhlükəsizlik siyasəti, inteqrasiya siyasəti və identitet siyasətinin kəsişmə nöqtəsində formalaşan kompleks bir sahə kimi qiymətləndirilə bilər.

Almaniyanın Yaxın Şərqlə bağlı xarici siyasəti əsasən təhlükəsizlik, siyasi və iqtisadi maraqlar ətrafında formalaşmışdır. Təhlükəsizlik aspektindən Almaniyanın narahatlığı, Avropanın regiona coğrafi yaxınlığı və qeyri-qanuni kütləvi miqrasiya potensialı ilə bağlıdır; bu, xüsusilə münaqişə zonalarından və siyasi qeyri-sabitlikdən doğan axınlarla əlaqədardır. Bununla yanaşı, regiondakı münaqişələrdən irəli gələn terror təhlükəsi, radikal qrupların fəaliyyətinin yayılması və kütləvi qırğın silahlarının mümkün yayılması da Almaniyanın təhlükəsizlik siyasətində prioritet təşkil edir[3].

Siyasi baxımdan Almaniya Yaxın Şərqdə, xüsusilə Ərəb-İsrail qarşıdurması kontekstində, daha çox sabitliyin qorunmasına və gər-

---

*[1] Semati, M. Islamophobia, Culture and race in the Age of Empire. // Cultural Studies: - 2010, 24, - p.256-275.*

*[2] PEW Research Center: [Electronic resource] / – Europe's Growing Muslim Population. – December 4, 2017. URL: https://www.pewresearch.org/short-reads/2017/12/04/europes-muslim-population-will-continue-to-grow-but-how-much-depends-on-migration/*

*[3] Kazleh, M.A. Göst. əsəri, - s.120-123.*

ginliyin eskalasiyasının qarşısının alınmasına yönəlmiş mövqe tutmuşdur. Bu yanaşma həm Almaniyanın regional siyasətində praqmatik balans strategiyasını, həm də Avropa İttifaqının ümumi xarici siyasət prioritetlərinə uyğun olaraq münaqişələrin yayılmasının qarşısını almağa yönəlmiş xəttini əks etdirir[1].

İqtisadi maraqlar çərçivəsində isə Almaniyanın diqqəti regiona problemsiz enerji ixracına və enerji resurslarına maneəsiz çıxış imkanlarına yönəlib. Alman şirkətləri üçün Mərkəzi və Şərqi Avropaya enerji tədarükünün təhlükəsizliyi, Yaxın Şərqdəki siyasi sabitliklə birbaşa bağlıdır. Nəticədə Almaniyanın Yaxın Şərq siyasəti təhlükəsizlik, siyasi və iqtisadi maraqların kəsişdiyi bir strategiya olaraq formalaşmışdır.

Hadisələr başladığından bəri, o dövrdə Almaniyanın Xarici İşlər Nazirliyinin sözçüsü Andreas Peşke bəyan etmişdir ki, Almaniya Yaxın Şərq dövlətlərini demokratik çərçivədə dəstəkləyir və regiondakı müxtəlif sosial qruplara hörmətlə yanaşır. Lakin, Almaniyanın Yaxın Şərq siyasəti, Aİ çərçivəsində bəzən tənqid olunmuşdur, xüsusilə demokratikləşmə proseslərinin qeyri-bərabərliyi və regiondakı qeyri-müəyyənliklər nəzərə alınaraq.

Ərəb baharı çərçivəsində bir çox dövlətlərdə mövcud nizama qarşı üsyan edənlərin istəklərini tam əldə edə bilməməsi, Liviyada davam edən şiddətli münaqişələr, eləcə də İraq və Suriyada İŞİD-in mövcudluğu Avropa üçün ciddi qeyri-müəyyənliklər yaratmışdır[2]. Yaxın Şərqdə və Ərəb dünyasında demokratik institutların zəifliyi Qərb üçün həm təhlükəsizlik, həm də iqtisadi maraqlar baxımından potensial təhdid kimi qiymətləndirilirdi.

Bundan əlavə, Avropa dövlətlərinin demokratikləşdirmə səylərinə haqq qazandırılmasına baxmayaraq, planlı və mütəşəkkil terror hadisələrinin artması, müsəlmanların diqqət mərkəzində saxlanması

---

*[1] Allahverdiyeva, F. Alman İslam Anlayişinin Nəzəri-Tarixi Aspektləri . // - Bakı Universitetinin Xəbərləri: -Humanitar Elmlər seriyası, - 2023, №1, - s. 162-171.*
*[2] Lacroix, S. Europe and the Arab Uprisings: Democracy Promotion and Security Concerns. // - Mediterranean Politics: - 2016, 21(2), - p.202–220.*

ilə nəticələndi. Bu yanaşma, cəmiyyətdə İslamofobiya və ksenofobiyanın formalaşmasına səbəb oldu; yəni, müsəlmanların potensial təhlükə və terrorçu kimi stereotipləşdirilməsi prosesi gücləndi[1].

İngiltərədə qeyri-müsəlmanların müsəlmanlara qarşı qorxusu, sosial elm və politologiya ədəbiyyatında ksenofobiya kimi qiymətləndirilir[2]. İngiltərədə xristianlıqdan sonra ən çox yayılan din İslamdır və bu vəziyyət sosial mədəniyyət və siyasət sahəsində müəyyən narahatlıqlar yaradır. Samuel Huntingtonun məşhur "Civilizations Clash" (Sivilizasiyaların Toqquşması) əsəri, İslamı Qərb üçün potensial düşmənçilik mərkəzi kimi təqdim edərək, Avropada İslamofobiya və müsəlmanlara qarşı stereotiplərin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Bu yanaşma İslamı və müsəlmanları Avropa mədəniyyəti və materialist həyat tərzinin "düşməni" kimi göstərməyə çalışır.

Buna qarşı olaraq, britaniyalı yazıçı Karen Armstrong qeyd edir ki, "İslamofobiya səlibçilər dövründən bəri davam edən tarixi bir fenomen olaraq qalır; 11 sentyabr terror hücumları İslamın ruhunu əks etdirmir və problem dinlərdə deyil, siyasətçilərin qərar və fəaliyyətlərindədir". Məsələn, Kəşmir, İraq və Əfqanıstandakı hadisələr dini səbəblərdən çox, siyasətçilərin strategiyalarından qaynaqlanır və Qərbdə islamofobiyanı gücləndirir.

Bundan əlavə, islamofobiyanın kökləri Qərbin müstəmləkəçilik ənənələrinə də söykənir. Böyük Britaniyanın "Global Market Insite" tədqiqat şirkətinin sorğularına görə, İngiltərədə yaşayan müsəlmanlar qərbdə islamofobiyanın artmasında medianın əsas rol oynadığını vurğulayırlar. Britaniya mətbuatı açıq şəkildə müsəlmanları terrorçu kimi təqdim etməkdən çəkinmiş kimi görünə bilər; lakin sətirlər arasında təkrarlanan açar sözlər və ekstremist fotoşəkillər vasitəsilə anti-İslam təbliğatı davam etdirilir. Xüsusilə yarı-özəl qurum olan BBC-nin təqdimatları şüuraltına xitab edərək, İngiltərə hökumətinin dəstəyi

---

[1] *Koch, N. European Security Policy and the Middle East: Challenges of Non-State Actors. // - European Security: - 2017, 26(1), - p.1–18.*

[2] *Allen, C. Islamophobia in the UK: Historical and Social Perspectives. / Routledge: - 2010, - p.83.*

ilə yayımlanır. Beləliklə, Avropada yaşayan vətəndaşlar İslam inancı və yaşam tərzini bilməsələr belə, müsəlmanlara qarşı narahatlıq hissi formalaşdırırlar. Bu kontekstdə, kütləvi informasiya vasitələrinin və medianın rolunun xüsusi olaraq vurğulanması zəruridir.

11 sentyabr terror hücumlarından sonra, xüsusən də 2010-cu illərin Ərəb baharı prosesləri ilə paralel olaraq Fransada İslamofobiya artım göstərmişdir. Bu dövrdə İslama və müsəlmanlara qarşı sosial və siyasi reaksiyalar yüksəlmiş, ictimai və siyasi terminologiyada islamçılığa dair narahatlıqlar daha çox gündəmə çıxmışdır[1].

Fransa parlamenti 2010-cu il sentyabrın 14-də, ibadət yerləri və şəxsi yaşayış yerləri istisna olmaqla, ictimai məkanlarda üzü örtən paltarların, o cümlədən hicab və niqabın geyilməsini qadağan edən qanunu qəbul etdi. Hökumət tərəfindən əsas arqument, qadın ləyaqəti və Fransız Respublikası dəyərlərinin qorunması idi. O zamanın prezidenti Nikolas Sarkozi və Kommunist Partiyasından olan Andre Qerin bu məsələdə ortaq mövqe sərgiləyərək, hicab və digər İslami simvolların ictimai həyatda təhlükə yaratdığı fikrini müdafiə etdilər[2]. Qerin, məsələnin təhlükəli tərəfini "islamçılıq" termini ilə ifadə edərək, İslamın Fransa üçün potensial təhlükə yaratdığı fikrini vurğulamışdır. Bu yanaşma yalnız siyasi diskursda deyil, həm də hüquqi və sosial çərçivədə İslamofobiyanın möhkəmlənməsinə səbəb olmuşdur. İctimai debatlarda İslam simvolları, xüsusilə hicab və niqab, təhlükə və assimilasiya məsələsi kontekstində təqdim edilmiş, müsəlman qadınların ictimai görünüşü siyasətin mərkəzi mövzusu halına gətirilmişdir[3]. Nəticədə, Fransa siyasətində İslam və müsəlmanların rolu həm qanunvericilikdə, həm də sosial münasibətlərdə stereotiplərin və qorxunun təsiri altında formalaşmış, İslamofobiyanın struktural və institusional səviyyədə möhkəmlənməsinə şərait yaratmışdır. İslamçılıq və onun

[1] *Cesari, J. Why the West Fears Islam: An Exploration of Muslims in Liberal Democracies. / - Palgrave Macmillan: – 2013, -p.322.*

[2] *Scott, J.W. The Politics of the Veil. / - Princeton University Press: – 2007, - p.109.*

[3] *Selby, J.A. Islam in France Reconfigured: Republican Islam in the 2010 Gerin Report // Journal of Muslim Minorty Affairs, - United Kingdom: - 2011, 31(3), - p.383-398.*

Fransanın dəyərləri üçün yaratdığı təhlükə ilə bağlı müzakirələr, İslam anlayışından daha çox Qərbin müasir dəyərləri ilə, radikal islamçılığın aqressiv mövqeləri arasındakı ziddiyyət çərçivəsində idi. Yaxın Şərqlə bağlı yazıları ilə tanınan və Ərəb baharı prosesini yaxından izləyən Alen Qreş, Fransa mediasının düşmən mövqedən, İslamçı anlayışını istifadə etmə tərzini tənqid etmişdir[1].

Sarkozinin administrasiyası dövründə anti-immiqrant və anti-İslam meyllərinin artması, Ərəb baharı prosesinin yaratdığı regional narahatlıqlarla birləşərək Fransada müsəlmanlara qarşı təqib və sosial təzyiqlərin artmasına səbəb oldu. 10 noyabr 2012-ci il tarixində Paris küçələrində keçirilən kütləvi nümayişlərdə "Elzas-Lotaringiyanın islamlaşmasına yox!", "İslam Luvrdan çıx!" kimi şüarlar səsləndirilmiş, sağçı qruplar tərəfindən "İslamçı faşizm"in qınanması təşviq edilmişdir[2]. Bu hadisələr göstərir ki, fransız solunun bir hissəsi, İslam məsələsinə gəldikdə, ideoloji baxımdan sağ qruplarla qarşıdurmaya baxmayaraq, fəaliyyət və diskurs baxımından oxşar mövqe sərgiləyə bilmişdir. Bununla yanaşı, Fransanın daxili işlər naziri Manuel Vals radikal İslamın qadınların hüquqlarını məhdudlaşdırdığına dair açıqlamalar verərək, dövlət səviyyəsində İslamofobiyanın legitimləşdirilməsinə şərait yaratmışdır. Bu kontekst, Fransada İslamın ictimai görünüşünün, hüquqi və sosial səviyyədə tənzimlənməsi ilə bağlı tendensiyaların həm siyasi, həm də mədəni aspektlərini əks etdirir[3].

Fransanın sağçı mediaya aid nümunələrindən biri olan Le Point jurnalının Ərəb baharı prosesi ilə bağlı yayımladığı materiallar, islamçılara qarşı qlobal narahatlıqların Fransa ictimaiyyətində vizual və ideoloji olaraq necə təqdim edildiyini açıq şəkildə göstərir. 2011-ci

---

[1] *Burke III, E. The Ethnographic State: France and the Invention of Moroccan Islam / University Press California, - California: - 2014, - p. 171.*

[2] *Menegaux, C. Guéant: La Hausse du Nombre de Musulmans Pose Probléme : [Ressource électronique] / Le Figaro, 4 Avril, 2011.*

[3] *Lorriaux, A. La Une du magazine Le Point sur "cet islam sans gêne" fait polémique : [Ressource électronique] / Le Huffington Post, 30 Septembre, 2012. URL: http://www.huffingtonpost.fr/2012/10/30/la-une-du-magazine-le-pointislam-polemique_n_2045907.html#slide=1703805*

ildə jurnal “Misir, Tunis, Əlcəzair… İslamçı Kabus” başlığı altında, hicablı qadının Misir bayrağı ilə təsvirinə yer verərək, Müsəlman Qardaşlar haqqında “faktlar” ifadəsini alt başlıq kimi təqdim etmişdir. Bu yanaşma, islamçı hərəkatların “təhlükə” və “nüfuz” mərkəzi kimi təqdim olunması tendensiyasını gücləndirmişdir. Daha sonra, 2013-cü ilin yanvarında jurnalın üz qabığında Məğrib bölgəsində təsirli olan Əl-Qaidə komandirlərinin vizual təqdimatı və “onların Fransaya qarşı təhdidləri” alt başlığı istifadə edilərək, terrorizmin və islamçılığın vizual simvolizasiyası vasitəsilə müsəlmanlara qarşı qlobal təhlükə narativinin formalaşdırılması müşahidə edilmişdir. Bu nümunələr, medianın İslamofobiya və islamçı narahatlığı yaymaq üçün vizual retorikadan geniş istifadə etdiyini və Fransa cəmiyyətində müsəlmanlara qarşı sosial qərəzin güclənməsində rol oynadığını göstərir.[1]




Fransada Ərəb baharı prosesi ilə paralel olaraq sağçı və mərkəzçi jurnalların islamçılara yanaşması, İslamofobiyanın media vasitəsilə formalaşması nümunəsi olaraq diqqət çəkir. Xüsusilə Le Point jurna-

[1] *Beylau, P. La Chasse Aux Chrétiens : [Ressource électronique] / Le Point, 6 Janvier, 2011. URL: https://www.lepoint.fr/monde/la-chasse-aux-chretiens-06-01-2011-127240_24.php#11*

lında 2011 və 2013-cü illərdə yayımlanan vizual və başlıqlı materiallar, Müsəlman Qardaşlar və Əl-Qaidə kimi hərəkatların Fransa üçün təhlükə simvolu kimi təqdim edilməsini göstərir[1]. Bundan başqa, Le Nouvel Observateur, L'Express və Valeurs Actuelles kimi digər jurnallar da, müxtəlif siyasi tendensiyalarına baxmayaraq, ümumiyyətlə eyni mesajı çatdırmışdır: qorxu və islamçı anlayışları ön plana çıxararaq, Fransadakı anti-İslam zehniyyətini gücləndirmək. Bu media yanaşması, müsəlmanların ictimai görünüşünü, dini simvollarını və siyasi davranışlarını "təhlükə" kontekstində çərçivələndirərək, cəmiyyətin İslam və müsəlmanlara qarşı qərəzini təkrarlayan diskursun güclənməsinə səbəb olmuşdur.

2011-ci ildə Fransanın Dovil şəhərində keçirilən G8 Zirvə Toplantısında, Almaniyanın Yaxın Şərqlə bağlı yeni siyasət strategiyasına dair ipuçları kansler Angela Merkel tərəfindən açıqlanmışdır. Merkel çıxışında, Almaniyanın bölgədəki islahat proseslərinə dəstək verəcəyini, lakin yeni administrasiyaların və demokratik təşəbbüslərin təhlükə altına düşməməsinin vacib olduğunu vurğulamışdır. Bu yanaşma, Almaniyanın Yaxın Şərq siyasətinin, həm demokratikləşmə səylərini dəstəkləmə, həm də regional təhlükəsizlik və siyasi sabitliyi qoruma prinsipləri üzərində formalaşdığını göstərir[2].

Regionun siyasi konyukturasını tarixi kontekstdə qiymətləndirdikdə, Yaxın Şərqdəki dövlətlərin müasir sərhədlərinin formalaşmasında imperialist dövlətlərin rolu ön plana çıxır. İngiltərə və Fransanın Birinci Dünya Müharibəsindən sonra tətbiq etdiyi "mandat" sistemi vasitəsilə bölgə dövlətlərinin siyasi, etnik və dini strukturlarına müdaxilə edilməklə, həmin dövlətlər imperialist maraqlar üçün idarə olunan qurumlar halına gətirilmişdir[3].

---

[1] *Cesari, J. Göst. əsəri, - s.327.*
[2] *Sandschneider, E. Deutsche Außenpolitik: eine Gestaltungsmacht in der Kontinuitätsfalle // Aus Politik und Zeitgeschichte, - Berlin: -2012, 62(10), - b.3-9.*
[3] *Cleveland, W.L., & Bunton, M. A history of the modern Middle East (6th ed.)./ - Boulder, CO: Westview Press: – 2016, - p.327.*

Bu proses nəticəsində, yerli xalqlar öz dövlətlərini inşa edə bilməmiş, dövlətə deyil, mənsub olduqları etnik və dini qruplara sədaqət göstərmişlər. Nəticədə, siyasi və idarəçilik sistemlərində bəzi etnik və dini qruplar yetərincə təmsil olunmamış, dövlət quruculuğunda iştirak imkanları məhdudlaşdırılmışdı. Bu qeyri-bərabər təmsilçilik və diqqətsiz sərhəd bölgüsü, regionda domino effekti yaradan etnik və dini gərginliklərin artmasına, eləcə də sosial-siyasi dəyişiklik dalğalarının daha intensiv və mürəkkəb formalar almasına səbəb olmuşdur. Beləliklə, bölgədəki müasir siyasi qeyri-sabitlik, yalnız daxili amillərlə izah oluna bilməz; tarixi imperialist müdaxilələr və etnik-dini paylanmanın qeyri-bərabərliyi bu problemlərin struktur əsasını təşkil edir.

Ərəb baharı prosesi zamanı islamofobik diskursa meyilli olan bəzi media və mətbuat orqanları "islamçı", "qorxu", "terrorçu", "saqqallı və radikal görünümlü müsəlman kişilər", "çadralı qadınlar" kimi ifadələri daha intensiv şəkildə istifadə edərək, Qərb ictimaiyyətində "İslam" anlayışını təhlükə və radikalizm kontekstində çərçivələndirirdilər. Bu tip vizual və leksik çərçivələndirmə (framing) mexanizmləri, müsəlman kimliyinin homogen və təhlükəli bir obraz kimi təqdim olunmasına xidmət etmişdir.

2012-ci ildə Fransada keçirilən prezident seçkiləri Nikola Sarkozinin səlahiyyət müddətinin başa çatması ilə nəticələndi. Seçki kampaniyası dövründə Marin Le Pen miqrasiya əleyhinə və anti-İslam ritorikası ilə ön plana çıxmışdı[1]. Sarkozi və Le Pen arasında gedən siyasi rəqabət fonunda, Sarkozinin Paris məscidini ziyarət edərək müsəlman icmasına müsbət mesajlar verməsi diqqət çəkmişdir. Lakin onun "Biz Fransada mövcud olan İslamı deyil, Fransız İslamını istəyirik" ifadəsi, İslamın dövlət tərəfindən normativ çərçivəyə salınması və respublika dəyərlərinə uyğunlaşdırılması ideyasını əks etdirirdi. Bu yanaşma, Fransa siyasətində İslamın "milli model" daxilində yenidən tərif edilməsi cəhdinin göstəricisi kimi qiymətləndirilə bilər.

[1] *Shields, J. The Front National: From system protest to system party? // Modern & Contemporary France: - 2013, 21(2), - p.179–194.*

Beləliklə, media diskursu və seçki ritorikası bir-birini tamamlayaraq, İslamın təhlükəsizlik, identitet və milli dəyərlər kontekstində yenidən qurulmasına xidmət etmişdir. Bu yanaşma çərçivəsində "məqbul" və "qeyri-məqbul" müsəlman obrazı arasında normativ sərhədlər müəyyənləşdirilmiş, Fransa Respublikasının qəbul etdiyi dünyəvilik (laïcité) modeli ilə uzlaşmayan dini görünüş və davranış formaları problemli kateqoriyaya daxil edilmişdir[1].

Fransada keçirilən son prezident seçkiləri zamanı təhlükəsizlik və identitet məsələlərinin ön plana çıxarılması, müsəlman icmasının siyasi diskursda "dövlət üçün əsas təhlükə" kimi çərçivələndirilməsinə gətirib çıxarmışdır. Bu prosesdə həm siyasətçilərin ritorikası, həm də sensasion və təxribat xarakterli media yayımları müsəlman seqmentinin ictimai nəzarət və təzyiq obyektinə çevrilməsinə səbəb olmuşdur.

Xüsusilə Nikola Sarkozi və Marin Le Pen kimi siyasi fiqurların çıxışlarında İslam və miqrasiya məsələlərinin təhlükəsizlik, milli identitet və respublika dəyərləri kontekstində təqdim olunması, Fransa cəmiyyətinin kollektiv şüurunda müsəlman kimliyinin "təhdid" kimi konstruksiya edilməsini gücləndirmişdir. Bu imic ksenofobiyanın, xüsusilə də İslamofobiyanın artması ilə paralel şəkildə siyasətin əsas arqumentlərindən birinə çevrilmişdir.

Ərəb baharı prosesi nəticəsində Yaxın Şərqdə islamçı hərəkatların siyasi arenada görünürlüğünün artması isə, Fransanın sağçı siyasi dairələri üçün əlavə legitimlik və diskursiv fürsət yaratmışdır. Regiondakı siyasi transformasiyalar Fransa daxilində təhlükəsizlik narahatlıqları ilə əlaqələndirilmiş və bu, daxili siyasətdə "xarici təhlükə"nin daxili kimlik siyasəti ilə birləşdirilməsi strategiyasını gücləndirmişdir. Nəticə etibarilə, İslam və müsəlman kimliyi Fransa siyasətində yalnız dini məsələ kimi deyil, milli təhlükəsizlik və sivilizasion identitet çərçivəsində müzakirə olunan struktur problem kimi təqdim olunmuşdur.

[1] *Roy, O. Secularism confronts Islam: France and the dilemmas of integration. / Columbia University Press: – 2014, - p.128.*

Müsəlmanlar İtaliyada xristianlıqdan sonra ikinci ən böyük dini icmanı təşkil edirlər. Uzun müddət İslam və müsəlmanlar İtaliya siyasətində mərkəzi problem kimi təqdim edilməsə də, 11 sentyabr terror hücumlarından sonra formalaşan qlobal təhlükəsizlik diskursu və Ərəb baharı prosesi, siyasətçilərin müsəlmanların gündəlik həyatına və dini fəaliyyətlərinə daha çox müdaxilə etməsinə zəmin yaratmışdır[1].

2005–2017-ci illər arasında təhlükəsizlik və terrorizmlə mübarizə prioritetləri çərçivəsində formalaşan siyasət, müsəlman icmasını potensial risk qrupu kimi çərçivələndirmişdir. Bu dövrdə qəbul olunan təhlükəsizlik yönümlü tədbirlər İslamın institusional tanınması və hüquqi statusunun aydınlaşdırılması prosesini ləngitmiş, müsəlmanların tam hüquqlu vətəndaş və tərəfdaş kimi deyil, daha çox "daxili təhlükə" kontekstində qiymətləndirilməsinə səbəb olmuşdur. Lakin 2017-ci ilin yanvarında Daxili İşlər Naziri Ancelino Alfano tərəfindən "İtalyan İslamı ilə Əlaqələr Şurası"nın (Consiglio per le Relazioni con l'Islam Italiano) yaradılması elan edilmişdir. Bu qurumun əsas məqsədi müsəlman icmasının İtaliya cəmiyyətinə inteqrasiyasını gücləndirmək, radikallaşmanın qarşısını almaq, imamların hazırlanmasını təmin etmək və məscidlərin fəaliyyətini institusional çərçivəyə salmaq kimi məsələlərdə tövsiyələr vermək olmuşdur. Akademiklər və ekspertlərdən ibarət olan Şura isə müntəzəm olaraq, aylıq tövsiyələr təqdim etməli idi. Buna baxmayaraq, həm koalisiya hökumətinin üzvləri, həm də İtaliya siyasi elitası müsəlman məsələsinə əsasən təhlükəsizlik və terrorla mübarizə prizmasından yanaşmağa davam etmişdir. Nəticədə, İtaliyada İslam siyasəti inteqrasiya təşəbbüsləri ilə təhlükəsizlik narahatlıqları arasında balans axtaran, lakin təhlükəsizlik diskursunun üstünlük təşkil etdiyi bir model kimi formalaşmışdır[2].

Dünyanın bir çox ölkəsi tarixi boyunca böyük dəyişikliklər yaşamış, müxtəlif çətinliklərlə üzləşmiş və hətta ağır müharibələr və sınaq-

*[1] Allievi, S. Conflicts over Mosques in Europe: Policy issues and trends / Alliance Publishing Trust: - 2010, - p. 103.*
*[2] McCormick, J. Avrupa Birliği'ni anlamak / - Ankara: BB101 Yayınları, - 2018, - s.24.*

lardan keçərək mövcudluğunu qoruyub saxlamağı bacarmışdır. Qərbdən ABŞ və Şərqdən Sovet İttifaqı kimi iki qlobal güc arasında ilişib qalmış Avropa isə daxildən və xaricdən gələn təhdidlərdən qorunmaq və bölgədə daimi sülhü təmin etmək yollarını müzakirə etməyə başlamışdır. Bu müzakirələrin nəticəsi olaraq, bu gün Aİ yaranmışdır. Aİ beynəlxalq təşkilatlardan fərqlənir: o, fövqəlmilli statusa malikdir və ticarət, kənd təsərrüfatı, ətraf mühit və rəqabət kimi bir sıra sahələrdə bütün üzv dövlətləri adından danışıqlar aparmaq və qərarlar qəbul etmək səlahiyyətinə sahibdir. Bu gün İttifaq, beynəlxalq təşkilatlarla dövlətlər arasındakı xəttin naməlum nöqtəsində mövqelənmişdir. Makkormik isə İttifaqın xarici siyasətini "bir dövlətin digər dövlətlərlə münasibətlərini tənzimləyən, təhlükəsizlik, ticarət, immiqrasiya və iqtisadi əlaqələr kimi məsələlərlə məşğul olan siyasət sahəsi" kimi təsvir etmişdir[1]. Lakin 28 üzv dövlətin hamısının müdafiə və təhlükəsizlik kimi yüksək əhəmiyyət kəsb edən məsələlərdə ortaq razılığa gəlməsini gözləmək real olmazdı. Bu səbəbdən İttifaq beynəlxalq arenada digər dövlətlərlə müqayisədə "iqtisadiyyatda nəhəng, siyasi mənada cırtdan və hərbi baxımdan soxulcan" kimi təsvir olunur[2].

Regional siyasətini nəzərdən keçirən Aİ dövlətləri, yeni dövr regional siyasətini, demokratiya və insan haqlarına vurğu edərək formalaşdırmışdır[3]. Almaniya İslam dünyası ilə dialoq mexanizmini inkişaf etdirərək, demokratik islahatlara verdiyi yardımın həcmini artırdığı halda, İngiltərə, islahat strategiyası yaradaraq, regionla dialoqunu genişləndirməyə çalışdı[4]. Fransa Tunis, Əlcəzair, Mərakeşə və Livana, maliyyə yardımını artırdı[5]. Təhlükəsizliyi ön planda tutan Aİ qeyri-qanuni immiqrasiya problemi və terror təhlükəsinə qarşı İttifaqın müdafiə

---

[1] *McCormick, J. Avrupa Birliği'ni anlamak, - s.31.*
[2] *Özdal, B. Avrupa Birliği Siyasi Bir Cüce, Askeri Bir Solucan mı? / - İstanbul: Dora Yayınları, -2013, - 396 s.*
[3] *Youngs, R. Göst. əsəri, - s.6.*
[4] *Oppermann, K. Göst. əsəri, - s.633.*
[5] *Lancester, C. Foreign Aid: Diplomacy, Development, Domestic Politics, / - Chicago: The University of Chicago Press, - 2007, - p.189.*

etdiyi normativ dəyərlərə zidd olduğunu bildirərək, bölgədəki avtoritar rejimlərlə əməkdaşlıq edərək, siyasi gedişata nəzarət etməyə çalışırdı[1]. Digər tərəfdən, İraq və Liviya kimi üçüncü dövlətlərdə demokratiyanı silah gücü ilə yaymağa çalışması, həmçinin Ərəb dövlətlərindəki despot rejimlərə qarşı münasibətlərini qoruyub saxlaması, İttifaqın xarici siyasətində "normativ dəyərlərinin" təsirsiz qaldığını və insan haqları pozuntularına qarşı kifayət qədər əhəmiyyət vermədiyini ortaya qoyur[2].

Demokratiya, azadlıq və hüquqlar kontekstində mövqeyi ilə tanınan Avropa dövlətləri Ərəb baharı hadisələrinin ilk anında nə edəcəyini tam proqnozlaşdıra bilmədilər. Hadisələrin ilk günlərində Avropada da siyasi qarışıqlıqlar davam edərkən, artıq Tunisdən İtaliya sahillərinə mühacir axını başlamışdı. Almaniya, Fransa, İngiltərə və İtaliya kimi Aİ dövlətləri hadisələrə qarşı ayrı-ayrılıqda bəzi addımlar atmağa çalışırdılar. Lakin 2011-ci ilin mart ayına qədər İttifaqdan heç bir açıqlama olmadı[3]. Avropa dövlətlərində və mediada Ərəb baharı hadisələri qanlı demokratik çıxışlardan daha çox təhlükəsiz, müsbət hadisələr kimi göstərilməyə çalışıldı. Hətta, hadisələri müsbət tərəfdən göstərmək istəyənlər, prosesi Berlin divarının yıxılmasına bənzətdilər. Avropa daxilində Yaxın Şərqdəki hadisələrə qarşı, uzun, daxili münaqişələr başlandı. Yaxın Şərqdə yaşanan qarşıdurmalara qarşı müxtəlif tendensiyalar yarandı. Aİ-na daxil dövlətlər, eyni birliyin mənsubu olsalar da, Yaxın Şərqdəki hadisələrə qarşı siyasətlərində birlik yox, daha çox fərqli üsullar müşahidə edilirdi.

Avropanın iqtisadi və siyasi cəhətdən ən güclü dövlətlərindən biri olan Almaniya region üçün siyasi duruşunda, digər böyük dövlətlərdən fərqlənirdi. Yaxın Şərqdəki hadisələrə son qoymaq üçün Fran-

*[1] Asseburg, M. The Arab spring and the European response // The International Spectator, - Roma: - 2013, 48 (62), - p.58.*
*[2] Keukeleire, S., Delreux, T., Göst. əsər, - s.143.*
*[3] Barany, Z. Comparing the Arab Revolts-The role of the Military // Journal of Democracy, - Washington: - 2011, 22 (4), - p.22-39.*

sann rəhbərliyi ilə koalisiya qurulsa da, Almaniya bu koalisiyaya qoşulmadı. Almaniyanın xarici işlər naziri Qvido Vestervel, ölkəsinə ünvanlanan tənqidlərə cavab olaraq, koalisiyaya qoşulmamağın Qəddafi administrasiyasını dəstəkləmək demək olmadığını, lakin belə bir addımın Liviyada uzun müddətli qeyri-sabitlik dövrünə başlayacağını və bu qeyri-sabitliyin müəyyən təsirlərinin olacağını bildirdi. Almaniyanın hadisələrin fonunda, öz üzərinə götürdüyü siyasət anlayışı maliyyə dəstəyi verərək dövlətlərdə sosial, institusional və siyasi strukturları gücləndirərək, təbliğatdan uzaq dayanması oldu. Almaniya regionda hərbi müdaxilələrin tərəfdarı deyildi. Merkel hökuməti Tunisdəki xalq üsyanlarını və Tunis inqilabını dəstəklədi. Almaniya hökumətinin Tunisin demokratikləşmə prosesinə maliyyə və texniki yardım göstərməsi, ölkədə nüfuzunu artırmaq imkanı verdi.

2011-ci ildə Fransanın Dovill şəhərində keçirilən G8 Zirvə toplantısında Almaniyanın Yaxın Şərqlə bağlı yeni siyasətinin istiqamətləri Almaniya kansleri Angela Merkel tərəfindən açıqlanmışdır. Merkel yeni administrasiyaların və islahatların təhlükə altına düşməməsinin vacibliyini vurğulamışdır. Ərəb Baharı prosesini yaşayan dövlətlərə yardımın təkbaşına həll edilə bilməyəcəyini, belə yanaşmanın keçmişdə səhv nəticələr doğurduğunu və digər vacib məsələlərin nəzərdən qaçırıldığını qeyd etmişdir. Eyni zamanda, Ərəb dövlətlərində insan haqları təmin olunmadan iqtisadi və sosial inkişafın mümkün olmadığını bildirən Merkel bu ölkələrin mərhələli şəkildə məsuliyyəti öz üzərinə götürməsi üçün addımlar atmalı olduğunu vurğulamışdır. Almaniyanın isə Ərəb dövlətləri arasında iqtisadi əməkdaşlıq və məşğulluq siyasətinə dəstək verərkən aparıcı rol oynamağı lazım gəldiyini qeyd edən Merkel, xarici siyasət perspektivini aydın şəkildə təqdim etmişdir[1]. Misir prezidenti Hüsnü Mübarək 2011-ci il fevralın 11-də prezi-dentlikdən istefa verdikdən sonra Almaniya tədricən bütün ərəb dünyasında baş qaldıran demokratik etirazlara qarşı açıq mövqe nümayiş etdirmişdir. Almaniya Misir və Tunisə səfər edən ilk dövlətlərdən

[1] *Puddington, A. Democracy's Stake in the Arab Spring // – Israel: Journal of Foreign Affairs, 2011, vol.3, – p.13-22.*

biri olaraq, bu ölkələrdəki keçid dövrünü gecikdirmədən dəstəkləmiş və müxtəlif vəsaitlər ayırmışdır. Məsələn, 2012 və 2013-cü illər üçün Misir və Tunisə 100 milyon avro ayrılmış, demokratiya və təhsil kimi sahələrdəki ehtiyacların qarşılanması məqsədilə 2011-ci ilin fevralında Şimali Afrikaya dəstək göstərilmişdir[1].

Almaniyanın xarici siyasətində hərbi gücdən istifadə etmək istəməməsi Liviya böhranı zamanı özünü daha qabarıq göstərdi. Almaniya Qərb müttəfiqləri ilə Qəddafinin getməsi ilə razılaşsa da, Merkel hökuməti Almaniyaya aidiyyatı olmayan müharibəyə hərbi müdaxilə ilə bağlı metodun əleyhinə idi. İngiltərə və Fransadan fərqli olaraq, BMT Təhlükəsizlik Şurasının Liviyada uçuşa qadağa zonası yaradılmasına dair qətnaməsindən imtina etdi. Almaniyanın anti-hərbi mövqeyi Suriya böhranında da davam etdi. Alman xarici siyasətinin ən çətin sınaqlarından biri olan Ərəb baharı dövrünü Parlamentin Xarici Əlaqələr Komitəsinin o zamankı sədri Ruprekst Polenz iqtisadi əməkdaşlıq, immiqrasiya və qaçqın siyasəti, beynəlxalq terrorizmlə mübarizə, qanunun aliliyi, demokratikləşmə, modernləşmə və nəhayət, insan haqlarına sadiqlik kimi şərh etmişdir.

Ərəb baharı hadisələri zamanı, siyasi sabitliyi regiondakı iqtisadi maraqlarının əvəzsiz elementi kimi görən İngiltərə, avtoritar rejimləri regional sabitliyin təminatı kimi qiymətləndirirdi. İngilis siyasətinə görə, avtoritar rejimlərin digər mühüm funksiyası, İslam müxalifətinə qarşı qalxan rolunda olmasıydı. Qərbin dəstəyi regional diktatorların islami hərəkatları sıxışdırmaq və öz rejimlərinin saxlanmasında əsas rol oynadı[2]. İngiltərənin yeni dövr siyasətində Ərəb baharı Kameron hökumətinin ilk ciddi xarici siyasət sınağı oldu. Ərəb baharını gözlənilməz şəkildə qarşılayan İngiltərə Körfəz yönümlü və iqtisadiyyata əsaslanan xarici siyasətini Aİ ilə uyğunlaşdırmağa çalışdı. İngiltərənin Ərəb baharı ilə bağlı siyasəti, həm milli səviyyədə, həm də Aİ-na in-

---

*[1] Ratka, E. Göst. əsəri, - s.64.*
*[2] Michou, H. Göst. əsəri, - s.1-5.*

teqrasiya olunmuş şəkildə həyata keçirildi. İngiltərə iqtisadi və diplomatik sanksiyalardan hərbi müdaxiləyə qədər, bir çox təşəbbüslərə rəhbərlik etdi.

İngiltərənin Ərəb baharına ilk ciddi reaksiyası 2011-ci ilin əvvəlində ictimaiyyətə açıqlanan Ərəb Əməkdaşlıq Fondunun təsisi oldu. İngiltərə Ərəb Əməkdaşlıq Fondu ilə bölgəyə 110 milyon funt sterlinqlik yardım ayırdı. Ərəb Əməkdaşlıq Fondu, yardımın demokratik və siyasi proseslərə daha çox təsir edən sahələrə yönəldiləcəyini bildirsə də, 2011-ci ilin layihələri korrupsiya, şəffaflıq və seçki məsələləri ilə məhdudlaşdı[1]. Tunisdəki inqilab zamanı ölkədən qaçan Bin Əli və yaxınlarının mülkiyyətinin qorunmasında, İngiltərə fəal rol oynadı. Misirdə üsyanlar nəticəsində Hüsnü Mübarəkin istefa verməsi, İngiltərənin narahatlığına səbəb oldu. Livya böhranı zamanı isə, İngiltərə Liviyadakı prosesləri daha aktiv şəkildə formalaşdırmaq və təsir etmək siyasətini davam etdirdi. Qəddafiyə qarşı üsyan hərəkatlarını dəstəklədi. İngiltərənin Liviyadakı mövqeyinin dəyişməsində ölkənin strateji əhəmiyyətindən qaynaqlanan rəqabətin şiddətlənməsi də təsirli oldu. Fransanın regional və qlobal miqyasda artırmağa çalışdığı gücü tarazlamağa çalışan İngiltərə hərbi əməliyyatla yeni təsir dairəsi yaratmağa çalışdı. Fransa ilə əməkdaşlıq çərçivəsində BMT Təhlükəsizlik Şurasına təqdim etdiyi uçuşa qadağa zonası təklifinin bəyənilməsində əsas rol oynayan İngiltərə qərarın həyata keçirilməsindən hərbi müdaxiləyə qədər çox fəal siyasət yürüdürdü. İngiltərənin Liviya müxalifətinə verdiyi maliyyə və hərbi dəstək də, Liviyada Qəddafi rejiminin sona çatmasında mühüm rol oynayıb. Tunis və Misir inqilablarından sonra Körfəz dövlətlərinə səfər edən Baş nazir Devid Kameron, silah tacirlərindən ibarət bir iş heyətini də özü ilə apararaq, müdafiə müqavilələri imzaladı.

Fransa Liviyada Müəmmər Qəddafi, Suriyada Hafiz Əsəd, İraqda Səddam Hüseyn kimi avtoritar dövlət başçıları ilə qurduğu yaxın münasibətlərə görə, uzun illər "ərəbpərəst" olaraq xarakterizə edilən xarici

[1] *British foreign policy and the Arab Spring, Second Report of Session 2012-13, // - London: House of Commons Foreign Affairs Committee, -2012, – p.45.*

siyasət yürütmüşdür. Bununla da, Fransa liderləri, diktatorluq tərəfdarı diplomatiyaları ilə məşhurlaşdılar. Fransanın Ərəb dövlətləri ilə siyasətində digər Avropa dövlətləri ilə oxşarlıqlar, ticarət yönümlü, iqtisadi və siyasi maraqlarını qoruyan avtoritar rejimləri dəstəkləmək, bölgədə İslami hərəkatların qarşısını almaq kimi ümumiləşdirilə bilər[1]. Olduqca praqmatik xarici siyasət aparan Sarkozi, Körfəz dövlətləri, xüsusilə də Səudiyyə Ərəbistanı ilə əlaqələri artırdı. Fransa 2010-cu ildə Aİ dövlətləri arasında iki milyard avroluq silah satışı ilə Səudiyyə Ərəbistanına ən böyük silah tədarükçüsü olmuşdur[2]. Şimali Afrika dövlətləri ilə əlaqələri dərinləşdirən Fransa, xüsusən Liviya ilə imzaladığı neft müqavilələriylə gündəmə gəldi. Fransanın regional siyasətində zaman-zaman insan haqları və demokratiya vurğulansa da, dövlətin ritorikası ilə praktikası arasındakı uçurum genişlənməkdə davam edirdi.

Fransa 2010-cu ilin dekabrında Tunisdə başlayan etirazların daha tez yatırılacağını düşünərək, Tunis rejimini dəstəklədi. Fransanın xarici işlər naziri Mişel Alliot Mari, Fransanın etirazları yatırmaq üçün Tunis rejiminə polis dəstəyi verə biləcəyini açıqladı[3]. Sarkozi Tunis rejiminin etirazları yatırtması qarşısında Fransanın susqunluğunu müdafiə edərək dövlətinin keçmiş müstəmləkəsinin daxili işlərinə qarışa bilməyəcəyini bildirdi[4].

Tunis və Misirdə Ben Əli və Mübarək hökumətlərinin qısa müddətdə devrilməsindən sonra, prosesin uzanacağını anlayan Fransa əvvəlki dövrlərdə izlədiyi xarici siyasətə görə özünü tənqid edərək, dəyişiklik siqnalı verməyə başladı. Ben Əli rejimi ilə iqtisadi əlaqələri olan Fransanın xarici işlər naziri Mişel Alliot reaksiyalar nəticəsində istefa verməli oldu. Alliotun istefasından sonra, xarici işlər naziri vəzifəsinə təyin edilən Alen Jüppe, Fransanın Ərəb millətinin demokratiya

---

*[1] Küçükkeleş, M. AB'nin Ortadoğu Politikası ve Arap Baharına Bakışı // SETA Analiz, - İstanbul: -2013, (63), - s.18.*
*[2] Mikail, B. France and The Arab Spring: an opportunistic quest for influence. // Fride publication, - Madrid: - 2011, №110, - p.2-12.*
*[3] Ulutaş,U., Torlak,F. Devrimden Demokrasiye Tunus'un Seçimi// Siyaset, Ekonomi ve Toplum Araştırmaları Vakfı, - İstanbul:-2011, №46, - 24 s.*
*[4] Chrisafis, A. Göst. əsəri.*

tələblərinə məhəl qoymamasını, səhv addım olduğunu bildirdi[1]. Lakin bu simvolik addımlar, Fransanın bölgədəki diktator tərəfdarı imicini düzəltməyə kifayət etmədi. Fransa Aİ-nın Liviyaya qarşı sanksiyalar tətbiq etməsinə rəhbərlik etdi. Tunis və Misirdəki prosesləri kənardan izləmək məcburiyyətində qalan Fransa Liviyada başlayan üsyan hərəkatında, BMT Təhlükəsizlik Şurasının, uçuşa qadağan zonası ilə bağlı qərarına dəstək olaraq, Qəddafi rejimini devirən hərbi müdaxilədə fəal rol oynadı[2]. Liviyadakı böhrana dərhal reaksiya verən Fransa, Suriyada Əsəd rejiminə qarşı, yalnız diplomatik tədbirlər görməklə kifayətləndi. Fransa Tunis, Misir və Liviyadakı kimi islami birləşmələrin hakimiyyətə gəlməsi ehtimalından narahat idi. Digər tərəfdən, Fransa Bəhreyndə də, etiraz nümayişlərinin yatırılmasına heç bir reaksiya vermədi. O, Mərakeş və Əlcəzairdəki məhdud islahatları yüksək qiymətləndirdi[3].

Ərəb baharının başlamasından sonra, 2011-ci ilin mayında Fransanın rəhbərlik etdiyi G8 Zirvə toplantısında, Yaxın Şərqdə demokratik transformasiya üçün, regionda sabitlik, iş yerlərinin yaradılması, iqtisadi idarəetmə və sərhədlərarası inteqrasiya müəyyən olundu[4]. 2012-ci ildə prezident seçilən Fransua Olland region dövlətlərində, xüsusən də Misir və Tunisdə siyasətdə, fəal tərəfdaşlarla münasibətləri bərpa etməli olub[5]. 2015-ci ildə, Olland iqtisadiyyat, təhlükəsizlik və terrorla mübarizə sahələrində, Tunislə əməkdaşlığın davam etdiriləcəyini bəyan edib. Tunisə ən çox investisiya yatıran dövlətlərdən biri olan Fransanın 1300 şirkəti Tunisdə fəaliyyət göstərir. 2015-ci ilin yanvarında Olland Liviyanın cənubuna silah axınının qarşısını almaq üçün silahlı qruplara qarşı, hava hücumu keçirməyə hazır olduğunu

---

*[1] Beylau, P. Göst. əsəri.*
*[2] Erlanger, S. France and Britain Lead Military Push on Libya : [Electron recource] / The New York Times, 18 March, 2011.*
*[3] Sarkozy backs Moroccan political reforms : [Electron recource] / Arab World, September 30, 2011. URL: https://en.trend.az/world/arab/1938543.html*
*[4] Mikail, B. Göst. əsəri, - s.6.*
*[5] Pierini, M. President François Hollande on the Foreign Policy Front // - Turkish Policy Quarterly, - Ankara: - 2012, 11(1), - p.73-77.*

bəyan edib. Lakin bu müdaxiləni təkbaşına edə bilməyəcəyini və beynəlxalq ictimaiyyətin məsuliyyət daşıması lazım olduğunu bildirib.

Digər Avropa dövlətləri ilə müqayisədə Fransanın Yaxın Şərq bölgəsi ilə tarixi və siyasi keçmişi olmamasına baxmayaraq, İngiltərə kimi müstəmləkə keçmişinə malik olduğu müşahidə edilir. Fransanın Ərəb Baharına qarşı siyasəti isə gözlənilməz və ardıcıl olmayan şəkildə qiymətləndirilə bilər. Hadisələrə ilkin olaraq hazırlıqsız yanaşması və fərqli dövlətlərə qarşı müxtəlif siyasət yürütməsi bu qənaəti gücləndirir[1]. Valtzın "Tiranın alternativi xaosdursa və xaos hamının hamıya qarşı müharibəsi deməkdirsə, o zaman istibdadın davam etməsini istəmək başa düşüləndir" ifadəsi uzun illər boyunca həm Fransanın, həm də digər Avropa dövlətlərinin Yaxın Şərq regionuna yanaşmalarını xarakterizə edən mövqeyin ifadəsidir[2].

XXI əsrdən etibarən, hökumət böhranları yaşayan bir dövlət olaraq İtaliya həm Avropa Birliyinin, həm də beynəlxalq siyasətin gündəmindədir. Bu böhranlar bir tərəfdən hökuməti formalaşdıra bilməməsi, digər tərəfdən isə hökumətlərin qısamüddətli fəaliyyət müddəti ilə bağlıdır. Siyasi parçalanma, İtaliyanın siyasi birliyə nail olmaması, Ərəb baharı dövründə də öz aydın əksini tapdı. İtaliya əsasən, Yaxın Şərqdə baş verən hadisələrə AB daxilində qoşulmuşdur. İtaliyada siyasi birlik sahəsində birliyin dəqiq tərifinə rast gəlmək mümkün deyil. Burada xarici faktorlardan başqa, daxili siyasətdə mövcud olan, lakin görünməyən, göstərilməyən ölçü önəmlidir. Bu ölçü korrupsiya və mafiya başlıqları altında qiymətləndirildikdə, böhranın ölçüsü aydın olur. İtaliyada 2008-ci ildən bəri Berluskoninin baş nazirliyi dövrü, səlahiyyət müddəti baxımından ən uzun müddətdir. İtaliya xarici siyasətdə, Aİ çərçivəsində bəzi meyarlar tətbiq etsə də, başqa dövlətlərə, xüsusilə də Yaxın Şərqə gəldikdə, bunlara məhəl qoyulmamışdır. Di-

---

[1] *Aras, İ. Fransa'nın Arap Baharı Politikası // - Sakarya Üniversitesi: Türkiye Ortadoğu Çalışmaları Dergisi, - 2017, 4 (2), s.138.*

[2] *Waltz, K.N. İnsan, Devlet ve Savaş: Teorik Bir Analiz / -Ankara: Asil Yayın Dağıtım, -2009, - s.24.*

gər tərəfdən, İtaliya da Səudiyyə Ərəbistanına ən böyük silah tədarükçülərindən biri kimi önə çıxır. Burada məsələnin müstəqil siyasət yürütmək olduğu anlaşılır. Başqa sözlə, əgər bir ölkəyə ixrac edib o ölkədən pul qazana bilirsinizsə, Aİ dəyərləri deyilən şeylər arxa plana keçə bilər. İtaliyanın Yaxın Şərqdəki üsyanlara münasibəti, təhlükəsizlik və kommersiya maraqları nəzərə alınmaqla, Aİ-nın qərarları əsasında həyata keçirilirdi. Bu dövrdə Aİ çoxtərəfli əməkdaşlığa deyil, region dövlətləri ilə ikitərəfli sazişlərə üstünlük verirdi. İmzalanan bu sazişlərin əsas məqsədi, hədəf olan ölkələrdə sosial transformasiyanın İttifaqın istədiyi kimi getməsini təmin etmək idi. Ərəb üsyanları zamanı dəyişiklik istəyən üsyançıların, Aİ-dan gözlədikləri dəstəklə faktiki dəstək arasındakı böyük fərq, onların nəzərində İttifaqın normativ lider olmaq iddiasını azaltmışdır. 2011-ci ildə Ərəb baharına ilk rəsmi reaksiyaların başladığı dövrdən sonra, yüksək prinsiplərə əsaslanıb verilən vədlər ilə reallıqda verilən imkanlar arasında böyük fərqlər var idi. Danışıqlar səviyyəsində İtaliyanın insan hüquqlarının universallığına və bölünməzliyinə sadiqliyi ifadə edilsə də, sosial və iqtisadi məsələlərə daha kompleks yanaşmaya ehtiyac olduğu görünür.

Qərb dünyasında "çaxnaşma" mühiti yaradan Ərəb baharı, bir tərəfdən regionda demokratiyanın yaranmasını arzu etdirsə də, əsasən bölgədəki diktatorları devirmək məqsədi daşıyan ictimai hərəkat olması baxımından, Qərbin nəzərindən qaçmaya bilməzdi. Digər tərəfdən, Qərb cəmiyyəti Yaxın Şərqdə müsəlmanların demokratiya adı ilə hakimiyyətə gəlməsini həvəslə qarşılaya bilməzdi. Bu baxımdan, Denisonun da dediyi kimi "*problem budur: əgər biz bir xalqı azad etsək, demokratik seçkilər keçirə bilsək, onu dövrün ən mütəşəkkil qüvvələrinin qurbanına çevirə bilərik*"[1]. Digər tərəfdən, Ərəb baharı hadisələri zamanı və sonrasında Qərbin tərəfsiz qalması da mümkün görünmürdü. Kimel bunu belə ifadə edir: "*İnqilablar bizim tərəf tutmağımızı, özümüzü siyasi mövqeyə bağlamağımızı istəyir. İnqilab zamanı bitərəf qalmaq çətindir... Böyük sənaye güclərinin dəstəyi və ya ən azından*

---

[1] *Daniel, N. Göst. əsəri, - s.262.*

*mövcud rejimdən geri çəkilmələri tarixən XX əsrdə inqilabların uğurunda mərkəzi rol oynamışdır. Ona görə də biz özümüz inqilabi cəmiyyətdə yaşamasaq da, inqilabçılar bizdən mənəvi və siyasi tələblər irəli sürəcəklər*"[1]. Bu vəziyyətdə Qərbin Ərəb baharına qarşı münasibəti, İslamçı kadrların hakimiyyətə gəlməsi ehtimalına baxmayaraq, Tunis, Liviya və Misir məsələlərində müsbət görünürdü. Lakin, Qərbin Ərəb baharı zamanı, Tunis, Liviya və Misirə dəstək olması, Hantinqtonun "sivilizasiyaların toqquşması" yanaşmasına zidd olan məsələdir. Tarixə baxdığımız zaman, Qərbin Ərəb dünyasında demokratikləşməni və müsəlman liderlərin hakimiyyətdə olmasını dəstəkləməkdənsə, avtoritar liderləri dəstəkləməyi öz maraqları üçün daha uyğun hesab etdiyi halda, bunun əksini etməyə başlaması, Ərəb baharının Şərqlə yanaşı, həmçinin Qərbində siyasətində dəyişikliyə səbəb olduğunu göstərməkdədir.

Ərəb Baharı hadisələrinin fonunda siyasətdə baş verən dəyişiklik, S.Hantinqton və B.Luis kimi tədqiqatçıların irəli sürdüyü mədəni, əsasçı, şərqşünas və islamofob diskursdan uzaqlaşmağı tələb edir. İslam və müsəlmanlar əvvəllər Qərbin başlıca düşməni və terrorçu kimi təqdim edilirdisə də, ideoloji və siyasi mövqelərinə görə Avropada demokratlar, ABŞ-da isə respublikaçılar müsəlmanları xristianlığın ekvivalenti kimi qiymətləndirməyə başlamışdır.

Ərəb Baharı hadisələrindən sonra yaranan yeni yanaşmaya görə, İslam və müsəlmanların imicini indiyə qədər mənfi göstərən amil, əsasən Ərəb cəmiyyətlərində hakimiyyətdə olan despotik liderlər olmuşdur. Qərbin liderləri, Hüsnü Mübarəkin timsalında, həm xalqın, həm də Qərbin gözündə İslamçıların yanlış təqdim olunduğunu, Qərblə İslamçı hərəkatlar arasında dialoq və yaxınlaşmanın faydalı olacağını vurğulayırlar. Bu kontekstdə, Ərəb Baharının təkcə müsəlman cəmiyyətlərində deyil, həmçinin Qərbdə İslam və müsəlmanlara baxışda dəyişiklik yaratdığını söyləmək mümkündür.

[1] *Pierini, M. Göst. əsəri, - s.73-77.*

ABŞ-da 11 sentyabr terror hücumlarından sonra, xüsusən ABŞ-ın rəhbərliyi altında "Qlobal terrorizmlə mübarizə" adı altında Şərqə yönəldilmiş mübarizənin qarşısında, demoktatik idarəçilik sisteminə malik Yaxın Şərq dövlətləri dayana bilərdi. Bu baxımdan, "fundamentalist" qruplara qarşı despotik liderlərlə əməkdaşlıq daha məqsədə uyğun görünürdü. Xüsusi olaraq, Ərəb dövlətlərində demokratiyanın yaranmasını dəstəkləmək, digər despot idarəçiliyə sahib, Qərbə və Amerikaya düşmən sayıla biləcək dövlətlər (Rusiya, İran, Şimali Koreya) baxımından da mühümdür. Yaxın Şərqdə yeganə qeyri-müsəlman dövləti olan İsrailin təhlükəsizliyi məsələsi də, Qərb tərəfindən Şərqdə demokratiyanın yaranmasını dəstəkləməyə səbəb olan amillərdən sayıla bilər. Lakin Qərbin müsbət yanaşmasına qarşı ABŞ və İsrailin fikrincə, Yaxın Şərqdə hökumət islamçıların əlinə keçərsə, bölgədə anti-İsrail müxalifəti daha da güclənəcək və İsrailin təhlükəsizliyini təmin etmək çətin olacaq. Ancaq Ərəb baharı hadisələrindən sonrakı illərdə izlənilən yeni siyasi diskurs onu deməyə əsas verir ki, ABŞ və İsrail regionda demokratik dəyişiklikləri müsbət amil kimi görməlidir. Puddinqtonun fikrincə "*Ərəb cəmiyyətlərinin demokratikləşməsinin, İsrailə ABŞ və Avropadan daha çox faydası var*"[1]. Müvafiq olaraq, demokratik xalqlar ortaq dəyərlərə və məqsədlərə malik, dostluq, sülh şəraitində yaşamağa daha meyillidirlər, bununla belə İsrail, avtokratik qonşulardansa demokratik şəraitdə olan qonşular ilə, daha təhlükəsiz olacaqdır.

Ərəb Baharının Avropanın aparıcı dövlətlərinin Yaxın Şərq siyasətində İslama və müsəlmanlara qarşı münasibətin dəyişməsindəki nəticələrini şərh edərkən, Qərbin ümumilikdə İslam, islamçılar və Ərəb cəmiyyətlərinə baxışının dəyişdiyini söyləmək mümkündür. Buna görə də, Avropa dövlətlərinin Yaxın Şərq siyasətini və İslama münasibət formasını istiqamətləndirən ritorikanın dəyişməsində Ərəb Baharı hadisələrini mühüm nəticələrdən biri kimi qeyd etmək lazımdır.

[1] *Anderson, L. Demystifying the Arab Spring- Parsing the Differences Between Tunisia, Egypt and Libya, – p.2-7.*

11 sentyabr terror hücumlarının nəticəsində müsəlmanlara qarşı formalaşan "terrorist" etiketinin tam şəkildə aradan qalxmadığı müşahidə edilirsə də, digər tərəfdən Qərbin rəhbər idarəçiləri və ictimaiyyətində İslam və müsəlman cəmiyyətlərinə qarşı müsbət imic formalaşmağa başlamışdır. Bununla belə, amerikalı jurnalist H. Sürorun da qeyd etdiyi kimi, Qərbin gözündə müsəlman və Ərəb cəmiyyətlərinə qarşı formalaşan müsbət imicin qalıcı və səmimi yanaşma olub-olmadığını zaman göstərəcək, yoxsa bu, yalnız müvəqqəti "siyasi göstəriş" olaraq qalacaqdır.

Beləliklə, Ərəb Baharının Yaxın Şərq dövlətlərinə və müsəlman-Ərəb cəmiyyətlərinə təsirlərini şərh edərkən, Qərb dövlətlərinin işğalı nəticəsində dağıdılmış İslam cəmiyyətlərində – xüsusilə İraq və Əfqanıstanda – xalqların özünə inam və güvən hisslərinin bərpası və inkişaf etdirilməsi prosesində hadisələrin mühüm rol oynaya biləcəyi qeyd olunmalıdır. Eyni zamanda, terror təşkilatları (İŞİD, Əl-Qaidə və s.) tərəfindən nümayiş etdirilən zorakılığa əsaslanan siyasi mövqenin müsəlmanlar və Ərəb cəmiyyətləri üçün nəinki faydalı, həm də uzunmüddətli perspektivdə təsirli olmadığı qəbul edilməlidir.

Ərəb Baharının nəticələri əgər düzgün şəkildə analiz edilərsə və demokratiya, azadlıq və hüquqlar kimi prinsiplər Ərəb cəmiyyətlərində sistemli şəkildə inkişaf etdirilərsə, Qərbin bəzən riyakar xarakter daşıyan siyasətinə baxmayaraq, bu proses Yaxın Şərq regionunda və ümumilikdə İslam aləmində yeni demokratiya və azadlıq konsepsiyasının formalaşmasına töhfə verə bilər. Nəticə etibarilə, Ərəb Baharı həm regional, həm də qlobal səviyyədə siyasi, sosial və ideoloji dəyişikliklərə stimul yaratmış, müsəlman-Ərəb cəmiyyətlərinin öz daxili potensiallarını bərpa etməsinə şərait yaratmışdır.

# NƏTİCƏ

İctimai hərəkatlar, əsasən sosial həyatdan qaynaqlanan və onun problemləri ətrafında formalaşan proseslərdir. Yaxın Şərqdəki hərəkatlar da daxil olmaqla, insan amilinin ön plana çıxdığı hallarda təhlildə qlobal, tarixi, intellektual, iqtisadi, siyasi, dini və sosial dəyişənlərin nəzərə alınması vacibdir. İctimai hərəkatların yaranmasının əsas səbəbləri kimi işsizlik, yoxsulluq, korrupsiya, siyasi təzyiq və fərdlərin əsas hüquq və azadlıqlarından məhrum edilməsi göstərilir. Hərəkatlar çox vaxt sosial iğtişaşların mənbəyi kimi çıxış etsə də, bəzi hallarda hadisələrin təbii nəticəsi olaraq ortaya çıxa bilirlər. XXI əsrdə Yaxın Şərqdə baş qaldıran xalq hərəkatları, Ərəb dövlətlərinin sosial-iqtisadi tələbləri nəticəsində, sülh və stabillikdən məhrum olmuş əhali tərəfindən formalaşmışdır. Qlobal və regional güclərin təsiri altında inkişaf edən bu proseslərin nəticəsi olaraq bölgədə siyasi və sosial-iqtisadi vəziyyət daha da qeyri-sabit xarakter almışdır. İctimai hərəkatlar və Ərəb baharı kontekstində Orta Şərqdə baş verən hadisələr, eyni məqsəd uğrunda birgə hərəkət edən insanların həmrəyliyi və kollektiv müqavimət psixologiyası ilə güclənmişdir. Siyasi narazılıqların daha çox olduğu ərazilərdə, sistemin tətbiqinə etiraz edən kütlələrin küçələrə çıxması, yaranan qrupların kollektiv davranışları və hökumətlər üzərində təsir mexanizmlərinin tətbiqi müşahidə edilmişdir. Nəticədə, Ərəb xalqı gündəlik həyatın axarına təsir edən sosial problemləri həll etmək və ortaq oyanış yaratmaq baxımından əsas rol oynamışdır.

Ərəb baharı zamanı, küçə hərəkatının iştirakçıları əsasən şəhər və orta təbəqədən olan zəhmətkeşlərdən ibarət idi. Ona görə də bu hərəkatları, keçmişdə baş verən klassik hərəkatlardan ayırmaq olar. Bundan əlavə, Ərəb baharı iştirakçılarının, fərqliliklərin tanınması tələbi də, ictimai hərəkatın ən müəyyənedici xüsusiyyətləri arasında ifadə edilmişdir. Çünki xalqının səsini eşitməyən hakimiyyətin varlığı, bu cür üsyanların istiqamətini və şiddətini müəyyən edir. Nəticə olaraq, hakimiyyətə qarşı üsyanlarda birbaşa idarəçiliyə qarşı çıxmaqdansa,

sistemin yaratdığı bərabərsizliklərə diqqət çəkərək həll yolu tapmağa çalışılır.

Ərəb baharını yeni ictimai hərəkatlar kontekstində qiymətləndirəndə iştirakçıların orta təbəqədən olan qadın və gənclərdən ibarət olması, təhsil, mədəniyyət, fərqliliklərin tanınması, gender və azlıqların hüquqları kimi sahələrdə mübarizəsi görünür. Bundan əlavə, bir-birlərini məlumatlandırmaq üçün sosial media vasitələrindən istifadə etmələri, yeni ictimai hərəkatların müəyyənedici xüsusiyyətləri ilə üst-üstə düşür. Ərəb baharının mənşəyini, səbəblərini, prosesini, təsirlərini və nəticələrini dövlətlərə görə fərqli şəkildə qiymətləndirəndə, xüsusilə Tunisdə, işsiz universitet gənclərinin, gənc və qadın kütlənin üsyana rəhbərlik etməsi, idarədəki insanların xalqa göz yumması, Ərəb baharı prosesinin məhz Tunisdən başlamasına səbəb oldu. Liviyadakı neft ehtiyatlarının gəlirlərinin Qəddafi və ailəsinin əlinə keçməsi kimi bir çox faktların bilinməsi, xalqın özünü idarə edən zalım rejimlərə qarşı yanlış idarə olunması və oyanması, liviyalıları da daha çox müqavimət göstərməyə məcbur etdi. İnternet vasitəsilə bir araya gələrək təşkilatlanan Misir xalqı, sosial mediada bir araya gələrək, Mübarəkin taxtdan endirilməsi tələbiylə, hadisələrin başlanmasına səbəb oldular. Eyni zamanda Liviya, Bəhreyn, Yəmən, Suriya kimi Ərəb dövlətləri də, Ərəb baharı prosesindən faydalanmaq istəyib, çox fərqli nəticələrlə qarşılaşdılar. 2011-ci ildə, Ərəb baharının dayaq nöqtəsi olan və xalq hərəkatları ilə vətəndaş müharibəsinə çevrilən Suriya böhranı, yarım milyona yaxın insanın öldüyü, on minlərlə insanın yaralandığı, yüz minlərlə insanın müharibənin dağıdıcı nəticələri ilə mübarizə apardığı, Ərəb baharı və XXI əsrin ən böyük siyasi sınağı olmuşdur. Ərəb baharı hadisələri ilə, xalqın suverenliyinin məhdudlaşdırıla bilməyəcəyi açıq şəkildə vurğulanırdı.

Ərəb dünyasında baş verən dəyişikliyin ən mühüm nəticələrindən biri də, Bir çox Yaxın Şərq dövlətlərində təkpartiyalı siyasi quruluşun çoxpartiyalı quruluşa çevrilməyə başladığı görüldü. Qloballaşma və Ərəb baharı arasındakı əlaqə, regionunun sürətli dəyişikliklər və transformasiyalar yaşadığı zaman baş verirdi. Qloballaşma region

xalqlarını onun reallığını qəbul etməyə məcbur edirdi ki, kütləvi informasiya vasitələrindən istifadə, rəhbərlikdə olanları devirmək üçün, üsyanları sürətləndirmiş və asanlaşdırmışdır.

Yarandığı gündən bəri bir çox mühüm dəyişikliklərə məruz qalan, zamandan, zəmindən, siyasi şəraitdən, anlayış tərzindən asılı olaraq müxtəlif düşüncələr, cərəyanlar şəklində ifadə olunmağa çalışılan islamçılıq, müasir bir ideologiyadır. Geniş mənada tərif edilməyə çalışılarsa, islamçılıq həyatın bütün sahələrini İslam qaydalarına uyğun tənzimləmək və yaşamaq tələbidir. Demokratiya islamçılara, xüsusən də çevrilişdən sonrakı dövrdə zülmə tab gətirmək üçün sığınacaq rolunu oynadı. İslamçıların demokratiya ilə əlaqəsini nəzərə alsaq, onun İslam dünyasının qalan hissəsində sistemlə əlaqələr çərçivəsində ortaya çıxdığını iddia etmək olar. Tarixi prosesdə islamçılıq və demokratiyanın əlaqəsi, həm İslamın, həm də demokratiyanın dərk edilməsidir ki, bu da İslam və demokratiyanın uyğunluğunun tərifinə təsir edən amildir. Müxaliflər həm İslamın, həm də demokratiyanın vahid tərifinin olmadığını, bir-birinə müxtəlif şərhlər ilə uyğunlaşdıra biləcəyini iddia edirlər. İslamçılıq və demokratiya uyğunluq müzakirələrində, islamçılar demokratikləşmə mühitində güc qazanmış, antidemokratik mühitlərdə ciddi təzyiq və təqiblərə məruz qalmışlar. Bu mənada, İslam dövlətlərində əsas problem demokratiyanın mövcudluğu deyil, yoxluğudur deyə bilərik.

İslam demokratiyasının bərqərar olması üçün, İslam anlayışlarının yenidən şərh edilməsi lazım gəlirdi. Bu çərçivədə, İslam demokratiyasının qurulması üçün lazım olan anlayış və qurumların yaradılması, şura üzvlərinin seçilməsi, necə qurulacağı problemi gündəmə gəlirdi. Multikultural cəmiyyətin mövcudluğu faktı nəzərə alınaraq, hər hansı bir qurum yaradılacaqsa və bunun demokratik üsulla həyata keçiriləcəyi güman edilirsə, o zaman cəmiyyətin bu multikultural reallığını nəzərə almaq və bütün təbəqələrinin iştirak edə bildiyi mexanizmin yaradılmasına ehtiyac duyulurdu. Bir sıra tədqiqatlarda İslam siyasi düşüncəsində yer alan şura, icma və içtihad kimi məfhumların müasir demokratik institutlarla uyğunluq baxımından yenidən şərh

edilməsinin zəruriliyi vurğulanır. Bununla belə, İslama və demokratiyaya yönəlmiş maarifləndirici yanaşmalar tədqiqatçılar tərəfindən İslam dünyasında mövcud problemləri təhlil etmək və onları anlamağa kömək etmək vasitəsi kimi qiymətləndirilir.

Qərbdə formalaşan demokratiya və vətəndaş cəmiyyəti anlayışlarının İslam dininin mahiyyəti ilə uyğunluğu, habelə İslamda bu anlayışların mövcud olub-olmaması barədə müzakirələr davam etmişdir. İslamda vətəndaş cəmiyyəti və demokratik prinsiplərin varlığını müdafiə edən tədqiqatlar, bu anlayışların yalnız qərb mədəniyyətinə aid olduğunu iddia edən yanaşmaları tənqid edir. Digər tərəfdən, İslamda demokratiya və vətəndaş cəmiyyətinin mövcud olmadığını irəli sürən müzakirələr, bu prinsiplərin müsəlman cəmiyyətlərində tarixi və mədəni əsaslarının olmadığını vurğulayır. Belə yanaşmalar, qərb mənşəli konseptlərə mənfi məna yükləyərək, onların İslamın əsas prinsipləri və qaydaları ilə tamamilə zidd olduğunu iddia edirlər.

Yaxın Şərq dövlətlərində əhalinin küçələrə çıxaraq tələblərini birbaşa beynəlxalq ictimaiyyətə çatdırması, Avropa dövlətləri üçün ciddi bir siqnala çevrilmişdir. Qərb dövlətləri təhlükəli hesab etdikləri qrupların hakimiyyətə gəlməsinin qarşısını almaq məqsədilə, post-hökumət dövründə bu qruplarla yeni siyasi ittifaqlar formalaşdırmaq məcburiyyətində qalmışdır. Ərəb baharının baş verdiyi dövlətlərdə liberal və islamçı çevrələr partiyalar və ittifaqlar yaradaraq seçkilərə hazırlıq görmüşdür. Avropa dövlətlərinin narahatlığı isə İslam modelləri əsasında formalaşan rejimlərin və bu rejimlərlə əməkdaşlıq imkanlarının idarə edilməsinin çətinliyindən qaynaqlanırdı. İslam təfəkkürü Qərb siyasətinin mövcud yanaşmalarına uyğun gəlmədiyi üçün hadisələrin gedişatı zamanı yeni siyasi strategiyalar inkişaf etdirmələri zəruri olmuşdur. Əks halda Yaxın Şərqdə sabitlik təmin edilməyəcək, süni müdaxilələrdən çəkinərək plüralist quruluşların güclənməsinə dəstək vermək mümkün olmayacaqdı. Demokratik siyasi tendensiyaları qorumaqla yanaşı sabit, xalqla barışıq və dini dəyərlərə əsaslanan hökumət modelləri Yaxın Şərqin ehtiyaclarını Qərb siyasətinə nümayiş etdirməlidir.

Beləliklə, Ərəb baharının başlaması, Aİ-nın strategiyasını və tərəfdaşlıqlarını yenidən nəzərdən keçirməyə məcbur etdi. Daha çox qarşılıqlı hesabata və hərtərəfli azad ticarət zonasına əsaslanan yeni tərəfdaşlıq prinsiplərinə üstünlük verildi. Demokratiyanı dəstəkləmək, insan həyatının təhlükəsizliyini birinci yerə qoymaq, etibarlı tərəfdaş imicini təbliğ etmək, qeyri-ənənəvi səsləri dinləmək deməkdir. Avropa dövlətlərinin Ərəb baharına yanaşması, ümumi təhlükəsizlik üçün problem təşkil edirdi və Yaxın Şərqə münasibətində sələflərindən heç də geri qalmırdı. Aİ çərçivəsində bölgədəki avtokratik rejimlərlə münasibətlərində keçmiş səhvlərini və ikili standartlarını açıq şəkildə etiraf etsələr də, paradiqma dəyişikliyi baş vermədi. Təhlükəsizlik problemləri, o cümlədən miqrasiya məsələləri Aİ-nın Ərəb qonşuları üçün gündəmin başında gəlirdi. Buna görə də, İttifaqın maraqlarını və regionun necə inkişaf edəcəyinə dair baxışını əks etdirirdi. Bu vəziyyət, İttifaqın dünyaya baxışı ilə proqnozlaşdırılsa da, nəticədə, öz təhlükəsizliyini qorumaq üçün, ətraf mühitə təsir etməyə çalışan xarici siyasət kimi ortaya çıxırdı. Beləliklə, regionda maraqların toqquşduğu, ziddiyyətlərlə dolu, strateji baxış formalaşdı. Böyük Yaxın Şərq Layihəsinin ortaya çıxması ilə region dövlətlərinə demokratiyanın gətiriləcəyi və bunun bütün bölgə xalqları üçün faydalı olacağı fikri əvvəlcə qismən dəstək tapsa da, daha sonrakı prosesdə məqsədin bu olmadığı aydın göründü. Böyük Yaxın Şərq layihəsi və ya Ərəb baharı Qərb dövlətlərinin regionda öz məqsədlərini reallaşdırmaq üçün milyonlarla insanın həyatını təhlükəyə atdığı bir proses kimi tarix səhnəsində öz yerini tutdu. Yaxın Şərq bölgəsində yaşayan insanların hüquq və azadlıqlarına qovuşacağını iddia edən layihə böyük məyusluqdan başqa bir şey deyildi.

Nəticə etibarilə, Yaxın Şərq hadisələri Avropa ölkələrinin qonşuluq siyasətinə diqqətini artırmışdır. Regiona dərin inteqrasiya, iqtisadi əməkdaşlıq, sosial və iqtisadi inkişafın təşviqi, məşğulluğun dəstəklənməsi, vətəndaş cəmiyyəti dialoqunun genişləndirilməsi və maliyyə yardımı Avropa siyasətinin əsas dinamikalarını təşkil etmişdir.

Yaxın Şərq və Şimali Afrika həmişə siyasi, iqtisadi və strateji səbəblərdən Avropa üçün mühüm region olmuşdur. Bölgədəki qeyri-sabitlik və münaqişələr Avropanın diqqətlə izlədiyi, bəzən isə müdaxilə etdiyi situasiyaları ortaya çıxarmışdır. Enerji təhlükəsizliyi, miqrasiya və digər geosiyasi faktorlar isə regionun potensial imkanlarını və risklərini Avropa gündəminə daşımışdır. Milli səviyyədə ən əhəmiyyətli inkişaf ondan ibarət olmuşdur ki, köhnə rejimlər tədricən ləğv edilmiş və onların yerinə xalqların tələblərini nəzərə alan yeni hökumətlər qurulmuşdur. Ərəb baharı prosesi çərçivəsində Yaxın Şərq coğrafiyası ilk dəfə olaraq rejim istiqamətində dərin və sürətli dəyişiklik yaşamışdır. Böyük dəyişikliklərin dərhal baş verməsi gözlənilməsə də, despotik iqtidar və antidemokratik nizamın indiyə qədərki rejimlərdəki kimi davam etməyəcəyi aydın olmuşdur.

Ərəb baharı prosesinin baş verdiyi coğrafiyalarda, islamçı hərəkatların siyasi təsirini nəzərə alaraq, anti-İslam diskursunun Avropa dövlətlərinin siyasət gündəmində önəmli bir mövzu olması qaçılmaz idi. Avropa mediası müsəlmanları terrorçu kimi təqdim etməkdən çəkinməyərək, bunu daha çox təkrarlanan açar sözlər, ekstremist görüntülər və subliminal təbliğat vasitəsilə həyata keçirirdi. Dövlətlərin mediaya verdiyi dəstək isə İslamofobiyanın geniş kütlələrə yayılmasını sürətləndirmişdir. Eyni zamanda, Ərəb baharı qlobal siyasət kontekstində mürəkkəb və çoxşaxəli münasibətlər şəbəkəsinin bir hissəsi kimi ortaya çıxdı; terror aktlarının bəzi hallarda əsl məqsədinin terrorla mübarizə deyil, regiondakı yeraltı sərvətlər üzərində nəzarət və maraqların təmin edilməsi olduğu müşahidə olunmuşdur. Qloballaşma, sivilizasiyaların toqquşması, 11 sentyabr 2001-ci il terror hücumları, İslamofobiya, Böyük Yaxın Şərq layihəsi və onun genişləndirilmiş variantı kimi Ərəb baharı, Avropanın Yaxın Şərq siyasətində eyni strateji məqsədlərə xidmət edən əlaqəli proseslər olaraq qiymətləndirilə bilər. Nəticə etibarilə, Ərəb baharı hadisələrinin üzərindən on ildən artıq zaman keçməsinə baxmayaraq, bu xalq hərəkatları və onların nəticələri regionun yalnız keçmiş təcrübəsi kimi deyil, həm də gələcək siyasi strategiyaların və güc dinamikalarının əsas tezisi kimi qəbul edilməlidir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

Abbasov, T. XX əsrin sonu - XXI əsrin əvvəllərində ABŞ-ın Yaxın Şərq siyasətinin prioritetləri. - Bakı, - 2020, - 174 s.

Abbasov, T. Böyük Yaxın Şərqin "demokratikləşməsi"nin nəticələri: Vaşinqtondan baxış. - Bakı, - 2020, - 326 s.

Allahverdiyeva, F. Alman İslam Anlayişinin Nəzəri-Tarixi Aspektləri . // - Bakı Universitetinin Xəbərləri: -Humanitar Elmlər seriyası, - 2023, №1, - s. 162-171.

Bağırova, A. İraqın xarici siyasəti Beynəlxalq münasibətlər kontekstində (1970-2010-cu illər): / tarix ezrə elmlər doktoru dis. avtoreferatı. / – Bakı, 2010. – 52 s.

Bağırova, A. "İraqın xarici siyasəti (1968-2003)" / – Bakı: Adiloğlu, – 2003, – 500 s.

Bağırova, A. Ərəb baharı: Gözləntilər və reallıqlar. / – Bakı: Heroqlif, – 2007. – 168 s.

Baxışov, M.Ə. Amerika Birləşmiş Ştatlarının xarici siyasəti (1776-2016). / – Bakı: ATU-nun mətbəəsi, -2017, -186 s.

Baxışov, M.Ə. İtaliyanın yeni və müasir tarixi. / – Bakı: 3 saylı Bakı Mətbəəsi ASC, -2018, -s.119.

Baxışov, M.Ə. Fransanın yeni tarixi dərs vəsaiti, Bakı: Şirvannəşr, 2013.-100 s.

Baxışov, M.Ə. Almaniyanın yeni tarixi. Dərs vəsaiti. / – Bakı: Şirvannəşr, 2008.- 104 s.

Baxışov M.Ə. Almaniyanın yeni və müasir tarixi. Dərs vəsaiti. / - Bakı: AzTU, 2014, -149 s.

Əlisgəndərli, C. Ərəb baharı: Geosiyasi və geoiqtisadi maraqların qarşılıqlı təsiri / – Bakı: Tarix və onun problemləri. – 2014. №1, – s.263-272.

Əlisgəndərli, C. Ərəb baharı (Analitik baxış). "Ərəb baharı" kontekstində Türkiyə və İran, / – Bakı: Tarix və onun problemləri. – 2013. №4, – s.161-169.

İsmayılov, M. Sivilizasiya Konsepsiyasına Qlobal Baxış: Dünya Nizamının Yenidən Qurulması // Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsi: - İctimai və humanitar elmlər , - 2025, №2 (12), - s. 128-132.

İsmayılov, R. Axundova, N., Bağırova, A., Ərəb ölkələrinin çağdaş tarixi: I hissə: Asiyanın ərəb ölkələri, / – Bakı: Xəzər Universiteti nəşriyyatı, – 2013. – 400 s.

Məmmədli, H. Bir daha "Ərəb baharı" haqqında. / : [Elektron resurs] / New-Times, Anatical İnformation, - Dekabr 12, 2012. URL: http://newtimes.az/az/relations/1188

Orucova, T. Qərbi Avropada multikulturalizm və islamofobiyanın qarşılıqlı əlaqəsi. / [Elektron resurs] Geostrategiya, -Aprel 4, 2021. URL: https://www.geostrategiya.az/news.php?id=144

Ruintən, S., Əlisgəndərli, C. Türkiyə və İran İslam Respublikası arasında münasibətlərə təsir edən amillər // Bakı: Tarix və onun problemləri. – 2013. №3, - s.97-109.

Ruintən, S. Türkiyə Cümhuriyyətinin xarici siyasəti (konsepsiya məsələləri) // Bakı: Tarix və onun problemləri. - 2015, №2, s.198-216.

Soltanova, H., Məmmədov, C; rəyç. Ç.N.İsmayılov, N.Paşayev. "Yaxın və Orta Şərq ölkələrinin iqtisadi və sosial coğrafiyası", / – Bakı: Bakı Universiteti, -2008. -303s.

Yaqublu, N. Yaxın Şərqdə demokratiya niyə uğursuzluqla nəticələnir: səbəblər və amillər. : [Elektron resurs] / Geostrategiya, - Dekabr 16, 2020. URL: https://www.geostrategiya.az/news.php?id=109

**Türk dilində**

Açık, E.H. Geçmişten Günümüze Türkiye Fransa İlişkileri / - İstanbul: IQ Kültür Sanat Yayıncılık, -2008, – 672 s.

Ahmad, İ. Demokrasi ve İslam // İslâmi Araştırmalar Dergisi, - Ankara, - 2012, 23(2), - s.79-89.

Akbaş, Z. Düzgün, A.Z., Libya'daki Arap Baharı'na Yönelik Türk dış Politikasına Konstrüktivist Bir Yaklaşım // Ekonomik ve Sosyal Araştırmalar Dergisi, – Bolu: -2012, 8 (2), - s.57-81.

Akdemir, E. 11 Eylül 2001, 11 Mart 2004 ve 7 Temmuz 2005 Terörist Saldırılarının Ardindan İslam'ın Avrupa'da algılanışı // Ankara Avrupa Çalışmaları Dergisi, - Ankara: - 2009, 8(1), - s.1-26.

Aksoy, S. Arap Baharı Sonrasında Avrupa Birliği'nin Akdeniz Politikasi: / Yüksek Lisans tezi / - İstanbul, 2015, - 127 s.

Aktaş, S. Büyük Ortadoğu Projesi ve Arap Baharı / Yüksek Lisans Tezi / - Sivas, 2020, - 133 s.

Aktay, Y. İslamcılığın İktidar Ve Muhalefet Hali, Karşı Devrimler Kuşağında Ortadoğu. [Elektronik Kaynak] - Ağustos 8, 2012. URL: https://www.yenisafak.com/yazarlar/yasin-aktay/islamciligin-iktidar-ve-muhalefet-halleri-33523

Altıntaş, R. Din ve Sekülerleşme / - İstanbul: Pınar Yayınları, -2005, - 200 s.

Altunışık, M. Ortadoğu'da Bölgesel Düzen ve "Arap Baharı. // Ortadoğu Analiz, – İstanbul: -2013, 5 (53), -s 71-78.

Amin, S., Kenz, A.E. Avrupa ve Arap Dünyası, (çev., Ülker, K.) / - İstanbul: Versus Kitap, -2006, - 189 s.

Anderson, B. Hayali Cemaatler. Milliyetçiliğin Kökenleri ve Yayılması, çev. İskender Savaşır / – İstanbul: Metis Yayınları, -2020, - 227 s.

Aras, İ. Fransa'nın Arap Baharı Politikası // Türkiye Ortadoğu Çalışmaları Dergisi, – Sakarya: -2017, 4 (2), - s 135-167.

Ardıç, N. Arap Baharı'nı Anlamak: Adalet, Onur, Din ve Küresel Siyaset // Türk Dış Politikası Yıllığı 2011, – Ankara: - 2012, - s 89-135.

Arı, T. Irak, İran, ABD ve Petrol / – İstanbul: Alfa yayınları, - 2007, - 640 s.

Arı, T. Geçmişten günümüze Orta Doğu Cilt 1 (Siyaset, Savaş ve Diplomasi) / - Bursa: Dora Yayıncılık, - 2017, - 536 s.

Apaydın, H.N. "Fıkhın Kaynakları" (Nass ve İctihad), / – Ankara: Ay Yayıncılık, -2018. - 345 s.

Aras, İ. Fransa'nın Arap Baharı Politikası // - Sakarya Üniversitesi: Türkiye Ortadoğu Çalışmaları Dergisi, - 2017, 4 (2), s. 135- 167.

Armaoğlu, F. Filistin Meselesi ve Arap-İsrail Savaşları, / -Ankara: Kronik kitap, -2017, - 584 s.

Aydın, M. Moderniteye Dışarıdan Bakmak / - İstanbul: Açılım Kitap, -2014, - 256 s.

Ayhan, F. Küresel Aktörlerin Mücadelesi: Suriye'yi neler bekliyor?, Ortadoğu Stratejik Araştırmalar Merkezi : [Elektronik Kaynak] / ORSAM, - Şubat 16, 2020. URL: http://www.orsam.org.tr/tr/yazigoster.aspx?ID=3216

Bacık, G. Arap Baharından Ortadoğu ve Kuzey Afrika’nın Geleceğine Bakmak // Müsiad Çerçeve Dergisi, -İstanbul: -2011, (57), -s.16-22.

Başkan, B. Buazizi’nin Yaktığı Ateş: 21. Yüzyıl Başında Arap İsyanları / - Akademik Orta Doğu, - Ankara: - 2011, 6(1), s. 1-22.

Bilgenoglu, A. “İngiliz Sömürgeciliğinin Mısır ve Sudan Örneğinde Karşılaştırmalı Bir Çözümlemesi”: / Doktora Tezi. / - İzmir, Dokuz Eylül Üniversitesi, Sosyal Bilimler Enstitüsü, 2013, - 457 s.

Bodur, H.E. Vahhabi Hareketi ve Küresel Terör // - KSÜ: İlahiyat Fakültesi Dergisi, - 2003, 1(2), - s. 7-20.

Boran, Y. Ortadoğu’da Direniş: El-Fetih, Hamas, Hizbullah / - İstanbul: Siyah Beyaz Kitap, -2011, -288 s.

Bozarslan, H. Ortadoğu’nun Siyasal Sosyolojisi / - İstanbul: İletişim Yayınları, -2012, - 184 s.

Bozbaş, G. Mısır’da Toplum ve Siyaset: “Devrimden Darbeye Giden Sürecin Yapısal Analizi.” / - İstanbul: Vadi Yayınları. -2018, -311s.

Bölme, S.M. İsyan, Müdahale ve Sonrası: Libya'da Dönüşümün Sancıları / U.Ulutaş, T.Özhan, M.Küçükkeleş. // Siyaset, Ekonomi ve Toplum Araştırmaları Vakfı, - İstanbul: - 2011, №5, - 60 s.

Büyükkara, M.A. Çağdaş İslami Akımlar / - İstanbul: Klasik Yayınları, - 2017, -382 s.

Canatan, K. İslamofobi ve Anti-İslamizm - Kavramsal ve Tarihsel Yaklaşım, Batı Dünyasında İslamofobi ve Anti-İslamizm, ed. Canatan, K., Hıdır, Ö., / -Ankara: Eskiyeni Yayınları, -2007, -s.19-62.

Canbegi, H.İ. Mısır’da Müslüman Kardeşler Cemiyeti. / - İstanbul: Öteki Adam Yayınları, -2013, - 384 s.

Ceyda, K. Arap Baharı / - İstanbul: Dünya Bülteni Araştırma Masası Dübam Yayınları, -2011, s.1-43.

Cirhinlioğlu, Z., Bulut, E. Terör, Din Ve Siyaset // Fırat Üniversitesi Sosyal Bilimler Dergisi, - Elazığ: - 2010, 20 (2), - s.301-322.

Cıngı, A. Ortadoğunun öfkesi ve Batıda ırkçılık; Arap Baharı - Avrupa Sağı-Etkileşimler / - İstanbul: Kalkedon Yayınları, - 2011, - 112 s.

Cole, J. İslam Dünyasını Kavramak / -Ankara: Sitare Yayınları, -2010, -256s.

Cündioğlu, D. Kur’an’ı Anlamanın Anlamı / - İstanbul: Kitabevi Yayınları, -1998, - 136 s.

Çabuk, M. Senusilik Ve İşgalcilere Karşı Kuzey Afrika’da Osmanlı - Senusi İş Birliği //Sütçü İmam Üniversitesi, Sosyal Bilimler Dergisi,-Kahramanmaraş: - 2019, 16 (1), - s.221-256.

Çalışkan, K. Ortadoğu Siyaseti ve Toplumlarını Anlama Yolları // İ.Ü. Siyasal Bilgiler Fakültesi Dergisi, -İstanbul: - 2008, №39, - s.1-19.

Çalışkan, N. Müslümanların birligini tehdit eden unsurlar // Yüzüncü yıl Üniversitesi Sosyal Bilimler Enstitusu Dergisi, - Van: -2008, s.275-291.

Çandar, C. Ortadoğu Üzerine Aykırı Düşünceler / - İstanbul: Bir yayıncılık, -1984, -122 s.

Çapık, K. Sevimsiz Kavram, Demokrasi / Umran Dergisi, -İstanbul: - 2014, №240, -s. 56-63.

Çağatay, Ö. Doğu ve Arap Baharı Ortadoğu Ve Arap Baharı (Türkiye Demokratik Bir Ülke Olarak Model Olabilir mi?) // Yüksek Lisans Tezi / - Dumlupınar Üniversitesi, Sosyal Bilimler Enstitüsü, - 2012, - 166 s.

Çelik, H. Ortadoğu’da ABD Politikalari Ve Büyük Ortadoğu Projesi / Yüksek lisans tezi. / - Ankara, 2014. – 122 s.

Çimen, A. Yasemin Devrimi Sonrası, Mavi Kapı ve Pencereli Beyaz Evler Ülkesinde 6 Gün: 02-07.06.2013 Tunus Ziyareti İzlenimleri, // İdarecinin Sesi Dergisi, Mayıs-Haziran Dönemi, – İstanbul: -2013, №156, -s 88-93.

Dabaşi, H. Arap Baharı: Postkolonyalizmin Sonu (çev., Eser, A.T.) / - İstanbul: Sümer Yayıncılık, - 2015. – 350 s.

Dağ, A. İslamofobia: Hegemonya’yı Derinleştirme ve bir Hegemonya Projesi Olarak Euro-İslam // 1.Uluslararasi Sosyal Bilimler ve Müslümanlar Kongresi:“Hegemonya-Karşi Hegemonya” – Konya: EKOPİ, - 5-7 may, - 2016, - s.35-50.

Dağ, A.E. Çağa İz Bırakan Önderler: Hasan El-Benna / - İstanbul: İlke Yayıncılık, -2017, - 140 s.

Davişa, A. Arap Milliyetçiliği: Zaferden Umutsuzluğa, çev. Lütfi Yalçın, / – İstanbul: Literatur yayınları, - 2004, - 374 s.

Davutoğlu, A. Stratejik Derinlik / - İstanbul: Küre Yayınları, -2012, - 600 s.

Deniz, Ş. Ortadoğu'nun Yeniden İnşaasının Yapı Bozumu: Büyük Ortadoğu Projesi Üzerine Bir Analiz // - Uluslararası Sosyal Araştırmalar Dergisi , 5 (20), 2012, s.168-183.

Dedeoğlu, B. Ortadoğu Üzerine Notlar / - İstanbul: Derin Yayınları, - 2002, -122 s.

Dinç, C. Avrupa Birliği'nin ve Üç Büyük Üyesinin Arap Baharı'na Yaklaşımları // - Çankırı Karatekin Üniversitesi: İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, - 2018, 2 (8), s.1-33.

Doğan, G. Durgun, B. Arap Baharı Ve Libya: Tarihsel Süreç Ve Demokratikleşme Kavramı Çerçevesinde Bir Değerlendirme // - Isparta: Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, - 2012, 1 (15), – s.61-90.

Dolukhanov, Pavel. Eski Ortadoğu'da Çevre ve Etnik Yapı, (Çev. Suavi Aydın) / - Ankara: İmge Kitabevi, -2001, - 244 s.

Doster, B. Arap Baharı'ndan Demokrasi Beklemek // ORSAM Araştırma Raporu, - İstanbul: Orsam Yayınları, - 2013, 5 (50), -s.55-60.

Duman, S. Modern Ortadoğu'nun Oluşumu / - İstanbul: Doğu Kütüphanesi, - 2010, - 580 s.

Duran, B., Yılmaz, N. Ortadoğu'da Modellerin Rekabeti: Arap Baharı'ndan Sonra Yeni Güç Dengeleri // - Ankara: Seta Yayınları, - 2012, 1 (14), s.15-86.

Elpe, T. Arap Baharı Kapsamında Avrupa Birliği'nin Ortadoğu Politikası / Yüksek lisans tezi / Gazi Universitesi, 2017, - 127 s.

Erkilet, A. Ortadoğu'da Modernleşme ve İslami Hareketler / - Ankara: Hece Yayınları, -2010, - 424 s.

Ersin, N. Ortadoğu Savaşlarının Perde Arkası / - İstanbul: Gündem Yayınları, - 2003, - 142 s.

Ertürk, D. Bir Egemenlik Aracı Olarak Küresel Terör // - E-Şarkiyat İlmi Araştırmalar Dergisi, - Diyarbakır: - 2010, 10 (4), s. 81-103.

Faytre, L. İtalya İslam'a bir güvenlik sorunu olarak yaklaşıyor : [Elektronik Kaynak] / Analiz: - Mayıs 5, 2022. URL:https://www.aa.com.tr/tr/analiz-haber/italya-islam-a-bir-guvenlik-sorunu-olarak-yaklasiyor/1280721

Gannuşi, R. Sivil Toplum ve Laiklik / - İstanbul: Mana Yayınları, -2017, - 167 s.

Gannuşi, R. İslam Devletinde Kamusal Özgürlükler / - İstanbul: Mana Yayınları, - 2016, - 495 s.

Gencoglu, H. Güney Afrika'da Irkçiliğin Tarihsel Kökenleri // - İstanbul Medeniyet Üniversitesi: Siyasal Bilgiler Fakültesi Dergisi, – 2017, 2 (2), - s.79-120.

Guida, M., Çaha, Ö. İslamcılık / - Ankara: Orion Kitabevi, -2013, - s.564-620.

Güler, İ. Politik Teoloji Yazıları / - Ankara: Okulu Yayınlari, - 2019,-304 s.

Güler, E.Z. Arap Milliyetçiliği: Mısır ve Nasırcılık: Tahrir Meydanında Korkuyu Yenmek / -İstanbul: Yazılama Yayınevi, -2011, -248s.

Gündoğdu, Y. "Ortadoğu" Üzerine Kavramsal Kısa Bir İnceleme: [Elektronik Kaynak] / Ortadoğu, Politika. – Ekim 8, 2015. URL: https://yagizgundogdu.com/2015/10/08/ortadogu-uzerine-kavramsal-kisa-bir-inceleme/

Güngör, C. Devrim Üzerine // Muhafazakar Düşünce Dergisi, - Ankara: - 2007, 3(11), - s.71-98.

Güvenilir, E. Ortadoğu'da Siyasal İslam: Mısır'da Arap Baharı ve Müslüman Kardeşlerin etkileri / Yüksek lisans tezi / - Konya, 2016, - 186 s.

Goldschmıdt, A., Davidson, L. Kısa Ortadoğu Tarihi / - İstanbul: Doruk Yayınları, - 2011, - 688 s.

Han, A. Suriye'de Kimyasal Silah Kullanımı: Gerçelten bir "Oyun Dönüştürücü"mü? // Ortadoğu Analiz, – İstanbul: -2013, №5, - s.35-45.

Hasgüler, M., Uludağ, M.B. Devletlerarası ve Hükümetler Dışı Uluslararası Örgütler: Tarihçe-Organlar-Belgeler-Politikalar / - İstanbul: Alfa Yayınları, -2018, - 733 s.

Heywood, A. Siyasi İdeolojiler / – Ankara: Felix kitap, - 2020, - 417s.

Hourani, A. Arap Halkları Tarihi / - İstanbul: İletişim Yayınları, - 2020, - 608 s.

Huntington, S.P. Medeniyetler Çatışması ve Dünya Düzeninin Yeniden Kurulması / - İstanbul: Okuyan Us Yayıncılık, - 2019, - 544 s.

Hüseyin, A. Batının İslamla Kavgası / - İstanbul:Pınar Yayınları, -2017. - 144s.

İzzetbegoviç, A. İslam deklarasyonu / – İstanbul: Fide Yayınları, - 2010, - 128 s.

Karaaslan, T. Ortadoğu'nun Coğrafyası / - Konya: Atlas Kitabevi, - 2006, - 180 s.

Karadağ, R. İsrail-Ortadoğu-Amerika / - İstanbul: Truva Yayınları, -2020, - 232 s.

Karkın, V., Yazıcı, Ö. Arap Baharı'nın Suriye'ye Yansıması ve Türkiye'ye Sığınan Mülteciler (Gaziantep Örneği) // - Kuzey Kıbrıs Türk Cumhuriyeti: 21. Yüzyılda Eğitim ve Toplum, -2015, 4(12), s.201-213.

Kıraç, Z.K. Büyük Ortadoğu Projesi ve Bu Bağlamda Su Olgusu / Yüksek lisans tezi / - Konya, Selçuk üniversitesi, Sosyal Bilimler Enstitüsü, 2008, - 179 s.

Kışlakçı, T. Arap Baharı / – İstanbul: İlimyurdu yayıncılık, – 2013. – 248 s.

Koçak, K.A. Mısır: Demokratikleşme Yolunda İki Adım İleri Bir Adım Geri // Yaşama Dergisi, -İstanbul: - 2013, (23), - s. 7-53.

Kolasi, K. Soğuk Savaş'ın Barışçıl Olarak Sona Ermesi ve Uluslararası İlişkiler Teorileri // SBF Dergisi, - Ankara: - 2013, 68(13), - s.149-179.

Kor, Z.T. Ortadoğu konuşmaları: Bölgesel ve Küresel Perspektiften Arap Baharı / - İstanbul: Küre Yayınları, -2021, - 728 s.

Koraltan, F.H. Bir Devrim Süreci: Arap Baharı // -İstanbul: FMV Işık Üniversitesi, İdari ve İktisadi Bilimler Fakültesi, Yeni Ortadoğu: Toplum Siyaset ve Ekonomi Konferansı, -2016, - s 30-36.

Koyuncu, A.A. Dört Farklı Perspektiften İslam Demokrasi Tartışmaları // İnsan ve Toplum Bilimleri Araştırmaları Dergisi, - İstanbul: - 2015, 4 (3), - s.705-727.

Köktaş, R. Nahda'nın Genel Kongre Sonrası Yeni Yol Haritası: Felsefi Bir Dönüşüm mü, Koşullara Bağlı Bir Gereklilik mi? : [Elektronik Kaynak] / Ormer Ortadoğu Enstitüsü. - Mayıs 27, 2016. URL: https://ormer.sakarya.edu.tr/20,3,,82,nahda_nin_genel_kongre_sonrasi_yeni_yol_haritasi_felsefi_bir_donusum_mu_kosullara_bagli_bir_gereklilik_mi_.html

Köse, F. Ortadoğu'da İslamcı Siyasetin Rol modeli: İhvan-ı Müslimin / - İstanbul: Ozan Yayıncılık, - 2014, - 440 s.

Kurşun, Z., Arap Baharı Sonrası Yemen'in Çıkmazları : [Elektronik Kaynak] - /Aljazeera Turk, - Ocak 25, 2014. URL: http://www.aljazeera.com.tr/gorus/arap-bahari-sonrasi-yemenin-cikmazlari

Kurt, V. Devrim'den Askeri Müdahaleye Yemen // Seta, - İstanbul: - 2015, (144), - s. 1-28.

Kutlay, M., Dinçer, O.B. Arap Baharı ABD'nin Hegemonik Projesi Midir? // - Türkiye Günlüğü, - Ankara: -2011, Yaz, - s.100-110.

Küçükkeleş, M. AB'nin Ortadoğu Politikası ve Arap Baharına Bakışı // SETA Analiz, - İstanbul: -2013, (63), - s. 17-43.

Larousse, M. Büyük Lugat ve Ansiklopedisi / - Istanbul, Sanah. Cilt: 4 – 2020, - 600 s.

Lütfi, M. Tunus'u Kurtarmak / - İstanbul: Modus Kitapevi, - 2013, -170 s.

Manaz, A. Siyasal İslamcılık: Dünyada Siyasal İslamcılık / - İstanbul: IQ Kültür Sanat Yayıncılık. – 2008, – 1088 s.

Manisalı, E. Ulusal Cephede Vuruşanlar / - İstanbul: Derin Yayınları, -2004, - 197 s.

Marsot, A.L.A.S. Mısır Tarihi: Arapların Fethinden Bugüne / - İstanbul: Tarih Vakfı Yurt Yayınları, - 2010, - 170 s.

McCormick, J. Avrupa Birliği'ni anlamak / - Ankara: BB101 Yayınları, - 2018, - 400 s.

Mehmedoğlu, M.S. Ortak Akılla Düşünmek: Meşveret Geleneğimiz ve Demokrasi / - İstanbul: Nesil Yayınları, - 2006, - 176 s.

Mustafa, A. Avrupa Birliği'nin Ortadoğu Politikası / Yayımlanmış Yüksek Lisans Tezi, Selçuk Üniversitesi, Sosyal Bilimler Enstitüsü, / - Konya, - 2010, - 111 s.

Müttefiklerin Libya'ya operasyonu devam ediyor: [Elektronik Kaynak] / Dış Haberler, - Mart 21, 2011. URL: https://www.hurriyet.com.tr/dunya/muttefiklerin-libyaya-operasyonu-devam-ediyor-17322118

Oğuzlu, T. Arap Baharı ve Yansımaları // Ortadoğu Analiz, - Ankara: - 2011, 3 (36), - s. 9-16.

Ortadoğu'nun Politik ve Stratejik Önemi, [Elektronik Kaynak] - Mart 17, 2022. URL: https://stratejikortak.com/2016/06/ortadogunun-onemi.html

Özcan, M. Arap Baharı ve Sonrası İslami Hareketler Yol Ayrımında / - Konya: Çizgi kitapevi, - 2017, - 166 s.

Özalkan, S. Tarihsel Perspektiften Arap Milliyetçiliği // İNSAMER, - İstanbul: – 2018, - s.1-7.

Özbilgeç, A. Ortadoğu ve Şiilik: Yeni Ortadoğu Jeopolitiğinde Şia Etkisi / – Konya: Selçuk Üniversitesi, Sosyal Bilimler Enstitüsü, -2007, - 100 s.

Özcan, M. Özcan, L. IŞİD ve Kökenleri Haricilik ve Selefilik / - İstanbul, MSB Safa Yayın dağıtım, - 2015, - 192 s.

Özdal, B. Avrupa Birliği Siyasi Bir Cüce, Askeri Bir Solucan mı? / - İstanbul: Dora Yayınları, -2013, - 396 s.

Özer, A. 11 Eylül, Bölünen Dünya, Hantington Ve Çatışma / Toplum Ve Demokrasi, - İstanbul: - 2009, 3(5), - s.191-210.

Özey, R., Dünya Denkleminde Ortadoğu Coğrafyası Ülkeler / - İstanbul: Aktif Yayınevi, -2015, - 447 s.

Özkoç, Ö. Suriye Baas Partisi: Kökenleri, Dönüşümü, İzlediği İç ve Dış Politika / -Ankara: Mülkiyeliler Birliği Yayınları, -2008, -191s.

Öztürk, H. Modern Orta Doğu Siyasi Tarihi / - İstanbul: Bilgesam Yayınları, – 2016, - 426 s.

Öztürk, T.E., Dünden Bugüne Pan-Arapçılık ve Arap Baharı: Yeni Bir Pan-Arap Uyanış Mı? / Akademik Orta Doğu: Altı Aylık Orta Doğu Araştırmaları Dergisi, - İstanbul: -2012, - s. 123-132.

Paker, E.B. Küresel Güvenlik Kompleksi: Uluslararası Siyaset ve Güvenlik / - İstanbul: İletişim Yayınları, - 2021, - 190 s.

Palta, M., Özdal, B. Kopenhag Okulu'nun Güvenlik Anlayışı Bağlamında Soğuk Savaş Sonrası Dönemde Balkanların Güvenliğinin Analizi // Kırşehir Ahi Evran Üniversitesi İİBF Dergisi, Cilt 4, Sayı 2, Aralık 2020, s.249-269.

Pehlivanoğlu, A.Ö. Ortadoğu ve Türkiye / – İstanbul: Kastaş Yayınevi, - 2004, - 509 s.

Portre: Ali Abdullah Salih : [Elektronik Kaynak] / Al Jazeera Türk – Ocak 25, 2014. URL: http://www.aljazeera.com.tr/portre/portre-ali-abdullah-salih

Prashad, V. Arap Baharı, Libya Kışı / - İstanbul: Yordam Kitap, -2012, - 256s.

Reuter, A. G8 Zirvesi Yoğun Gündemle Başladı : [Elektronik kaynak] / Deutsche Welle Türkçe – Mayıs 26, 2011. URL: http://dw.de/p/11Oe2

Sarıkçıoğlu, E. Başlangıçtan Günümüze Dinler Tarihi / - İstanbul: Fakülte Kitabevi, -2002, - 467 s.

Seyyid, K. Din Budur / - İstanbul: Beka Yayıncılık, -2015, - 111 s.

Sinkaya, B. İran-Suriye İlişkileri ve Suriye'de Halk İsyanı / - İstanbul: Ortadoğu Analiz, - 2015. 3 (33), 2015, - s. 38-48.

Sönmezoğlu, F. Uluslararası İlişkiler Sözlüğü / - İstanbul: Der Yayınları, - 2017, - 648 s.

Suudi Arabistan ve İran Arasında Yemen'de Bilek Güreşi : [Elektronik Kaynak] / Euronews, - Mart 16, 2022. URL: http://tr.euronews.com/2018/03/28/suudi-arabistan-ve-iran-arasinda-yemen-de-bilek-guresi

Süruş, A. Maksimum ve Minimum Din / - Ankara: Fecir Yayınları, 2002, - 176 s.

Şahin, K. Küreselleşme Tartışmaları Işığında Ulus Devlet / - İstanbul: Yeniyüzyıl Yayınları, -2009, - 336 s.

Şen, S.Ortadoğu'da İdeolojik Bunalım: Suriye Baas Partisi ve İdeolojisi / - İstanbul: Birey Yayıncılık, - 2004, - 376 s.

Şimşek, E. Türkiye'nin Ortadoğu Politikası / - İstanbul: Kum Saati Yayınları, -2005, - 247 s.

Tangülü, B. Büyük Ortadoğu Projesi / Yayımlanmış Yüksek Lisans Tezi, Cumhuriyet Üniversitesi, Sosyal Bilimler Enstitüsü. / -Sivas, 2006. -172s.

Tanrıverdi, N. Tunus'ta Halk Ayaklanması: Nedenleri ve Etkileri // - Ankara: Ortadoğu Analiz, - 2011, 3 (26), - s. 27-33.

Tamer, C. Emmanuel Macron'un Ortadoğu Politikası-2 : [Elektronik Kaynak] / Ankasam, - Ekim 19, 2019. URL: https://ankasam.org/emmanuel-macronun-ortadogu-politikasi-2/

Tekek, M. Arap Baharı ve Nedenleri : [Elektronik Kaynak] / - Kasım 28, 2012. URL: https://www.tuicakademi.org/arap-bahari-ve-nedenleri/

Turan, Ö. Medeniyetlerin Çatıştığı Nokta Ortadoğu / - İstanbul: Yeni Şafak Gazetesi Yayını, -2003, - 428 s.

Turan, Ö. İslamcılık: Tarihçesi ve Fikir Örgüsü / - İstanbul: Hida Yayıncılık, - 2018, - 254 s.

Tüzünkan, M., Koldaş, U. Hükümranlıktan Annan Planına: (Ana Hatlarıyla İngiltere Dış Politikasında Kıbrıs: 1878-2004) // - Akademik Orta Doğu, - Ankara: - 2013, 8 (1), s.71-99.

Ulutaş, U., Torlak, F. Devrimden Demokrasiye Tunus'un Seçimi // Siyaset, Ekonomi ve Toplum Araştırmaları Vakfı, - İstanbul:-2011, №46,-24 s.

Uyanık, M. Selefi Zihniyet, Arap Baharı ve Türkiye / - İstanbul: Araştırma Yayınları, -2016, - 382 s.

Ülgener, S.F. Zihniyet ve Din İslam, Tasavvuf ve Çözülme Devri, İktisat Ahlâkı / - İstanbul: Derin Yayinlari, -2006, - 198 s.

Ünal, M.C. "Arap Baharı" sonrası Avrupa Komşuluk Politikasının Geleceği // Ankara Avrupa Çalışmaları Dergisi, - Ankara: - 2017, 16(2), - s.147-171.

Ünal, Y. Selefi Zihnin Doğuşu ve Gelişimi Üzerine // - İstanbul: Dini Araştırmalar, - 2015, 18 (47), - s. 55-78.

Yakış, Y. Ortadoğu'da Değişimde Siyasal İslam'ın Rolü ve Geleceğe Yönelik Beklentiler // Ortadoğu Analiz, - İstanbul: - 2012, 4 (39), - s. 63-66.

Yaptırımların Hedefi Kaddafi : [Elektronik Kaynak] / Habertürk, - Şubat 27, 2011. URL: https://www.haberturk.com/dunya/haber/605237-yaptirimlarin-hedefi-kaddafi

Yaramış, A. Mısır'da İngiliz Sömürgecilik Anlayışı: Cromer Örneği // Kocatepe Üniversitesi, Sosyal Bilimler Dergisi, - Afyon: - 2007, 9 (2), - s.121-130.

Yayla, A. Siyaset Teorisine Giris / - İstanbul: Kesit Yayinlari, - 2014, - 279s.

Yavuz, C. Arap Baharı ve Türkiye / Erdurmaz, S., // Orta Doğu'da Kırılan Fay Hatları, - Ankara: - Berikan Yayınları, -2012, - 392 s.

Yeşil, Ü. Seyyid Kutub'un Siyasi Düşüncesinin Teolojik Temelleri // Temel İslam Bilimleri Yüksek lisans tezi / - İstanbul, - 2019, - 98s.

Yıldız, M. Merkel, Tunus'tan mülteci istemiyor : [Elektronik Kaynak] / Dünya Bülteni - Şubat 15, 2011. URL: https://www.dunyabulteni.net/avrupa/merkel-tunustan-multeci-istemiyor-h147473.html

Yıldız,Y.G. Global Stratejide Ortadoğu / - İstanbul: Der yayınları, -2000, - 232 s.

Zehir, C. Son Gelişmeler Işığında Ortadoğu'da Su Meseleleri, Milletlerarası Ortadoğu:Kaos mu? Düzen mi? // Konferansı Bildiriler Kitabı, Tarih ve Tabiat Vakfı Yayınları, -İstanbul: -2004, -s.278-283.

Zengin, G. Kavga Arap Baharı'nda Türk Dış Politikası 2010-2013 / - İstanbul: İnkılap Kitabevi, - 2013, - 296 s.

Waltz, K.N. İnsan, Devlet ve Savaş: Teorik Bir Analiz / -Ankara: Asil Yayın Dağıtım, -2009, - 231 s.

William, L.C. Modern Ortadoğu Tarihi / - İstanbul: Agora Kitaplığı, - 2008, - 656 s.

**Rus dilində**

Аббасов, Т. Ключевые направления ближневосточной политики Вашингтона в период президентства Барака Обамы (2009-2017 гг.) // журнал Вопросы истории, - Москва, - 2023, - №10 (1), - с.190-197.

Видясова, М.Ф. Гасанбекова,Т.И., Падение режима Бен Али и начало арабской весны. В: Шарипова У.З., Ледовской О.А. (ред.) Нестабильность геостратегического пространства в странах Ближнего // Среднего и Дальнего Востока: актуальные проблемы. - / Москва: Институт востоковедения РАН. – 2017, №1, - с.31-78.

Садовничий, В.А. Акаев, А.А., Коротаев, А.В., Малков, С.Ю., Моделирование и прогнозирование мировой динамики. / - Москва: ИСПИ РАН. – 2012. – 359 с.

Сапронова,М.В. Становление новой государственности на Арабском Востоке. Международные процессы. // Том 13. - Москва: - 2015. 3(42), - с.26–39.

Труевцев К.М. Жасминовая революция в Тунисе. // Системный мониторинг глобальных и региональных рисков. – 2013. 4(1), - с.365–386.

Шумахер, М.Дж. Шредер, П.Дж., Способствует ли внутриполитическая нестабильность терроризму? Global Evidence эпохи арабской весны (2011–2014 гг.). // Studies in Conflict and Terrorism, - Chicago: – 2021. 44 (1), - с. 44-72.

**İngilis dilində**

Abdel-Baky, M. Libya Protest Over Housing Enters İts Third Day : [Electronic resource] / Ahram Online - January 16, 2011. URL: https://english.ahram.org.eg/NewsContent/2/8/4032/World/Region/Libya-protest-over-housing-enters-its-third-day.aspx

Abdulrahman, M. Corruption and the “Arab spring”- As one of the main elements leading to revolutions // Polish Journal of Political Science, - Warsaw: 2015, 1(3), - p.36-49.

Abun-Nasr, J. M. A History of the Maghrib / -Cambridge University Press, - 1971, - 416 p.

Aktaş, M. The Arab Spring and the European Union, Aktaş M. (edt.), The Arab Uprisings & The Strugle of the Soft Powers In the Middle East, / - Amkara: Nobel Akademik Yayıncılık, -2012, - 215 p.

Allen, C. Islamophobia in the UK: Historical and Social Perspectives. // Routledge: - 2010, - 205 p.

Al-Mekhlafi, M. Yemen: Events of 2017 : [Electron recource] / Human Right. – September 16, 2021. URL: https://www.hrw.org/world%20report/2018/country-chapters/yemen

Allievi, S. Conflicts over Mosques in Europe: Policy issues and trends / Alliance Publishing Trust: - 2010, - p. 103.

Anderson, B. A History of the Modern Middle East: Rulers, Rebels, and Rogues, / -California: Stanford University Press, -2016, - 544p.

Anita, S, Israel: A History / -Waltham: Brandeis University Press, -2012, - 528.

Avi, S. The Iron Wall: Israel and the Arab World / - New York: W.W. Norton, - 2014, - 960 p.

Anderson, L. Arab Democracy: Dismal Prospects // World Policy Journal, - Duke University Press: - 2001, 18 (3), Fall, - p. 53-60.

Anderson, L. Demystifying the Arab Spring- Parsing the Differences Between Tunisia, Egypt and Libya / Foreign Affairs, - Canada: -2011, 90 (3), – p.2-7.

Archick, K. European Views and Policies Toward the Middle East // - Specialist in European Affairs Foreign Affairs, Defense, and Trade Division: CRS Report for Congress, - 2005, - 33 p.

Armstrong, K. Muhammad: A Prophet for Our Time / - New York: HarperCollins, – 2007, - 256 p.

Armstrong, K. Islam: A Short History / - Modern Library Chronicles – 2000, - 222 p.

Asseburg, M. The Arab spring and the European response // The International Spectator, - Roma: - 2013, 48 (62), - p.47-62.

Baker, P. A Coup? Or Something Else? $1.5 Billion in U.S. Aid Is on the Line : [Electronic resource] / The New York Times, - July 4, 2013. URL: https://www.nytimes.com/2013/07/05/world/middleeast/egypts-arrests-of-islamists-pose-test-to-us-over-military-aid.html

Barany, Z. Comparing the Arab Revolts-The role of the Military // Journal of Democracy, - Washington: - 2011, 22 (4), - p.22-39.

Baring, E., Cromer, E. Political and Literary Essays, 1908–1913, The Government of Subject Races. Edinburgh Review 207 (1908): / Cambridge: Cambridge University Press, - 2010, - 277 p.

Beaumant, P. The truth about Twitter, Facebook and the uprisings in the Arab world: [Electronic resource] – May 23, 2011. URL: https://www.theguardian.com/world/2011/feb/25/twitter-facebook-uprisingsarab-libya

Berman, R. A. Anti-Americanism in Europe: A Cultural Problem / Hoover Institution Press Publication, - 2008, - 186 p.

Berman, R. A. Freedom or Terror: Europe Faces Jihad / Hoover Institution Press Publication, - 2010, - 210 p.

Berman, R. A. In Retreat: America's Withdrawal from the Middle East (The Great Unraveling: The Remaking of the Middle East) Jihad / Hoover Institution Press Publication, - 2014, - 80 p.

Beverly, C. The Paradox of German Power // - Hans Kundnani: German Politics and Society, - 2016, 34 (2), - p.98-102.

Bleich, E. What Is Islamophobia and How Much Is There? Theorizing and Measuring an Emerging Comparative Concept // American Behavioral Scientist: - 2011, 55(12), - p.581-600.

Blumi, I. Destroying Yemen: What Chaos in Arabia Tells Us about the World / University Press California, - California: -2018, -312 p.

British foreign policy and the Arab Spring, Second Report of Session 2012-13, // - London: House of Commons Foreign Affairs Committee, - 2012, – 319 p.

Brockmeier, S. Germany and the Intervention in Libya // Survival. Global Politics and Strategy, - London: - 2013, 55 (6), - p. 63-90.

Brooks, R. Abandoned at the Palace: Why the Tunusian Military Defected from the Ben Ali Regime in January 2011. // Journal of Strategic Studies, - London: - 2013, 36(2), - p. 205-220.

Burke III, E. The Ethnographic State: France and the Invention of Moroccan Islam / University Press California, - California: - 2014, - 288 p.

Candland, C. The U.S. Greater Middle East Initiative: Implications for Persian Gulf Economies and Polities :[Electronic resource] / Tehran: Institute for Political and International Studies. - July 12, 2019. URL: https://www.turkishnews.com/tr/content/wp-content/uploads/2014/08/The-U.S.-Greater-Middle-East-Initiative.pdf

Cesari, J. Why the West Fears Islam: An Exploration of Muslims in Liberal Democracies. / - Palgrave Macmillan: – 2013, - 399 p.

Chrisafis, A. Sarkozy admits France made mistakes over Tunisia : [Electronic resource] / The Guardian – January 10, 2011. URL: https://www.theguardian.com/world/2011/jan/24/nicolas-sarkozy-tunisia-protests

Clement, H. Countries at the Crossroads 2011-Tunisia : [Electronic resource] / Freedom House, - November 10, 2011. URL: https://www.refworld.org/docid/4ecba642c.html

Cleveland, W. L., & Bunton, M. A history of the modern Middle East (6th ed.)./ - Boulder, CO: Westview Press: – 2016, - 640 p.

Dagcı, K. The EU's Middle East Policy and Its Implications to the Region // - Alternatives Turkish Journal of International Relations, - Yalova: - 2007, Vol 6, Issue: 1&2, - p.176-185.

Dahlgren, P., Young People, ICTs and Democracy. Theories, Policies, Identities, and Websites. / - Göteborg: Nordicom, -2010, - 247 p.

Daniel, N. Islam and the West: The Making of an Image / - England: Oxford, Oneworld Publications, - 2009, - 472s.

Dawood, S.M. Rashid al-Ghannushi : A Key Muslim Thinker of the 21st Century / - Singapore: Springer Verlag, -2018, - 128 p.

Dede, A.Y. "The Arab Uprisings: Debating the Turkish Model", / - Insight Turkey, - Ankara: - 2011, 13(2), - p. 23-32.

Defiant Gaddafi vows to fight on : [Electronic resource] / Aljazeera, – May 23, 2021. URL:

https://www.aljazeera.com/news/africa/2011/02/201122216458913596.html

Douglas, L. American Orientalism: The United States and the Middle East since 1945, / - The University of North Carolina Press, -2002, - 464 p.

Dris, C., Rethinking Maghrebi Security: The Challenge of Multilateralism. Y.H.Zoubir ve H.Amirah-Fernandez (Ed.). North Africa: Politics, Region, and the Limits of Transformation // - New York: Routledge. – 2008, - p.245-265.

El-Ghobashy, M. The Metamorphosis of the Egyptian Muslim Brothers // International Journal of Middle East Studies, Cambridge University Press, - England: - 2005, 37(3), p. 373-395.

Erlanger, S. France and Britain Lead Military Push on Libya : [Electron recource] / The New York Times, 18 March, 2011, URL: https://www.nytimes.com/2011/03/19/world/africa/19europe.html

Esposito, J.L., Piscatori, J.P. Democratization and Islam // - The Middle East Journal, -Washington: - 1991, 45(3), - 431 p.

EU freezes assets of allies of Tunisia's ousted Ben Ali, BBC News, 4 february, 2011. [Electronic resource] / - February 4, 2011. URL: https://www.bbc.com/news/world-africa-12370591

Eugene, R. The Arabs: A History, / - London: Penguin, - 2017, 608 p.

Fathollah, N.A. The Middle East: From Past and Present Attributions to a Future Regional Identity? // SOAS Journal of Graduate Research, School of Oriental and African Studies (SOAS), University of London, - Polyvocia: - 2010, Vol 2, - p. 3-10.

Fearon, J.D., Laitin, D.D., Ethnicity, Insurgency, and Civil War // - The American Political Science Review, - Washington: - 2003, 97(1), - p.75-90.

Federal Government of Germany. White Paper 2016: On German Security Policy and the Future of the Bundeswehr / - Berlin: Federal Ministry of Defence, - 2016, - 144 p.

Fischer, J. German Foreign Policy Comes of Age : [Electronic resource] / The New Times, - December 8, 2014. URL: https://www.newtimes.co.rw/article/113995/Opinions/german-foreign-policy-comes-of-age

Foucault, M. Security, Territory, Population / - London: Palgrave Macmillan, - 2007, - 358 p.

Gause, F.G. The International Relations of the Persian Gulf. / - Cambridge University Press, - 2015, - 272 p.

Ghanem, H. The Arab Spring Five Years Later: Toward Greater Inclusiveness / - Washington: The Brookings Institution, - 2016, -240 p.

Ghannouchi, R. From Political Islam to Muslim Democracy: The Ennahda Party and the Future of Tunisia // Foreign Affairs, - America: -2015. 95(5), - p.58-67.

Ghannouchi, R. From Political Islam to Muslim Democracy The Ennahda Party and the Future of Tunisia: [Electronic resource] URL: https://www.foreignaffairs.com/tunisia/political-islam-muslim-democracy-ennahda

Giddens, A. Turbulent and Mighty Continent: What Future for Europe? / – Cambridge: Polity Press, - 2015, - 224 p.

Giegerich, B., Terhalle, M. The Munich consensus and the purpose of German power // Survival, - 2016, 58(2), -p. 155-166.

Hannibal, T. Wargaming the Arab Spring: Predicting Likely Outcomes and Planning U.N. Responses // Cornell International Law Journal, - London: - 2013, 46(1), Article 4. –p. 119-129.

Hans, K. Germany as a Geo-economic Power // The Washington Quarterly, - Washington: -2011, 34(3), -p. 31-45.

Hinnebusch, R. Syria: from ‘authoritarian upgrading’ to revolution? // International Affairs, - United Kingdom: - 2012, 88(1), - p. 95-113.

James L. G. The Arab Uprisings: What Everyone Needs to Know / -Oxford: Oxford University Press, - 2015, - 208 p.

John, L. G. The Cold War: A New History / - New York: Penguin Press, - 2005, - 376 p.

Jonberg, K. The Conflict in Yemen: latest developments // - European Parliament, Directorate: General For External Policies, -2016, -p.4-13.

Kaplan, R.D. The Revenge of Geography: What the Map Tells Us About Coming Conflicts and the Battle Against Fate. / - Random House. -2012, - 448 p.

Kazleh, M.A. Determinants of German Foreign Policy toward the Arab-Israeli Conflict // - Uluslararası Hukuk ve Politika, - Ankara: - 2008, 4(13), - p.119- 133.

Keukeleire, S., Delreux, T., The Foreign Policy of the European Union (The European Union Series, 134) / - New York: Springer Publication, -2014, - 408 p.

Kimmel, M.S. Revolution, a Sociological Interpretation / - Philadelphia: Temple University Press, - 1990 , - 252 p.

Koch, N. European Security Policy and the Middle East: Challenges of Non-State Actors. // - European Security: - 2017, 26(1), - p.1–18.

Lacroix, S. Europe and the Arab Uprisings: Democracy Promotion and Security Concerns. // - Mediterranean Politics: - 2016, 21(2), - p.202–220.

Lancester, C. Foreign Aid: Diplomacy, Development, Domestic Politics, / - Chicago: The University of Chicago Press, -2007, -288 p.

Laura C. R. Najib ‘Azuri’s Le reveil de la nation arabe: A Reception History // - Comparative Studies of South Asia Africa and the Middle East, - 2011, 31(3) – p.644-657.

Lawrence, F. Strategy: A History . / - Oxford: Oxford University Press, 2013, - 545 p.

Lewis, B. The Middle East. 2000 Years Of History From The Rise Of Christianity to the Present Day. / - New York: Orion Publishing Co- 2019, - 448 p.

Lewis, B. What Went Wrong?: Western Impact and Middle Eastern Response. / - New York: Oxford University Press, - 2002, - 192 p.

Lewis, B. What Went Wrong?: The Clash Between Islam and Modernity in the Middle East. / - New York: Harper Perennial, - 2003, - 208 p.

Lotan, G., Graeff, E., Ananny, M., Gaffney, D., Pearce, I., & Boyd, D. The Arab Spring| The revolutions were tweeted: Information flows during the 2011 Tunisian and Egyptian revolutions. // International Journal of Communication, Vol 5, - 2011, - p.31-69.

Lynch, M. The Arab Uprisings: The People Want the Fall of the Regime. / - Oxford University Press. – 2016, - 304 p.

Marc, L. The New Arab Wars: Uprisings and Anarchy in the Middle East / - (New York: PublicAffairs, -2016, - 304 p.

Michou, H. The UK in the Middle East: commercial diplomacy to what end? // FRIDE, Policy Brief, - United Kingdom: - 2012, № 118, - p.1-5.

Mikail, B. France and The Arab Spring: an opportunistic quest for influence. // Fride publication, - Madrid: - 2011, №110, - p. 2-12.

Mikhelidze, N., Tocci, N. How can Europe engage with Islamist Movements?, inside Islamist Radicalization: The Challenge for Euro-Mediterranean Relations / - Brussels: Centre for European Policy Studies, FRIDE, - 2009. - p. 151-169.

Ministry of Foreign Affairs of Arabic Republic of Egypt. 9 September 2021: [Electron recource] / URL: www.mfa.gov.eg;

Ministry of Foreign Affairs of Arabic Republic of Egypt. 16 November 2022: [Electron recource] / URL: www.mfa.gov.eg;

Ministry of Foreign Affairs of Arabic Republic of Egypt. // - 30 December 2019: [Electron recource] / URL: www.mfa.gov.eg;

Morgenthau, J. Politics Among Nations: The Struggle for Power and Peace. / - New York: McGraw-Hill Education, - 2014, - 292 p.

Mushtaq, A.Q., Afzal, M. Arab Spring: Its Causes And Consequences. // - JPUHS, - 2017, 30(1), - p.1-10.

Nicolas Sarkozy: There are too many foreigners in France : [Electronic resource] / The Guardian, - May 16, 2012. – URL: www.guardian.co.uk/world/2012/mar/07/nicolas-sarkozy-too-many-foreigners

Onis, Z. Turkey and the Arab Spring: Between Ethics and Self-Interest // Insight Turkey, - Ankara: -2012, 14(3), -p. 45-63.

Parray, T.A. Islamic Democracy or Democracy in Islam: Some Key Operational Democratic Concepts and Notions // World Journal of Islamic History and Civilization, - Aligarh, India: -2012, 2(2), -p.66-86.

Perthes,V. Relations to the Arab World, Germany and The Middle East Interest and Options, / - Berlin: Heinrich Böll Foundation in Co-Operaiton with Stiftung Wissenschaft und Politik, - 2002, -p. 187-204.

PEW Research Center : [Electronic resource] / – Europe's Growing Muslim Population– December 4, 2017. URL:https://www.pewresearch.org/short-reads/2017/12/04/europes-

muslim-population-will-continue-to-grow-but-how-much-depends-on-migration/

Pierini, M. President François Hollande on the Foreign Policy Front // - Turkish Policy Quarterly, - Ankara: - 2012, 11(1), - p. 73-77.

Posusney, M.P. Authoritarianism in the Middle East: Regimes and Resistance / - London: Lynne Rienner Publisher, - 2005, - 276 p.

Puddington, A. Democracy's Stake in the Arab Spring // – Israel: Journal of Foreign Affairs, 2011, vol3, – p. 13-22.

Ratka, E. Germany and The Arab Spring-Foreign Policy Between New Activism and Old Habits // German Politics and Society, - United States: - 2012, 30 (2), - p. 59-74.

Robert, K. The New German Question: What Happens When Europe Comes Apart? // Foreign Affairs, -2019, 98(3), -p. 108-120.

Robert, C. Johansen. Radical Islam and Nonviolence: A Case Study of Religious Empowerment and Constraint among Pashtuns / Journal of Peace Research, - Oxford University Press: - 1997, Vol. 34, No. 1, pp. 53-71.

Roberts, T. Emotion, Values, and Religion: The Struggle for Legitimacy in Post-Conflict Arab Spring States: / Post-Conflict Justice-Final Draf. / - Williamsburg, 2013. – 47 p.

Roy, O. Secularism confronts Islam: France and the dilemmas of integration / Columbia University Press: – 2014, - 128 p.

Said, E.W. Orientalism / - New York: Vintage Book, - 1979, - 378 p.

Sajid, A. Islamophobia: A New Word for an Old Fear / - Palestine - Israel Journal of Politics, Economics, and Culture; East Jerusalem / - 2005, Vol. 12, Iss. 2-3, p.31-40.

Sarkozy backs Moroccan political reforms : [Electron recource] / Arab World, September 30, 2011. URL: https://en.trend.az/world/arab/1938543.html

Scott, J. W. The Politics of the Veil. / - Princeton University Press: – 2007, - 209 p.

Seifan, S. The Road to Economic Reform in Syria / Fife: University of St Andrews Center for Syrian Studies, St. Andrews Papers on Contemporary Syria, -2010, 2(3), - 79 p.

Selby, J.A. Islam in France Reconfigured: Republican Islam in the 2010 Gerin Report // Journal of Muslim Minorty Affairs, - United Kingdom: - 2011, 31(3), - p. 383-398.

Semati, M. Islamophobia, Culture and race in the Age of Empire. // Cultural Studies: - 2010, 24, - p. 256-275.

Shakak, I., Mezvinsky, N. Jewish Fundamentalizm in Israel / - London: Pluto Press, 2004, -151p.

Sharp, J.M. The Middle East Partnership Initiative: An Overview // - Report For Congress Received Through The CRS Web, -2005, -6p.

Shields, J. The Front National: From system protest to system party? // Modern & Contemporary France: - 2013, 21(2), -p. 179–194.

Soage, A. B. Ḥasan al-Bannā or the Politicisation of Islam. Totalitarian / Movements and Political Religions, Routledge, - London: - 2010, 9(1), p.21-42.

Stacher, J. The Muslim Brotherhood and Egypt's Succession Crisis: The Politics of Liberalisation and Reform in the Middle East // The Middle East Journal, Tauris Academic Studies, -New York: - 2010, 64(4), -p.656-657.

Tamimi, A.S. Rachid Ghannouchi: A Democrat within Islamism (Religion and Global Politics) / Oxford University Press, - 2001, -280p.

Terrill, A. Arab Threat Perceptions and the Future of the U.S. Military Presence in the Middle East / - Strategic Studies Institute (U.S.): Department of the Army, - 2016, - 120 p.

The Muslim Brotherhood's Global Threat: [Electronic resource] / –House of Representatives, Subcommittee on National Security, Committee on Oversight and Government Reform. – July 11, 2018. URL: https://docs.house.gov/meetings/GO/GO06/20180711/108532/HHRG-115-GO06-Transcript-20180711.pdf

Tocci, N. Turkey and the Arab Spring: Implications for Turkish Foreign Policy in Transatlantic Perspective : [Electronic resource] / - September 12, 2012. URL: https://carnegieendowment.org/2011/09/12/turkey-and-arab-spring-implications-for-turkish-foreign-policy-in-transatlantic-perspective-pub-45557

Tunisia political crisis deepens after assassination: [Electronic resource] / – BBC News, February 7, 2013. URL: https://www.bbc.com/news/world-africa-21366235

United Nations Development Programme (UNDP), Arab Human Development Report 2016: Youth and the Prospects for Human Development in a Changing Reality / - New York: UNDP, -2016, - 272p.

Valentine, C. The Middle Eastern Question, or some Political Problems of Indian Defence. By Valentine Chirol. (London : Murray, 1903.) / -Published online by Cambridge University Press: - 2011, - pp. 347 – 348.

Weilandt, R. Will Brexit Change the EU's Foreign Policy? // Survival, -2019, 61(2), -p. 143-166.

William, L. C. & Martin B. A History of the Modern Middle East, 6th ed. / - Boulder: Westview Press, -2016, - 624 p.

Wolfsfeld, G. Social Media and the Arab Spring: Politics Comes First / E. Segev, T. Sheafer, // The International Journal of Press/Politics, - Jerusalem: - 2013, 18(2). -p. 115-137.

Yavuz, N., Özdal B. Turkey's role within regional security complex theory: a contextual analysis on Turkish foreign policy after September 11, 2011 terrorist attacks // Journal of Peace Research and Conflict Resolution, 8(2), 2020, P.1-33.

Yemen Country Report, 2021 Country Reports on Human Rights Practices: Yemen : [Electron recource] / Bureau of Democracy, Human Rights, and Labor. 29 May, 2022. URL: https://www.state.gov/reports/2021-country-reports-on-human-rights-practices/yemen/

Yergin, D. The Quest: Energy, Security, and the Remaking of the Modern World. / - New York: Penguin Press, - 2011, - 864 p.

Yıldırım, R. Transformation of the Ennahda Movement from Islamic Jama'ah to Political Party // Insight Turkey, SETA Foundation, - Ankara: - 2017, 19(2), - p. 189-214.

Youngs, R. Europe's Uncertain Pursuit of Middle East Reform // - Carneige Papers, Carneige Endowment for International Peace, - Washington: 2004, №45, -p. 3-15.

## Fransız dilində

Beylau, P. La Chasse Aux Chrétiens : [Ressource électronique] / Le Point, 6 Janvier, 2011. URL: https://www.lepoint.fr/monde/la-chasse-aux-chretiens-06-01-2011-127240_24.php#11

Delbecque, É. Le soft power islamiste, voilà l'ennemi : [Ressource électronique] / Le Point, 24 Janvier, 2022. URL: https://www.lepoint.fr/religion/le-soft-power-islamiste-voila-l-ennemi-03-10-2022-2492218_3958.php

Folch, A. Pourquoi L'Islam Fait Peur Aux Français : [Ressource électronique] / Valeurs Actuelles, 20 Janvier, 2011. URL: https://www.valeursactuelles.com/politique/pourquoi-lislam-fait-peur

Gresh, A. La Fin de L'Islamophobie en France N'est Pas en Vue": [Ressource électronique] / 31 Décembre, 2021. URL:http://www.yabiladi.com/articles/details/8145/alain-gresh-l-islamophobie-dans-medias.html

Juppé, A. Je veux rendre à la France sa faculté de peser dans le monde : [Ressource électronique] / France Diplomatique, 24 Novembre, 2016. URL: https://www.lemonde.fr/idees/article/2016/11/24/alain-juppe-je-veux-rendre-a-la-france-sa-faculte-de-peser-dans-le-monde_5037100_3232.html

Lorriaux, A. La Une du magazine Le Point sur "cet islam sans gêne" fait polémique : [Ressource électronique] / Le Huffington Post, 30 Septembre, 2012. URL: http://www.huffingtonpost.fr/2012/10/30/la-une-du-magazine-le-pointislam-polemique_n_2045907.html#slide=1703805

Menegaux, C. Guéant: La Hausse du Nombre de Musulmans Pose Probléme : [Ressource électronique] / Le Figaro, 4 Avril, 2011. URL: https://www.lefigaro.fr/politique/2011/04/04/01002-20110404ARTFIG00660-gueant-la-hausse-du-nombre-de-musulmans-pose-probleme.php

## Alman dilində

Carlo, M. Möglichkeiten einer Neu orientierung deutscher Außen- und Sicherheitspolitik / Zeitschrift für Politik, - 2009, 56(4), - b. 454-466.

Ischinger, W., Messner, D., Deutschlands neue Verantwortung: Die Zukunft der deutschen und europäischen Außen-, Entwicklungs- und Sicherheitspolitik / - Berlin: Econ, - 2017, - 432 b.

Kramer, M. Physik als Abenteuer: Band II: Wärmelehre und Mechanik / - Hamburg: Kallmeyer, -2016, - 271 b.

Oppermann, K. Deutsche Außenpolitik während der dritten Amtszeit Angela Merkels: Eine Bilanz der Regierung Merkel 2013-2017 / - Wiesbaden: Zwischen Stillstand, Politikwandel und Krisenmanagement, - 2019, - b. 619-642.

Sandschneider, E. Deutsche Außenpolitik: eine Gestaltungsmacht in der Kontinuitätsfalle // Aus Politik und Zeitgeschichte, - Berlin: -2012, 62(10), - b. 3-9.

**Farida Allahverdiyeva.**
**The İslamic faktor in the Middle East policy of European states during the years of the Arab spring**

The study examines the Arab Spring and the role of Islam in European Middle East policies. The introduction justifies the topic's relevance, reviews previous research, outlines the theoretical and methodological framework, and defines the object, aims, objectives, scientific novelty, and practical significance.

The first chapter analyzes the concepts of the Middle East and the Arab Spring. "Middle East" has varied political, geographical, and cultural interpretations and gained wider use in British discourse during the 19th-century Crimean War. The Arab Spring began in Tunisia in 2010-2011 and spread to Egypt, Libya, and other countries. Causes include corruption, unemployment, limited political freedoms, demographic pressures, social inequality, and the mobilizing role of mass media and social networks.

The second chapter examines the Islamic factor in European policies before the Arab Spring, focusing on Islam's role in regional politics, Islamist movements, Arab nationalism, and the policies of Germany, France, the United Kingdom, and Italy.

The third chapter examines the Islamic factor in the regional policy of European states during the Arab Spring, focusing on the relationship between democratization, political Islam, and modernization, as well as debates on the compatibility of Islam and democracy. It also discusses the impact of the Arab Spring on European policies toward the Middle East, particularly regarding migration, security, and the rise of Islamophobia.

The study concludes that Islam has become an important factor in both domestic and international politics, especially after the September 11 attacks and the Arab Spring. These developments intensified debates in Europe on migration, security, and the integration of Muslim communities, prompting European states to reconsider their Middle East policies.

**Fəridə Allahverdiyeva.**
**Ərəb baharı illərində Avropa dövlətlərinin**
**Yaxın Şərq siyasətində İslam amili**

Monoqrafiya

**Farida Allahverdiyeva.**
**The İslamic faktor in the Middle East policy**
**of European states during the years of the Arab spring**

Yığılmağa verilmişdir: 21.02.2026. Çapa imzalanmışdır: 25.02.2026.
Kağız formatı: 60x84 1/16 Həcmi: 12,75 ç.v.
Sayı: 200 ədəd

